**Tərtibçi**
**Atakişiyev Bəxtiyar Sərhəd oğlu**
(hüquqşünas, elmi dərəcəsi və elmi adı yoxdur)

**Beynəlxalq münasibətlər lüğəti.** Atakişiyev Bəxtiyar Sərhəd oğlu. – Bakı, 2009 - 138 səh.

Lüğət elmlərin inkişafının son nailiyyətlərinə istinad edərək, 912 beynəlxalq - siyasi və siyasətə bilavasitə aidiyatı olan diplomatik, hüquqi, iqtisadi, hərbi, sosial-mədəni, dini və s. xarakterli terminlərin, konsepsiyaların, prinsiplərin, akult və şərti anlayışların, sözönlükərin, yəni beynəlxalq-siyasi həyatın əsas müddəalarının qısa və konkret izahatını verir. Lüğətdə tərtibçinin elmi-nəzəri araşdırılmalarına xüsusi yer verilir; terminlərin etimoloji mənbələri qeyd olunur; sinonim və antonim anlayışların müqayisəvi təhlili aparılır; difinisial anlayışların interpretasiyası verilir; bir sıra beynəlxalq - siyasi əhəmiyyətli, nüfuzlu dövlət orqanları və beynəlxalq təşkilatlar (onların quruluşu, məqsədi, fəaliyyət prinsipləri və s.) barəsində məlumatlar verilir.

Elementar beynəlxalq - siyasi bilgilər - insanlara (cəmiyyətə) beynəlxalq - siyasi hadisə və proseslərə düzgün qiymət vermək, düzgün yol seçmək imkanlarını yaradır.

© Atakişiyev Bəxtiyar Sərhəd oğlu, 2009

| | | | |
|---|---|---|---|
| A | 7 | M | 87 |
| B | 17 | N | 97 |
| C | 26 | O | 100 |
| Ç | 27 | Ö | 101 |
| D | 29 | P | 103 |
| E | 45 | R | 109 |
| Ə | 49 | S | 113 |
| F | 51 | Ş | 122 |
| G | 53 | T | 123 |
| H | 55 | U | 127 |
| X | 59 | Ü | 128 |
| İ | 62 | V | 129 |
| K | 70 | Y | 133 |
| Q | 82 | Z | 136 |
| L | 85 | | |




# A

**ABDİKASİYA** – istefa, (vəzifədən, taxtdan) əl çəkmə.

**ABORİGENLƏR** (latın *aborigmez, aborogine*-əzəldən) - dövlətə, ərazilərə sonradan gələnlərdən fərqli olaraq, həmin dövlətin, ərazilərin qədim, yerli sakinləri.

**ABSOLYUTİZM** (bəzi mənbələrdə *absolyut monarxiya*) (latın *absolutus* – mütləq, qeyd-şərtsiz, çərçivəsiz) heç bir çərçivə ilə məhdudlaşmayan monarxik, despotik idarəçilik forması, harada ki, bütün hakimiyyət resursları, siyasi hakimiyyət, mütləq şəkildə bir şəxsə - monarxa məxsusdur. A. özündə mükəmməl hakimiyyət iyerarxiyası strukturunu etiva edir. A. – bütün dövlət hakimiyyətinin (o cümlədən: Qanunverici, İcra və Məhkəmə hakimiyyətinin) və bəzi hallarda dini hakimiyyətin – taxt-tac sahibinə mənsub olmasının hüquqi və faktiki bərkidilməsidir, lakin dövlət idarəçiliyində Monarx öz işini asanlaşdırmaq üçün müxtəlif növ məsləhət, məşvərət orqanlarını yarada bilər. Müa-sir dünyada. 8 dövlətdə A. qalmaqdadır, o cümlədən: Bəhreyn, Bruney, Küveyt, Qətər, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Oman, Səudiyyə Ərəbis-tanı və Vatikan. Absolyut hakimiyyət bir qayda olaraq imperatorlara, çarlara, şahlara, sultanlara məxsus olub və xüsusi ilə son orta əsrlərdə inkişaf etmişdir.

**"AÇIQ CƏMİYYƏT"** - ingilis filosofu Karl Popper tərəfindən işlənib hazırlanmış anlayış. Açıqlıq ideyası *izolyasionizmin* ziddinə irəli sürülmüşdür və sosial strukturun yenilikləri (modernizasiyası) asand əldə edilməsini, bütün dəyərli nemətlərin cəmiyyət tərəfindən kənardan qəbul etməsinin mümkünlüyünü, həqiqət üzərində hər hansı bir inhisardan imtina etməsini, bəşəriyyət barəsində natamam vahid təsəvvürlərin daxil etməsi cəhdlərini, onu məcburi olaraq cəmiyyətə sıramasına yol verilməməzliyini və s. nəzərdə tutur.

"A.C."-in ayrılmaz cizgiləri - demokratik institutlar və prosedurlardır, şəxsiyyətin özünüifadə və özünürealizə etməsi üçün labüd şəraitin olmasıdır, insanların birləşib birgə fəaliyyət göstərə bilməsidir, insanın azad fəaliyyət göstərə biləcək xırdaçı reqlamentləşdirmənin olmamasıdır və s. "A.C." "*qapalı cəmiyyətin*" antonimidir.

**AÇIQ DƏNİZ** (beynəlxalq hüquq rejimi) – dövlətlərin akvatoriyasına daxil olmayan, yəni hər hansı bir yuristikasıyasına daxil olmayan (lakin beynəlxalq hüququn yuristikasiyasına daxil olan) və ümumi istifadədə olan dəniz və okeanların müəyyən hissələri. *1958-ci il Cenevrə Konvensiyası A.D.* prinsipinə uyğun olaraq hər bir dövlət (o cümlədən, dəniz və okeanlara çıxışı olmayan dövlət) A.D.-də gəmi nəqliyyatı, hava nəqliyyatı, ovçuluq, hərbi təlim, elmi-tədqiqat, kabel və boru kəmərlərinin çəkilməsi, hətta süni ada yaratması və s. fəaliyyətləri ilə (beynəlxalq reqlamenti pozma-maq şərti ilə) məşğul ola bilər. Yalnız ciddi əsas olduqda, səlahiyyətli beynəlxalq təşkilatların qərarı ilə A.D.-in azad hüquqi rejiminə müəyyən dəyişikliklər (müvəqqəti) edilə bilər (misal: gəmilərin saxlanması və yoxlanması).

**AÇIQ ŞƏHƏR** (beynəlxalq hüquqda) - müharibə zamanı vuruşan dövlətlərdən birinin müdafiə olunmayan, elan etdiyi və buna görə də hərbi təcavüz törədilməsinə qadağan edilən şəhərlər, yaşayış məntəqələri və hətta digər tikililər. Misal: İkinci Dünya Müharibəsi zamanı Paris və Roma A.Ş. elan edilmişdilər.

**AÇIQ VƏRƏQƏ** (*girişə-çıxışa* icazə) - diplomatik immunitet və imtiyazlardan istifadə edən xarici *vətəndaşa və ya qonağa Xarici İşlər İdarəsi* və ya diplomatik nümayəndəlik tərəfindən verilən *sənəd.* Sənədi verən qurum öz ölkəsinin gömrük və sərhəd xidmətindən A.V-in sahibinə sərhəddi keçdikdə hər cür kömək göstərməsini xahiş edir. Adətən A.V. verilən şəxs gömrük baxışından azad edilir.

A.V.-də nəzərdə tutulan imtiyazlar diplomatik pasportda nəzərdə tutulduğundan hal-hazırda dünyanın əksər dövlətləri A.V. verilməsini dayandırmışdır.

**AD İNTERİM** (latın) - bəzi hallarda *par interim*; və ya digər akta, sənədə qol çəkən diplomatik şəxsin vəzifəsinin adı önündə qoyulan və həmin diplomatın - həmin vəzifədə müvəqqəti olduğunu bildirən latın termini. Termin adətən iki hərflə yazılır: a.i. və ya p.i. Diplomatik nümayəndəliyin başçısının müvəqqəti olaraq (ezamiyyət, xəstəlik və s. əlaqədar) iş başında olmadığı şəraitdə - onu əvəz edən *işlər vəkili* – "chargee d'affaires ad interam" (müvəqqəti işlər vəkili) adlanır.

**AD NOK** (latın *ad noc* - müəyyən məqsəd üçün) (bəzi elmi mənbələrdə AD NOS) - Diplomatiyada xüsusi missiyanın, xüsusi nümayəndəliklərin, xüsusi təşkilatın, komitələrin və işçi qruplarının fəaliyyətini

dövlətlərin iqtisadi və siyasi təsir və təzyiqlərindən azad olmaqdan ötrü öz daxili tələbatı ödəyə biləcək, qapalı müstəqil təsərrüfatın yaradılmasına yönəlmiş iqtisadi siyasət. Müasir dövrdə, beynəlxalq iqtisadi münasibətlərin sürətli inkişafı zamanında xalis A. sistemli dövlət olmasa da, lakin A. özünü bəzi dövlətlərin bütün növ idxal və ixrac münasibətlərinə əngəllər törədilməsində özünü biruzə verir.

**AVTONOMİYA** (yunan *autos*-özü, öz; *nomos*-qanun) - bax *muxtariyyət*.

**AVTORİTET** (alman *Autorität*, latın *au(c)toritas* - hakimiyyət, ləyaqət, qüvvə) – bax *nüfuz*.

**AVUARLAR** (xarici avuarlar) (fransız *avoir*-əmlak, aktiv) – dövlətin, vətəndaşların və hətta bankların əmlakının xarici banklarda qızıl, qiymətli kağızlar, xarici valyuta və s. şəklində saxlanılan vəsaitləri. A.-ların azad (yəni məhdudiyyətsiz istifadə olunan), təcrid edilmiş (yəni dövlətin və ya bankın sərəncamında olan) və rejimli istifadə olunan növləri olur.

**AYRI-SEÇKİLİK** – bax *diskriminasiya*.

**AZAD İQTİSADİ ZONA** (ingilis *free economic area*) – azad ticarət zonası, harada ki, həm yerli həm də xarici kommersiya qurumları üçün xüsusi imtiyazlı şərait mövcuddur. Burada "imtiyazlı şərait" deyəndə ya vergi və rüsumlardan kom-mersiya təşkilatlarının tam azad olunması və ya olduqca cüzi (1%-ə qədər) vergilərin və rüsumların mövcud olması başa düşülür. A.İ.Z.-lar dövlətə sərmayələrin cəlb edilməsi, yerli əhalinin rifahının artırılması, iqtisadi-ticarət dövriyyəsinin artırılması məqsədilə təsis edilir. Bax həmçinin *porto-franko*.

**AZAD ŞƏHƏR** - bax *sərbəst şəhər*.

**AZAD TİCARƏT** (ingilis analoqu *free trade*) - tariflərlə, idxalat və ixracat həddləri ilə və malların, xidmətlərin ölkələr arasında sərbəst yerdəyişməsinə maneçilik törədən digər mexanizmlərlə maneçiləşdirilməmiş rahat və sərbəst ticarət.

**AZAD TİCARƏT ZONASI** (ingilis analoqu *Free Trade Area*) - daxilində gömrük rüsumu və digər ticarət məhdudiyyətləri olmayan, həmçinin ümumi xarici tarifə malik olmayan dövlətlər və ya ərazilər.

**AZADLIQ** – fəlsəfi anlayış; insanların idrak və zərurətə yiyələnməsi vasitəsilə nail olduğu real sərbəstlik. A. heç də subyektin obyektiv qanunlardan "azad olması" demək deyil, əksinə onun dərk edilməsi və mənimsənilməsi yolu ilə əldə edilir. Ayrılıqda insanın özü nə təbii, nə də ictimai xarici şəraitdən tamamilə azad (sərbəst) ola bilməz, məhz buna görədə o, yalnız nisbi A.-ya malikdir. Lakin təbiidir ki, insanın yaşadığı cəmiyyət nə qədər azad olarsa, insanın özü də bir o qədər azad olar. Şəxsiyyətin A.-ı və inkişafı bir-biri ilə üzvi əlaqə-dədir, A. şəraitində insanın (cəmiyyətin) inkişafına, potensialın üzə çıxmasına real zəmin yaradır. Eyni zamanda, A.-nın qeyri-məhdud, ifrat forması – anarxiya anlamına gətirib çıxardır.

**AZƏRBAYCAN DÖVLƏTİNİN XARİCİ SİYASƏTİNİN KONSTİTUSİYA PRİNSİPLƏRİ** - ümumiyyətlə Konstitusiyanın 18 maddəsi bu və ya digər şəkildə xarici siyasi münasibətlərin tənzimlənməsinə xidmət edir. Onları 4 əsas istiqamətə yönəldmək olar: 1) xarici siyasi münasibətlərin qurulmasının ümumi müddəaları; 2) Azərbaycanın beynəlxalq siyasi arenadakı statusu; 3) beynəlxalq siyasətdə vətəndaş və insane hüquqlarının müdafiəsinə yönəlmiş müddəalar; 4) yalnız müdafiə məqsədini daşıyan hərbi məsələləri əhatə edən müddəalar.

Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini beynəlxalq ictimaiyyət tərəfindən hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur,-bu Konstitusiyada təsbit edilən Azərbaycan Respublikasının xarici siyasətinin əsas preoritetidir.

Konstitusiyanın digər (151-ci) maddəsində beynəlxalq aktların hüquqi qüvvəsi öz əksini tapır, burada deyilir: "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdaş çıxdığı dövlətlər arası müqavilələr arasında ziddiyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir".

Beynəlxalq sazişlərin imzalanması, icrası və ləğv edilməsi Konstitusiya prinsipləri və ümumbəşəri qəbul olunmuş prinsipləri müəyyən edən "Beynəlxalq sazişlərin imzalanması, icrası və ləğv edilməsi forması haqqında Azərbaycan Respublikasının qanunu" 13 iyun 1995-ci tarixində qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, eyni zamanda, xarici siyasətin başçısıdır, yəni Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasını, xarici siyasət münasibətlərinin inkşafı istiqamətlərini müəyyənləşdirir və 6 bənddən ibarət xarici siyasətə dair səlahiyyətlərə malikdir (Konst. 109-cu maddə).

Azərbaycan dövləti adından imzalanmış beynəlxalq aktlar və razılaşmalar, - Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən *ratifikasiya* edildikdən sonra qüvvəyə minir.

Azərbaycan dövləti, beynəlxalq *konfliktlərin* "güc"vasitəsilə həlli üsulunu inkar edir və yol verilməz sayır.



1952

# B

**BALANSLAŞDIRILMIŞ SİYASƏT** (fransız *balance*-hərfi mənada: tərəzi) – siyasi subyektin (siyasi partiyanın, partiya bloklarının), digər ictimai-siyasi təşkilatın (o cümlədən, beynəlxalq təşkilatın), dövlət hakimiyyət orqanlarının, vəzifəli şəxsin və aktiv siyasətlə məşğul olan fərdi şəxsin) özünün, müttəfiqlərinin, siyasi rəqiblərinin (o cümlədən düşmənlərinin) siyasi potensialını (üstün və zəif cəhətlərini) doğru-dürüst qiymətləndirməklə, onların və real şəraitin əsasında dərin düşüncəli, elmi əsaslandırılmış məqsəd və vəzifələri müəyyənləşdirməklə (siyasi səhnədə) öz siyasətinin yürüdülməsi. B.S. siyasi situasiyadan (vəziyyətdən) asılı olaraq öz vaxtında və miqdarında "güc" və ya "güzəşt" vasitələrindən istifadə edilməsidir. Doğru və dürüst (siyasi (siyasi-hüquqi), iqtisadi (maliyyə), hərbi və s.) üsul və vasitələrdən istifadə (tətbiq) edilməsidir. Burada insanın (siyasi xadimin) fərdi keyfiyyətləri, o cümlədən: savad və bacarıqlı davranış, nitq qabiliyyəti, eləcə də təcrübəsi önəmli rol oynayır. B.S. özünün real nəticələrini-uğurlu siyasi naliyyətlərdə biruzə verir.

**BANK** (italyan *banco*-kürsü, oturacaq, dəyişmə dukanı) – vətəndaşlara və digər (misal: hüquqi) şəxslərə maliyyə-kredit xidmətlərini göstərən iqtisadiyyatın mühüm instutu. B.-ların fəaliyyəti: pul vasitələrinin toplanması, qorunması və artırılması, kreditlərin və ssudaların (borcların) verilməsi, pul hesablaşmaların və valyuta mübadiləsinin aparılması, pul və qiymətli kağızların emissiyası, əmanətçilərə faizlərin ödənilməsi, depozit xidmətlərinin göstərilməsi və s. üzərində qurulur. Həmin xidmətlərin göstərilməsi nəticəsində "B." gəliri formalaşır. İlk öncə müəssisələr arasında sadə vasitəçi xidməti göstərməklə təşəkkül tapan B.-lar sonralar iqtisadiyyata və siyasətə mühüm təsir göstərən vasitələrə çevrildilər. Hüquqi status baxımından: dövlət; beynəlxalq və kommersiya (özəl) B.-lar növləri mövcuddur.

**BARIŞIQ** - hərbi münaqişə tərəflərinin, düşmənçiliyə son qoymaq məqsədini güdən- Ali humanist razılaşma. BMT Təhlükəsizlik Şurasının döyüşən tərəflərdən barışmaq təklif etmək səlahiyyəti vardır.

B.-a aid beynəlxalq hüquq normalar bir sıra ümumqəbulolunmuş sənədlərdə, xüsusilə 1907-ci il Haaqa Konvensiyasında əks olunmuşdur. Həmin sənədlərə görə, B.- hərbi əməliyyatları müəyyən müddətə dayandırır. Əgər konkret müddət edilməmişdirsə, döyüşən tərəf əks tərəfi qabaqcadan xəbərdar etməklə istənilən vaxt hərbi əməliyyatlara başlaya bilər (əgər buna haqqı vardırsa) B.-ın bir tərəfdən istənilən formada pozulması, digər tərəfə B.-dan istifadə etmək və hərbi əməliyyatların başlanmasına qədər cavab tədbirləri görmək hüququ verir.

B. ümumi və xüsusi olmaq etibarilə 2 yerə bölünür. Ümumi B.-da sülh bağlanaraq bütün müharibə zonasında hərbi əməliyyatlar dayandırılır. Döyüşən tərəfdən birinin ümumi B.-ı istənilən qaydada pozması- təcavüz aktı kimi qiymətləndirilir. Xüsusi B. isə B.-in detalları ilə səciyyəvidir.

**BARON** (son latın *baro*, german mənşəli söz – ilkin mənası: adam, kişi) – Qərbi Avropada (tarixdə) *kralın* bilavasitə *vassalı*; sonralar feodal titullarından biri; cəmiyyətin yuxarı təbəqəsinə mənsub şəxs (qadınlara *baronessa* deyilir). Rusiyada I Pyotr tərəfindən dvoryanların yuxarı təbəqəsi üçün təyin edilmişdir; lakin 1917-ci ildə ləğv edildi. Müasir dövrdə B. titulu Böyük Britaniyada qalmaqdadır.

**BARTER** (ingilis *barter*-mal mübadiləsi) – natural mübadilə; tərəflərin qarşılıqlı razılığı ilə onların hər birinin özünəməxsus mülkiyyətinin (və eyni, zamanda həmin mülkiyyət üzərində olan mülkiyyət hüququnun) nəğd pul vasitəsi ödəmədən bir-birinə verilməsi (ötürülməsi). Eyni zamanda, B. əməliyyatı həyata keçirilərkən mülklərin qiymətləndirilməsi və nəzərə alınması istisna olunmur.

**BAŞ KATİB** – yüksək inzibati vəzifə: 1. ictimai-siyasi qurumlarda müəyyən fəaliyyət dairəsində yüksək səlahiyyətlərə malik olan ya seçilən və ya təyin olan şəxs; 2. birpartiyalı sistemli dövlətlərdə partiyanın ali qurumu tərəfindən seçilən (təyin olan) həm partiyanın həm də dövlətin başçısı; 3. bir sıra beynəlxalq təşkilatların (BMT, Avropa Şurası, NATO) icra funksiyalarını yerinə yetirən, seçilməsinin (təyin olunmasını) mürəkkəb prosedur qaydaları olan məsul vəzifə.

**BAŞ QƏRƏRGAH** (rus analoqu *Генеральный Штаб, ставка*; ingilis analoqu *General Headquarters*) – Silahlı Qüvvələrin Ali rəhbər orqanı; Ali hərbi rəisin mövcud olduğu yer; müharibə dövründə və militarist dövlətlərdə - dövlətin Ali rəhbər orqanı ola bilər.

**BAŞ PREFERESİYALAR SİSTEMİ** (ingilis analoqu *generalised sistem of preferences*) - inkişaf etməkdə olan (və ya az inkişaf etmiş) ölkələrdən ixrac olan mallar, müəyyən həddə qədər gömrük ödənişləri olmadan, yaxud qarşılıqlı sərfəli olmayan əsasda, aşağı salınmış vergi ilə - sənayesi inkişaf etmiş ölkələrə gətirilməsinə müvafiq olan müqavilələr.

**BAYRAQ** – üzərində dövlət, təşkilat (ictimai birlik, siyasi partiya, kommersiya və ya beynəlxalq

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

imperiyalarının maraqlarının toqquşduğu şəraitdə İran dövlətinin timsalında görmək olar; İkinci və Üçüncü Dünya Müharibələri ərəfələrində Belçika, Niderland, Lüksemburq dövlətləri – B.D. rolunu oynayırdılar. İki yerə parçalanmış Almaniya dövləti "soyuq müharibə" illərində - B.D.-nin baiz nümunəsi idi.

**BUM** (ingilis *boom*) səs-küy, gurultu, süni canlanma – 1. sənayenin və ticarətin qısamüddətli ehtikar yüksəlişi; əmtəə qiymətinin və qiymətli kağızlarının məzənnəsinin artması, birja möhtəkirliyinin azğınlığı və s. ilə xarakterizə olunur; 2. istehsal tsikli inkişafı dövründə istehsalatın, qiymətin və bir sıra digər iqtisadi göstəricilərin sürətli artımı; 3. iqtisadiyyatın bu və ya digər sahəsini (neft hasilatı, tikinti, avtomobil sənayesi, turizm və s.) digər dövrlərlə müqayisədə sıçrayışlı inkişafı.

**BURAXILIŞ FƏRMANI** - (nadir hallarda) diplomatik praktikada öz ölkəsinin hökumətinin təşəbbüsü ilə diplomatik nümayəndə geri çağırılaraq fəaliyyət göstərdiyi ölkədən çıxıb getdikdən sonra, diplomatın fəaliyyət göstərdiyi dövlətin başçısı – diplomat, təyin edən dövlətin başçısına göndərdiyi yüksək hörmət əlamətini bildirən rəsmi *sənəd*. Adətən, həmin B.F.-nda iki ölkə arasında münasibətlərin inkişafında diplomatik nümayəndənin müsbət rolu və yüksək şəxsi keyfiyyətləri qeyd olunur. B.F. diplomatik kanallarla göndərilir, ona hər hansı cavab göndərilməsi isə qəbul olunmayıb.

**BÜROKRAT** (rus analoqu *бюрократ*, fransız analoqu *bureaucrate*, ingilis *bureaucrat*) - 1) bürokratiyaya mənsub olan şəxs; bürokratiyanı yayan şəxs; 2) ümumi işə xələl gətirməklə, öz vəzifələrini formal olaraq yerinə yetirən vəzifəli şəxs; süründürməçi, rəsmiyyətçi.

**BÜROKRATİYA** (fransız *bureau* - dəftərxana və yunan *kratos* - hakimiyyət sözlərindən, fransız *bureaucratie* - hərfimənada: dəftərxana (kanselyariya) hakimiyyəti)- 1) qərarların qəbul edilməsində operativliyi məhdudlaşdıran, qərarlarınqəbul edilməsinin formal prosedurunun həddənziyadə əhəmiyyətliyini tələb edən, geniş şaxəli və iyerarxik məmur aparatı strukturuna söykənən, ictimai və ya dövlət işlərini idarə edən sistem; 2) həmin sistemdə işləyən (onunla əlaqəli olan) insanlar təbəqəsi.

B. bir qayda olaraq, zamanın tələblərindən həyatın reallıqlarından uzaqlaşmasından qeyri-standart yanaşma tələb edən məsələlərin, problemlərin həll edilməsindəsəhvlərə və ya acizliyə, məmurların həddən ziyadə asılılığına və korrupsiyanın inkişafına və nəhayət, islahatların aparılmasında idarəçilik, hakimiyyət orqanları üçün ciddi səddə çevrilib. Qeyri-demokratik, siyasi-hüquqi rejimli dövlətlərdə B. xalqı təzyiq altında saxlamaq vasitəsinə, sosial-siyasi təşəbbüslərin boğulması və ümumiyyətlə, ictimai həyatın hakim dairələrin maraqlarına tabe etdirmək vasitəsinə çevrilib.

## C

**CENTLMEN RAZILAŞMASI** (ingilis *gentlemans aggrement*) - ictimai-siyasi (o cümlədən, beynəlxalq) münasibətlərin quruculuğunda, tərəflərin (o cümlədə, rəqib və hətta düşmən tərəflərin) qarşılıqlı inam və etibar əsasında, şifahi formada, yəni imzalama mərasimi keçilmədən, könüllü surətdə bağlanmış və icra edilən mürəkkəb razılaşma, (saziş) növünün şərti adı. Hüquq (o cümlədən, beynəlxalq hüquq), razılaşmanın (sazişin) bağlanmasının mütləq yazılı formasını tələb etmir, C.R.-nın predmeti detallara varmadan ümumi müddəalara əhatə edir və icrasına nəzarət, icra olunmadığına görə cəza növü (sistemi) tərəflərin öz öhdəsinə buraxılır, hərçənd hüquqa zidd akt (hərəkət və ya hərəkətsizlik) – hüququn qüvvəsi ilə cəzalandırıla bilər. Öncədən şifahi müzakirə edib və razılığa gəlmə C.R.-nın mürəkkəb forması olduğu təqdirdə onun (C.R.-nın) xüsusilə mürəkkəb forması öncədən heç bir müzakirə etmədən və razılığa gəlmədən, lakin ümumi tərəflərin qarşılıqlı maraqlarına cavab verən müəyyən qaydalara riayət etməsindən ibarətdir.

**CƏBHƏ** – 1. siyasi partiyaların, həmkarlar ittifaqların və başqa təşkilatların ümumi məqsəd, amal uğrunda mübarizə aparmaq üçün yaradılmış birliyi; 2. bir qayda olaraq müharibənin başlaması ilə əlaqədar yaradılan operativ-strateji (hərbi) birləşmə. C.-yə bir neçə ordu birləşməsi, əlahiddə ümumqoşun birləşmələri, aviyasiya, müxtəlif qoşun növlərinin, xüsusi qoşun hissə və birləşmələri və s. daxil ola bilər; 3. silahlı qüvvələrin hərbi əməliyyat meydanlarında düşmənə qarşı düzülmə xətti; 4. döyüş əməliyyatlarının aparıldığı rayon (zona, zolaq, bölgə); 5. qoşunların



döyüş sırasının düşmən səmtinə olan tərəfi; 6. hərbi qulluqçular (maşınlar) sırasının ön xətti; 7. eyni zamanda bir neçə iş prosesinin həyata keçirildiyi yer, sahə.

**CƏSUSLUQ** – xarici dövlətlərin kəşfiyyat orqanlarının digər ölkələrə qarşı pozuculuq, dövlətin hərbi, iqtisadi və s. cəhətdən təhlükəsizliyinin sarsıtmasına yönəlmiş fəaliyyətin cinayətkar formalarından biri; xüsusi təhlükəli dövləti cinayət; xarici dövlətin vətəndaşı və ya vətəndaşlığı olmayan şəxs, (cəsus, xəfiyyə) tərəfindən dövlət sirrini və ya hərbi sirri təşkil edən məlumatları xarıcı dövlətə, xarici təşkilatlara və ya onların agenturasına vermə məqsədilə toplama və ya oğurlama, habelə xarici kəşfiyyat orqanlarının tapşırığı ilə dövlətin (xalqın) mənafeyi zərərinə olaraq istifadə etmək üçün məlumatları verməkdən ibarətdir. Eyni cinayət əməllərini vətəndaş törətdikdə - bu, *vətənə xəyanət* kimi hesab edilir. C. bütün dövlətlərin qanun-vericiliyinə görə təqib edilir. Hərbi C.-a görə məsuliyyət beynəlxalq hüquq qaydasında görə nizamlanır.

**CİHAD (CAHAD)** (ərəb-müqəddəs müharibə, din uğrunda müharibə; hərfi mənası: cəhd etmək, səy göstərmək, mübarizə etmək) – islam dininin Qurana əsaslanan mühüm təlimatlardan biri. C. anlayışına, Mədinə müsəlmanlarının Məkkə bütpərəstləri və yəhudi qəbilələrinə qarşı hərbi yürüşləri ilə əlaqədar Quranın ilk Mədinə surətlərində təsadüf edilir. Qurana görə (misal: 9-cu surə, 29-cu ayə) döyüş qabiliyyəti olan bütün müsəlmanlar "kafirlərə" qarşı "müqəddəs müharibə" aparmalıdırlar. C.-in elan edilməsinin xüsusi prosedur qaydaları vardır. Dini təlimə görə C. nəticəsində (yəni din uğrunda) həlak olmuş insanlar-şəhidlik dərəcəsinə yüksəlir və "cənnətə" qovuşur. Bəzi müsəlman ölkələrində xalq kütlələrinin müstəmləkəçilər əleyhinə kortəbii mübarizənini ideoloji əsasını C. təşkil etmişdir (misal: İraq üsyanı 1920) C. bəzən *qəzavat* da adlanır.

**CİNAYƏTKARLARI QAYTARMA** (*ekstradisiya*) – beynəlxalq hüquqda cinayət üstündə təqib edilən şəxsləri cinayət məsuliyyətlərinə cəlb etmək, yaxud təyin edilmiş Məhkəmə hökmünü icra etmək üçün onları (cinayətkarları) yerləşdiyi dövlətdən tələb edən dövlətə verilməsi. C.Q. məsələsi ikitərəfli, (hüquqi yardım), həm də çoxtərəfli müqavilə və konvensiyalarla (misal: Latın Amerikası dövlətləri arasında 1933-cü il müqaviləsi; cinayətkarları qaytarmaq haqqında 1957-ci il Avropa Konvensiyası; azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslərin qaytarılması haqqında 1978-ci il çoxtərəfli Berlin Konvensiyası). Aşağıdakı dövlətlər C.Q. haqqında irəlidəki tələbləri irəli sürə bilərlər: cinayətkarın vətəndaşı olan dövlət; ərazisində cinayət törədilmiş dövlət; cinayətdən zərər çəkmiş dövlət.

Müəyyən istisnalarla cinayət törətmiş, o cümlədən, bəşəriyyətə qarşı cinayət törətmiş şəxslər, xüsusilə hərbi cinayətkarlar qaytarılmalıdır. Burada "müəyyən istisnalar" deyəndə siyasi motivlərə görə təqib olunan (siyasi sığınacaq alımış şəxslər; başqa dövlətdə cinayət sayılan, lakin olduğu dövlətdə cinayət sayılmayan əməllər törədən şəxslər; hər iki dövlətdə cinayət sayılan, lakin cəzası bir ildən artıq olmayan əməllər törədən şəxslər; habelə törədilmiş cinayətə görə artıq cəzalandırılan, hökm müddəti keçən, bəraət qazanan, işinə xitam verilən, əhv və ya amnistiya olunan şəxslər; tələb olunan dövlətlə "vətəndaşlıq" siyasi-hüquqi əlaqəsində olan şəxslər (lakin belə halda, vətəndaş öz vətənində (başqa dövlət ərazisində törətdiyi cinayətə görə) mühakimə oluna bilər) və s. başa düşülür – hansılar ki, qaytarılmır.

**CIRTDAN DÖVLƏT** - bütün digər dövlətlərlə müqayisədə ərazi və əhali baxımından olduqca kiçik dövlətin məcazi adı; şərti olaraq ərazisinin ölçüsü 10000 $km^2$-dən və əhalisinin sayı 1000000 nəfərdən az olan lakin dövlətə xas olan bütün atributlarına (və o cümlədən, simvollarına) malik olan dövlət. Lakin bəzi "C.D."-lər o qədər kiçikdir ki, onların silahlı qüvvələri yoxdur və onlar beynəlxalq hüququn himayəsində olmaqla yanaşı, iri qonşu dövlətin hərbi himayəsindən istifadə edirlər, bəzi "C.D."-lərin ərazilərinin ölçüsü bir neçə 10 hektarlarla və əhalisinin sayı bir neçə yüz nəfərlərlə hesablanır. "C.D."-ləri əsasən Sakit okeanın cənubi-qərb hissəsindəki kiçik adalarında, Avropa və Afrika qitələrində və s. yerlərdə yerləşirlər. Bax həmçinin *Vatikan*.

## Ç

**ÇAR** (rus *царь*, latın *caesar* - sezar: roma imperatorlarının titulundan) - Rusiyada 1547-1721 -dövlət başçısının (monarxın) rəsmi titulu. Birinci Ç. – IV İvan Qroznıy olmuşdur, (ona qədər Rusiya (Moskva knyazlığı) başçıları, hökmdarları – *böyük knyaz* adlanırdı; I Pyotr dövründən "Ç." titulu -"imperator" titulu ilə əvəz edildi, lakin "Ç." termini qeyri-rəsmi surətdə 1917-ci ilə qədər istifadə edilmişdir; Bolqarıstanda XIX əsrdən - 1946-cı ilə qədər monarxın daşıdığı titul.

məsələlərin aparılması qaydaları rəsmi surətdə müəyyən edilən və Deputatlar tərəfindən aparılan fikir mübadiləsi; müzakirə. Bununla yanaşı, adətən müxtəlif (rəqib) siyasi mövqe sahiblərinin müxtəlif növ yığıncaqlarda, iclaslarda, hətta elektron kütləvi informasiya vasitələrində (KİV) müzakirəni, fikir mübadiləsini ifadə etmək üçün də "D." termininindən istifadə edilir.

**DE-FAKTO** (latın *de fakto*: hərfən: əslində, real-lıqda) – ictimai (o cümlədən, beynəlxalq) münasibətlərdə məsələlərin faktiki tərəfini göstərən mürəkkəb, müstəsna fövqəl vəziyyət: 1. de-yure ilə birlikdə mövcud olduqda tam hüquqlu, tam rəsmi, tam və hərtərəfli münasibətlərin olduğunu bildirən və ya buna zəmanət yaradan vəziyyət; 2. de-yure ilə birlikdə mövcud olmadıqda isə münasibətlərin real, faktiki olduğunu bildirən, lakin müəyyən səbəblərdən (hakimiyyət çevrilişi, seçki saxtakarlığı, marionet hökumət, işğal, hətta oğurluq, mənimsəmə və s.) həmin münasibətlərin hüquqi, rəsmi müstəviyə keçirilmədiyini bildirən vəziyyət.

**DEFİLYASİYA** (latın *deflare*-üfürmək) – in-filyasiya dövründə qiymətlərin artım sürətinin dayandırmaq, azaltmaq, pulun dəyərini, alıcılıq qabiliyyətini qaldırmaq, iqtisadiyyatı "sağlamlaş-dırmaq", sabitləşdirmək məqsədi ilə və ya pul islahatından öncə Hökumət tərəfindən artıq kağız pullarının və digər banknotların tədavüldən çıxarılması yolu ilə pul kütləsinin azaldılması. D. məqsədi ilə kredit restriksiyası (faiz dərəcəsinin artırılması, kreditlərin limitləşdirilməsi), vergilərin artırılması, sosial-mədəni xərclərin azaldılması, əmək haqqının "dondurulması" və digər tədbirlər görülür. D.-nın müsbət tərəfi olduğu kimi, mənfi tərəfi də mövcuddur. Misal: iqtisadi inkişaf sürəti aşağı düşməsinə, idxal-ixrac əməliyyatlarının aşağı düşməsinə və hətta bəzi təşkilatların müflisləşməs-inə və s. gətirib çıxarda bilər.

**DEFİSİT** (latın *deficit*-çatışmır) – xərclərin gəlir-dən çox olması, zərər. D. pul ehtiyatına (kassa, maliyyə D.-i) və həm də maddi sərvətlərə (xammal, yanacaq və s. əmtəələrin çatışmazlığı) aid edilə bilər.

**DEKLARASİYA** (latın *declaratio* - müraciət, elan, bəyannamə) - ümimiləşdirilmiş (qeyri-konkret), təntənəli bəyannamə; - (dövləti)- siyasi məsələlərdə vacib hadisələri, prinsipləri, proqram müddəaları əhatə edən, beynəlxalq hüquqi qüvvəyə malik olan, lakin qəbulu və icrası siyasi subyektlər üçün könüllü olan, siyasi təşkilatın rəsmi bəyanatı. Burada "siyasi təşkilat" deyəndə, beynəlxalq təşkilat, dövlət (hakimiyyət), siyasi partiya və digər ictimai-siyasi təşkilat nəzərdə tutulur.

**DEKLARATİV** (latın *declarativus*-təntənə ilə bil-dirilmiş) – (məcazi mənada) – ümumi müddəaları cəmləşdirən, konkretləşdirməyən, çox dərinliyə getməyən, deklarasiya xarakteri daşıyan, təntənəli surətdə konkret ünvansız, başqaları üçün icrası məcbur olmayan elan etmə, bəyan etmə.

**DELEGİTİMASİYA** (latın *de*-ayrılma, uzaq-laşdırma və *legitimuz*-qanuni, qanuniləşdirilmiş) – legitimasiyaya (yəni subyektin və ya aktın səlahiyyəti və qanunu qəbul etmə (etdirmə), təstiqləmə) siyasi hüquqi prosesinə əks olan proses. Etibarın (inamın) itirilməsi, subyektin və ya aktın səlahiyyətlərinin heçə endirilməsi və siyasi səhnədən sıxışdırılması ilə müşaiyət olunur. D.-nın əsas səbəbləri bunlardır: 1. cəmiyyətdə hökm sürən universal (ali) dəyərləri ilə - hakim dairələrin koorporativ (eqaist) maraqlarının toqquşması; 2. qanunlarda, sənədlərdə əks olunan müddəalarla real vəziyyət arasında ziddiyətin olması. Demok-ratik ideyalarla – sosial-siyasi təcrübə (praktika) arasında ziddiyətin olması. Bunlar cəmiyyətlə hakim dairələr arasında münasibətlərin kəskinləşməsi, yəni mövcud olan məsələləri (problemləri, böhranları) həll etmək məqsədilə "güc" və "təzyiq" üsul və vasitələrindən istifadə edilməsində özünü biruzə verir; 3. siyasi sistemdə geniş xalq kütlələrinin maraqlarını müdafiə edə biləcək mexanizmin və strukturun olmaması; 4. bürokratiyanın, korrupsiyanın, vəzifə özbaşınalığın geniş vüsət alması; 5. çoxmillətli dövlətlərdə millətçiliyin, irqçiliyin və digər növ diskriminasiyanın (ayrı-seçkiliyin), eləcə də etnik separatizmin tüğyan etməsi; 6. hakim dairələr arasında fikir ayrılığın əmələ gəlməsi və şiddətlənməsi, hakimiyyət strukturlarının elementlərinin işinin, səlahiyyətinin, siyasətinin bir-biri ilə çarpazlaşması və hakimiyyətin öz (hakim) legitimliyinə inamının itirilməsi.

**DELEQAT** (latın *delegatus*-göndərilmiş, nüma-yəndə) – bax *nümayəndə*.

**DELİKT** (latın *delictum* - xəta, hüquq pozğunlu-ğu) - 1) cəmiyyəti maraqlarına zidd olmaqla, cəmiyyətə ziyan vuran və qanunla cəzalandırılan təqsirli əməl; 2) beynəlxalq hüquq normaların və ya beynəlxalq öhdəliklərin pozulması. Bu, qeyri-hüquqi hərəkət və ya hərəkətsizlik, yaxud səhv nəticəsində baş verir. Beynəlxalq sülhə, təhlükəsizliyə və xalqların azadlığına qəsd edən cinayətlər bu baxımdan daha xarakterikidir. Beynəlxalq D. beynəlxalq sanksiyalara səbəb olur.

**DELİMİTASİYA** (sərhədlərin delimitasiyası) (latın *delimitatio*-sərhədlərin müəyyənləşdirilməsi) – beynəlxalq hüququn institutu. Həmhüdud qonşu dövlətlər arasında müəyyən tarixi səbəblərdən, dövlətlərarası sərhəddin dəqiq xətti olmadığı təqdirdə onların (qonşu dövlətlərin), qarşılıqlı razılıq əsasında sərhəd xəttinin müəyyənləşdirilməsi ilə, təsviri ilə, istiqamətləndirilməsi ilə və coğrafi xəritəyə köçürülməsi ilə dövlət sərhədlərinin dəqiqləşdirilməsi. D.- müqavilədə yaxud başqa sənəddə əks etdirilir. D. prosesindən sonra demarkasiya prosesi gəlir.

**DEMARKASİYA** (sərhədlərin demarkasiyası) (fransız *démarcation*-hüdudlama) - beynəlxalq hüququn



institutu. Həmhüdud qonşu dövlətlər arasında müəyyən tarixi səbəblərdən, dövlətlərarası sərhəddin müvafiq sərhəd nişanları, infrastrukturu olmadığı təqdirdə onlar (qonşu dövlətlər) birgə (xüsusi) komissiyası yaratmaqla *delimitasiya* razılaşması əsasında, artıq bilavasitə yerlərdə, ərazidə, dövlətlərarası (mübahisəsiz) sərhəd boyunca xüsusi sərhəd nişanələrinin (dirəklər, tirlər, zolaqlar) qoyulması. Həmin (birgə) komissiya sərhədlərin D.-sı üzrə bütün hərəkətlər haqqında xüsusi sənədlər – sərhəd xəttləri və nişanələrin təsvir verilmiş protokolları (bura fotoşəkilləri və sxemləri əlavə etməklə) tərtib edir. Yeri gəlmişkən, qeyd etmək labüddür ki, artıq D. nişanələri üzərində sərhəd infrastruktunun qurulması (yeni sərhəd keçid məntələrərinin yaradılması, sərhəd çəpərinin çəkilməsi, müşaiyət postlarının qoyulması və s.) və, eləcə də mövcud sərhəd infrastruktunun yeniləşdirilməsi, abadlaşdırılması – *redemorkasiya* deyilir. Birtərəfli D. yolverilməzdir və beynəlxalq mübahisəyə səbəb oluna bilər.

**DEMARKASİYA XƏTTİ** – döyüşən və ya mübahisədə olan dövlətlər arasında xüsusi razılaşma ilə müəyyən olunan, müvəqqəti xarakter daşıyan xətt (və ya zona): 1. daimi sərhəd müəyyən edilənədək, barışıq zamanı, vuruşan dövlətlərin qoşunlarını ayıran xətt (və ya zona); 2. hərbi münaqişədə məğlub olunmuş dövlətlərin ərazisini, işğalçı dövlət(lər) tərəfindən işğal zonalarına ayıran xətt; 3. qonşu dövlətlər arasında mübahisəli ərazidə müvəqqəti müəyyənləşdirilən xətt (və ya zona).

**DEMARŞ** (fransız *démarche*-hərəkət, çıxış) – bir sıra subyektin (şəxsin, ictimai-siyasi təşkilatın (partiyaların), partiyalar qrupunun, insan kütlə-sinin, dövlətin (onun diplomatik nümayəndələrinin) və beynəlxalq təşkilatın yürütdüyü siyasi kursa və ya atdığı siyasi addıma etiraz əlaməti və ya dəstək əlaməti olaraq digər siyasi subyektin siyasi aktı. Formasına görə D. yazılı, şifahi və ya müəyyən hərəkət aktı ola bilər. Yazılı D. aktı: deklarasiya, bəyanat, imzaların toplanması və s. formada ola bilər. Hərəkətli D. aktı: passiv formada (tətil, verilən hüquqların icra edilməməsi, boykot və s.) ola bilər və aktiv formada (mitinq, piket, yürüş və hətta hərbi yürüş və s.) ola bilər. Mahiyyətinə görə D. xahişi, təklifi, tələbi, protesti və s. özündə ehtiva edə bilər.

**DEMEREC** (ingilis *demmurage*) - hava, su, quru (dəniz) yol nəqliyyat vasitələrinin, malların (yükün) və s. qeyri-qanuni tutulub saxlanılmasına və boş dayandırılmasına görə - komission yığımlarının, yaxud kompensasiyaların ödənilməsi.

**DEMİLİTARİZASİYA** (latın *de*-ayrılma, uzaq-laşdırma və *militaris*-hərbi) – beynəlxalq hüququn institutu; iki və ya bir qrup dövlətin, bəzi hallarda bütün dünya dövlətlərinin qarşılıqlı razılığı ilə, müəyyən edilmiş quru, su və hava ərazilərini hərbi məqsədlər üçün istifadənin məhdudlaşdırılması (və ya qadağan edilməsi), əgər həmin ərazilərdə hərbi qüvvələr vardırsa ya tamamilə, və ya qismən çıxarılması, hərbi istehkamların və tikililərin ləğv edilməsi (və ya ləğv edilmə prosesi) . D.-nın tam və ya qismən (*misal*: silahların, silahlı qüvvələrin azaldılması; digər silah növlərini saxlamaqla, müəyyən silah növlərinin saxlanılmasının qadağan edilməsi və s.) növləri mövcuddur. Bir qayda olaraq, sərhəd bölgələri, müvəqqəti demarkasiya xətləri, neytral zonalar və s. D.-ya məruz qalır. Beynəlxalq aktlara görə Antarktida, səma cisimləri (o cümlədən, Ay) tam D. zonası elan edilmişdir. Atomsuz (nüvəsiz) zonaları eyni adlı silah üçün D. zonaları hesab etmək olar, hərçənd digər silahlar mövcud ola bilər. Beynəlxalq hüququn "açıq səhər" instutunu D. zonası hesab etmək olar. Bəzi hallarda isə beynəlxalq ictimaiyyət beynəlxalq təşkilatlar vasitəsilə potensial təhlükəli dövlətdən və yaxud işğalçı dövlətdən D.-nı tələb edə bilər və hətta məcbur edə bilər.

**DEMOBİLİZASİYA** (latın *de*-ayrılma, uzaqlaş-dırma və *mobilis*-çevik, mütəhərrik) – 1. səlahiyyətli dövlət hakimiyyəti orqanları (dövlət başçıları) tərəfindən artıq silahlı qüvvələrin saxlanılmasına ehtiyacın olmadığı müəyyənləşdirildikdə, müvafiq qərar ilə (sərəncam ilə): ordunun şəxsi heyətinin sayının azaldılması; həqiqi hərbi xidmət keçmiş əsgərlərin ordudan təxris edilməsi (ehtiyata buraxılması); dövlətin, cəmiyyətin (xalqın), iqtisadiyyatın və hətta ordunun müvafiq şəraitdə hərbi vəziyyətdən – adi (sülh) vəziyyətə keçirilməsi; 2. (məcazi mənada) aktivliyin, sayıqlığın azaldılması (itirilməsi).

**DEMOKRATİYA** (yunan. *demokratia, demos*- xalq və *kratos* - hakimiyyət) – xalq hakimiyyəti. Xalqı hakimiyyətin yeganə mənbəyi kimi qəbul edən, azadlıq və bərabər hüquqluluq prinsiplərini qəbul edən, insan hüquqlarını yüksək tutan dövlət hüquqi rejimidir, dövlət əhəmiyyətli qərarların çoxluğun iradəsinə əsasən qəbul edilən və, eyni zamanda, azlıqların hüquq və maraqlarını nəzərə alan, haqq-ədalət ideyalarının təntənəsidir. Döv-lətin Ali hakimiyyət orqanlarının xalq tərəfindən seçilməsi, xalqa tabe olması, xalq qarşısında hesabatlı olması və bunların qanunlarla (Konstitu-siya ilə) bərkidilməsi və təminatı D.-nın mütləq şərtidir. D.-nın əsas funksiyası, cəmiyyətdə müx-təlif baxışlar, fikirlər arasında konsensusun, kom-promisin təməlinin araşdırılıb üzə çıxarmaq və onu həyata keçirməkdir. D., vətəndaşın hüquq, azadlıq və maraqlarının müdafiəsinin qarantıdır. D.- tarixin sınaqlarından keçmiş, inkişaf etmiş sosial-siyasi, hüquqi mədəniyyət etalonudur. *Birbaşa D.* – seçki və referendium vasitələri ilə cəmiyyətin və dövlətin idarəçiliyində xalqın biləvasitə iştirakı deməkdir; *təmsilçi D.* isə seçki və referendum vasitələri ilə cəmiyyətin və dövlətçiliyin idarəçi-liyində xalqın bilavasitə iştirakı deyil, məhz təmsilçi

– dövlətin ödəmə balansının və ticarət münasibətlərinin kəskin pisləşməsi, valyuta ehtiyatlarının tükənməsi, beynəlxalq valyuta bazarında milli valyutanın dəyərinin düşməsi və s. nəticəsində milli pul vahidinin qızıl tərkibinin qanunvericiliklə azaldılması, yaxud kağız nişanların qızıla və xarici valyutaya nisbətən məzənnəsinin aşağı salınması yolu ilə atılan məcburi addım. D. ixracın stimullaşdırılması, idxalın məhdudlaşdırılması, dövlətin ödəmə balansının tarazlaşdırılması və milli idxalatın rəqabət qabiliyyətinin artırması məqsədlərini güdür. Həmin effekt adətən qısamüddətli olur, dövlətin xarici borcunu artırır, idxalat mallarının dəyərini bahalaşdırır. Mahiyyətinə görə D. *revalvasiyanın* əksidir.

**DEVİZ** (rus analoqu *девиз*, fransız analoqu *devise*, ingilis analoqu *motto*) – 1)(siyasi sahədə) adətinə görə əsas fəaliyyətin, davranışın mahiyyətini, ideyasını tərənnüm edən – qısa və konkret kəlam, ifadə; humanizmi, haqq-ədaləti, ümdə məqsədləri ifadə edə, bir neçə sözdən ibarət olan, asan yadda qalan - patriotik çalarlı şüar; təbliğat kampaniyasının vacib atributu. Siyasi, o cümlədən, dövlət idarəçiliyi praktikasında D.-lərdən geniş istifadə olunur. Misal üçün: keçmiş SSRİ adlı dövlətdə İkinci Dünya Müharibəsi (Böyük Vətən Müharibəsi) dövründə vətəndaşları müharibəyə çağıran D.-lər cərgəsinə: "Ana Vətən çağırır", "Bizim iş haqq işidir", "Düşmən məğlub olacaq", "Qələbə bizim olacaq", "Hamı cəbhəyə", "Hər şey cəbhə üçün" və s.; Fransada D., hətta Konstitusiyada həkk olunmuşdur, maddə 2: "Respublikanın devizi – Azadlıq, Bərabərlik, Qardaşlıqdır".

**DE-YURE** (latın *de jure* - hərfən: hüquqa görə) – ictimai (o cümlədən, beynəlxalq) münasibətlərdə, məsələnin hüquqi tərəfini göstərən, mürəkkəb müstəsna, fövqəl vəziyyət: 1. de-fakto ilə birlikdə mövcud olduqda tam hüquqlu, tam rəsmi, tam da hər tərəfli münasibətlərin olduğunu bildirən və ya buna zəmanət yaradan vəziyyət; 2. de-fakto ilə birlikdə mövcud olmadıqda isə, hüquqa, hüquqi səlahiyyətlərə malik olmasını bildirən, lakin faktiki olaraq reallıqda müəyyən səbəblərdən (hakimiyyət çevrilişi, seçki saxtalığı, marionet hökumət, işğal, hətta oğurluq və mənimsəmə və s.) münasibətlərin olmadığını bildirən vəziyyət.

**DEZ...** (fransız *dés...*) – nəyinsə məhv edilməsini, ləğvini, yaxud yoxluğunu, təhrifini bildirən sözönü.

**DEZAVUİRASİYA** (fransız *désavouer*-inkar et-mək, danmaq) - beynəlxalq (diplomatik) münasibətlərdə dövlətin səlahiyyətli orqanı tərəfindən öz (dövlət) ərazisində başqa bir dövlətin diplomatının və ya digər səlahiyyətli rəsmisinin atdığı müəyyən addımla öz səlahiyyətlərini aşdığını və ya öz mandatına uyğun olmadığını bildirən rəsmi irad. D. və onu doğuran səbəb dövlətlərarası münasibətlərə xələl yetirə bilər. Bir qayda olaraq D.-ya məruz qalmış diplomat və digər səlahiyyətli rəsmi şəxs geri (öz dövlətinə) çağrılır.

**DEZİNFORMASİYA** (fransız *dés*-inkar və *information*-xəbər) – müəyyən məqsədləri güdərək geniş ictimaiyyəti və ya rəqib tərəfi çaşdırmaq, onlarda müəyyən təəssürat oyatmaq, fikirlərini səhv istiqamətə yönəltmək naminə yalan məlumat, həqiqət pərdəsi altında yaymaq. D. bir qayda olaraq ya düşmən dövlətlər, xalqlar arasında yayılır və yaxud anti-demokratik rejimli dövlətlərdə hakim dairələr tərəfindən hakimiyyət resurslarının əldə saxlanılması naminə vətəndaşların arasında yayılır. D. əsasən kütləvi informasiya vasitələri (KİV) ilə eyni zamanda kütləvi ictimai tədbirlərdə, fərdi görüşlərdə yayıla bilər. Bəzi hallarda məqsədyönlü D. müəyyən hüquqi məsuliyyətə səbəb olur. D. qurbanına çevrilməməsi üçün, eyni hadisəni fərqli mənbələrdən araşdırmaq labüddür.

**DEZİNTEQRASİYA** (fransız *dés* – inkar və latın *integer* – bütöv) – *inteqrasiya* prinsipinin antonimi; ümumi varlığın məqsədyönlü və ya kor-təbii hadisələri nəticəsində özünün tərkib hissələrinə bölünüb-parçalanması prosesi. Ən yeni tarixdə keçmiş (eks) SSRİ və Yuqoslaviya adlı dövlətlər – D.-ya məruz qalaraq süqut etmişlər.

**DEZORQANİZASİYA** (rus analoqu *дезорганизация*, ingilis analoqu *disorqanization*) – ümumi varlığın məqsədyönlü və ya təbii hadisələr nəticəsində, özünün tərkib hissələrinə bölünməsi və ya ümumiyyətlə ləğv edilməsi; birliyin, təşkilatçılığın pozulması; qayda-qanunun pozulması; süqut. Hakimiyyətin D.-si - son nəticədə cəmiyyət və dövlət üçün olduqca təhlükəli fəsadlar törədə bilər. "D." anlayışını "dezinteqrasiya" anlayışından fərqləndirmək labüddür: əgər dezinteqrasiya (siyasi) subyektlərin aralanmasıdırsa; "D." anlayışına, subyektlərin aralanmasından savayı, idarəçilik qaydasının pozulması, sabitliyin pozulması, özbaşınalığın geniş vüsət alması və s. anlayışları da daxildirlər, yəni "D." anlayışı daha geniş məfhumdur.

**DƏNİZ BLOKADASI** - (hərbi) *blokadanın* bir növü; dövlətin dəniz vasitəsilə xarici əlaqələrini kəsmək məqsədilə dövlətin limanlarının, körfəz zolaqlarının, ərazilərinin və yaxud dənizkənarı sahələrinin izolyasiya edilməsi və dövlətin hərbi-dəniz qüvvələrinin blokada rayonundan kənara çıxmasının qadağan edilməsi. D.B. rəqib qüvvələrin yalnız liman və dənizkənarı sahillərinə tətbiq edilə bilər və neytral limanlara gedən yolları kəsməməlidir.

BMT Nizamnaməsinin 42 və 51-ci maddələrinə uyğun olaraq, D.B. iki halda qanunidir: BMT Təhlükəsizlik Şurasının qərarı ilə beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsinə yönəlmiş



fəaliyyəti tətbiq etmək zərurəti yarandıqda və; dövlətlərin ayrılmaz hüququ olan kollektiv və individual özünümüdafiəsini həyata keçirdikdə. Hər hansı digər hallarda D.B. (müharibənin elan edilməsindən asılı olmayaraq) qeyri-qanuni və təcavüz aktı kimi qəbul olunur.

**DƏNİZ HÜQUQU** - bax *beynəlxalq dəniz hüququ*.

**DİALOQ** (yunan *dialogos*-danışıq. söhbət) – (mükalimə) – iki və ya bir neşə çəxsin arasında gedən söhbət (müsahibə): 1. (siyasi D.) – siyasi subyektlərin adətən fərdi şəkildə (nadir halda qrup şəklində) bir araya gələrək bir-biri ilə təmas qurması, öz (siyasi) mövqeyini bildirməsi, qarşı tərəfin mövqeyini dinləməsi və diskussiyanın yaranması. D. şifahi qaydada aparıldıqdan protokol və ya stenoqramma yazılmır və yekun (yazılı) qərarın qəbulu da mütləq şərt deyil, hərçənd D. nəticəsində ümumi bəyanat qəbul oluna bilər. D.-diplomatiyanın vacib ünsürüdür. Elmə *qiyabi* və *xalqlararası* D. instutu bəllidir; 2. ədəbi janr.

**DİASPOR(A)** – xalqın (millətin, etnik birliyin) tarixən yaşadığı ölkədən xaricdə yaşaması. D. zorla köçürmə, müharibə, genosid təhlükəsi, iqtisadi, siyasi, coğrafi amillərin təsiri nəticəsində yaranmışdır. "D." termini ilk dəfə yəhudilərin e.ə. VI əsrin əvvəllərində Babilistan padşahı II Novuxodoronsor və sonra isə eramızın I-II əsrlərində romalılar tərəfindən qovulub Fələstindən kənarda yaşamaları ilə əlaqədar işlənirdi. Sonralar "D." termini öz torpaqlarından kənarda yaşayan bəzi etnik və dini birliklərə aid edilirdi. Bununla yanaşı, "D." anlayışını, "qaçqın" anlayışı ilə eyniləşdirmək yolverilməzdir, çünki "qaçqın" anlayışı sırf məcburiyyət ilə əlaqədar olduqda, "D." məcburiyyət ilə yanaşı könüllülük ilə də əlaqədardır.

**DİGƏR MƏSƏLƏLƏR ÜZRƏ ATTAŞELƏR** - yalnız onları təyin edən dövlətlərin maraqları və qəbul edən tərəfin (dövlətin) onları qəbul etməyə hazırlığı ilə müəyyən edilən – mümkün attaşe postlarının diapazonu. Attaşe postunun adı – onun fəaliyyət sahəsini əks etdirir, o cümlədən: əmək, turizm, kənd təsərrüfatı, balıqçılıq, sənaye, mülki aviasiya, ictimai əlaqələr, qanunvericilik, immiqrasiya, gəmiçilik, meşə təsərrüfatı məsələlər üzrə.

Bəzi diplomatik missiyalarda dini rütbəli şəxslər – kapelanlar mühüm rol oynayırlar ki, onlar da diplomatik xidmətdə hesab oluna, müvafiq olaraq diplomatik statusa malik ola bilərlər.

**DİKTAT** (alman *Diktat*, latın *dictatus* - əmr (sərəncam) vermək) – siyasi və iqtisadi təzyiqlərlə və yaxud hərbi təhdidlərlə bir siyasi subyektin öz arzusu və mövqeyinin digər siyasi subyekt(lər)ə yeridilməsi, qəbul etdirilməsi və yaxud həmin məqsədlərlə törədilən cəhd; ikinci siyasi subyekt(lər)in, yəni təzyiqlərə məruz qalan tərəfin öz maraq və mövqelərinə zidd gedərək ağır şərtlərin digər subyektlər tərəfindən qəbul etdirilməsi siyasəti.

**DİKTATURA** (latın *dictature*-qeyri-məhdud hakimiyyət) – dövlətdə hakimiyyəti qeyri-demok-ratik, sərt həyata keçirmə sisteminin xarakterizə edən anlayış. Bir-biri ilə sıx əlaqədə olan iki əsas mənada işlənilir: 1. iqtisadi cəhətdən hakim dairələri siyasi hakimiyyəti təmin edən dövlət hakimiyyətinin mahiyyəti, yəni dövlətdən əsas iqtisadi mövqe tutan hakim dairənin (bir və ya bir qrup şəxsin) siyasi hökmranlığına arxalanan hakimiyyətin təşkili formasının mahiyyətini əks etdirir və 2. hakimiyyəti həyata keçirmək üsulu (diktator siyasi rejimi) – bu zaman hakimiyyət bir və ya bir qrup şəxsin əlində mərkəzləşir, siyasətdə zorakılıq və terror ön plana keçir. Belə halda D. diktator hakimiyyətinin qeyri-məhdudluğu və nəzarətsiziliyi, Konstitutsiya və qanunların elan etdikləri demokratik hüquq və azadlıqlarının tapdalanması, demokratik institutların hüquqlarının məhdudlaşdırılması və s. ilə xarakterizə olunur.

D. həm monarxiyalı, həmdə respublikalı dövlətlərdə qurula bilər; avtoritar, totalitar rejim-lərə, xuntalara və s. səciyyəvidir.

**DİN** (latın analoqu *religio*) – ictimai şüurun formalarından biri; bir və ya bir neçə allahın "müqəddəslərin" – yəni fövqəltəbiliyini bu ya digər növünün reallığına inamı əsas götürən dünya görüşü, davranış və spesifik fəaliyyət (kult). Üst qurumun elementi kimi D. müxtəlif funksiyaları yerinə yetirir: illyusior – konpensator, dünya görüşü, nizamlayıcı, kommunikativ və s. Funksiyalar. D. -allah ideyası ilə bərabər dini qüvvələrə bağlı əhvali-ruhiyyə, hiss və təəssüratları da özündə birləşdirir. Dini etiqadlar konpleksinə, dini sitayişlər və yaxud ayinlər daxildir. Bəzi ehtimallara görə D. Yuxarı Paleolit dövründə (daş dövrü), 40-50 min il əvvəl meydana gəlmişdir və onun yaranmasında sosial və psixoloji köklər fərqləndir-ilir. D.-in təsnifatını aşağıdakı kimi müəyyən etmək olar: 1. qəbilə - tayfa D.-ləri Bəşəriyyətin ilkin inkişaf dövründə insan təbiətindən asılı oldu-ğu üçün, onda (insanda), fövqəltəbii qüvvələrə inam doğurmuşdur, bütpərəstliyin inkişafına xidmət etmişdir; 2. milli D.-lər. Bəzi xalqlarda etnik ümumiliyə əsaslanan, təsir dairəsinə görə və ərazicə məhdud olan milli D.-lər (yəhudilərdə-iudaizm, hidlilərdə-hinduizm, yaponlarda-sintoizm, çinlilərdə-konfusiçilik) yayılmışdır və 3. dünya D.-ləri (xristianlıq, islam, buddizm) – dünyanın bir neçə, yaxud əksər xalqları (millətləri, etnosları, irqləri və s.) arasında yayılmışdır.

D.-i ideologiyanın özəyini *teologiya* təşkil edir. D.-i ideolgiya peşəkar ilahiyyətçilərin dini

təşkilatlar tərəfindən nizama salınan və təbliğ edilən ideyalar sistemidir. D.-i psixologiya isə, geniş dindar kütləsinin təsəvvürləri, hissləri, adət və ənənələrinin məcmusu olub, müəyyən dini ideyalar sistemi ilə bağlıdır.

**DİNC ƏHALİ** (mülki əhali) – müharibə qanunları və adətlərinə aid olan beynəlxalq hüquqa görə hərbi əməliyyatlarda, yaxud müqavimət hərəkatında bilavasitə iştirak etməyən şəxslər. Dəniz müharibəsi şəraitində həm müharibə edən, həm də bitərəf ölkələrin ticarət və sərnişin gəmilərinin heyəti və sərnişinləri D.Ə.-yə bərabər tutulur. D.Ə.-nin hüquqi rejimi quruda müharibə aparılması qanunları və qaydaları haqqında 1907 –ci il 4-cü Haaqa Konvensiyası və müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il Cenevrə Konvensiyası ilə müəyyən edilmişdi. D.Ə.-yə hərbi əməliyyatlar zamanı immunitet verilir. D.Ə. ilə heç bir ayrı-seçkilik edilmədən insanpərvərcəsinə rəftar edilməlidir. Adamları girov saxlamaq, kollektiv şəraitdə cəzalandırmaq, hədələmək və s. Məhkəmə qərarı olmadan məhkum etmək və zor tətbiq etmək qadağandır. D.Ə.-si olan şəhərlər və s. yaşayış məntəqələri hava bombardmanı, top atəşi və s. obyekti olmamalıdır. Beynəlxalq hüquq D.Ə. ilə rəftaretmə qaydalarının pozulmasına görə müəyyən məsuliyyət nəzərdə tutur.

**DİNC YANAŞI YAŞAMA** – müxtəlif, hətta düş-mən münasibətdə olan, dövlətlərin, xalqların, quruluşların (sistemlərin) arasında sülh münasibətləri prinsipi; həmin subyektlər arasındakı mübahisəli məsələlərin həllində müharibə vasitələrindən imtina edilməsini, mübahisələri danışıqlar yolu ilə nizama salınmasını, bir-birinin hüquqlarına hörmət etməsini, maraqlarını, mənafelərini nəzərə almasını; bir-birinin daxili işlərinə qarışmamasının, qarşılıqlı anlaşma və etimadın, bərabərhüquqlu və qarşılıqlı fayda əsasında, iqtisadi və mənədəni əməkdaşlığın inkişafını və s. ali məqsəd və niyyətləri nəzərdə tutur. Bununla yanaşı, D.Y.Y. – təcavüzkar qüvvələr onu pozduqda, silah gücünə öz hökmranlığını bu və ya digər xalqa qəbul etdirməyə çalışdıqda – silahlı mübarizədən (müqavimətdən) imtina edilməsi demək deyil, hər bir xalq (dövlət) təcavüzə qarşı mübarizə aparmaq hüququna malikdir.

**DİPLOMAT** (fransız *diplomate*, yunan *diploma*-ikiqat bükülmüş sənəd sözündən) – diplomatik fəaliyyətdə olan şəxs. Xarici işlər idarələrinin (Nazirliklərin) və dövlətin xaricdəki nümayəndəliklərinin – *diplomatik rütbəli* işçiləri və b. – D. hesab edilir.

**DİPLOMATİK DƏRƏCƏLƏR** - dövlətlərin xarici diplomatik nümayəndəliklərinin (səfirliklərinin, missiyalarının) başçılarının rəsmi adları; beynəlxalq hüquq normalarına uyğun olaraq ayrı-ayrı dövlətlərin qanunvericiliyi ilə müəyyən edilir. Diplomatik əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasında dövlətlərin diplomatik nümayəndəliklərinə başçılıq edən şəxslər üçün D.D. təsbit edilmişdir: Səfir nə nunsi (Vatikan səfiri), elçilər və internunslər (Vatikanın elçiləri) işlər vəkili. Bütün dərəcələrdən olan diplomatik nümayəndəliklərin başçıları arasında yaş və etiket münasibətlərindən əmələ gələn fərqlərdən başqa heç bir digər fərq olmamalıdır. Dövlətlər, bir qayda olaraq bir-birinə səfir göndərir; elçi və daimi işlər vəkili nadir halda təyin edilir.

**DİPLOMATİK DİL** - 1. beynəlxalq (diplomatik) münasibətlərin qurulması, inkişaf etdirilməsi məqsədilə istifadə edilən leksiki dil. Bu, ya diplomatın təmsil etdiyi dövlətin rəsmi dili, ya diplomatın gəldiyi dövlətin rəsmi dili və ya üçüncü dövlətin (xalqın) dili və yaxud da bəşəriyyət tərəfindən qəbul olunmuş dil (o cümlədən: ingilis, fransız, ispan, ərəb, rus və s.) ola bilər. Nadir hallarda, diplomatik münasibətlərdə tərcüməçidən istifadə edilir; 2. dövlətlərarası, xalqlararası (diplomatik) münasibətlərin həssaslığını nəzərə alaraq – yüksək (diplomatik) etikalı, elmi əsaslandırılmış, artıq söz yığınından azad olan ifadələr, kəlamlar, danışıqlar (ünsiyyətlər) məcmusu; mürəkkəb siyasi, diplomatik, elmi və ədəbi kəlmələrdən ibarət olan ünsiyyət vasitəsidir.

**DİPLOMATİK KORPUS** (latın *corpus* – gövdə, vahid, bütöv) - ölkədə akkreditə olunmuş xarici diplomatik nümayəndəliklərin başçılarının məcmusu. D.K. dedikdə, geniş mənada diplomatik nümayəndəliklərin bütün diplomatik işçiləri nəzərdə tutulur.

D.K. hər hansısa beynəlxalq hüquq normalarına əsaslanan institut deyil, həmçinin hüquqi şəxsin hüquqlarına malik olan siyasi birlik və yaxud təşkilat deyil. D.K. tərəfindən bu şəkildə olan hər hərəkət yolverilməzdir.

Beynəlxalq hüquq D.K.-un yalnız mərasim (protokol) məsələləri ilə bağlı kollektiv, hərəkətlərini məqbul sayır: fəaliyyət göstərdikləri ölkənin hökumətini təbriketmə, başsağlığı vermə və s. Adətən D.K. adından onun *duayeni* çıxış edir.

**DİPLOMATİK KURYER** – (dipkuryer) – öz (mənsub olduğu) dövlətin xarici işlər idarəsində - həmin dövlətin xarici dövlətlərdəki (və ya beynəlxalq təşkilatlardakı) nümayəndəliklərinə və əks istiqamətdə diplomatik yazışmaların (məktublarıın; sənədlərin; bəzi hallarda, hətta əşyaların) aparılması (göndərilməsi, daşınması, yola salınması) təminatı funksiyalarını icra edən – *vəzifəli şəxs*. D.K. – diplomatik toxunulmazlıqdan tam həcmdə istifadə etmir, lakin şəxsi toxunulmazlıq hüququna malikdir və ərazilərindən keçdiyi (istifadə etdiyi) dövlətlərin yurisdiksiyasına tabe deyildir. Beynəlxalq



münasibətlərdə, nəzakət prinsiplərinə uyğun olaraq, D.K.-in şəxsi baqajı gömrük baxışından və gömrük rüsumunun ödənilməsindən azad olunur.

**DİPLOMATİK MÜNASİBƏTLƏR** - beynəlxalq hüquq normalarına uyğun olaraq dövlətlər arasında rəsmi münasibətlərin qurulmasının, qorunub-saxlanılmasının əsas formasıdır. D.M.- dövlətlər arasındakı dostluq münasibətlərinin inkişafına kömək etməyə, beynəlxalq sülhü və təhlükəsizliyi müdafiə etməyə çağırır.

D.M. haqqındakı 1961-ci il Vyana Konvensiyasına görə, dövlətlər arasındakı D.M. bir-birilə qarşılıqlı qaydaya görə bir dövlətin və ya hökumətin başqa dövlətlər tərəfindən *de-fakto* və yaxud *de-yure* tanınması D.M.-in qurulması üçün ilk zəmin hesab olunur. D.M. nümayəndə heyətlərinin arasındakı birbaşa danışıqların və yaxud üçüncü ölkənin diplomatik nümayəndələrinin vasitəsilə qurulur, dövlət və hökumət başçıları arasında, xarici işlər nazirləri və xüsusi səlahiyyətli şəxslər arasında bir-birinə elçilərin göndərilməsi, teleqram, məktub və s. poçt əlaqə vasitələrinin göndərilməsi ilə rəsmiləşdirilir. Tərəflər D.M.-in qurulması faktının özü haqqında, diplomatik nümayəndəliyinin forması (səfirlik və yaxud missiya) haqqında sazişin qüvvəyə minəcəyi tarix, onun dərc olunma vaxtı və qaydaları haqqında razılığa gəlirlər.

D.M. səviyyəsi – dövlətlərin, xalqların, hakimiyyətlərin bir-birinə yanaşmanın (rəyin, əlaqənin) bariz göstəricisidir, misal üçün, hərbi münaqişə tərəfləri arasında heç bir D.M. mövcud olmur.

**DİPLOMATİK MÜNASİBƏTLƏRİN KƏSİLMƏSİ** - hər hansı bir dövlət tərəfindən başqa bir dövlətə münasibətdə, müxtəlif səbəblərdən diplomatik əlaqələrin məhdudlaşdırılması təşəbbüsünün qəbul edilməsi və həmin dövlətə dövlətlərarası diplomatik münasibətlərin dayandırılmasının rəsmi elan edilməsi. Burada "müxtəlif səbəblər" deyəndə, bir dövlətin (hakimiyyətin) – digərinə qarşı qərəzli münasibətlərin çoxşaxəli spektoru nəzərdə tutulur, hətta ilk baxışdan kiçik bir hadisə, misal üçün, diplomatik nümayəndəyə qarşı qeyri-etik davranış və s.- D.M.K.-nə səbəb ola bilər, lakin tam D.M.K. üçün çox ciddi səbəbiyyət olmalıdır.

Qeyd etmək labüddür ki, D.M.K.- diplomatik nümayəndələrin geri çağrılması ilə başlayaraq, diplomatik təmsilçiliyin (binasının) bağlanması ilə, hətta dövlətlərarası bütün digər münasibətlərinin kəsilməsi ilə müşayiət oluna bilər.

Diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana Konvensiyasına görə, dövlətlərarası D.M.K şəraitində də, bir dövlət-digər dövlətin artıq keçmiş diplomatik təmsilçilərin diplomatik imtiyaz və immunitetlərinə riayət etməklə, diplomatların, diplomatik təmsilçiliyinin digər əməkdaşların, onların ailə üzvlərinin həmin dövlətdən sərbəst və rahat çıxıb-getmələrinə, o cümlədən, onlara məxsus əmlakın (özlərilə) aparmasına hər cür şərait yaratmalı, hətta zəruri kömək göstərməlidir.

Bundan savayı, dövlətlərarası D.M.K. şəraitində bir dövlət – diplomatik münaqişəli digər dövlətin, münaqişəli digər dövlətin, onun vətəndaşlarının mülkiyyətinin, hüquq və maraqlarının qorunması öhdəliyini daşıyır.

**DİPLOMATİK NÜMAYƏNDƏLİK** - dövlətin xarici ölkədəki xarici münasibətlərini həyata keçirən orqan. D.N.-ə diplomatik nümayəndə rəhbərlik edir; *səfirliyə*- səfir rəhbərlik edir, elçinin və yaxud vəkilin rəhbərlik etdiyi nümayəndəlik isə- *missiya* adlanır.

D.N.-in hüquqi statusu – diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana Konvensiyası ilə, ikitərəfli müqavilələrlə, həmçinin nümayəndəliyin fəaliyyət göstərdiyi ölkənin qanunvericiliyi ilə müəyyən olunur. D.N.-in başqa növü hüquqi vəziyyəti "dövlətin universal xarakterli beynəlxalq təşkilatlarla münasibətlərini quran nümayəndəliklər" haqqındakı 1975-ci il Vyana Konvensiyası ilə müəyyənləşən beynəlxalq təşkilatlar yanındakı nümayəndəlikdir (müşahidəçilərin missiyası və s.).

Bir çox ölkələrin praktikasında fəaliyyəti hansısa vacib bir məsələnin müzakirələri ilə məhdudlaşdırılan yarımdaimi xarakterli D.N.-lər də mövcuddur (misal: Silahların ləğv edilməsi Komitəsində diplomatik nümayəndəlik).

**DİPLOMATİK NÜMAYƏNDƏNİN GERİ ÇAĞRILMASI** - a) rotasiya zərurətindən və; b) etiraz əlaməti olaraq bir dövlətin diplomatik nümayəndəsinin- digər (dövlətdən geri) çağrılması; məcburi çaxarılması. Burada "rotasiya zərurəti" deyəndə: Hökumətin öz təşəbbüsü ilə diplomatın digər vəzifəyə (digər dövlətə) təyin edilməsi, istefaya, təqaüdə, müalicəyə göndərilməsi və s.; "məcburi çıxarılma" deyəndə isə, fəaliyyət göstərdiyi (qonaq olduğu) dövlətin təşəbbüsü ilə diplomatın – "*persona non qrata*" elan edilməsi, diplomatik münasibətlərin kəsilməsi, müharibə elan edilməsi nəzərdə tutulur.

Birinci hal diplomatik nümayəndənin fəaliyyət göstərdiyi (qonaq olduğu) dövlətin başçısına nümayəndəni təyin edən dövlət başçısının geri çağırma haqqında imzaladığı sənəd təqdim edildikdən sonra rəsmiləşir. Geri çağırma haqqında sənəd *etibarnamə* kimi rəsmiləşdirilir və yeni təyin olunan diplomatik nümayəndəyə verilir.

**DİPLOMATİK POÇT** - (son latın *posita* – dayanacaq, stansiya; poçt atlarının dəyişdirildiyi yer) dövlətlə onun xarici ölkələrdə fəaliyyət göstərən diplomatik, konsulluq və başqa (o cümlədən, beynəlxalq təşkilatlardakı) nümayəndəlikləri, həmçinin nümayəndəliklərin öz aralarındakı ən çox yayılmış əlaqə forması. D.P. vasitəsilə rəsmi sənədlər və xidməti işdə istifadə üçün nəzərdə tutulan əşyalar daşınır. Həmin əşyalar *diplomatik valizaya* qablaşdırılır. Diplomatik valiza bağlanmış və surğuc möhürlə möhürlənmiş, ya da müəyyən olunmuş qaydada plomblanmış qablara (çanta, torba, paket, zərf və s.) yığılır, belə ki, həmin qabları – onların xarakterini göstərən xarici əlamətlərə malik olurlar. Hər bir valiza D.P.-da ayrıca yer tutur və xüsusi səlahiyyətli şəxs (*diplomatik kuryer*) tərəfindən müşayiət olunmaqla, yaxud müşayiətsiz adi (ümumi) əlaqə vasitəsilə daşınır. Yeri gəlmişkən, D.P.-toxunulmazdır, yoxlanılmazdır, daşınması geciktirilməzdir və gömrük rüsumlarından azaddır.

**DİPLOMATİK PROTOKOL** - beynəlxalq ünsiyyətdə hökumətlər, xarici işlər idarəsi, diplomatik nümayəndəliklər və digər rəsmi şəxslərin riayət etdikləri ümumqəbulolunmuş qaydaların və ənənələrin məcmusu. Onun müddəaları Diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana Konvensiyasında öz əksini tapmışdır. Bununla yanaşı, hər bir dövlətin D.P.-unun həmin dövlətin milli adət və ənənələri ilə şərtlənən özünəməxsus xüsusiyyətləri vardır.

D.P.-un tətbiqi sahəsi olduqca genişdir, praktiki olaraq, o - xarici siyasət fəaliyyətinin bütün sahələrini əhatə edir. Ona riayət etmək məcburidir;- ondan kənara çıxmaq və ya onun normalarını pozmaq başqa dövlətlərin və ya onun rəsmi nümayəndəsinin şərəf və ləyaqətinin alçaldılması kimi qəbul oluna bilər və nəticə etibarilə dövlətlər (hakimiyyətlər) arasındakı münasibətləri gərginləşdirə bilər, arzuolunmaz siyasi nəticələrə gətirib çıxarda bilər. Hər hansı bir dövlətdə diplomatik əlaqənin vəziyyətindən asılı olaraq – D.P.-a müxtəlif çalarlar verilə bilər (təntənəliyin az və ya çox xarakteri, ayrı-ayrı tədbirlərin səviyyəsinin azaldılması və ya artırılması və s.)

D.P.- *diplomatiyanın* mühüm vasitələrindən biridir, onun tətbiqinin nəticəsi dövlətlər (xalqlar) arası münasibətlərə bu və ya digər dərəcədə təsir göstərilir.

Rəsmi görüşlər (hətta ziyafətlər) – *audiensiyalarda, inauqurasiya* (koronasiya, konsistoriya) mərasimlərində, digər beynəlxalq əhəmiyyətli təntənə və kədərli mərasimlərdə - prosessiyalarda dövləti (rəsmi) səfərlərdə və s. hallarda- D.P.-lar özünü biruzə verir.

**DİPLOMATİK RÜTBƏLƏR** - Xarici İşlər İdarəsi tərəfindən diplomatik işçilərinə və xaricdəki diplomatik nümayəndələrin işçilərinə verilən xidməti rütbələr. Hər bir dövlətin daxili qanunvericiliyi ilə müəyyən olunan D.R. sistemi vardır. AR Xarici İşlər Nazirliyi aparatının xaricdəki diplomatik və konsul nümayəndəliklərdəki işçilərinin D.R.-i aşağıdakı kimidir: Fövqəladə və Səlahiyyətli Səfir, Fövqəladə və Səlahiyyətli Elçi (I və II dərəcəli), Müşavir (I və II dərəcəli), Birinci Katib (I və II dərəcəli), İkinci Katib (I və II dərəcəli), Üçüncü Katib və Attaşe.

Əgər *diplomatik dərəcələr* - beynəlxalq qanunvericilik əsasında müəyyənləşdirilirsə; D.R. - milli qanunvericilik əsasında müəyyənləşdirilir. Birinci rəsmi ad olduqda; ikinci xidməti rütbədir.

**DİPLOMATİK VALİZA** (fransız *valize* - çamadan) - bax *diplomatik poçt.*

**DİPLOMATİK VİZA** - Xarici İşlər İdarəsinin, diplomatik nümayəndəliyinin və yaxud konsulluğun yazdığı xüsusi qeyd. Belə ki, həmin qeyd yazıldığı pasportun sahibinin diplomatik statusunun təsdiq edilməsini ifadə edir. D.V. aşağıdakı şəxslərə verilir: hökumət üzvlərinə və dövlətin digər yüksək vəzifəli üzvlərinə, beynəlxalq konfransın nümayəndələrinə, fövqəladə diplomatik missiya ilə göndərilmiş şəxslərə, Xarici İşlər İdarəsinin rəsmi məzuniyyətdə olan diplomatik əməkdaşlarına, diplomatik kuryerə və s. Beynəlxalq nəzakət qaydalarına görə, D.V. almağa hüququ olan şəxslərə öz şəxsi işlərilə bağlı getdikdə də D.V. verilə bilər.

**DİPLOMATİYA** (fransız *diplomatie* ) – 1. dövlət, hökumət başçılarının, eləcə də dövlətin diplomatik orqanlarının, dövlətin xarici siyasətinin vəzifələrini icra etmək və məqsədlərə nail olmaqdan ötrü yürüdülən rəsmi fəaliyyət; 2. dövlətin və onun vətəndaşlarının hüquq və maraqlarının xaricdə müdafiə edilməsinə yönəlmiş, dövlət hakimiyyətinin apardığı məqsədyönlü xarici siyasəti. O, danışıqlar, yazışmalar, rəsmi səfərlərlə və s. vasitələrlə aparılır; 3. hiyləlik, mülayimlik üsulları ilə öz məqsədinə nail olmaq məharəti.

**DİSKONT SİYASƏTİ** – borc kapitalının tələb-təklifinə, ödəmə balansının vəziyyətinə və valyuta məzənnəsinə təsir göstərmək məqsədilə ölkənin mərkəzi emmisiya bankı tərəfindən həyata keçirilən, azad konversiya valyutalarının uçot dərəcəsinin yuxarı qaldırılması və ya aşağı salınma siyasəti.

**DİSKRİMİNASİYA** (latın *discriminatio*-fərqləndirmə, ayırma) – insanlar arasında dini, irqi, milli, cinsi, vətəndaşlıq, sosial, siyasi mənsubiyyətinə görə, mülki vəziyyətinə görə, sosial-siyasi təbəqəyə və s. baxışına görə dövlət orqanları tərəfindən məqsədyönlü şəkildə, etik, humanist və qanun normalarına zidd olaraq (bəzi hallarda qanun çərçivəsində) fərq qoyulması, ayrı-seçkilik, yəni müəyyən insanları digərlərindən üstün tütmə, digərlərinə isə müxtəlif formada təzyiq göstərmə, məhrum etmə. Qanun



çərçivəsində D. cərgəsinə, misal üçün: seçki hüququndan məhrumetmə (seçkilərdə yalnız dövlətin vətəndaşları iştirak edə bilər, nə əcnəbilər nə də apatridlər seçkilərdə iştirak edə bilməzlər) və ya hərbi xidmət keçmə (bu yalnız dövlət vətəndaşlarının hüquqi vəzifəsidir, nə əcnəbilərin nə də apatridlərin hüquqi vəzifəsi deyil) - aid etmək olar. D. konkret olaraq bəzi insanlara müəyyən hüquqlar, imtiyazlar, üstünlüklər güzəştlər verilməsində və digər insanları həmin hüquq və imtiyazlardan məhrum etməsində və hətta, normal yaşayış şəraitindən də məhrum etməsində özünü biruzə verir. D. qeyri-demokratik və qeyri-tolerant dövlətlərə və xalqlara xasdır.

**DİSPUT** (latın *disputare* - ayırd etmək, mübahisə etmək) - ictimai (aşkar) mübahisəetmə; hər hansı məsələni müzakirəetmə.

**DİVERSİFİKASİYA** (latın *diversus*-müxtəlif, fərqli və *facere*-düzəltmək, etmək) – fəaliyyət dairəsini genişləndirmək, dar ixtisaslı iqtisadi obyektin öz gəlirinin artırılması, rəqabətə davamiyyət, üzdəqalma və s. məqsədləri ilə, özünün (ilkin dar ixtisası) fəaliyyətini genişləndirərək, iqtisadiyyatın digər sahələri ilə də məşğul olması, yəni öz kapitalını iqtisadiyyatın digər sahələrinə də sərmayəsi.

**DİVERSİYA** (latın *diversio*-ayırma, kənaraçıxma, pozma) – 1. bunun üçün xüsusi hazırlanmış şəxslər tərəfindən və müvafiq üsul və vasitələrlə, rəqib (düşmən) tərəfin iqtisadi, hərbi imkanlarına və (və ya) onun mənəvi durumuna zərbələr endirmək məqsədilə, onun ərazilərində və ya onun tərəfindən zəbt olunmuş ərazilərdə həyata keçirilən ictimai-təhlükəli fəaliyyət (o cümlədən: terror aktı, partlayış, yandırma, sıradan çıxartma və s.); 2. ideoloji D. eyni məqsədlərlə yalnız fərqli üsul (təbliğat, provakasion, məlumat, çağırış və s.) və vasitələrlə (əsasən kütləvi informasiya vasitələrilə (KİV)) aparılan, həyata keçirilən "psixoloji müharibə".

**DİVİDENT** (latın *dividendus*-bölünməli olan şey) – 1. aksiyaların, səhmlərin ümumi dəyərinin faiz nisbətinə uyğun olaraq aksioner (səhmdar) cəmiyyətinin illik gəlirinin aksionerlər (səhmdarlar) arasında paylanmalı olan hissəsi. Adi səhmə görə D. səhmdarlar cəmiyyətinin mənfəətinin həmin ildəki miqdarından asılı olaraq verilir. İmtiyazlı səhmə görə D.-in həcmi sabit şəkildə əvvəlcədən qəti müəyyən edilir; 2. siyasi D. -siyasi subyektin atdığı, yürütdüyü (siyasi, iqtisadi, hərbi) addımın, kursunun nəticəsində başqa siyasi subyektlərdən gözlədiyi, umduğu və ola bilsin aldığı siyasi mənfəətin şərti adı. Burada "siyasi mənfəət" dedikdə, müəyyən problemlərin həllində kömək, imtiyazlı beynəlxalq kredit almaq, digər güzəştli şərtlər qazanmaq və s. başa düşülə bilər.

**"DOLLAR DİPLOMATİYASI"** - başqa dövlətləri əsarət (asılı) vəziyyətə salmaqdan ötrü ABŞ-ın yürütdüyü ekspansiv xarici siyasəti; beynəlxalq maliyyə sistemini ABŞ dollarını təsiri altına salma siyasəti – ABŞ dolları monopoliyası siyasəti. "D.D." - maliyyə və iqtisadi yardım adı altında, qəbalə (son dərəcə ağır şərtli) borc pul (ABŞ dolları) verməklə - digər dövlətləri ABŞ-ın müxtəlif cür maliyyə nəzarəti və təzyiqi altında saxlamaq, hətta həmin dövlətlərin daxili işlərinə qarışmaq kimi mənfur məqsədləri güdür. Termin ilk dəfə 1912-ci ildə ABŞ Prezidenti U.Taft tərəfindən işlədilmişdir.

ABŞ monopoliyasının və transmilli korporasiyaların maraqları naminə, beynəlxalq bazarda ABŞ dollarının kursunun (məzənnəsinin) manipulyasiyası - "D.D."-nın bir növüdür.

**DOLLAR ZONASI** - zonaya daxil olan dövlətlərin milli valyutalarının – ABŞ dollarından, eləcə də həmin dövlətlərin xarici ticarətlərinin – ABŞ hakimiyyət dairələrindən asılı edilməsi ilə xarakterizə olunan zona; dövlətlərinin qızıl və valyutq ehtiyatlarının əsas etibarı ilə - ABŞ banklarında və qiymətli kağızlarında saxlanılmaq şərti ilə, ABŞ-ın bir sıra dövlətlərlə aralarında qurulan valyuta münasibətləri sistemi. D.Z.-na əksər Amerika Qitəsi dövlətləri ilə yanaşı bir sıra Asiya Qitəsi dövlətləri daxildirlər.

D.Z. - Amerika biznesi üçün geniş imkanlar açır, o cümlədən, valyuta (dollar) gegemoniyası; xarici bazara sərbəst çıxış, hətta inhisara alma; ucuz işçi qüvvəsi və xammal əldəetmə; kapital qoyuluşu və s.

"D.Z." anlayışı 1933-cü ildə "sterlinq zonası" - (Böyük Britaniya valyutası) anlayışına müqabil yarandı, lakin 2000-ci ildən "Avro zonası" - (Ümumavropa valyutası) anlayışı, ona ciddi rəqabət təşkil etdi, hətta ABŞ dollarını beynəlxalq iqtisadi-ticarət münasibətlərdə əvəz etməyə başladı.

**DOMİNANT** (latın *dominans (dominantis)*-hakim) – 1. başlıca ideya, bir şeyin əsas əlaməti, mühüm tərkib hissəsi; 2. III əsrin sonlarında Romada yaradılan siyasi sistem; qeyri-məhdud monarxiya forması.

**DOMİNİONLAR** (ingilis *dominion*; latın *dominium*-sahib olma, mülk, ölkə sözündən) – 1931-ci ilə qədər keçmiş Britaniya imperiyasının özünüidarə edən hissələrinin adı, 1931-ci ildən isə həmin ölkələrdə general-qubernator ilə təmsil edilən, Britaniya monarxının hakimiyyətini ingilis sistemini qəbul edən keçmiş İngilis koloniyaları, 1947-ci ildən sonra isə "D." termini "birlik üzvü" termini ilə əvəz edilmişdir və eyni zamanda siyasi ədəbiyyata bəzi hallarda, bu cür ifadə istifadə edilmişdir " ağ D." - Avstraliya, Kanada, Yeni Zelandiya.

**"DOMİNO NƏZƏRİYYƏSİ"** – bir ərazidə, ölkədə, regionda, xalqda siyasi, iqtisadi, hərbi, sosial və s. hadisələrin (hərəkətlərin), onun nümunəsində digər ərazilərə, xalqlara, ölkələrə, regionlara, bəzi hallarda

isə ümumiyyətlə dünyaya siraət etməsini, kəskin suratdə dalğavari yayılmasını şərtləndirən siyasi termin, misal üçün: iqtisadi (maliyyə) böhranının zəncirvari yayılması; etiraz aksiyalarının zəncirvari yayılması; milli azadlıq hərəkatlarının başqa xalqlara sirayət etməsi və yayılması; inqlabların (rəngli inqlabların, məxməri inqlabların) bir-birinin ardınca başqa-başqa dövlətlərdə baş verməsi, eyni zamanda bir ölkənin demokratikləşməsi, tərəqqisi, yüksək naliyyətlər əldə etməsi, başqa ölkələrə və xalqlara da sirayət edə bilər. *Yeri gəlmişkən neqativ (destruktiv) hallar* baş verdikdə və sürətlə yayıldıqdan sonra onların qarşısının alınması və nəzarət edilməsi olduqca mürəkkəb məsələdir.

**DONOR** (latın *donare*-bağışlamaq) – 1. (tibb) müalicə məqsədilə xəstələrə köçürmək, habelə bəzi dərman preparatları hazırlamaq üçün öz qanının az bir hissəsini könüllü surətdə (bəzi halda maddi maraq ilə) verən adam: bəzi dövlətlərdə D.-luğu stimullaşdırmaq üçün, hətta "fəxri D." nişanı təsis edilir; 2. beynəlxalq və ya dövlətdaxili siyasi münasibətlərdə, ehtiyacı olan siyasi subyektlərə mütəmadi maddi yardım, dəstək göstərən nisbətən imkanlı subyektlərə verilən şərti ad.

**DOSTLUQ** (rus analoqu *дружба*, ingilis analoqu *friendship*) - qarşılıqlı inam və hörmət, ümumi maraqlar əsasında köklənən, inkişaf edən dövlətlər, xalqlar, cəmiyyətlər, siyasi partiyalar, bir qrup insanlar və ya fərdi şəxslər arasında mövcud olan psixoloji uyğunluq. "D." anlayışı dövlətlər, siyasi partiyalararası münasibətləri tərənnüm edən bir sıra dövlətlər, siyasi partiyalararası müqavilələrin mahiyyətini təşkil edir.

**DÖVLƏT** – mürəkkəb tarixi proseslərdən əmələ gələn, ictimai inkişafın məhsulu; özünəməxsus olan bütün atributlara (ərazisi, sərhədləri, paytaxtı, rəmzləri, hakimiyyəti, vətəndaşları) malik olan beynəlxalq hüququn mühüm subyekti; cəmiyyətin siyasi sisteminin mərkəzi və əsas elementi; 1. D. hər bir cəmiyyətin təbiətindən irəli gələn, sosial-siyasi məsələləri və ümumi işləri yerinə yetirilməsi üçün vacib olan, siyasi hakimiyyətli təşkilatdır. 2. O (dövlət), dövlətin əsas mexanizmlərinin müntəzəm surətdə fəaliyyət göstərməsinə təminat verən, cəmiyyətin qanunvericilik təşəbbüsünün icraçı orqanı şəklini alır. 3. D., bütün cəmiyyəti əhatə və idarə etmək, təhlükəsiz yaşamaq imkanlarını və sosial-iqtisadi təminatları yaratmaq, ictimai münasibətləri tənzimləmək, zəruri hallarda məcburiyyət vasitələrindən istifadə etmək və bu məqsədlərlə, cəmiyyətin rəsmi nümayəndəsi kimi çıxış edən, dövlət-hakimiyyəti sistemini təşkil edən, kütləvi siyasi hakimiyyətə arxalanan, siyasi sistemin əsas institutudur. 4. Cəmiyyət, dövləti və onun strukturalarını yaradır ki, onların vasitələri ilə cəmiyyətin tələbatları ödənilsin, qarşıya çıxan problemlər həll edilsin, rahat və stabil yaşayıb fəaliyyət göstərilməsi üçün şərait yaradılsın və onun (cəmiyyətin) maraqları təmin edilsin və s. 5. Eyni zamanda, dövləötin ali məqsədlərinə nail olmaqdan ötrü, məcburiyyət və ya "güc" vasitələrindən tətbiq edilmədən və ya tətbiqi təhlükəsi olmadan, dövlətin fəaliyyət göstərməsi (mövcudluğu), mümkünsüzdür. (Məcburiyyət və ya "güc" vasitələri deyəndə, polisi, Məhkəməni, Prokrorluğu və s. başa düşmək labüddür). D.-in funksiyaları - *onun mahiyyətini və sosial* təyinatını ifadə edən və konkretləşdirən dövlət fəaliyyətinin əsas istiqamətləridir. Onlar iki istiqamətə haçalanır: dövlətin daxili və xarici funksiyaları. D.-in daxili funksiyalarına, sosial-iqtisadiyyatın, mədəniyyətin, elm və təhsilin inkişafına nail olunması, vergilərin və rüsumların yığılması, sabitliyin və mülkiyyətin qorunması və digərləri daxildirlər. D.-in xarici funksiyalarına, D.-in maraqlarının qorunması və müdafiəsi, beynəlxalq münasibətlərin (o cümlədən, iqtisadi münasibətlərin) inkişaf etdirilməsi və digərləri daxildirlər.

**DÖVLƏT BANKROTLUĞU** (rus analoqu *банкромство государственное*, italyan *bankrotta* – iflas, müflisləşmə, uçurum) – 1) (siyasi) dövlət idarəçiliyində buraxılmış ciddi nöqsanların nəticəsində (naşılığın, özbaşınalığın, səhlənkarlığın və s. nəticəsində) - dövlətin mövcud olmasının sual altında qalması; 2) (iqtisadi) aparılan yanlış iqtisadi siyasət nəticəsində, dövlətin digər dövlət(lər) və ya maliyyə təmayüllü beynəlxalq təşkilat(lar) qarşısında öz maliyyə (iqtisadi) öhdəliklərinin yerinə yetirə bilməməsi.

D.B. son nəticədə dövlətin (cəmiyyətin) stabil fəaliyyət göstərilməsinin, onun nüfuzunun (prestijinin) itirilməsinə, Hökumət və ya Parlament böhranına, bütün dövlət siyasətinin və ya iqtisadiyyatının köklü dəyişilməsinə və yaxud konkret şəxslərin vəzifədən getməsinə (əvəz olunmasına), bəzi hallarda isə dövlətin dağılmasına (parçalanmasına) gətirib çıxarda bilər. Belə ki, 1991-ci ildə Sovet İttifaqının Kommunist Partiyasının (SİKP) rəhbərliyinin siyasi bankrotluğu – son nəticədə SSRİ adlı dövlətin mövcudluğuna son qoydu, - D.B. baş verdi.

**DÖVLƏT BAŞÇISI** – dövlətin ali təmsilçisi hesab edilən-dövlətin ali vəzifəli (monarxiyada-ali titulu) şəxsi, əsasən fərdi şəxsi (misal: Prezident, (Parlamentarizmdə) - Baş Nazir; (monarxiyalı dövlətdə) – kral, əmir, sultan; (teokratoyalı dövlətlərdə -Papa, Şeyx, Ayətullah)), bəzi hallarda isə *kollegial* orqanlar (misal: Rəyasət heyəti, Dövlət şurası; (təkpartiyalı sistemli dövlətdə) – Partiyanın Siyasi Bürosu). Demokratik dövlətdə (o cümlədən Konstitusiyalı monarxiyada) – D.B.-nın səlahiyyətləri Konstitusiyada və Konstitusion qanunlarda müəyyənləşdirilir; absolyut monarxiyada D.B.-nın səlahiyyətləri qeyri-məhduddur; teokratik dövlətlərdə isə, D.B.-nın səlahiyyətləri dini kanonlarla müəyyənləşdirilir. Bir qayda



olaraq D.B.-ları (Prezident, Baş Nazir) dövlətin İcraedici hakimiyyətinin başçılarıdır; absolyut monarxiyalı dövlətlərdə onlar (D.B.) həm İcraedici, həm Qanunverici, həm də Məhkəmə hakimiyyətinin başçılarıdır; teokratik dövlətlərdə isə D.B. fövqəladə səlahiyyətli başçıdır. D.B.-nın formalaşması qaydaları da, bir-birindən fərqlənir: Demokratik dövlətdə D.B.-ya birbaşa (Azərbaycan, Rusiya, Meksika və s.), ya dolayı (ABŞ, Argentina və s.) və ya çoxdərəcəli (İtaliya, Almaniya, Hindistan və s.) seçkilər vasitəsilə xalq tərəfindən seçilir; monarx titulu – irsən (*valideynlərdən-övladlara*) *keçir*; *teokratik rejimli* dövlətlərdə isə - D.B.-ları Ali ruhani orqanı tərəfindən seçilir.

**DÖVLƏT BAYRAMLARI** – bir qayda olaraq, dövlətin, xalqın tarixində mühüm əhəmiyyətli, bəzi hallarda dini əhəmiyyəti, nadir hallarda (qeyri-demokratik rejimli dövlətlərdə) konkret şəxsin (sülalənin) tarixində mühüm əhəmiyyətli olan hadisənin təqvim gününə həsr edilən və hər ilin eyni təqvim günündə təkrarən təntənəli surətdə, geniş şəkildə qeyd edilən kütləvi şadyanalıq tədbirləri, mərasimləri. Dövlət, əhalinin əhvali-ruhiyyəsini qaldırmaqdan ötrü D.B. təqvim günlərini istirahət günləri elan edir, bəzi hallarda, hətta həmin bayram qəvim gününə *amnistiya* aktını qəbul edir və ya sosial-iqtisadi əhəmiyyətli (yardım xarakterli) qərar qəbul edir.

**DÖVLƏT BORCU** – daxili və ya xarici kreditor-lara (əmanətçilərə) tam və ya qismən ödənilməmiş və faizi verilməmiş istiqrazlar üzrə dövlətin maliyyə öhdəliklərinin ümumi məbləği D.B.-nun artması son nəticədə vergi və rüsum faizlərinin artmasına, inflyasiyanın əmələ gəlməsinə və pulun milli valyutanın dəyərinin düşməsinə, inkişaf prespektivlərinin məhdudlaşmasına, sosial-iqtisadi problemlərin kəskinləşməsinə, dövlətin o cümlədən, xarici kreditor – dövlətlərdən və ya beynəlxalq maliyyə-kredit təşkilatlarından maliyyə asılılığına və nəhayət beynəlxalq sosial-iqtisadi və siyasi münasibətlərdə ciddi gərginliyə gətirib çıxarda bilər.

**DÖVLƏT ƏRAZİSİ** - dövlətin vacib atributlarından biri; hər hansısa (konkret) bir dövlətin suverenliyinə, yuridiksiyasına aid olan, onun hakimiyyəti altında olan – Yer kürəsinin bir hissəsi (parçası); Yer kürəsinin mərkəzi nöqtəsindən başlayaraq – dövlətin sərhəd xətti boyunca – yaxın fəzaya qədər uzanan (yəni yeraltı və yerüstü, o cümlədən, su) məkanı, o cümlədən, xarici dövlətlərdə və neytral *ərazilərdə yerləşən* dövlət bayrağını və digər fərqləndirmə nişanlarını daşıyan diplomatik və s. (su, hava, kosmik gəmilər) obyektlər.

D.Ə. – mürəkkəb tarixi, siyasi, hərbi proseslər nəticəsində formalaşır, bundan irəli gələrək əksər D.Ə. konkret xalqın, millətin yayıldığı ərazilərlə çərçivələnir. D.Ə. toxunulmazdır, ayrılmazdır və *beynəlxalq hüququn* himayəsindədir. Hər bir dövlət, xalq özünün D.Ə.-dən öz istədiyi kimi istifadə edə bilər və ümumbəşəri ekoloji tələblərdən savayı heç bir xarici qüvvə ona müdaxilə edə bilməz. Bir qayda olaraq D.Ə.-nin sahə həcmi – dövlətin Konstitusiyasında dəqiqliklə göstərilir, hərçənd Azərbaycan *Respublikası* Konstitusiyasında *D.Ə.-nin sahə həcmi* göstəricisi yoxdur.

**DÖVLƏT FORMALARI** – bir qayda olaraq, dövlətin Konstitusiyasında və onun əsasında qəbul edilmiş digər normativ aktlarda müəyyənləşdirilən dövlətin daxili quruluşunun xüsusiyyətləri, dövlət hakimiyyəti orqanlarının strukturu və təşkilati qaydaları, onların biri-biri ilə və əhali ilə qarşılıqlı münasibətlərinin xarakteri, inzibati-ərazi bölgüsünün spesifikası və, o cümlədən, təşkilati idarəçilik fəaliyyətində istifadə edilən metodlar, kateqoriyasının göstəricisidir. Dövlət formasını müəyyənləşdirmək üçün, onun üç əsas göstəricisinə nəzər yetirmək vacibdir: 1. Dövlət idarəçilik forması (respublika, monarxiya) - bu, dövlətin Ali hakimiyyət orqanlarının formalaşma qaydasını və quruluşunu, onların biri-biri ilə və xalq ilə qarşılıqlı münasibətlərini xarakterizə edir, yəni "kim və necə dövləti idarə edir" sualına cavab verir. 2. Dövlət quruluşu forması (unitar, federativ və konfederativ) - dövlətin ərazi strukturunun, mərkəzi və yerli inzibati-ərazi vahidlərinin hakimiyyətlərinin hüquqi əlaqəsinin göstəricisidir. Özünün quruluş formasına görə dövlətlər sadə (unitar), mürəkkəb (federativ) kateqoruyalarına bölünürlər və xüsusi kateqoriya dövlətlər birliyi (konfederasiya) elmə bəllidir. 3. Dövlət-hüquqi rejim (demokratiya, avtoritarizm və totalitarizm), dövlət idarəçiliyində istifadə edilən üsul və vasitələrin göstəricisidir.

**DÖVLƏT İMMUNİTETİ** - bir dövlətin – digər (xarici) dövlətlərin *yuridiksiyasına* aid olmamasını şərtləndirən ümumqəbulolunmuş beynəlxalq hüquq norması. D.İ.- dövlətlərin suverenliyi və bərabərhüquqluğu prinsipindən irəli gəlir, elə buna görə də bir dövlət – digər (xarici) dövlət üzərində hakimlik (hökmranlıq) edə bilməz; bir dövlət – digər (xarici) dövlətin qarşısında (onun Məhkəməsi qarşısında) cavabdehlik daşımır (əgər hər hansı məsuliyyət və öhdəlik öz üzərinə götürülməyibsə və könüllü surətdə həmin dövlətin Məhkəməsində iştirak etmək istəmirsə). D.İ. - o deməkdir ki, dövlət - başqa (xarici) dövlətin Məhkəməsində iddiaçı qismində çıxış edə bilər, lakin ona qarşı (onun razılığı olmadan) heç bir subyekt iddiaçı qismində çıxış edə bilməz; dövlətin mülkiyyəti- başqa (xarici) dövlət tərəfindən qətimkan tədbirlərinə (həbs, sekvestr, müsadirə və s.) məruz qala bilməz (həmin ölkənin razılığı olmadan).

Beynəlxalq təcrübədə bir dövlətin D.İ. başqa (xarici) dövlət tərəfindən pozulduqda, buna tam mütənasib cavab olaraq, həmin başqa (xarici) dövlətin D.İ. məhdudlaşdırılması halları mövcuddur.

Beynəlxalq cinayət (işğal, ilxaq, zəbt, anneksiya, terror, diversiya, və s.) törədilmiş dövlətlərə münasibətdə - D.İ. şamil edilmir.

**DÖVLƏT MÜLKİYYƏTİ** (rus analoqu *государственная собственность*, ingilis analoqu *State property*) – sahiblik, istifadə və sərəncamvermə hüququ dövlətə mənsub olan mülkiyyət; dövlətin, cəmiyyətin maraqlarına xidmət edən, eləcə də dövlətin rahat və sərbəst idarəedilməsinə kifayət edə bilən istehsal (emal), istehlak, yardımçı (köməkçi) xarakterli, eləcə də pul (valyuta) formasında olan, dövlət tərəfindən qorunan və dövlətin müvafiq (hakimiyyət) orqanları tərəfindən idarəolunan, istifadə edilən daşınan və daşınmaz mülkiyyət forması. D.M.-nə qəsd-müəyyən hüquqi məsuliyyətə səbəb olur.

**DÖVLƏT SATINALMASI** (kontraktasiya) – müstəsna hallarda, dövlətin hərbi və iqtisadi təhlükəsizliyini qorumaq və ya iqtisadi münasibətləri tarazlaşdırmaq (defisiti aradan qaldırmaq) məqsədləri ilə dövlətdaxili və ya xarici qurumlardan (bəzi hallarda fərdi şəxslərdən) kənd təsərrüfatı və ya sənaye mallarının – "kantraktasiya müqaviləsi" üzrə alınması. Belə halda qiymətlər tərəflərin qarşılıqlı razılaşması ilə (nadir halda vahid qiymət standartı üzrə) müəyyənləşdirilir və dövlət büdcəsindən ödənilir. D.S.-i həmçinin dövlətin (xalqın) sosial-mədəni irsinin qorunması naminə, onun tarixinə aid maddi-mənəvi nemətlərin müzey və arxiv fondu üçün fiziki və hüquqi şəxslərdən, yaxud başqa dövlətdən alınması ilə də baş verə bilər. Bax həmçinin *həcz*.

**DÖVLƏT SƏRHƏDLƏRİ** – dövlət ərazilərinin hüdudlarını müəyyən edən xətlər; dövlətin suverenliyinin və yurisdikiyasının yayıldığı ərazilərinin çərçivəsi; iki və s. dövlət arasında və ya dövlət ilə neytral zona arasında yerin təki, quru, su, hava və hətta yaxın səma boyunca, şaquli xətt istiqamə-tində keçən xətt. D.S. təbii və süni sərhədlərə bölünürlər. Təbii sərhədlər dedikdə, təbiət tərəfindən mürəkkəb geoloji inkişafın nəticəsində yaranmış relyef (o cümlədən: dəniz, çaylar, dağ zirvələri, dağ cərgəsi (dənizaltı dağlar) və s.) nəzərdə tutulur; süni sərhədlər dedikdə, insan əməyi ilə yaranmış mühəndis tikili qurğular (o cümlədən: dəmir, beton çəpərlər, sərhəd dirəkləri, bəzi hallarda, hətta hərbi istehkam qurğuları və s.) və sərhəd işarə qurğuları nəzərdə tutulur. Hər bir dövlətin sərhəddi bir qayda olaraq, müvafiq hərbiləşdirilmiş sərhəd qoşunları (xidmətləri) tərəfindən qorunur, bundan savayı D.S. beynəlxalq hüquq tərəfindən qorunur. D.S. toxunulmazdır.

D.S. mürəkkəb tarixi-siyasi və (bəzi hallarda) hərbi proseslərin nəticəsində formalaşır. Dövlətlərarası sərhədlər müvafiq dövlətlərarası sazişlə müəyyən edilir, belə saziş bəzi hallarda heç də həmişə rahat başa gəlmir. D.S vacib geosiyasi, hərbi, iqtisadi funksiyaları yerinə yetirir.

**DÖVLƏT SİRRİ** – dövlət tərəfindən xüsusi mühafizə edilən mühüm, dövlət əhəmiyyətli hərbi, iqtisadi və siyasi xarakterli məlumat. D.S.-ni təşkil edən məlumatların siyahısı - dövlətin iqtisadi qüdrəti, müdafiə qabiliyyəti və təhlükəsizliyi nəzərə alınmaqla müəyyən edilir. D.S.-ni qorumaq hər bir vətəndaşın borcudur. D.S.-nın yayılmasının qarşısını almaq məqsədilə D.S.-ni təşkil edən məlumatlarla əlaqədar sənədlərin tərtibi, saxlanıl-ması və onlardan istifadə edilməsi qaydaları, eləcə də D.S. sayılan məlumatlarla əlaqədar predme-tlərin saxlanılması və istifadə qaydaları müəyyən edilmişdir. Müəyyən edilmiş qaydanı pozmaqda (bu, D.S.-in yayılmasına, müvafiq sənədlərin itirilməsinə səbəb olarsa) təqsirli sayılanlar dövləti cinayətlərə görə - cinayət məsuliyyətinə cəlb edilirlər.

**DÖVLƏT STATUSU** (rus analoqu *государственный статус*, ingilis analoqu *State status*) (latın *status* – vəziyyət) – bu və ya digər dövlət vəzifəsinə, orqanına, təşkilatına və hətta sənədə şamil edilən xüsusi hüquqi vəziyyət, mövqe.

**(DÖVLƏT) SƏRHƏDLƏRİNİN REKTİFİKASİYASI** (latın *rectificatio* - düzəltmə, düzəlişetmə) - (dövlətlər arasında) artıq mövcud olan sərhədlərə, müxtəlif səbəblərdən yerlərdə cüzi dəyişikliklər etməklə, (dövlət) sərhəd xəttində müəyyən düzəlişlər, dəyişdirmələr aparılması. Burada "müxtəlif səbəblər" deyəndə bilavasitə sərhəd xəttində və ya ona yaxın olan ərazilərdə müxtəlif təyinatlı tikililər (misal: körpü; elektrik stansiyası, keçid məntəqəsi) quraşdırılması və ya (kənd) təsərrüfat fəaliyyəti ilə səbəblər başa düşülür.

(D.)S.R. nümunəsini keçmiş SSRİ və İran dövlətləri arasında Araz çayı üzərində Su Elektrik Stansiyası (SES) tikilməsində görmək olar.

**DÖVLƏTİ CİNAYƏTLƏR** – cinayət hüququna görə dövlətin ən mühüm mənafeyinə qəsd edən və buna görə də, xüsusilə böyük ictimai təhlükə təşkil edən ən ağır cinayətlər. Xüsusi təhlükəli D.C. – dövlətin suverənliyinə, ərazi bütövlüyünə, təhlükəsizliyi və müdafiə qabiliyyətinə, iqtisadi potensialına qarşı yönəlmiş, onun (dövlətin) siyasi sisteminə qarşı yönəlmiş ictimai təhlükəli əməllərdir (vətənə xəyanət, casusluq, terror, diversiya və s. dağıdıcı və pozucu fəaliyyət). Bundan savayı, digər ictimai təhlükəli əməllər də (milli, irqi ayrı-seçkilik, kütləvi ixtişaş, qeyri-qanuni hərbiləşdirilmiş, silahlandırılmış birləşmələr yaratma (banditizm), fərarilik, kontrabanda (qaçaqmalçılıq) pul və qiymətli kağızların qeyri-qanuni hazırlanması və tədavülə buraxılması, dövlət əmlakını mənimsəmə, rüşvətxorluq (korrupsiya) və s.) – D.C. hesab edilir. D.C. bütün cinayətlərin ən ağır cinayətlər olduğuna görə müvafiq olaraq ən ağır



cəza ilə cəzalandırılır.

**DÖVLƏTİ TANIMA** – beynəlxalq hüquq müna-sibətlərinin subyekti kimi yeni dövlətlərin beynəlxalq aləmə çıxması, başqa dövlətlər tərəfindən müstəqil dövlət kimi qəbul edilməsi, dövlətin - beynəlxalq hüququn, beynəlxalq münasibətlərin tamhüquqlu üzvi kimi tanınması. Milli azadlıq hərəkatı orqanlarını, müqavimət təşkilatlarını və müstəqilliyi uğrunda döyüşən tərəfin tanınması da bura aiddir (misal: Fələstin Azadlıq təşkilatının bir sıra dövlətlər tərəfindən tanınması, hətta ərəb və islam təmayüllü təşkilatlara üzv qəbul edilməsi). De-fakto və de-yura tanıma formaları fərqləndirilir. D.T. hər bir dövlətin müstəqil hüququdur, siyasi təcrübədə, hətta müstəqil dövlətə xas olan bütün atributların mövcudluğu da başqa dövlətlər tərəfindən tanınmasına, qəbul edilməsinə dəlalət eləmir (misal: Ermənistan Azərbaycanın ərazilərini işğal etdiyinə görə bir sıra (müsəlman) dövlətləri onu (Ermənistanı) nə tanımır, qəbul etmir, nə də onunla heç bir əlaqə qurmur).

Hər hansı bir dövlətin – beynəlxalq ictimaiyyət tərəfindən müstəqil dövlət kimi tanınması, qəbul etməsi həmin dövlətin beynəlxalq hüququn himayəsi altına girməsi deməkdir. Bununla yanaşı, bir dövlətin tanınması - başqa bir dövlətin ərazi bütövlüyünün zərbə altında qoyması, hətta dövlətin daxili işlərinə qarışması kimi qəbul etmək olar, odur ki, D.T. instutu – beynəlxalq hüququn ən paradoksal və həssas institudur.

**DÖVLƏTİN PARÇALANMASI** (rus analoqu *распад государства*) – mürəkkəb sosial-siyasi proseslərin nəticəsində vahid dövlət subyektinin özünün tərkib hissələrinə bölünüb-parçalanması; dövlətin-vahid dövlət statusunun itirməsi, bunun müqabilində, həmin dövlətin subyektlərinin, ərazilərinin (onların sakinlərinin) – müstəqil dövlət statusu qazanması ilə müşahidə edilən xalqın (cəmiyyətin) ağır, gərgin sosial-siyasi, iqtisadi, mənəvi sarsıntı keçirməsi, hərçənd yeni müstəqillik qazanan xalqlar üçün D.P. milli-patriotik hisslərin oyanışı ilə nəticələnə bilər. D.P. bir qayda olaraq münaqişələrlə (müharibələrlə), bəzi hallarda, hətta soyqırımlarla, etnik təmizləmələrlə paralel baş verir.

**DÖVLƏTİN RƏMZLƏRİ** (latın anoloqu *sýmbo-lon*) - dövlətin əsas atributlarındandır və onun suverenliyinin rəsmi nişanələridir. Dövlət rəmzləri cərgəsinə: dövlət bayrağı, dövlət gerbi və dövlət himni daxildirlər. D.R.-i Konstitusiya ilə və müvafiq Konstitusiya qanunu ilə müəyyən edilir. Yuxarıda sadalanan D.R.-nin siyahısı qətidir və əlavə heç bir şey D.R. ola bilməz.

**DÖVLƏTLƏRİN HÜQUQİ VARİSLİYİ** - mürəkkəb beynəlxalq-siyasi məsələ; bir dövlətin hüquq və (hüquqi) vəzifələrinin digər dövlətə ( dövlətlərə) keçməsi, məsələsini nizamlaya siyasi- hüquqi institut. Sosial inqilab, dövlət çevrilişi nəticəsində əvvəlki dövlətin, onun sosial-iqtisadi formasiyası əvəzində yeni formasiyalı dövlətin əmələ gəlməsi; milli- azadlıq və ya əksinə ekspansiv, işğalçı müharibələr nəticəsində bir dövlətdən – bir neçə dövlətin əmələ gəlməsi və ya əksinə, bir neçə dövlətdən – bir dövlət yaranması və nəticələrində - D.H.V. problemi aktuallaşır və əvvəlki dövlətin mülkiyyəti, borc və öhdəlikləri, beynəlxalq təşkilatlarda iştirakçı məsələləri öz həllini axtarır.

Beynəlxalq təcrübədə D.H.V. məsələsi ya yeni dövlətin birtərəfli bəyanatı ilə və ya yeni beynəlxalq müqavilə bağlamaqla (şərti olaraq) həll olunur, zira ex-subyektin nümayəndələri öz iddiaları ilə çıxış edə bilərlər.

**DRAQOMAN** - Şərq ölkələrindəki diplomatik və konsulluq nümayəndəliklərində təmsil olunan rəsmi tərcüməçi. Həmin ölkələrdəki kök salmış adətlərə görə D.- diplomatik immunitetə malikdir və diplomatik korpusa daxildir. Yeri gəlmişkən, Avropa və Amerika ölkələrinin səfirlik və deleqasiyalarında təmsil olunan tərcüməçilər adətən eyni hüquqlara (imtiyazlara) malik deyillər. "D." termini müasir dövrdə geniş surətdə istifadə olunmur.

**DUAYEN** (fransız *duoyen*-ağsaqqal) – diplomatik korpusun böyüyü "ağsaqqalı", məskən salınan ölkələrdə diplomatik nümayəndələr arasında rütbəcə yüksək olan və zaman etibarı ilə daha çox fəaliyyət göstərən adam. D. diplomatik adətə görə təbrik edir, başsağlığı verir və başqa mərasimlərdə diplomatik korpus adından çıxış edir və s.; D. həmişə birinci dərəcəli (səfir və ya nunsiy) diplomatik nümayəndədir. Bəzi katolik dövlətlərdə, onlarda köklənmiş adətlərə rəğmən, etimadnamə qramotasını təqdim etmə tarixindən asılı olmayaraq "nunsi" diplomatik korpusun D.-idir.

**DÜNYA ƏRZAQ PROQRAMI (DƏP)** - BMT-nin (Birləşmiş Millətlər Təşkilatı) Ərzaq və Kənd Təsərrüfatı təşkilatı və başqa beynəlxalq təşkilatlarla birlikdə 1962-ci ildə eksperemental əsaslarla, 1966-cı ildən isə, daimi olaraq həyata keçirilən proqram.

DƏP-in ümumi qaydaları inkişafda olan ölkələrin əhalisinin ərzaqla təmin edilməsini yaxşılaşdırmaq məqsədi ilə ərzaqla, pul vəsaiti ilə yardım və, yaxud iqtisadi və sosial xarakterli layihələrin həyata keçirilməsi üçün lazım olan xidmətləri nəzərdə tutur. DƏP-in resursları ölkələrin kənd təsərrüfatı mallarının və yeyinti məhsullarının, pul vəsaitlərinin könüllü şəkildə verilməsi hesabına toplanır. BMT-nin Baş Məclisi tərəfindən yaradılan beynəlxalq fövqəladə ərzaq ehtiyatının istifadəsi də

DƏP tərəfindən həyata keçirilir. DƏP-in fəaliyyətinə siyasət və ərzaq proqramı üzrə Komitə rəhbərlik edir, hansılar ki, DƏP-in konfransında seçilirlər. Komitə hər il 2 sessiya keçirir.

**DÜNYA HÖKUMƏTİ** (bəşəri (cahan) hökuməti; rus analoqu *мировое правительство*, ingilis analoqu *World goverment*) – *mondializm* konsepsiyasının apofiozu; dünyada bütün dövlətləri və xalqları bir arada birləşdirərək vahid "dünya-dövlətinin" yaradılması ("mondializm") və dövlətin vacib atributlarından olan "hökumətin" dünyavi miqyasda yaradlmasını tərənnüm edən bir sıra keçmiş və müasir mütəfəkkirlərin utopik arzusu; dünyanın vahid Hökumət tərəfindən idarəolunmasını və dünyanın problemlərinin vahid Hökumət tərəfindən həll olunmasını bildirən, müvafiq olaraq eyni adlı (Hökumət) institutunu zəruri hesab edən konsepsiya. Dünyanın, Bəşəriyyətin müasir inkişaf mərhələsində D.H. məvhumu sadəcə olaraq yoxdur, səbəb olduqca çoxdur: bir sıra dövlətlər (xalqlar) arası nifaq, düşmənçilik. inkişaf səviyyəsinin fərqli olması, milli mentalitet və s., lakin dünyanın bəzi regionlarında (misal: Avropa məkanında) – regional əhəmiyyətli Hökumətlərin qurulması cəhdləri edilir.

**DÜNYA MÜHARİBƏSİ** – digər müharibələrdən miqyasına ilə, iştirakçı dövlətlərin və xalqların say çoxluğuna ilə silahların, silahlı qüvvələrin, xərclərin, qurbanların say çoxluğu ilə müharibə aparma strategiyası ilə fərqlənən, son məqsədi beynəlxalq münasibətlər sistemini kökündən dəyişmək, dünya siyasi xəritəsini dəyişdirmək, hökmranlıq və təsir sahələrini artırmaqdan ibarət olan, xüsusi mahiy-yətli, təşkilatlanmış hərbi mübarizə.

XX əsrdə iki D.M. baş vermişdir, hər ikisi də Avropa qitəsində başlamışdır: Birinci D.M.-də (1914-1918) 33 dövlət ( 74 milyon insan) iştirak etmiş, 10 milyon insan həlak olmuş, 20 milyon isə əlil olmuş, 208 milyard ABŞ dolları hərbə xərclənmiş; İkinci D.M.-də (1939-1945) 72 dövlət (110 milyon insan) iştirak etmiş, təqribən 50 mil-yon insan həlak olmuş, 28 milyon isə əlil olmuş, 1384 milyard ABŞ dolları hərbə xərclənmişdir.

**DÜNYA SİYASƏTİ** – qlobal (dünya) miqyaslı məsələlərin (problemlərin) həll edilməsi naminə, o cümlədən: bəşəriyyətin inkişaf etdirilməsi; bəşəri inkişafa mane olan məsələlərin (problemlərin) həll edilməsi; qüvvələr balansının qorunub saxlanıl-ması; hərbi təhlükəsizliyin qorunması (hərbi münaqişələrə yol verilməməsi); iqtisadi əməkdaşlığın nizamlanması; demokratiyanın və insan hüquqlarının inkişaf etdirilməsi; ekoloji, energetik, ərzaq, demoqrafik, etnik, mədəni, təhsil, səhiyyə və s. məsələlərin (problemlərin) həll etdirilməsi naminə siyasi subyektlərin (siyasi liderlərin, siyasi hərəkat və siyasi partiyaların, dövlət və dövlət birliklərin və beynəlxalq təşkilatların) xarici-siyasi (beynəl-xalq) fəaliyyət məcmuəsi. Müxtəlif xalqların (dövlətlərin) üzləşdiyi dövlətdaxili və xarici məsələlərin (problemlərin) həllində - beynəlxalq yardım və dəstəyə zərurət yarandığından, onların bir-birinə yaxınlaşma tendensiyaları müşahidə olunur, belə şəraitdə beynəlxalq təşkilatların və instutların əhəmiyyəti və rolu artır, hansılar ki, müxtəlif milli *maraqların aqreqasiyasına* (cəmləşdirilməsinə) və ümumibəşər maraqların formalaşmasına xidmət edərək, əvvəllər dövlətlərin müstəsna kompetensiyasına aid olan məsələlərin tədricən öz yurisdik-siyasına keçirərək, qlobal inkişafın müxtəlif tərəflərinin nizama salınmasında daha çox (fəal) iştirak edirlər. D.S. özü-özlüyündə humanizmi, sülhpərvərliyi, insanpərvərliyi və digər ali dəyərləri ehtiva edir. Həmin (D.S.-nı) uğurlarının nəticəsidir ki, üçüncü Dünya Müharibəsinə və nüvə silahının tətbiqinə (son zamanlar hətta tətbiqi təlimində) yol verilmir; demokratik, dünyəvi dövlətlərin sayı artır, insan hüquqları və onların təminatları inkişaf etdirilir: ümumbəşəri iqtisadi inkişaf geniş vüsət alır; hər hansısa dövlətin xalqın üzləşdiyi təbii (ekoloji), texnogen fəlakətlər nəticələri qarşılıqlı yardımlar ilə aradan qaldırılır və s.

**DÜNYƏVİ DÖVLƏT** – 1. xalq hakimiyyəti, hüquqi dövlət, vətəndaş cəmiyyəti, şəxsiyyətin hüquqi mövqeyi və digər ümumbəşəri dəyərlərin quruluşu və inkişafı ideyalarını, - qarşısında məqsəd kimi qoyur. D.D. - özündə qanunun aliliyini, hamının qanun qarşısında bərabərhüquqlu olmasını, şəxsin toxunulmamazlığının, mülkiyyət təhlükəsizliyinin təminatını, sosial bərabərliyin bərpasını və sairələri cəmləşdirir. Bəzi elmi mənbələrdə, D.D. qeyri-dini dövlət kimi qələmə verilir, "dini dövlət" anlayışının antonimi kimi qəbul edilir. 2. D.D. şəraitində sosial-iqtisadi, siyasi və mənəvi sahələrdə ictimai münasibətlərin inkişafı üçün geniş imkanlar açılır. Demokratiya - D.D. ayrılmaz hissəsidir. Hüquqi dövlətlə, D.D. ümumi ali məqsədləri olsa da, eyni zamanda, onların bəzi funksional fərqləri mövcuddur: hüquqi dövlət, qanunçuluğun, hüquq qaydasının, hüquq münasibətləri və onunla əlaqəli digər münasibət-lərin inkşafını və mühafizəsini rəhbər tutduğu halda, D.D., hüquqi münasibətlərin inkişafı ilə yanaşı digər ümum-bəşəri nailiyyətlərin də tətbiqini rəhbər tutur, o cümlədən: hüquqi, sosial-siyasi, iqtisadi və digər sahələrin inkşaf nailiyyətlərini özündə cəmləşdirir. Lakin, D.D.-in inkişafı və təkmilləşməsi bilavasitə qa-nunçuluğun inkişafı və təkmilləşməsi ilə əlaqədədir.



# E

**EGİDA** (yunan *aigis (aigíos)* - keçi dərisi, qalxan, sipər) – 1. Qədim Yunan mifologiyasında (əsatirində) Hevestin Zevs üçün hazırladığı qalxan; Zevs və Afina allahlarının, qəzəb və himayəçilik simvolu (rəmzi) olan qalxan (sipəri); Zevs, Afina, Pollada və bəzən də Appolonun atributu; 2. müdafiə, himayəçilik; *"egida" altında olmaq"* – yəni kiminsə müdafiəsi, himayəçiliyi altında olmaq. Təcrübədə: humanitar yardımların paylanılmasının bu və ya digər təşkilatın (o cümlədən, beynəlxalq təşkilatın) E.-sı ilə keçirilməsi; kiçik hamiliyə ehtiyacı olan təşkilatın (misal: qazetin) – daha geniş imkanlı təşkilatın (misal: siyasi partiyanın; dövlət orqanının) E.-sında olması; siyasi aksiyaların hər hansısa bir təşkilatın (o cümlədən, beynəlxalq təşkilatın) E.-sı altında keçilməsi və s. hallarına rast gəlinir.

**EKOLOGİYA** (yunan. *ōikos*- məskən, vətən) – 1. təbiətin vahid sistemi. E. dedikdə - ətraf təbii mühit başa düşülür, bu, təbii obyektlər və təbii resurslar, o cümlədən: torpaq, su, atmosfer hava, təbii ehtiyatlar, heyvanat və bitki aləmi, iqlim və yaxın kosmos, onların qarşılıqlı əlaqəsi və qarşılıqlı fəaliyyəti, yəni təbii sistemlərin məcmuəsidir; 2. biologiyanın bir şöbəsi; orqanizmlərin bir-biri ilə və ətraf mühit ilə qarşılıqlı münasibətlərini öyrənən elm. Müasir E. eyni zamanda cəmiyyətlə biosfer arasında qarşılıqlı münasibətləri (təsiri) haqqında elm (yaxud elmlər kompleksi) kimi başa düşülür. "E." anlayışını elmə 1866-cı ildə alman zooloqu E.Hekkel daxil etmişdir.

**EKOLOJİ KRİZİS** (böhran) - müasir qlobal ekoloji krizisi, insan cəmiyyətinin təbiət ilə münasibətlərində və ekoloji sistemdə tarazlığın pozulması kimi, müəyyən etmək olar. Ekoloji krizis - bəşəri tarixə həkk olunmuş, cəmiyyətin ətraf mühitə istismarçı münasibət praktikası (təcrübəsi) və biosferanın özünübərpaetmə naminə, təbii qaydada biogeokomyəvi proseslər sisteminin hifs etmə qabiliyyəti arasında ziddiyyətlərin hələ də, həll olunmamasının qanunauyğun nəticəsidir. Elmi-texniki tərəqqinin, insan kütləsinin sürətlə artmasının, təbiətə və onun sərvətlərinə istismarçı münasibətinin nəti-cəsində təbiətə insanın təzyiqini dəfələrlə artırmışdır. İnsanın təbiətə vurduğu zərər; bərpa oluna bilən və bərpa olunmaz baxımından; üç istiqamətdə baş verir: 1) Ətraf mühitin çirkləndirilməsi; 2) Təbii ehtiyatların tükənməsi; və 3) Təbii mühitin dağıdılması.

Təbiət deqradasiya edilir (tənəzzülə uğrayır), onunla bərabər bəşəriyyət deqradasiyaya məruz qalır, bu o deməkdir ki, yeni gələn nəsillər özlərinin fizioloji və intellektual (zehni) natamamlığı ilə (nakamlığı ilə) fərqlənəcəklər.

**EKOLOJİ SİYASƏT** - ətraf təbii mühitin qorunub-saxlanılmasına, mühafizəsinə yönəlmiş dövlətin, qeyri-dövlət orqanlarının, Bələdiyyələrin və beynəlxalq təşkilatların timsalında – beynəlxal ictimiyyətin yürütdüyü tətbirlər sistemi. E.S. aşağıdakı əsas istiqamətlərdə yürüdülür: müasir dövrə qədər gəlib çatmış ekoloji dəyərlərin (sərvətlərin) növbəti nəsillər üçün qorunub-saxlanılması; təbii resurslardan qənaətlə istifadə edilməsi, israfçılığa yol verilməməsi, xammal bazası rolunu oynayan təbii sərvətləri digər vasitələrlə əvəz edilməsi yollarının araşdırılması; ətraf təbii mühiti çirkləndirməyə qarşı mübarizə aparılması: təbiəti çirkləndirən müəssisələrin müasir ekoloji standartlara uyğun olaraq modern-ləşdirilməsi və yaxud ümumiyyətlə fəaliyyətinin dayandırılması, təqsirkar şəxslərin cərimələndirilməsi, bəzi hallarda isə azadlıqdan məhrum edilməsi, pozulmuş, lakin bərpası mümkün olan ətraf mühitin bərpa edilməsi; qlobal ekoloji krizislərin (böhranların) həllində beynəlxalq ictimaiyyətin səfərbər olunması; ekologiyaya dağıdıcı təsir göstərən müharibələrin qarşısının alınması və s.

**EKOSİD** (yunan *ōikos*-məskən, vətən və latın *ceadere*-qətlə yetirmək; hərfən: bütün nəsli, kökü məhv etmək) - ətraf mühitə elə bir zərbə endiril-məsidir ki, hansı ki, hər bir insan cəmiyyətlərin və ya ümumiyyətlə bütün bəşəriyyətin həyat və sağlamlığına biləvasitə təhdid yaradır. Beynəlxalq hüquqda E.-i bəşəriyyətin əleyhinə yönəldilmiş beynəlxalq cinayət kimi qəbul edilməsi tendensiyası özünü biruzə verir.

**EKSPANSİYA** (latın *expansio*-yayılma, geniş-lənmə) – inhisarçı birliklərin və qrupların, bəzi hallarda dövlətlərin hökmranlıq dairələrini genişləndirilməsi; istər iqtisadi (misal: kapital ixracı inhisarşılıq), istərsə də qeyri-iqtisadi metodlarla (misal: işğaletmə, diplomatik təzyiq) həyata keçirilir.

**EKSPATRİASİYA** (latın *ex*-...dən, ...dan və *patria* – vətən) – vətəndaşlığı (təbəəliyi) itirmə. E. bir qayda olaraq könüllü şəkildə baş verir. Misal üçün: vətəndaşın (təbəənin) öz xahişi ilə; iki dövlətdən birinin vətəndaşlığının qəbul etməsi məcburiyyəti qarşısına qoyulduğu şəraitdə (*optasiya*); nadir hallarda (misal üçün: keçmiş SSRİ-də) məcburi hallara – ola bilərdi. Sivil, demokratik dövlətlərdə məcburi E. institutu nəzərdə tutulmur. Bəzi hallarda E. ardınca – deportasiya (dövlət ərazilərindən məcburi çıxarılma) həyata

keçirilir. Bununla yanaşı E.-nın mümkünsüzlüyü hallarını qanunvericilik nəzərdə tutur: əgər vətəndaşın – vətəndaşı olduğu dövlət qarşısında hər hansısa öhdəliyi vardırsa – o, E., hətta könüllü edilə bilməz, yalnız bütün öhdəliklər yerinə yetirildikdən sonra E.-ya yol verilir.

**EKSPORT** (ingilis *export,* latın *expotare*-kənara çıxarmaq) – bax *ixracat.*

**EKSTERRİTORİALLIQ** (latın *ex*-...dan, ...dən şəkilçisi və *territorialis*-ərazidə, əraziyə aid olan) – beynəlxalq hüquqda dövlətin xarici dövlət və hökumət başçılarına, xarici dövlət və beynəlxalq təşkilatların diplomatik nümayəndəliyinə (onların üzvlərinə) və digər vəzifəli şəxslərə təqdim (həvalə) etdiyi xüsusi hüquq və imtiyazlar. Onlara (xarici dövlət nümayəndələrinə), verilən E. şəxsi və yaşayış obyektinin toxunulmamazlığı, əmlakın rüsumsuz (vergisiz) sərhəddən daşımasını, öz dövlətinin hökuməti ilə-rabitə vasitələrindən birbaşa istifadə etməsini, yerli (gəldiyi dövlətin) qanunlarına tabe olmamasını – ancaq öz dövlətin qanunlarına tabe olmasını və s. nəzərdə tutur. E. eyni zamanda dövlətin icazəsi olduqda xarici dövlətin nəqliyyat (hava, dəniz, dəmir və şosse yolu) vasitələrinə də yayıla bilər. E.-a aid olan məsələlər həm beynəlxalq qanunlarla, həm də dövlətlərarası müqavilələrlə nizamlana bilər. Əgər *immunitet* yalnız toxunulmazlılıq hüquqlarını nəzərdə tutursa; E. həm də, əlavə hüquq və imtiyazları nəzərdə tutur.

**EKSTREMİZM** (rus *экстремизм;* fransız *extreémisme*, latın *ekstremum, ektrenus*-kənar, son hədd, sərhəd sözündən) – sisyasətdə, ideologiyada, mübarizədə ifrat baxışlara, tədbirlərə olan meyl. Mübahisəli məsələlərin, problemlərin demokratiyaya, hümanizmə kompromissə zidd olaraq həll etməsinə cəhd. Pluralizmi inkar edərək – boykot, tətil, blokada, eləcə də zorkılıq, terror və s. tədbirləri vasitəsilə öz müvqeyinin başqalarına qəbul etdirilməsi cəhdi. İqtisadi, sosial, milli siyasətin yürüdülməsində buraxılan qüsur və nöqsanlar, problemlərin vaxtında və dürüst həll edilməməsi, islahatların gecikdirilməsi (qeyri-effektiv idarəçilik), siyasi sistemin və instutların müxtəlif növ deformasiyaya uğraması, sosial-iqtisadi, hüquq ədalətsizliyi, ağır yaşayış şəraiti, insanların yanlış mövqeyi (baxışları) təsiri altına düşməsi və s. E.-nin kökünü qidalandırır.

**EKUMEN HƏRƏKATI** (yunan *oikuménē*-aləm, kainat) – xristian kilsələrinin birləşdirilməsi uğrunda hərəkat. E.H.-nın başlanğıcı ümumdünya missioner konfransında, 1910-cu ildə, Edinburq (Böyük Britaniya) şəhərində qoyulmuşdur. Ümumdünya kilsə xadimləri məclisində, 1948-ci ildə Amsterdamda (Hollandiya) isə ümumdünya kilsə şurası (ÜKŞ) yaradılmışdır. E.H.-nın ali orqanı – Ali Assambleyasıdır (məclisidir), hansı ki, assambleyalar (məclislər)arası dövrdə hərəkatın bütün işinə rəhbərlik edən ÜKŞ prezidiumunu və Ali Komitəsini seçir. Ali katiblik Cenevrədə (İsveçrə) yerləşir. ÜKŞ beynəlxalq işlər üzrə komissiyası vasitəsilə - BMT-də və bir sıra beynəlxalq təşkilatlarda təmsil olunur. E.H.-nın məqsədi – kilsələrin birləşdi-rilməsindən savayı, dini ideyalarının təsir sahəsinin genişləndirilməsi, bütün ölkələr üçün məqbul olan "ümumxristian sosial proqramın" ərsəyə gətirilməsi, inkişaf üçün xüsusi yollarını tədqiq edən nəzəriyyənin işlənibhazırlanmasından ibarətdir, bununla yanaşı E.H. – bir sıra aktual beynəlxalq problemlərin aradan qaldırılmasına, o cümlədən: yeni kütləvi qırğın silahı istehsalına, irqçiliyə ümumi sülhün müdafiəsinə; tərkisilaha; qarşı; və s. məsələlərə dair öz töhvəsini vermişdir.

**EKZEKVATURA** (latın *exsequare*-yerinə yetirmək, icazə vermək) – 1. konsulun E.-sı – konsula məskən salınan dövlətdə öz funksiyalarını yerinə yetirmək üçün verilən rəsmi icazə. E. - Daxili İşlər Nazirliyi tərəfindən verilir. 2. Məhkəmə qətnamələrinin E.-sı – bir ölkənin Məhkəməsi tərəfindən çıxarılan qətnamənin digər ölkədə məcburi icrası üçün icazəsi. Bir qayda olaraq dövlətin suverenliyinə və təhlükəsizliyinə zidd olmadıqda İkinci İnstansiya Məhkəməsi tərəfindən həyata keçirilir.

**ELÇİ** - müasir beyəlxalq hüquqda qəbul olunmuş, diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasında əks olunmuş təsnifata görə - 2-ci dərəcəli diplomatik nümayəndəliyin başçısı. Beynəlxalq aləmdə işlənilən tam rəsmi – *Fövqəladə Elçi və Səlahiyyətli Nazir* (ingilis analoqu *Envoy Extraordinari and Minister Plenipotentari*), qısa şəkildə isə- Səlahiyyətli Nazirdir. *Müvəqqəti işlər vəkilindən* fərqli olaraq, E.- *səfir* kimi dövlət başçısı tərəfindən *akkreditə* olunur.

**EMANSİPASİYA** (latın *emancipatio*-hərfi mənası: ata hakimiyyətindən oğlunu formal olaraq azad edilməsi) – asılılıqdan və tabelikdən, əsarətdən (zülmətdən) alçalmalardan, mövhumatdan (xüra-fatdan) və bütün əskiliklərdən, köhnəliklərdən azad edilməsi, bərabərhüquqluğun, sərbəstliyin (müstəqilliyin) verilməsi. Həmin termin bir qayda olaraq, qadınlara sərbəstlik və bərabərhüquqluluq verilməsi mövzusunda istifadə edilir; qadınların ailə və ictimai təzyiqdən azad edilməsi, kişilərlə bərabər iqtisadi, siyasi hüquqların verilməsi mənasını daşıyır və buna – *"qadınların emansipasiyası"*sı deyilir. E.-nın məğzi ondan ibarətdir ki, o (E.), insana ləyaqətli, məziyyətli münasibət göstərilməsini tələb edir, insani münasibətləri tərənnüm edir. İnsana layiq olan quruluş, yalnız demokratiyadır, hansının ki, ali məqsədi insanlara geniş və bərabər hüquqların verilməsindən, müxtəlif təhdidlərdən azad olunmasından, insanın hərtərəfli inkişaf etməsindən ötrü hər cür şəraitin yaradılmasından və s. ibarətdir.



**EMBARGO** (ispan *embargo*-həbsetmə, qadağan etmə) – beynəlxalq hüququn instutu. Əvvəllər dövlət hakimiyyətinin öz ölkəsinin dəniz portlarından (limanlarından), öz ölkəsinin və xarici ölkələrin gəmilərinin çıxarılmasını qadağan etməsi mənasında işlədilirdi, lakin sonradan həmin termin, mal və valyutanın ölkəyə daxil edilməsini və ölkədən çıxarılmasını qadağan edilməsi mənasında işlədildi. Mahiyyətinə görə E. iqtisadi təzyiq formasıdır, o, həm sülh (dinc), həm də müharibə dövründə müəyyən dövlətə qarşı tətbiq oluna bilər. BMT Nizamnaməsi öz hərəkətləri ilə beynəlxalq təhlükəsizliyə qorxu yaradan dövlətə qarşı, kollektiv cəza tətbiri kimi, E.-dan istifadəni nəzərdə tutur. E. iki formada tətbiq oluna bilər: a) *total E.* – yəni bütün növ mallara və valyutalara şamil edilən qadağalar və; b) *qismi E.* yəni konkret mala (mallara) şamil edilən qadağalar.

**EMİQRANT** (latın *emiǵrare* - çıxıb getmək, latın *miǵro* -keçirəm, köçürəm) - ağır (dözülməz) iqtisadi, siyasi və ya digər səbəblərdən (o cümlədən şəxsi səbəblərdən), yaşadığı dövləti tərk edib başqa dövlətə,-(qısa) müddətli və ya daimi yaşamaq üçün, məcbur olub (və ya könüllü) gedən gələn şəxs (mühacir). Miqrasiya qaydalarını pozan şəxs, - "qeyri-qanuni mühacir" adlanır. Onlara qarşı (o cümlədən: gəldiyi dövlətə qaytarılmaq qədər)- inzibati məsuliyyət tədbirləri tətbiq edilir.

**EMİQRASİYA** (latın *emiǵrare*-çıxıb getmək) – bax *miqrasiya.*

**EMİSSAR** (latın *emissarius*-nümayəndə) – bir sıra təşkilat və ya dövlət təşkilatı tərəfindən müəyyən qeyri-rəsmi (çox zaman məxfi) tapşırıqla başqa bir təşkilata və ya ölkəyə göndərilən şəxs. E. göndəril-məsi müəyyən şəraitdə bir təşkilat (və ya dövlət) tərəfindən başqa bir təşkilatın (və ya dövlətin) daxili işlərinə qarışmasını kimi qiymətləndirmək olar.

**ENSİKLİKA** (latın *encyclica,* yunan *enkýklios*-dairəvi, hamı üçün ümumi) – dini etiqad (mənəviyyat) və ictimai-siyasi məsələlərə dair Roma Papasının bütün katoliklərə və ya ayrıca ölkənin katoliklərinə göndərdiyi məktub (müraciətnamə) nəsihətnamə, öyüdnamə. E. - proqram xarakteri daşıyır. Katolik kilsəsinin qanunlarına görə E. müzakirə oluna bilməz və icra edilməsi məcburidir. E. vasitəsilə papalıq katolizmin yayıldığı ölkələrdə katoliklərin ictimai fikirlərini formalaşdırmğa və ictimai-siyasi münasibətlərə təsir göstərməyə cəhd edir. İlk E. 1891-ci ildə qəbul edilib, haradaki, katolik kilsəsinin sosial proqramı təsbit edilir və üstəlik, sosializm ideyalarına qarşı çıxış edilir. Ümumiyyətlə müasir dövrə qədər qəbul edilmiş E.-lar sosializmi və kommunizmi ittiham etmişlər; sülh şəraitində birgə yaşayışa, nüvə silahından imtina edilməsinə və hətta qadağan edilməsinə, "silahlanma" yarışına son qoyulmasına çağırış etmişlər; "müharibə astanası" siyasətini ittiham etmişlər; insan istismarını, irqi zülməti, müxtəlif növ sosial bərabərsizlikləri, amorilizmi və s. tənqid etmişlər. Bundan savayı şəxsi mülkiyyətin qorunması tərənnüm edilmiş; islahatlara çağırışlar edilmiş və ateizm məzəmmət edilmişdir.

**EPİLOQ** (yunan *epilogos, epi* – sonra və *logos* – söz, ifadə, təlim sözlərindən) – final, yekunlaşdırıcı akt, proseslərin inkişafının son mərhələsi, "suların durulması", siyasi "drama" aydınlq gətirmə, son hesabat, "nöqtə" qoyma, hakimiyyət dövrünün başa çatması üçün səciyyəvidir. E. – qüvvələr nisbətinin alınması, siyasi proseslərin mövcud vəziyyəti, beynəlxalq siyasi situasiyanı təhlil edilməsi ilə yanaşı – keçilmiş yola, əldə edilmiş nailiyyətlərə qiymət verilməsi, hətta gələcəyə tuşlanmış məsləhət və tövsiyyə formasında təhlil edilə bilər.

**EPOXA** (yunan *epochē* – mərhələ, dövr) – təbiətdə, cəmiyyətdə, elmdə, incəsənətdə və s. sahələrdə özünəməxsus mahiyyət və məzmunca fərqlənən, nisbətən uzun (bir neçə ildən – bir neçə əsrə qədər) dövr; inkişafda keyfiyyətcə yeni dövr. Dövlətlərin, hakimiyyətlərin, xalqların və ümumiyyətlə bəşəriyyətin tarixində, taleyində çoxlu E. – lar fərqləndirilir, o cümlədən: yaranma, formalaşma, yüksəliş, "intibah", inkişaf, hətta çökmə, süqut, dağılma və s. E.-ları, yaxud konkret insan ilə, sülalə ilə dövlət ilə bağlı olan E.-lar.

**ERA** (latın *aera* – an, ləhzə) – hər hansı əlamətdar və ya əfsanəvi hadisə ilə bağlı olan tarix hesabının başlanğıc anı (vaxtın, zamanın ardıcıl hesabı, həmin andan başlayır); tarix hesabı sistemi; *epoxa* ilə müqayisədə olduqca iri, öz çərçivəsində bir sıra, qrup epoxaları birləşdirən, daha ümumiləşdirilmiş göstəricilərlə xarakterizə edilən – tarixi, təqvimi dövr. Daha geniş yayılmış – "bizim E.", "yeni E." anlayışı, İsa peyğəmbərin mövludu günündən başlayaraq, hesablanmağa davam edir. "E." termininin elmi-nəzəri tələblərinə qeyri-ciddi yanaşaraq, lakin tarixdə böyük iz buraxmış şəxslərin və dövlətlərin adına yazılan nisbətən qısa zaman parçası. Misal üçün: Ruzvelt E.-sı: Nabonasar E.-sı; Selevkilər E.-sı; Dioletian və ya əzabkeşlər E.-sı; Fransız E.-sı (22.IX.1792-ci il, I Fransa Respublikasının elan edilməsindən başlanır) və s.

**ESKALASİYA** (ingilis *escalation*, rus *эскалация* fransız *escalade(r)*-ilkin mənası hücum, həmlə; müasir mənası: dırmaşmaq və latın *scala*-pilləkən sözlərindən) – genişləndirmək, artırmaq (çoxaltmaq), bərkitmək mənasını daşıyır və bu cür işlədilir: zorakılıq E.-sı; münaqışənin (konfiliktin) E.-sı – yəni zorakılığın, münaqişənin durmadan gücləndirilməsi, ağırlaşdırılması; *silahlı qüvvələrin E.-sı* deyəndə silahlı qüvvələrin (canlı və hərbi texnikanın), onların döyüş potensialının durmadan artırılması başa

düşülür. E. termini ABŞ tərəfindən XX əsrin 60-cı illərinin sonu 70-ci illərin əvvəlləri Vyetnama qarşı hərbi aqres-siyasının (təcavüzünün) genişləndirilməsi ilə əlaqədar – geniş istifadəyə daxil edilmişdir.

**"ESTRADA DOKTRİNASI"** (Meksika Xarici İşlər Naziri X.Estradanın soy adından) - "Tobar doktrinasının" antonimi; bir dövlətin mürəkkəb daxili siyasi prosesləri nəticəsində (o cümlədən: dövlət (Konstitusiya) çevrilişi nəticəsində) – yeni formalaşmış "Hökumətin" – digər dövlətlərin xüsusi aktı ilə tanınmasını (qəbul etməsini) inkar edən, yeni dövlətin daxili işlərinə qarışmasını inkar edən siyasi-hüquqi konsepsiya ("doktrina").

X.Estrada qeyd etmişdir ki, tanıma (qəbuletmə) institutundan sui-istifadə son nəticədə, bu və ya digər dövlətlərdə mövcud rejimin qanuniliyi (legitimliyi) barəsindəki məsələlərdə - xarici dövlətin mənfi və ya müsbət qiymət verilməsi – onun (xarici dövlətin), tənqidçi rolunda çıxış etməsinə, dövlətin daxili işləri – başqa dövlətlərin müzakirə obyektinə çevrilməsinə gətirib çıxardır.

"E.D." yalnız tanınmanın (qəbuletmənin) bir üsuluna yol verirdi – xarici dövlətlərdə hakimiyyətə gəlmiş yeni Hökumətlərin yanında öz diplomatlarının *akkreditasiyası*.

Doktrina proqressiv əhəmiyyət kəsb etdi və əksər Latın Amerikası dövlətlərinin müsbət rəyini qazandı.

**ETİBARIN MÖHKƏMLƏNDİRİLMƏSİ TƏDBİRLƏRİ** - qonşu və ya rəqib dövlətlər arasında gərgin münasibətlərin (qarşıdurmanın) aradan qaldırılması və ya bir dövlətin hərbi manevrindən (hərbi təlim, hərbi qüvvələrin yerdəyişməsi, "güc" nümayişi və s.) irəli gələn münasibətlərin gərginləşməsi mümkünatı səbəblərini aradan qaldırılması məqsədilə birgə (kollektiv) və ya birtərəfli aksiya (səy). E.M.T.-nə aşağıdakılar aiddirlər: irimiqyaslı hərbi təlimlərdən öncə - maraqlı tərəfləri məlumatlandırma; hərbi təlimlərə qarşılıqlı olaraq müşahidəçilərin buraxılması; kütləvi qırğın (nüvə silahının) birinci tətbiq edilməməsi və həmin silaha malik olmayan dövlətlərə qarşı ümumiyyətlə tətbiq edilməməsi öhdəlikləri; silahlı qüvvələrin (hərbi büdcənin) azaldılması; (hərbi) münaqişələrin sülh yolu ilə həll edilməsi prinsipinin qəbul edilməsi və s.

**ETİBARSIZ SEÇKİLƏR** – seçki prosesində vətəndaşların (seçicilər) seçki hüquqlarının seçki komissiyaları, dövlət məmurları (öz səlahiyyətlərindən sui-istifadə etməklə) ictimai-siyasi təşkilatlar (partiyalar) və ya fərdi şəxslər tərəfindən kobud şəkildə pozulması (seçki komissiyalarının müstəqil, təminatlı olmaması, onların işinə müdaxilə, səsvermə qaydalarının pozulması, səslərin düzgün hüsablanmaması və s.) nəticəsində - seçkilərin və onların saxta nəticələrinin vətəndaşlar (cəmiyyət), xarici dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməməsi.

**ETİKET** (fransız *étiquette*-mərasim, təşrifat) – 1. monarx saraylarında, diplomatik dairələrdə və s.-də hamılıqla qəbul edilmiş, nəcib davranış qaydaları; 2. hər hansı bir cəmiyyətdə qəbul edilmiş davranış və nəzakət forması.

**ETİMADNAMƏ** – beynəlxalq hüquqda, dövlətlərarası münasibətlərin qurulması və ya davam etdirilməsinə xidmət edən, diplomatik nümayəndə təyin olunarkən təqdim etdiyi, onun ümumi səlahiyyətini təsdiq edən rəsmi sənəd. Səfir və elçilər üçün E. göndərən dövlət başçısından göndərilən dövlətin başçısına müəyyən olunmuş formada yazılır, müvafiq surətdə imzalanır və möhürlənir. E.-də onu göndərənin və alanın adı və titulu (rütbəsi), diplomatik nümayəndənin adı və rütbəsi, ona bütün əlaqələrdə məhz həmin dövlətin nümayəndəsi kimi "inanmaq" (etimad göstərmək) xahişi qeyd olunur. E. diplomatik nümayəndəsinin başçısı göndərilən dövlətin başçısına ilk audiensiya (rəsmi qəbul mərasimi) zamanı təqdim edir, onun təsdiq olunmuş surəti isə qabaqcadan xarici işlər idarəsinin başçısına göndərilir. E. dövlətin başçısına təqdim edildiyi andan, diplomat öz funksiyalarının icrasına başlayır.

**ETNİK BİRLİK** (qrup) - insanların tarixən yaranmış möhkəm birliyi, tayfa birləşmələri, xalq və millət şəklində təzahür edir. "E.B." istilahı etnoqrafik mənada "xalq" və "millət" terminlərinə yaxındır. "E.B." istilahı bir çox hallarda dil, adət-ənənə, mədəniyyət və s. cəhətdən yaxın (yaxud qohum) olan bir neçə xalq mənasında işlədilir. Ərazi, dil, iqtisadi həyat birliyi, mədəniyyət ümumiliyi – E.B.-in təşəkkül tapması üçün mühüm şərtlərdir. E.B.-in formalaşmasına bəzən dini birlik və irqi yaxınlıq da kömək edir. E.B.-in daha möhkəm və sabit olması üçün, onun daxilində endoqam nigahlar mühüm rol oynayır. İctimai, iqtisadi, habelə coğrafi şəraitin təsiri nəticəsində hər bir E.B. üçün səciyyəvi olan maddi və mənəvi mədəniyyət, məişət, ümumi psixologiya meydana gəlib – formalaşır. Etnik şüur – E.B.-ın əsas əlamətlərindəndir.

E.B.-ə məxsus ərazilərin sonralar parçalanması ilə əlaqədar, onun əhalisinin müəyyən hissəsinin başqa ictimai, iqtisadi və təbii mühitə düşməsi nəticəsində - onların ictimai, iqtisadi həyat şəraiti, habelə məişət və mədəniyyəti, hətta dilləri də dəyişikliklərə məruz qala bilər, bu – *etnik proses* adlanır. Etnik proseslər üç istiqamətli olur: a) bir etnik qrupun – digərinə qaynayıb-qarışması (assimilyasiya, inteqrasiya); b)müxtəlif etnik qrupların birləşməsi nəticəsində - tamamilə yeni etnik qrupun əmələ gəlməsi və s.; c) E.B.-in parçalanması nəticəsində tərkib ünsürlərinin müxtəlif istiqamətdə inkişaf etməsi.



**ETNOGENEZ** (yunan *éthnos* - tayfa, xalq və *génesis* mənşə sözlərindən) bir neçə etnik komponentdən – yeni etnik varlığın əmələgəlmə prosesi. İki tip etnogenetik proseslər fərqləndirilir: a) yeni tayfa qrupu və ya xalqın E. - ində daha qədim tayfa qruplarının iştirakı; həmin proses onların kütləvi, o cümlədən, mütləq bioloji əlaqəsi şəraitində baş verməsi (misal: qallar, franklar, vestqotlar və burqundların – fransız xalqının E.-ində iştirakı) və; b) E. prosesində başqa ərazilərdən köçənlərin iştirakı (misal: müasir Amerika xalqılarının formalaşması).

**ETNOS** (yunan *éthnos* – xalq) - sözün dar mənasında: nisbətən sabit xüsusiyyətəri olan mədəniyyət və psixikaya malik, habelə öz vəhdətini insanların başqa qruplarından fərqləndirən, bir dildə danışan insanların tarixən yaranmış məcmusu. E.-un sabitliyi bir sıra amillərlə, ilk növbədə endoqamiya ilə bağlıdır. E. üçün varislik fasiləsiz inkişaf, - habelə zaman çərçivəsində dəyişmə səciyyəvidir. Bütün bunlara *etnik (etnogenetik) proseslər* deyilir, həmin proseslər (assimilyasiya, konsolidasiya, inteqrasiya) nəticədə yeni etnik hala keçid baş verə bilər. Etnoqrafik tədqiqat obyekti mənasında "E." termini XX əsrin əvvəllərində yaranmışdır.

**EVAKUASİYA** (latın *evacuatio*, *evacuare*-boşaltmaq, uzaqlaşdırmaq sözündən) - boşaltma, boşaldılma, təxriyyə: 1. düşmənin hücumunun mümkünatı olduqda və ya bu artıq baş verdikdə, eləcə də təbii fəlakət təhlükəsi olduqda, bundan savayı müvafiq ərazilərdə dövlət əhəmiyyətli tikinti-montaj işlərinin aparılması layihələşdirildikdə, həmin ərazidə əhalinin, müəssisələrin, idarələrin maddi və mədəni sərvətlərin daimi (və ya müvəqqəti) olaraq, daha əmin yerlərə köçürülməsi; 2. yaralıların, xəstələrin, əsirlərin, habelə qənimət və maddi vəsaitlərin hərbi əməliyyat meydanından daha təhlükəsiz yerlərə (cəbhə arxasına) köçürülməsi; 3. hərbi qoşunların əvvəlcə tutduqları ərazilərdən (daxil olduğu, mövcud olduğu) ərazilərdən çıxarılaraq başqa yerlərə köçürülməsi.

# Ə

---

**ƏCNƏBİ** – insanın xarici dövlətlə (dövlətlərlə) formal qeydiyyata alınmış siyasi-hüquqi (vətəndaşlıq) əlaqəsində olması; xarici dövlət(lər) vətəndaşı Ə.-lərin hüquqi vəziyyəti (statusu) dövlətin daxili (milli) qanunvericiliyi (bəzi hallarda Konstitusiya-da göstərməklə) və dövlətin tərəfdaş çıxdığı beynəlxalq (ikitərəfli və çoxtərəfli) sazişlərlə, konvensiyalarla müəyyən edilir. Dövlət daxilində müvəqqəti və ya daimi yaşayan Ə.-lər bir qayda olaraq, "milli rejim" prinsipinə müvafiq dövlətin vətəndaşları ilə (müəyyən spesifik fərqlərlə) bərabər hüquq və azadlıqlara malikdirlər və bərabər hüquqi vəzifələr daşıyırlar. Burada "müəyyən spesifik fərq" deyəndə misal üçün: Ə.-lərdə *siyasi hüquqların* (dövləti idarəetmə hüquqları) olmaması; dövlətin silahlı qüvvələrində hərbi xidmət keçmək vəzifələrin olmaması və s. başa düşülür.

Ə. gəldiyi dövlətin adət və ənənələrinə hörmət etməli, dövlətin, xalqın daxili işlərinə qarışmamalı, dövlətin, xalqın və vətəndaşların maraq və mənafelərinə xələl gətirməməli, ələxsus dövlətin qayda-qanunlarına riayət etməlidir. Yalnız xüsusi hallarda (qanunsuz olaraq sərhəddi keçmə, vizada göstərilən vaxtdan artıq dövlətdə yaşama və s. hüqüq pozuntuları törətdikdə) – Ə. dövlətin ərazisindən məcburi çıxarıla bilər, hətta ümumi əsaslarla məsuliyyətə cəlb oluna bilər. Bununla yanaşı xarici (beynəlxalq) diplomatik və konsulluq idarələrinin əməkdaşları olan Ə.-lər xüsusi imtiyazlara və immunitetlərə malikdirlər.

**ƏDALƏT PRİNSİPİ** – mahiyyəti aşağıdakıdan ibarət olan: "beynəlxalq problemlər - beynəlxalq hüquq və dövlətlərin (xalqların) qanuni maraqlarına riayət etməklə həll edilməlidir"- dövlətlərarası münasibətdə tətbiq edilən prinsip.

Beynəlxalq hüququn vacib prinsiplərindən olan: "beynəlxalq mübahisələr – sülh yolu ilə həll edilməlidir!" prinsipinin vacib elementi - ədalətdir.

BMT Nizamnaməsində irəli gəlir: "bütün mübahisələr Ə.P. əsasında həll olunmalıdır!- belə şəkildə ki, beynəlxalq sülhə, təhlükəsizliyə və ədalətə təhdid yaradılmasın!"

Beynəlxalq Məhkəmənin statusu göstərir ki: "Məhkəmə - mübahisəli məsələləri beynəlxalq hüquq əsasında həll etməlidir, eləcə də, Məhkəmə məsələləri mübahisə edən tərəflərin razılığı ilə, yəni ədalət və xoş vicdan əsasında həll edir".

Beynəlxalq mübahisəli məsələlərdə - ədalət, yalnız bərabərhüquqluq, tərəflərin biri-birinin hüquq və maraqlarının qarşılıqlı şəkildə nəzərə alınması, dərrakəli kompromis, məcburedici tədbirlərin qeyri-qanuni tətbiq edilməsinin yolverilməzliyi – şəraitində nail olunur.

**ƏHALİ** – yer kürəsində yaxud konkret qitə, ərazi, ölkələr qrupu, ölkə, ölkənin bir bölgəsi və ya yaşayış məntəqəsi (şəhər, qəsəbə) daxilində daxili (eyni) qaydalarla həyata keçirən insanlar məcmusu; sakinlər; siyasətin mühüm subyekti: siyasi iqtisadda Ə. əmək ehtiyatların mənbəyi və istehlakın subyektidir. Siyasi, iqtisadi, hərbi, təbiəti və s. amillər Ə.-nin say tərkibinin dəyişkənliyinə səbəb olur. Müxtəlif maraqları, mövqeləri, məq-sədləri, hətta bir çox hallarda fərqli milli, etnik, dini təmsilçiləri özündə birləşdirən Ə. məvhumu – mürəkkəb sistemə malikdir. *Dövlət Ə-si* anlayışı, *dövlət vətəndaşları* anlayışının analogiyasıdır. Ə. sakinliyinin elmi və sistematik öyrənilməsinə XVII əsrdən başlanılmışdır.

**ƏLAQƏ MİSSİYASI** - mürəkkəb (gərgin) münasibətlərdə olan iki dövlət arasında – tam səlahiyyətli səfirlik yaradılması hələ mümkün olmadıqda, lakin əlaqə (kontakt) saxlamaq zərurəti olduqda yaradılan spesefik (özünəməxsus) səlahiyyətli nümayəndəlik.

Tarixdə yeganə Ə.M.-nın nümunəsini 1973-1979-cu illərdə ABŞ və Çin (ÇXR) arası yaradılmış təsisatda görmək olar. Formal olaraq Ə.M. – diplomatik təmsilçiliyi hesab olunmurdu, bununla yanaşı, onun strukturu – səfirlik strukturuna uyğun gəlirdi, hətta əməkdaşlarının vəzifəsi də- ümumqəbulolunmuş diplomatik vəzifələrə uyğun gəlirdi. Hər iki dövlət Ə.M. əməkdaşlarına bütün zəruri olan diplomatik imtiyaz və immunitetlər verdilər. Ə.M.-na rəhbərlik edən şəxs - əlaqə missiyasının başçısı adlanırdı, hansı ki, ən yüksək səviyyədə (hakimiyyət orqanları ilə) müntəzəm əlaqə saxlayırdı.

Ə.M.-nin əsas funksiyası ikitərəfli münasibətlərin normallaşdırılması prosesinin tezləşdirilməsi və genişləndirilməsi idi. Ə.M.- iki tərəfli münasibətlərin məsələsində - əsas danışıq kanalına çevrildi. 1.I.1979-cu il tarixindən Ə.M.-ları – tam səlahiyyətli səfirliklərə çevirdilər.

**ƏLAQƏLƏNDİRMƏ** (rus analoqu *увязка*, ingilis analoqu *linkege*) – mahiyyəti aşağıdakılardan ibarət olan: açıq-aşkar birtərəfli üstünlük əldə etmək və ya məsələnin həllini uzatmaq, siyasi "divident" qazanmaq və ya heç bir vəchlə qarşılıqlı səmərəli əqdə yol verməmək və ya qarşı tərəfə təzyiq göstərmək, qarşı tərəfin daxili işlərinə qarışmaq və s. mənfur məqsədlərlə bir beynəlxalq problemin həllini – onunla əlaqəsi olmayan digər beynəlxalq problemin həlli ilə əlaqələndirməklə mürtəce siyasi qüvvələr tərəfində beynəlxalq (dövlətlərarası) danışıqlarda istifadə edilən kobud "siyasi al-ver" fəndi üsulu.

**ƏLAVƏ DƏYƏR VERGİSİ** – bax *aksiz.*

**ƏMİR** (ərəb – başçı, hökmdar) – müsəlman ölkələrində sərkərdə, hökmdar; *knyaz* tituluna bərabər titul. Ərəb xilafətində ilk xəlifələr; orduya komandanlıq edənlər Ə. adlanırdılar və adətən işğal edilmiş vilayətlərə canişin təyin olunurdular. Tarixən müxtəlif rütbəli feodallar, əyalət hakimləri, tayfa başçıları, o cümlədən: xanlar, sultanlar, hətta iri dövlət (imperiya) başçıları (misal: Teymur) – özlərini Ə. elan edirdilər. Müasir dövrdə, monarxiya quruluşlu bəzi ərəb dövlətlərində (Səudiyyə Ərəbistanı və s.) – şahzadələr Ə. adlanır. Küveyt və BƏƏ-də - dövlət başçısı.

**ƏN AZ İNKİŞAF ETMİŞ ÖLKƏLƏR** - BMT Baş Məclisinin 1971-ci ildə qəbul etdiyi meyar göstəricisi, sənəd E/4990. Həmin sənədə görə, Ə.A.İ.E.Ö.-ə elə ölkələr aid edilir ki, həmin ölkələrdə əhalinin hər birinə düşən ümumi milli ərzaq 100 ABŞ dollarını aşmır (1970-ci il qiymətlərilə), emaledici sənayenin ümumi ərzaqlardakı payı 10%-dən çox deyildir, əhalinin savadlılıq dərəcəsi (15 yaşından yuxarı) 20 %-dən çox olmasın. Həmin göstəricilərə görə aşağı yerdə Asiya qitəsi dövlətləri, ondan aşağı isə - Afrika qitəsi dövlətləri yer tuturlar.

BMT-nin Ə.A.İ.E.Ö üzrə 1-ci konfransında (Paris, 1981), həmin ölkələrin inkişafı üçün yeni proqram qəbul olunmuşdur. Proqramda həmin ölkələrin özlərinin çata biləcəyi göstəricilər müəyyən olunmuş, həmçinin beynəlxalq köməyin həcmi müəyyən olunmuşdur.

**ƏRAZİ (MƏHƏLLİ) DƏNİZ** – dövlətin quru ərazilərində, daxili sularına (arxipelaq - dövlət olduqda isə) – onun arxipelaq sularına birləşən dəniz qurşağı. Ə.(M.)D. - dövlətin ərazilərinə daxildir, dövlətin suverenliyi daxilindədir. Dövlət öz Ə.(M.)D.-indən onun hava məkanından, dibindən, daxili və yeraltı sərvətlərindən beynəlxalq ekoloji normalara riayət etməklə öz maraqlarına uyğun şəkildə istifadə edə bilər. Hər bir dövlətin 12 dəniz milindən artıq olmamaq şərtilə özünün Ə.(M.)D. enliyini müəyyənləşdirmək hüququ vardır.

**ƏRAZİ (TERRİTORİAL) SULAR** – bax *ərazi (məhəlli) dəniz; daxili sular.*

**ƏRƏB DÖVLƏTLƏRİ (ÖLKƏLƏRİ) CƏMİYYƏTİ (LİQASI)** (fransiz *ligue*, latın *ligare*-bağlamaq, əlaqələndirmək sözündən) – müstəqil ərəb dövlətlərinin regional (məhəlli) təşkilatı; əsası 1945-ci ilin martın 22-də Qahirə konfransında Misir, Suriya, İraq, Livan, Fransiordaniya (1950-ci ildən İordaniya) Səudiyyə Ərəbistanı və Yəmən (1962-ci ildən YƏR) nümayəndələrinin qərarı ilə qoyulmuşdur. Sonradan digər ərəb dövlətləri ona qoşulmuşdur və o cümlədən, Fələstin Azadalıq Təşkilatı (FAT) Ə.D.(Ö.)C.(L.) nizamnaməsi iştirakçı dövlətlər arasında siyasi fəaliyyətini əlaqələndirilməsini, istiqlaliyyətin müdafiə olunmasını, ərəb ölkələrinin ümdə mənafelərindən irəli gələn ümumi məsələlərin nəzərdən keçirilməsini və s. nəzərdə tutur. Təşkilatın mənzil-qərərgah Qahirə (Misir) şəhərində salınmışdır, lakin 1979-cu ildə Misir İsrail dövləti ilə seperat müqaviləsi imzaladıqdan sonra mənzil qərərgah Qahirədən Tunisə (Tunis



şəhərinə) keçirilmişdir. Ümumiyyətlə, Ərəb-İsrail münaqişəsi, "Yaxın Şərq problemi" təşkilatın qarşısında duran əsas problemlərindəndir. Təşkilatın rəhbər orqanı – Şuradır. Şura ərəb ölkələrinin dövlət və hökumət başçıları, yaxud onların müvəkkilləri daxildirlər. Şuranın nəzdində Birgə Müdafiə Şurası, siyasi komitə, iqtisadi şura, ərəb ölkələri silahlı qüvvələri, qərərgahlarının rəisləri komitəsi və s. daxildir. Şuranın sessiyaları (ildə iki dəfə) keçilir. Arasındakı dövrdə təşkilatın fəaliyyətinə 5 il müddətinə seçilən Baş Katib rəhbərlik edir.

**ƏSİR** (hərbi əsir) – beynəlxalq hüquqda: döyüşən qarşı tərəfin hərbi qüvvələrinə mənsub olub (partizan dəstələri, könüllü dəstələr, müqavimət hərəkatı iştirakçıları və digər kombatontlar – müharibə edən dövlətlərin hərbi qüvvələri tərkibinə daxil olan və hərbi döyüşlərdə biləvasitə iştirak edənlər daxil olmaqla) düşmənin əlinə keçən, həbs edilən şəxs. Bəzi qeyri-kombatantlar da (hərbi müxbirlər, ticarət (mülki) donanması və mülki aviasiya ekipajlarının üzvləri və s.) – Ə.-lərə aid edilir. Ə.-lərin hüququ rejimi quruda müharibə aparılması qanunları və qaydaları haqqında əsasnamə (1907-ci il 4-cü Haaqa Konvensiyasına əlavə) və Ə.-lərlə davranış haqqında 1949-cu il Cenevrə Konvensiyası ilə nizamlanır.

# F

---

**FEDERASİYA** (fransız *federatio*, son latın *foederatio*-birləşmə, ittifaq) – 1. (federalizm) bir neçə siyasi subyektin (dövlətlərin, xalqların, millətlərin) müəyyən muxtar (suveren) hüquqlarını özündə saxlamaqla vahid ittifaq dövlətində (tarixən: ya könüllü ya məcburi) birləşməsidir. Federativ dövlət – inzibati-ərazi vahidləri (subyektləri), vahid dövlət daxilində yüksək hüquqi statusa malik olan mürəkkəb quruluş formalı dövlətdir. Federativ quruluş formalı dövlətlərdə, vahid mərkəzi Ali Qanunverici və İcra hakimiyyətləri (federal) orqanlarının mövcud olması ilə yanaşı, yerlərdə (subyektlərdə) müəyyən səlahiyyətli Qanunverici, İcra orqanları və hətta, yerli Kostitusiya fəaliyyət göstərir. lakin federal Konstitusiya və federal hakimiyyət orqanlarının idarəçilik nüfuzu federativ dövlətin bütün ərazilərinə yayılır və federal subyektlər mərkəzə tabedirlər. F.-nın mərkəzi (Ali) hakimiyyət orqanları ilə, onun subyektinin hakimiyyət orqanlarının arasındakı səlahiyyət bölgüsü – Federal Kon-stitutsiyada təsbit olunur. Vahid ərazi və silahlı qüvvələr, vahid (milli) gömrük və vergi sistemi, vahid vətəndaşlıq, vahid dövlət dili, vahid xarici siyasət və s. – F.-nın əsas təzahürlərindəndir. Müxtəlif dövlətlərdə F. subyektləri müxtəlif cür adlandırılır, o cümlədən: ştat, kanton, torpaq, müttəfiq respublika, əyalət, diyar, vilayət və s. F. quruluşlu dövlətlərin nümunələrinə gəldikdə isə, burada: Rusiya Federasiyasını, ABŞ-ı, Kanadanı, Braziliyanı, Meksikanı, Argentinanı, Avstraliyanı, Hindistanı, Pakistanı, Nigeriyanı, Venesuelanı, Malayziyanı və s. misal gətirmək olar; 2. bəzi dövlətdaxili (milli) və ya beynəlxalq təşkilatlar birliyinə (ittifaqına) verilən ad. Misal: idman F.-ları; beynəlxalq həmkarlar təşkilatları F.-sı; beynəlxalq demokrat qadınlar F.-sı və s.

**FELDMARŞAL** (alman *Feldmarshall*) – bir sıra dövlətlərin quru qoşunlarında yüksək (Ali) hərbi rütbə. İlk dəfə XIV əsrdə Tevton ordeninin hərbi feodal dövlətində təsis olunmuşdur. Almaniya dövlətlərində XVI əsrdən, Avstriya və Rusiyada XVII əsrdən tətbiq edilmişdir. Hazırda Böyük Britaniya, Uqanda Respublikası və s. ölkələrdə F. rütbəsi mövcuddur.

**FEMİNİZM** (fransız *féminisme*, latın *femina*-qadın) – qadınlara kişilərlə bərabər hüquqların verilməsi, əlaxsus qadınların hüquqlarının və sosial həyatda rolunun artırılması uğrunda mübarizə aparan ictimai hərəkat. Prinsip etibarı ilə *sufrajizm* F.-in bir növüdür, lakin əgər sufrajizm qadınlara kişilərlə seçki hüququ bərabərliyi uğrunda mübarizə aparmaqdırsa; F.-in fəaliyyət dairəsi daha geniş əhtəlidir, o cümlədən: o (F.), qadınların cəmiyyətdə iqtisadi, ictimai-siyasi, mədəni sahələrdə kişilərlə bərabər hüquq və azadlıq əldə etmələri haqqında mübarizəni, həmçinin ümumi siyasi mübarizədə iştirakını, qadınların dövlət vəzifələrinə buraxılmasına, hətta qadınların siyasi hakimiyyətə gəlməsini və dövləti idarə etməsini, bununla yanaşı elementar insan hüquqlarından məhrum edilmiş qadınları təhsil, əmək və s. hüquqlarla təmin edilməsini, qadının hərtərəfli mühafizəsini, qadın əməyinin istismarına, qadına qarşı zorakılığa və digər təcavüzə qarşı mübarizəni və bütün növ ayrı-seçkiliyə qarşı mübarizəni tərənnüm edir. "F." anlayışının müəllifi fransız filosofu və iqtisadçısı Şarl Furye hesab olunur. F. İlk əvvəl XVIII əsrdə Şimali Amerikada və Fransada meydana gəlmişdir, təşkilatları isə XIX əsrin ikinci yarısından yaranmağa başlamışdır. Müasir dövrdə bir sıra təşkilatların (o cümlədən, beynəlxalq təşkilatların) təməl prinsipini məhz F. təşkil edir.

asılı olaraq: büdcə-maliyyə, kredit-pul, investisiya (sərmayə), vergi və rüsum və s. İ.S. növləri fərqləndirilir. İ.S.-in qarşısında qoyulmuş məqsədlərə çatmaq üçün əsas vasitələr: ictimai istehsalın effektivliyinin yüksəldilməsi, elmi-texniki tərəqqinin surətləndirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və bütün iqtisadi münasibətlərin inkişaf etdirilməsidir. İ.S.-ə əsaslı vəsait qoyuluşu və məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi, gəlir və qiymət, əmək haqqı, maliyyə-kredit və demoqrafiya siyasəti daxildir. Müasir şəraitdə təbiətdən səmərəli istifadə edilməsi və ətraf mühitin qorunması -İ.S. -in müstəqil sahəsi kimi formalaşır və inkişaf edir. İ.S.-in mühüm tərkib hissəsi olan xarici İ.S.- dinc yanaşı yaşamaq prinsiplərinə ardıcıl riayət edilməsi, beynəlxalq iqtisadi inteqrasiya, yaxın və uzaq dövlətlərlə sabit və qarşılıqlı surətdə əlverişli əməkdaşlığın möhkəmləndirilməsinə böyük təsir göstərir.

**İQTİSADİ ZONA** – dövlətin dəniz ərazilərindən kənar olan (və ona bitişik olmayan) həmin dövlətə mənsub olan dəniz rayonu, harada ki, həmin dövlət dənizin içində, dənizin dibində və yerin altında (təkində) mövcud olan təbii resursların kəşfiyyat aparılması, emalı, qorunması və idarəedilməsi kimi suveren hüquqlara malikdir. Həmin dövlət İ.Z.-da, eyni zamanda digər iqtisadi fəaliyyət növləri ilə də məşğul olmaq hüququna malikdir, misal: süni adaların və qurğuların yaradılması və istifasi, (dəniz) elmi tədqiqatların aparılması, dəniz mühitinin qorunub saxlanılması və s. yurisdikasiyası. Dövlət öz İ.Z.-sından istifadə edərək, digər dövlətlərin hüquq və maraqlarına riayət etməlidir, hansılar ki, beynəlxlaq qanunlarla müəyyən edilmişdir. İ.Z.-nın enliyi, 200 dəniz milindən artıq olmamalıdır.

**İQTİSADİYYAT** (ərəb; ingilis analoqu *economics*; rus analoqu *экономика:* yunan *oikonomikē* – ev təsərrüfatını idarəetmə məharəti sözündən) – 1. tarixən şərtləndirilmiş istehsal münasibətlərinin məcmusu, cəmiyyətin iqtisadi bazisi. İ. bütün digər ictimai münasibətlərin əsasını təşkil edir və cəmiyyətin *inkişafında həlledici rol oynayır. İ.-in özəyini isə, istehsal vasitələri üzərində mülkiyyət münasibətləri* təşkil edir; 2. ölkənin xalq təsərrüfatı, o cümlədən, maddi istehsal və qeyri-istehsal sahələri. İ.-in inkişafının spesifikası və qanunauyğunluqları – istehsal qüvvələrinin inkişaf səviyyəsi ilə və istehsal münasibətlərinin xarakteri ilə müəyyənləşdirilir; 3. elm sahəsi, ictimai elmlər qrupunun tərkib hissəsi. İctimai-iqtisadi formasiyalar çərçivəsində cəmiyyətin iqtisadi quruluşunun obyektiv qanunauyğunluqlarının, iqtisadi münasibətlər inkişafının spesifikasını, ölkə iqtisadiyyatın sahələrini, (istehsal, xidmət, kənd təsərrüfatı nəqliyyat, rabitə və s.) və funksional (maliyyə-kredit, pul tədavülü, qiymətlərin əmələ gəlməsini və s.) əlamətlərini və ya onun (ölkənin) bölgələrinin, o cümlədən, regionun, dünyanın iqtisadiyyatını, eləcə də istehsalın bəzi şərt və elementlərini öyrənir, xalq təsərrüfatının müxtəlif sahələrdəki prosesləri, hadisələri nəzəri təhlil edir, həyat nemətlərinin istehsalı və bölgüsü sahəsində təcrübi tövsiyyələr işləyib hazırlayır. İ. elmi sistemində – *siyasi iqtisad* elmi əsas rol oynayır.

**İLHAQ** – işğalın ağır forması: əgər işğal – müvəqqəti zəbt etmədirsə, İ. isə – hər hansı dövlətin və ya xalqın ərazilərinin zorla digər dövlətin torpağına qatılması, habelə xalqın zorla özgə (İ. edən) dövlətin tərkibində saxlanmasıdır; *anneksiya* isə – İ.-ı rəsmiləşdirilməsi cəhdi deməkdir.

**İMMİQRASİYA** (latın *immigran(ti)s* - köçüb yerləşdirilən) - bax *miqrasiya.*

**İMMUNİTET** (latın *immunitas*-azadolma) – toxunulmazlıq – 1. dövlət və beynəlxalq əhəmiyyətli yüksək vəzifə tutan şəxsin rahat və sərbəst işləməsi üçün, onun hüquqi təqib və təzyiqlərdən azad edən hüququ; 2. beynəlxalq hüququn mühüm institutlarından biri. İ. hüququ sahiblərinə qarşı yalnız, mürəkkəb prosedur qaydalarına riayət etməklə hüquqi məsuliyyət tədbirləri tətbiq edilə bilər. İ. fərdi şəxslərlə yanaşı müəyyən təşkilatlara da şamil edilir, yəni onlar da qonaq olduğu dövlətin yurisdiksiyasından azad olunurlar; 3. Orta əsrlərdə Avro dövlətlərində feodalların sahib olduğu ərazilərdə yaşayan əhali üzərində hakim səlahiyyət ilə (Məhkəmə, vergiyığımı və s.) bağlı imtiyazları, belə İ. bir qayda olaraq, kral fərmanı ilə qanuniləşdirilirdi.

Təyinatına görə: Prezident, Deputat, Diplomat və hətta tibbi və bioloji və s. İ.-lər növü fərqlənir.

**İMPLEMENTASİYA** (latın *implere*-yerinə yetir-mək, icra etmək) – siyasi subyekt (dövlət) tərəfindən beynəlxalq hüquq normalarının yerinə yetirməsi, icra etməsi.

**İMPORT** (ingilis *import*; latın *importare* – kənardan gətirmək) – bax *idxalat.*

**İMPERİYA** (latın *imperium* – Qədim Romada Ali hərbi hakimiyyət; e.ə. I əsrin sonunda Avqust dövründən) – dövlət başçısı monarx ("imperator") olan dövlət; dövlətləri, xalqları məcburi surətdə vahid siyasi, iqtisadi, sosial və mənəvi sistemə cəlb etmiş və mərkəzi hakimiyyətə tabe etdirmiş iri dövləti ifadə edən ad. İ. güclü, qüdrətli dövlətin təsir dairəsini öz hüdudlarından aşaraq başqa əraziləri, xalqları zəbt edərək və digər formada genişlənməsi (ekspansiyası) nəticəsində əmələ gəlir. Asılı ərazilər üzərində mərkəzi hakimiyyət nüfuzunu güc vasitələrilə saxlanması; müxtəlif növ separatçılığa, muxtariyyata, suverenliyə və digər özgələşmə cəhdlərinə qarşı amansız və dərhal əks təsir münasibət göstərilməsi; öz təsir dairəsinin genişləndirməsi yeni-yeni xalqların, ərazilərin əsarət altına alınması, satış bazarlarının, xammal mənbələrinin ələ keçirmə siyasətlərinin yürüdülməsi; özünün müəyyənləşdirildiyi normaları,



qaydaları, qanunları, dəyərləri, kriteriaları müxtəlif icma formalarına məcburi yayma təşəbbüsü İ. üçün xarakterikdir. Tarixdən göründüyü kimi, İ.-ların dağılması ictimai inkişafın qaçılmaz tendensiyasıdır.

**İNAUQURASİYA** (ingilis *inaquration*-vəzifəyə keçmək (başlamaq); latın *inagurare*-nəyəsə ithaf etmək) - 1) seçilmiş dövlət başçısının (Prezidentin), həmin vəzifəni icra etməsinin başlanmasını tərənnüm edən, rəsmi təntənəli mərasim. İ. mərasimi, bir qayda olaraq, rəsmi və digər qonaqların iştirakı ilə, dövlət bayrağının gətirilməsi ilə, dövlət himninin çalınması ilə, andiçmə mərasimi ilə, vəzifəni təsdiq edən sənədin verilməsi ilə və s. təntənəli bəzənmiş sarayda keçirilir; 2) elmi, bədii, musiqi əsərinin geniş insan kütləsinə rəsmi təqdimat mərasimi. 3) Qədim Romada dini mərasimlərlə müşaiyət olunan, avqurlar (müqəddəs kollegiya) tərəfindən keçirilən, kimisə vəzifəyə təyin olunmasına və ya hər hansısa yaşayış məntəqəsinin müəyyən təyinat verilməsinə yönəlmiş təntənəli akt.

**İNDİGENAT** - konkret şəxsin (insanın), beynəlxalq hüququn subyekti olmamasına baxmayaraq, beynəlxalq konvensiyalardan və digər aktlardan irəli gələn hüquqlardan istifadə edə bilməsini bildirən beynəlxalq hüquqi termin.

**İNDEKS** (latın *index* – göstərici, siyahı) – siyahı, cədvəl göstərici; adlar, sərlövhələr və s. göstəricisi, siyahısı; hərflərdən, rəqəmlərdən, yaxud hər ikisinin qarışığından alınan şərti işarələr sistemi. Bu və ya digər hadisələrin (o cümlədən, iqtisadiyyatda) dəyişkənliyini xarakterizə edən statistik göstərici; hər hansı iqtisadi hadisənin ardıcıl dəyişmələrini faizlə ifadə edən rəqəm, o cümlədən: istehsalat İ.-i; mal mübadiləs (xarici ticarət) İ.-i; qiymət İ.-i. və s.

**İNDEMNİTET**(ingilis *indemnity*) - bax *kompensasiya.*

**İNFLYASİYA** (latın *inflatio* – hədsiz artırılma, şişirtmə) – Hökumətin apardığı səhv iqtisadi siyasəti nəticəsində, ağır sosial-iqtisadi, siyasi nəticələrə gətirib çıxaran makroiqtisadi tənəzzül, o cümlədən, tədavüldə olan pul kütləsinin (xarici valyuta ilə müqayisədə) dəyərinin, alıcılıq qabiliyyətinin düşməsi, ümumi qiymətlərinin artması. İ.-nı oyadan səbəblər kimi, müharibələri, havaların quraqlıq keçməsini (və digər iqlim pozuntularını), xarici intervensiyanı (diversiyanı), inhisarçılığı, dövlət xərclərinin gəlirləri üstələməsini, dövlət vəsaitlərini az və ya çox qeyri-gəlirli sahələrə həddənziyadə xərclənməsi və s. göstərmək olar. Son nəticədə İ. vətəndaşların yaşayış səviyyəsinin, dövlətin müdafiə qabiliyyətinin düşməsinə və ümumiyyətlə inkişafın ləngidilməsinə gətirib çıxarır. *Hiper İ.-siyanın* – İ. - nın apogeyidir. İ.-nın qarşısını almaqdan ötrü *deflyasiya* siyasəti yürüdülür.

**İNFORMASİON CƏMİYYƏT** (rus analoqu *информационное общество*, ingilis analoqu *information society*) – informatikanın və informasiyanın ictimai həyatın demək olar ki, bütün sahələrinə (siyasətə, iqtisadiyyata (kommersiyaya), elmə, mədəniyyətə və s.) güclü təsirinin artmasını xarakterizə edən, artıq bütün Bəşəriyyətə israr edən, inkişaf etmiş cəmiyyətlərdə, dövlətlərdə xüsusi vüsət alan ictimai orqanizm anlayışı; cəmiyyətin çoxməlumatlı olmasını və hətta cəmiyyətin informasiya üsul və vasitələrilə idarəolunmasını izah edən anlayış. Bəşəri tarixin son dövründə, ilkin kompyuterlərin ABŞ-da və İngiltərədə (1944-1946) yaradılmasından başlayaraq, səmaya kosmik aparatların buraxılmasından keçərək və, nəhayət müasir internetin və texnologiyanın inkişafının yüksək mərhələsinə çatmasına qədər – İ.C.-ə gedən yolda böyük addım atmışdır. Hesab olunur ki, cəmiyyətin "informasiyalaşması" onun bir-çox problemlərinin həllinə səbəbdir, lakin skeptiklər bunda, hətta təhlükənin mövcudluğunu (o cümlədən: "informasion müharibə, terrorizm" hətta "informasion diktatura") israr edirlər.

**İNFORMASİON TƏHLÜKƏSİZLİK** (rus analoqu *информационная безопасность*, ingilis analoqu *information security*) – yalan məlumat ötürmək, məlumatı dağıtmaq, müvafiq icazə olmadan ondan (məlumatdan) istifadə etmək, onu açıqlamaq, dəyişdirmək, məlumatı itirmək və s. mənfur hallardan qorunmaq məqsədilə dövlət, cəmiyyət təhlükəsizlik əhəmiyyətli məlumatların, *dövlət sirrinin,* eləcə də məlumat vasitələrinin dövlət tərəfindən müxtəlif üsul və vasitələrlə mühafizə edilməsi. Burada "müxtəlif üsul və vasitələr" deyəndə, müvafiq təşkilati fəaliyyət kompleksi, eləcə də *feldyeger xidməti* institutunun yaradılması, bundan savayı, mürəkkəb şifrə kodunun və kriptoqrafiq vasitələrin tətbiqi və s. başa düşülür. Lakin, ən vacib vasitə İ.T.-i pozmaya görə, cinayət məsuliyyətinin tətbiqidir. İ.T. məsələsi - müharibə dövründə, ictimai-siyasi münasibətlərin aktivləşməsi, gərginləşməsi və digər kritik, krizis vəziyyətlərində xüsusilə aktualdır. Yeri gəlmişkən, saxtakarlıq (seçki saxtakarlığı) İ.T.-yə vurulan zərbələrdən biridir.

İ.T. institutu, eyni zamanda sahibkarlıq və biznes sahələri üçün də özünəməxsus şəkildə aktualdır.

**İNFORMASİYA MÜHARİBƏSİ** (latın *informatio* – izahetmə, şərhetmə) – rəqib (düşmən) siyasi subyektlərin (dövlətlərin, xalqların, siyasi partiyalar və digər ictimai siyasi təşkilatların) kütləvi informasiya vasitələrindən (KİV) o cümlədən, mətbuatdan və elektron informasiya vasitələrindən istifadə etməklə, biri-birini cəmiyyət içərisində və ya beynəlxalq ictimaiyyət arasında rüsvay etmək, gözdən salmaq, hətta psixoloji təsir göstərməklə zəiflətmək, səhv addımlara sövq etdirmək, o cümlədən, müqavimətdən çəkindirmək və s. məqsədlərini güdən – informasion – siyasi fəaliyyət. İ.M.-də bir sıra üsuldan istifadə edilir: qarşı tərəfi ifşa etməkdən ötrü – onun barəsində doğru (bəzən şəxsi) məlumatların

mübarizə aparılmasından ibarətdir. "İ.-un" daimi iqamətgahı (mənzil-qərargahı) Parisdə (Fransa) yerləşir, üzv olan ölkə-lərdə isə, Milli mərkəzi büroları yerləşir.

**İNTERVENSİYA** (latın *interventio*-müdaxilə, zorla girmə) – beynəlxalq hüquqa, onun prinsip-lərinə məhəl qoymayaraq, dövlətin suveren hüquqları ilə hesablaşmayaraq bir və ya bir qrup dövlətin başqa bir dövlətin daxili işlərinə və yaxud onun başqa (üçüncü) dövlətlərlə qarşılıqlı – münasibətlərinə kobudcasına və hətta zorakılıq vasitələrilə müdaxilə etməsi. İ.-nın siyasi (diplomatik), iqtisadi və hərbi növləri elmə bəllidir. "Daxili işlərə qarış-mama" prinsipinə müvafiq olaraq heç hansı dövlət(lər) hər hansı səbəblər ilə başqa dövlətin daxili işlərinə bilavasitə və ya dolayı yollarla müdaxilə edə bilməz(lər). Buna görə də, bir (və ya bir neçə) dövlətin başqa dövlətin müstəqilliyinə və ya ərazi bütövlüyünə qarşı yönəlmiş hərbi müdaxilə, başqa növ müdaxilə və müdaxilə təhdidi (təhlükəsi) beynəlxalq hüququn və BMT-nin Əsasnaməsinin pozulması deməkdir. İ. beynəlxalq sanksiyalarla cəzalandırılır.

**İRQ(LƏR)** (rus analoqu *раса,* fransız analoqu *race*) - dünyanın müxtəlif regionlarında tarixən əmələ gəlmiş, ümumi özünəməxsus bioloji mənşəli insan qrupları. İ. əsasən xarici görünüşə aid irsi əlamətlərin kompleksi ilə fərqlənir. Ən mühüm irqi əlamətlərə: bədəndə dərinin rəngi; tük örtüyünün inkişaf dərəcəsi; saç və göz bəbəyinin rəngi; başın, üzün və onun müxtəlif hissələrinin (burun, dodaq, qulaq və s.) sifət quruluşunun formaları aiddir. Antropologiya elmi bütün insanları üç böyük İ.-ə bölür: *avropoid, neqroid* və *monqoloid.* **İRQÇİLİK** (rus analoqu *расизм*) insanları irqi mənsubiyyətlərinə görə biri-birindən fərqləndirən, bir irqi digər irqdən (irqlərdən) üstün tutan, irqlər (xalqlar, millətlər) arasında nifaq salan elmə zidd, mürtəce nəzəriyyə; insan irqlərinin fiziki və psixiki qeyri-bərabərliyi həlledici təsiri haqqında müddəalara əsaslanan mürtəce konsepsiyaların məc-musu; insanları irqi mənsubiyyətinə görə təqib, təhdit, istismar etmək, əzab versək və hətta fiziki baxımdan həlak etmək məqsədlərini güdən cinayətkarcasına qeyri-qanuni (siyasi) praktika. İrqi bərabərsizlik haqqında ilk təəsüratlar insanlarda hələ quldarlıq cəmiyyəti dövründə oyandı. İ. ideologiyası kolonial işğalçılıq və ilkin kapitalın yığılması dövründə formalaşmağa başladı, həmin (İ.) ideologiyasının baniləri J. - A. Qobino, J.B.V. de Lapuj, X. Günter, O. Şpenqler və digərlərdir. İ. insanların ictimai mahiyyətini onların bioloji (bioloji İ.) və psixoloji (psixoloji İ.), irqi əlamətlərinə müncər edir və ixtiyari olaraq irqləri "ari ali" və "aşağı" ("tamdəyərli" və "natamamdəyərli") irqlərə bölür, guya ki, birincilər sivilizasiyanın (mədəniyyət) yaradıcılarıdır və hökmranlıq üçün yaranıblar; ikincilər isə, yaradıcılığa və ali mədəniyyətin mənimsəməsinə qadir deyillər və istismar üçün yaranıblar. Lakin bu, elmi baxımdan yalnış mövqedir, çünki insanların (xalqların, millətlərin) inkişaf səviyyəsi onların irqi mənsubiyyətindən deyil, məhz inkişaf üçün münbit şəraitindən, mühitindən asılıdır. Nəzərə alanda ki, İ.-quldarlıq, müharibələr, kolomial zəbtlər, istis-marçılıq, talançılıq və nəhayət, ilkin kapitalın yığılması dövründə meydana gəlməsi və inkişafı dövrünə təsadüf etmişdir, deməli buradan nəticə hasil etmək olar ki, İ. gəlirin, mənfəətin əldə etməsinə xidmət edən ideoloji əsaslandırma funksiyasını daşıyırdı. Yeri gəlmişkən, Almaniyada Hitlerçi faşistləri. Cənubi-Afrika Respublikasının (CAR) aparteid siyasəti, ABŞ-da fəaliyyət göstərən Ku-Kluks-Klan terrorçu təşkilatı və s. – İ.-i özünün siyasətinin əsas xətti kimi qəbul etmişdir. Müasir beynəlxlaq və dövlətdaxitli qanunvericilik İ.-i qəti surətdə rədd edir və irqi bərabərliyi tərənnüm edir.

**İRREDENTİZM** (italyan *irredentio* – azad olunmamış, xilas edilməmiş) - dünyaya (ələlxüsus qoşnu dövlətlərə) səpələnmiş bir xalqın, millətin, etnosun bir yerə birləşdirilməsinə yönəlmiş, bu və ya digər dövlətin (xalqın, millətin, etnosun, ictimai-siyasi təşkilatın (partiyanın), hərəkatın) yürütdüyü – *milli siyasət* növü. İ. - parçalanmış xalqı (milləti, etnosu) birləşdirilməsi ilə yanaşı, onların yaşadıqları – etnik tarixi ərazilərin də birləşdirilməsini nəzərdə tutur. İ.-in bariz nümunəsi, misal üçün: Almaniya dövləti tərəfində - dünyada yaşayan (səpələnən) bütün almanların öz tarixi vətəninə (Almaniyaya) daimi yaşaması üçünü dəvət etməsini; eyni siyasəti, lakin yəhudi xalqına münasibətdə - İsrail dövlətini – göstərmək olar. İ. ilk olaraq tarixlə, etnik italyanların yaşadıqları, İtaliya ilə həmsərhəd olan Avstro - Macarıstan torpaqlarının – İtaliyaya birləşdirilməsi hərəkatı kimi meydana gəlmişdir.

**İRTİCAÇILIQ** (latın analoqu *reactio, re*-burada əks hərəkəti bildirən önlük və *actio* - fəaliyyət, hərəkət sözlərindən) – mürtəce siyasət tərəfdarlığı, mütərəqqilik düşməni, cəhalətpərəstlik; öz dövrünü yaşamış (keçmiş) sosial baxışları, mövqeləri saxlayıb – qorumaq və bərkitmək naminə, ictimai proqresə (inkişafa) aktiv surətdə müqavimət göstərmə. İ.-inqilabi dəyişikliklərlə, demokratik islahatlara, milliazadlıq hərəkatlarına qarşı mübarizədə, eləcə də köhnə siyasi-iqtisadi bürokratiyanın baş qaldırması ilə bərabər, köhnə idarəçilik institutların (ola bilsin yeni adla) yaradılmasında, köhnə təzyiq metodlardan (o cümlədən, repressiv metodlardan) istifadə etməklə, "demokratik" hüquq və azadlıqların dəf edilməsində, proqressiv (konstruktiv) siyasi və ictimai təşkilatların, siyasi fəalların təqib və təhdidində, kütləvi terror və zorakılıqda, milli və irqi diskriminasiyada (ayrı-seçkilikdə), aqressiv xarici siyasətin yürüdülməsində və s. özünü biruzə verir. İ. siyasəti yürüdən siyasi qüvvələr öz mövqelərini bərkitmək naminə, siyasi, iqtisadi istalatları ləkələmə, gözdən salmaqla: "keçid dövrü"; "müvəqqəti çətinliklər"; "maliyyə



çatışmamazlığı" "uğurlu siyasət" və digər bunun kimi tezimlərdə spekulyasiya etmələri mümkündür. Odur ki, İ.-i şanlı, alovlu bəyannamələrdə, çıxışlarıda, verilən vədlərdə deyil, məhz real praktiki fəaliyyətin nəticələrində axtarmaq labütdür. İ.-nın son həddi *faşizmdir.* Bax həmçinin *obskurantizm.*

**İSLAM KONFRANSI TƏŞKİLATI (İKT)** - xalqının (vətəndaşlarının) əksəriyyətinin müsəlmanlar təşkil edən dövlətlərin, dövlətlərarası təşkilatı, Fələstin Azadlıq Təşkilatı (FAT) da İKT-nin üzvüdür. 1979-cu ildə Misir İsrail dövləti ilə separat müqavilə imzaladığına görə İKT-dən xaric edilmişdir, lakin 1984-cü ilə Misirin üzvülüyü bərpa edilmişdir. Hər bir müsəlman dövləti İKT üzvlərinin 3/2 səs çoxluğu ilə ona (İKT) üzv ola bilər. Bir sıra dövlətlər (misal: Rusiya) İKT-də məşvərətçi statusuna malikdirlər. Müsəlman ölkələrinin dövlət və hökumət başçılarının ilk konfransı 1969-cu ilin sentyabr ayında Rabat (Mərəkkeş) şəhərində baş vermişdir, rəsmi olaraq isə, İKT-ı, müsəlman dövlətlərinin xarici işlər nazirliyinin üçüncü konfransında 1972 fevral-mart aylarında, Ciddə (Səudiyyə Ərəbistan) şəhərində təsis edilmişdir. İKT Nizamnaməsinə uyğun olaraq, əsas məqsədləri: üzv-dövlətlər arasında müsəlman həmrəyliyini təsdiq etmək; onlar arasında iqtisadi, sosial, mədəni, elmi və digər vacib fəaliyyət sahələrində əməkdaşlığı bərkitmək; üzv-dövlətlər arasında məşvərət keçirmək; bütün növ neqativ halları (o cümlədən: diskriminasiya, seqreqasiya, müharibə, işğal və s.) dəf, təsviyyə etmək; haqq-ədalət timsalında beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün bütün zəruri tədbirləri həyata keçirmək; müqəddəs yerlərin qorunub-saxlanılması üçün birgə fəaliyyəti koordinasiya etmək (istiqamətləndirmək); müsəlman dövlətlərinin, xalqlarının müstəqilliklərinin, hüquqlarının, şərəf və ləyaqətlərinin qorunub-saxlanılması uğrunda mübarizə aparmaq və xüsusi olaraq; Fələstin xalqının hüquqlarının bərpası, torpaqlarının azad olunması naminə səy göstərmək və s. ibarətdir. İKT-Fələstin, Əfqanistan, İraq, Dağlıq Qarabağ və s. məsələlə-rinə öz töhfələrini vermişdir. Yaxın Şərq konfliktin nizamlamasına, İran-İraq müharibəsinin sona çatmasına, Fars körfəzi ətrafında gərginliyin azalmasına xidmət göstərmişdir. İKT orqanları bunlardır: kralların, dövlət və hökumət başçılarının konfransı (Ali Orqan); üzv-dövlətlərinin xarici işlər nazirlərinin konfransı və; Alı Katiblik. İKT-nin Nizamnaməsində xüsusi qeyd edilir: "Qütsün azad olunmasına qədər (İKT-nın) Ali katibliyinin mənzil-qərərgahı Ciddədə yerləşir".

**"İSTİ PUL"** (ingilis analoqu *hot money*) - yüksək gəlirli faiz normalarından, yaxud valyuta kursunun dəyişməsini qabaqcadan görməklə gəlir əldə edilməsi məqsədilə, kapitalın ölkədən-ölkəyə axını.

**"İSTİ TƏQİB"** (ingilis analoqu *hot pursuit*) - dənizdə təqib olunan və hər hansı dövlətin ərazi sularında, cinayət törətdikdən sonra isə açıq dənizdə gözdən itən, gəmini tutub – həbs etməyə icazə verən hüquqi doktrina. Termin, həmçinin quru sarhədləri qeyri-qanuni olaraq keçən şəxslərin hərəkətlərini qeyd etmək üçün istifadə edilir.

**İŞĞAL** (hərbi işğal) (ərəb; latın analoqu *oc-cupatio*) - ağır beynəlxalq cinayətlərdən biri; bir (və ya bir neçə) dövlətin silahlı qüvvələri tərəfin-dən beynəlxalq (ictimaiyyətin) sanksiyası olmadan, başqa bir dövlətin (tam və ya qismən) ərazilərinin aşkar formada müvəqqəti zəbt etməsi (bütöv və ya qismən) xalqının əsarətə alınması. İ. olunmuş əra-zilərdə həmin dövlətin idarəçiliyi və ümumiyyətlə fəaliyyəti əslində dayandırılır və idarəçilik İ.-çı qoşunların hərbi komandanlığı tərəfindən həyata keçirilir. İ., bir qayda olaraq, digər cinayətlərlə (qarət, zorakılıq, bəzi hallarda isə, etnik təmizləmə və genosid və s.) bərabər icra edilir. İ. özü-özlüyündə beynəlxalq cinayət olsa da, İ. rejimi, müharibə qanun və qaydaları, mülki vətəndaşların və əsirlərin müdafiəsi beynəlxalq konvensiyalar tərəfindən nizamlanır, o cümlədən: (1899 və 1907-ci illər) Haaqa, (1949-cu il) Cenevrə Konvensi-yaları İ.-cı dövlətlərə İ. rejiminə dair beynəlxalq hüquqi pozmuş dövlətlər siyasi, maddi və mənəvi məsuliyyət daşıyırlar, bilavasitə təqsirkar fiziki şəxslər isə cinayət məsuliyyətinə cəlb olunurlar.

**İŞLƏR VƏKİLİ** – elçidən bir rütbə aşağı diplomatik nümayəndə. Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasına müvaf-iq olaraq iki növ statuslu İ.V. mövcuddur: *Daimi İ.V.* – III dərəcəli diplomatik nümayən-dədir, o, dövlət, bəzi hallarda (hökumət) başçısı yanında deyil, məhz xarici işlər naziri yanında akkredit-asiya edilir və "etimatnamə" əvəzinə gəldiyi ölkənin xarici işlər nazirinə (adətən şəxsən və bilavasitə "şəxsi notası" ilə) öz vətəndaşı olduğu (göndərdiyi) ölkənin Xarici İşlər Nazirinin məktubunu təqdim edir. *Müvəqqəti İ.V.* isə öz ölkəsinin xaricdə mövcud olan diplomatik nüma-yəndəliyinin başçısı (müvəqqəti) olmadıqda, onu (müvəqqəti) əvəz edir.

**İTTİFAQ** (birlik) - 1. iki və ya bir neçə şəxsin, qrupların, partiyaların, cəmiyyətlərin, xalqların möhkəm birliyi; hərnin subyektləri özündə cəmləşdirən təşkilat, birlik; 2. ümumi (siyasi, iqtisadi (maliyyə), hərbi və s. məqsədlərə nail olmaqdan ötrü bir sıra dövlətin ümumi fəaliy-yətlərini koordinasiya etməsindən ötrü, rəsmi surətdə tərəflər arasında imzalanmış (yəni tərəf-lərin öhdəliklərinə müəyyən səlahiyyətlər və funk-siyalər düşən) – könüllü birlik; 3. bir sıra dövlətin (xalqın) vahid Ali hakimiyyətli dövlət daxilində birliyi (misal Sovet İ.-ı). Bax həmçinin federasiya; 4. (1905-ci il noyabr – 1906-ci illərdə bakıda yaradılmış və fəaliyyət göstərmiş) – Azərbaycanda eser təşkilatı; 5. 1908-09-cu illərdə Bakıda H.M.Vəzirovun redaktorluğu ilə nəşr edilmiş gündəlik ictimai, iqtisadi və ədəbi qəzet; 6. *İ.Məc-lisi* –

İsveçrədə əhali tərəfindən 4 il müd-dətinə seçilən, bərabərhüquqlu iki palatadan (Milli Şura və Kontonlar Şurası) ibarət olan Ali federal qanunvericilik orqanı. O. İ. Şurasının üzvlərini, İsveçrə Prezidentini və vitse-prezidentini, ordu baş komandanını və başqalarını seçir, xarici əlaqələr, büdcənin təsdiq edir, Ali ədliyyə nəzarəti və s. də Məclisinin səlahiyyətinə aiddir; 7. *İ. Şurası* – İsveçrədə Ali Federal İcra Hakimiyyəti orqanı, Federal Hökumət; 8. *İ.-i müslimin* – 1905-ci ilin avqustunda Rusiya müsəlmanlarının I-ci qurul-tayında (Nijni Novqorod) təsis edilmiş və 1974-cü ilə qədər fəaliyyət göstərmiş, 15 nəfərdən ibarət daimi bürosu olmuş - ümumrusiya müsəlmanları I.-i; 9. (qramatikada) bağlayıcı. 10. *Həmkarlar İ.-i* bax *həmkarlar ittifaqı*.

**İZOLYASİONİZM** (fransız *isolation* – ayırma, təcridetmə) – bir siyasi subyektin (xalqın, dövlətin) - başqa siyasi subyektlərlə münasibətlərin və əlaqələrinin məhdudlaşdırılmasına və ümumiyyətlə kəsilməsinə yönəlmiş davranış növü. İ. könüllü surətdə (yəni siyasi subyektin özü tərəfindən) və məcburi surətdə, (yəni siyasi subyektə qarşı başqaları (başqa siyasi subyektlər) tərəfindən tətbiq olmaqla) baş verir. İ.-ticarət sanksiyalarında, viza rejiminin sərtləşdirilməsində, informasiya və hərbi blokadalarda, mədəni kontaktların kəsilməsində və s. (yəni iqtisadi, siyasi, hərbi və s.) sahələrdə özünü biruzə verir. *ABŞ-ın İ. siyasəti* – 1) XIX əsrin ortalarından ABŞ-ın Böyük Britaniya müstəmləkəçiliyindən qorunması naminə Avropa işlərinə qarışmamaq, Amerika qitəsindən kənarda silahlı münaqişələrə qarışmamaq ideyası əsasında siyasəti; XIX əsrin sonundan – geniş ictimai hərəat; 2. XX əsrin ortalarından, yəni İkinci Dünya Müharibəsindən sonra Sovet İttifaqına qarşı yürütdüyü siyasət; 3. Müasir dövrdə "izqoy dövlətlərinə" qarşı yürütdüyü siyasət.

# K

---

**"KALVO VƏ DRAQO DOKTRİNASI"** (Argentina hüquqşünası və diplomatı K Kolvo və Argentina xarici işlər naziri L.M.Draqonun soy adlarından) - bir dövlətin borcuna görə ona qarşı digər (xarici) dövlətin diplomatik və ya hərbi müdaxilə edilməməzliyin yolverilməzliyi haqqında doktrina. Doktrinaya uyğun olaraq: "Hökumət – dövlətdaxilindəki hərcmərclik və ya vətəndaş müharibəsi nəticəsində - xarici dövlətlərə dəymiş ziyana görə - həmin (xarici) dövlət qarşısında heç bir məsuliyyət daşımır. Bu şərtlə ki, hərcmərclik və ya vətəndaş müharibəsi – Hökumətin ucbatından baş verməsin" deyilirdi. Müasir dövrdə Monako və Lixtenşteyn monarxları – K. titulunu daşıyırlar.

**KAMPANİYA** (fransız *campagne* – səyahət, yürüş) – müəyyən məqsədli siyasi aksiya: 1) hərbi yürüş; sülh dövründə və ya müharibənin gedişi arenasında konkret məqsəd və müddətli hərbi əməliyyatlar məcmusu, misal: 1991-ci ildə beynəlxalq hərbi qüvvələrinin "İraq K." İkinci Dünya Müharibəsində "yay K.-sı"; 2) konkret məqsədli, müddətli və müddətsiz ictimai-siyasi tədbirlər sistemi, o cümlədən: seçki K.-sı, təbliğat K.-sı, mitinqlər K.-sı, təzyiq K.-sı və s.

**"KANONERKALAR DİPLOMATİYASI"** (fransız *canonniere* – dayazlıqlarda fəaliyyət göstərən, gözlənilmədən bu və ya digər sahildə görünən kiçik hərbi gəmi) - hərbi güc tətbiqi ilə daimi hədə-qorxuya söykənən, güc ilə təzyiqə və şantaja əsaslanan diplomatiyanın mücərrəd anlayışı. Belə görünmələrdən sonra danışıqları kanonerkaların bütün artileriya gücünün tətbiqi hədə-qorxusuna istinad olunmaqla aparılırdı. XX əsrdə dünyanın bu və ya digər regionunda siyasi təzyiq göstərmək üçün öz hərbi donanmasının gücündən istifadə edən ABŞ, bu cür ("K.D.") siyasəti yürüdülməkdə fərqlənirdi.

**KANSLER** (alman *Kanzler*, latın *cancellarius*) – tarixdə və müasir dövrdə bəzi dövlətlərdə yüksək vəzifəli şəxslərin və ya məmurların statusu: 1) orta əsr Avropa dövlətlərində möhürdar, kral dəftərxanasına və arxivinə başçılıq etmiş şəxs; 2) Çar Rusiyasında dövlət K.-i yüksək mülki rütbə; - general-feldmarşal rütbəsinə müvafiq idi; 3) Almaniyada (1871-1945-ci illər) hökumət başçısı *reyxkansler* adlanırdı; 4) AFR və Avstriyada federal K. - hökumət başçısıdır; 5) Böyük Britaniyada xəzinədarlıq K.-i (maliyyə naziri); Lord K. isə hökumətin Ali hüquqi məsləhətçisi olmaqla yanaşı həm lordlar palatasının, həm də Ali Məhkəmənin sədridir; Lankastor hersoqluğunun K.-i (portfelsiz nazir); 6) İsveçrədə ittifaq K.-i İttifaq Məclisi və İttifaq Şurasının rəhbəridir.

**"KAPİTAL QAÇIŞI"** - dövlətin və ya iri maliyyə-kredit təşkilatının apardığı uğursuz, səhf malyyə-iqtisadi siyasəti, rəqabətə davam gətirə bilməməsi və ya dövlətdə mövcud olan qeyri-sabitlik, müharibənin və ya inqilabın mövcudluğu və ya gözlənilməsi nəticəsində, onlara münasitdə etibarın, inamın düşməsi, itməsi nəticəsində, sərmayəçilərin öz sərmayə-əmlaklarını itirilməməsi məqsədilə öz capitallarını (ola bilsin müəyyən itgilər hesabına) adı-gedən dövlət və ya maliyyə-kredit təşkilatlarının



sərmayə fondundan çıxardaraq başqa dövlətlərin və ya maliyyə-kredit təşkilatlarının sərmayə fonduna daxil etməsi ilə müşahidə olunan beynəlxalq və ya dövlətdaxili, makro-iqtisadi, iri miqyaslı kapitalın miqrasiyasının şərti adı.

**"KAPİTALIN AXINI"** - dövlətin və ya iri maliyyə-kredit təşkilatının apardığı uğurlu maliyyə-iqtisadi siyasəti nəticəsində, onlara münasibətdə etibarın, inamın artması nticəsində, sərmayəçilərin daha yüksək və təminatlı qazanc əldə etmək məqsədilə öz kapitallarının başqa qurumlardan çıxardaraq, adıgedən dövlət və ya maliyyə-kredit təşkilatlarının sərmayə fonduna daxil etməsi ilə müşahidə olunan beynəlxq və ya dövlətdaxili, makroiqtisadi, iri miqyaslı kapitalın miqrasiyasının şərti adı.

**KAPİTALIN ÇIXARILMASI** - maddi və ya iqtisadi-siyasi dividentlər əldə etmək məqsədilə bir dövlətin və ya onun işgüzar vətəndaşlarının, bəzi hallarda beynəlxalq maliyyə-kredit təşkilatlarının öz kapitallarının başqa dövlətin iqtisadiyyatına qoyuluşu. K.Ç. iki əsas formada baş verir: sahibkarlıq fəaliyyət (bir başa və ya "portfel" sərmayələri vasitələrilə istehsalat, xidmət, kənd təsərrüfatı və s. obyektlərin tikilməsinə və ya tikilmişlərin alınmasına yönəlmiş kapital qoyuluşu (burada "portfel" sərmayəsi deyəndə, tam nəzarət hüququ verməyən müəyyən paya sahib çıxması başa düşülür) nəticəsində və borc (ssuda) kapitalı nəticəsində (son nəticədə) K.Ç. ikinci, "üçüncü" dövlətlərin ucuz xammalının və əmək qüvvəsinin sayəsində böyük mənfəət əldə etməsinə, öz təsir dairələrinin artmasına, həmin ikinci "üçüncü" dövlətlərin borc asılılığına və beynəlxalq münasibətlərdə gərginliyin artmasına gətirib çıxardır. Bir sıra dövlətlər (əksər dövlətlər) K.Ç.-na müəyyən məhdudiyyətlər qoyur.

**KAPİTALIN KONSENTRASİYASI** (son latın *concentratio* – toplama, cəmləmə) - (kapitalın təmərküzləşməsi) – mükkəməl qurulmuş iqtisadi siyasət nəticəsində: doğru sərmayə qoyuluşu, istehsalat qüvvələrinin artırılması, istehsalatın texniki səviyyəsinin artırılması, elmi-texniki nailiyyətlərin cəlb edilməsi, istehsal olunan məhsul vahidinə xərclənən məsrəflərin azaldılması və s. nəticəsində rəqabətin udulması, rəqibləri bazardan sıxışdırıb çıxarılması vasitəsilə kapitalın artırılması (təbii yol); iri kapitalların birləşməsi (süni yol) və dövlət qanunlarınını boşluqlarından istifadə edərək (dövlətin apardığı səhv, yalnış iqtisadi "anti-inhisar" siyasəti nəticəsində) iqtisadi dövriyyədə olan kapitalın böyük bir hissəsinin bir və ya bir qrup inhisarçının əlində cəmləşməsi. K.K. – *inhisarçılıqla* sıx bağlıdır. Subyekt baxımından K.K.- bir şəxsin, iqtisadi məqsədli birliyin, maliyyə oliqarxların, beynəlxlaq maliyyə-kredit təşkilatlarının və dövlətin əlində cəmləşməsidir. K.K. müsbət və mənfi cəhətləri mövcudur: iri istehsal sahələrinin açılması, iri verginini ödənilməsi və s. – K.K. müsbət tərəfidir, lakin; inhisarçılıq, rəqabəti uduzma nəticəsində işsizliyin artması və s. – K.K. mənfi tərəfidir. Böyük kapitalın bir fərdi şəxsin əlində cəmləşməsi iqtisadi, sosial-siyasi sabitliyə müəyyən təhlükələr yaradı, çünki həmin şəxsin məqsəd və məramı doğru və dürüst istiqamətdə olması sığortalanmayıb.

**KAPİTULYASİYA** (orta latın *capitulatio, capitulare* – razılaşmaq sözündən) 1) silahlı qüvvələrin müqavimətinin dayandırılması. Müharibə dövründə müqavimət göstərməyin mənasız olduğu şəraitdə silahlı qüvvələrin, bir qayda olaraq bütün hərbi hissələrin şəxsi heyətinin əsir düşməklə və, eyni zamanda bütün silah-sursatın, hərbi mülkiyyətin, texnikanın, bazaların, istehkamların və s. düşmənin sərəncamına keçməsi. K. atəşkəsdən fərqli olaraq təslim olan tərəfin-üstün, qalib tərəflə hətta formal bərabərlik statusunun itirilməsi deməkdir; 2) müharibədə tam məğlubiyyətə uğramış tərəfin, qalib tərəfin müəyyənləşdirdiyi, irəli sürdüyü tələblərlə *qeyd-şərtsiz* təslim olması deməkdir; 3) *K. rejimi* tarixdə, bu və ya digər dövlətin ərazisində məskən salan əcnəbilərə (xarici dövlətin vətəndaşlarına) - gəldiyi dövlətin ərazisində yerli vətənlaşlarla müqayisədə üstünlük verən qeyri-bərabər müqavilələrin xüsusi növü. İlk vaxtlar K. güzəşt və imtiyazlardan ibarət olub, sonralar isə əcnəbiləri yerli dövlətin yurisdikasiyasından tamamilə azad edirdi. Bəzi hallarda K. könüllü olaraq, digər hallarda isə zorla qəbul edilirdi (etdirilirdi). Misal Türkiyədə - 1923-cü ildə, İranda 1928-ci ildə K. rejimi qəti olaraq ləğv edildi.

**KAPİTULYASİYA REJİMİ** - güclü (imperialist) dövlətlər tərəfindən - zəif (yarıkolonial) dövlətlərə qeyri-bərabər hüquqlu müqavilə əsasında qəbul etdirdikləri, öz (güclü) dövlətlərin və vətəndaşlarının (təbəələrinin) - zəif dövlətlər ərazisində xüsusi imtiyazlarını nəzərdə tutan hüquqi vəziyyət (rejim); birtərəfli imtiyaz (üstünlük) rejimi. Burada "imtiyaz" deyəndə: güclü dövlətlərin vətəndaşlarını – zəif dövlətin (ərazisində) Məhkəməsindən və idarəçiliyindın azad etməklə, onları (güclü) dövlətin Məhkəməsindən və idarəçiliyindən asılı olmasını təmin edilməsi, - konsul yuridiksiyasına tabe etdirilməsi; hətta güclü dövlətin vətəndaşlarının (təbəələrin) - zəif dövlətlərin ərazisində rahat və sərbəst yaşayıb-işləmələri üçün, xüsusi statuslu yaşayış məskənlərinin (kvartalların, məntəqələrin) salınması, bax *settlment*; güclü dövlətin vətəndaşlarının (təbəələrin) - zəif dövlətin ərazisində ya tamamilə və ya qismən vergilərdən və gömrük rüsumlarından azad edilməsi; zəif dövlətin ərazisində - güclü dövlətə məxsus dəmir yolları, rabitə (poçt) və s. obyekt sahibi olmaq hüququ və s. nəzərdə tutulur. K.R. - XX əsrin birinci yarısında Türkiyə, İran. Çin dövlətlərinə qarşı – Böyük Britaniya, Fransa, Rusiya İmperiyası, ABŞ və s. dövlətləri tərəfindən tətbiq edilmişdir.

formalaşdırır; 2) eyni məqsəd və məramlı ictimai təşkilatların ittifaqı, birliyi (misal: əmək K.-sı, Beynəlxalq həmkarlar K.-sı).

**KONFİDENSİAL** (latın *confidentia* – inam, etibar) – etibar edilmiş, inanılmış, məxfi, sirrli, açıqlanmasına yol verilməyən.

**KONFLİKT** (latın *conflictus* – toqquşma; ərəb analoqu münaqişə, ixtilaf) – mürəkkəb sosial-siyasi proseslərin inkişafında ortaya çıxan, biri-birinə zidd olan mövqelərin, maraqların, tərəflərin, qüvvələrin heç bir güzəştsiz (kompromissiz) toqquşması, mübarizəsi, mübahisəsi; qarşılıqlı nifrət və qəzəblə mürəkkəbləşmiş kəskin çəkişmə, ciddi ixtilaf. *Açıq müharibə* - K.-in son mərhələsidir. K.-in çözülməsi, neytral vəziyyətə gətirilməsi və, hətta tərəflərin barışdırılması dərin zəka, bilik, bacarıq və gərgin əmək tələb edir.

**KONFRANS** (son latın*conferentia*, latın *confero* – bir yerə yığıram sözündən) - hər hansı bir məsələni müzakirə etmək üçün Hökumət orqanlarının, siyasi partiy və blokların, ictimai, elmi və s. təşkilatların nümayəndələrinin yığıncağı, müşavirəsi; *mətbuat K.-ı* fərdi şəxsin və ya dövlət orqanın, partiyanın, digər ictimai birilyin nümayəndəsinin həmin nümayəndəsi olduğu orqanın, təşkilatın fəaliyyəti barəsində, kütləvi informasiya vasitələrinə (KIV) geniş şəkildə müsahibə verməsi.

**KONFRONTASİYA** (fransız *confrontation* – bir-birinə qarşı qoyma, latın *cum*-birlikdə, əleyhinə və *frontis*-alın, cəbhə) - (qarşıdurma) - müxtəlif dövlətlərin, xalqların, siyasi quruluşların, siyasi-ideoloji prinsiplərin, sosial sistemlərin, mənafelərin və s. bir-birinə qarşıdurması. K.-nın təməli fikir ayrılığından, ziddiyyətli baxışlarıdan qaynaqlanır. Konflikt və müharibə – K.-dan sonra gələn mərhələdir, lakin K.-nın məğzi – sərt, qatı rəqabətdən irəli gəlir, tərəflərin biri-birinə "güc" göstərmək, hədələmək, qorxutmaqdan ibarətdir. K. termini "soyuq müharibə" illərində meydana gəlmişdir.

**KONKORDAT** (son latın *concordatum* - müqavilə, saziş, *concordare* - razı olmaq sözündən) Müqəddəs Taxt-tac (Vatikan) Roma papalığı ilə ayrı-ayrı dövlətlərin Hökumətlərinin arasında, həmin dövlətdə katolik kilsənin vəziyyəti, onun hüquq və vəzifələri (ailə-nigah münasibətləri, təh-sil məsələləri və s.) haqqında müqavilə. İlk K. (Vorms K.-ı) 1122-ci ildə Papa ilə Almaniya imperatoru arasında imzalanmışdır. 70-80-cı illərdə bir sıra dövlətlərlə əvvəllər bağlanmış K.-lar təzədən nəzərdən keçirilmişdir. Misal: 1984-1985-ci illərdə İtaliya ilə K.

**KONQRES** (latın *congressus* – görüş, yığıncaq) – 1) dövlət, ərazi, təşkilat, birlik(lər) rəhbərlərininin və yaxud səlahiyyətli nümayəndəlrinin müəyyən məqsədlərdən ötrü adətən geniş heyətli yığıncağı, toplantısı, həmçinin beynəlxalq konfransın bir növü (sülh tərəfdarlarının dünya K.-i, elmi K., və s.); 2) ABŞ və bir sıra Latın Amerikası ölkələrinin (Boliviya, Braziliya, Venesuella, Kolumbiya, Meksika, Honduras və s.) Ali Qanunverici orqanın və ya (əgər ikipalatalı sistemdirsə) aşağı palatasının adı. Fransada Parlamentin hər iki palatasının birgə iclası K. adlanır; 3) Bir sıra dövlətlərdə, xalqlarda siyasi partiyaların, milli təşkilatların adı.

**KONSENSUS** (latın *consensus* – razılıq, birlik, yekdillik) – 1) müxtəlif siyasi, milli, dini, sosial-siyasi və s. mənsubiyyətlərə şaxələnmiş cəmiyyətin fərqli və hətta rəqib mövqeləri təmsil etmələrinə baxmayaraq, ümumi maraqlara səbəb olan məsələlər üzrə (dövlət quruluşu, inkişaf istiqaməti, sabit-lik, qayda-qanun və s.) yekdil fikrə gəlməsi, yekdil mövqedə olması; 2) tərəflər arasında müəyyən müddəaların qarşılıqlı razılıq ilə qəbul edilməsi prinsipi. Burada "qarşılıqlı razılıq" deyəndə: fikir və mövqe ayrılığın aşması, birləşdirən maraq nöqtələrin araşdırıb qəbul etməsi, elə qərarların kollektiv tərəfindən qəbul edilməsi ki, tam yekdillik olmasa da, heç bir tərəfin ona qarşı çıxmaması başa düşülür. K.-sa bütün tərəflərin bütün ümumi *məsələlər üzrə fikrin, maraqların nəzərə alınmasını tələb edir, eyni zamanda hazırlıq mərhələsində* tərəflərin mövqelərinin razılaşdırıl-ması, gərginliyinin uzlaşdırılması işinin aparılma-sını tələb edir. Hazırlıq mərhələsində razılaşdırılmağı mümkün olmayan məsələlər K.-a salınmır. K. məsələnin "paket" şəkildə qəbul edilməsini tərən-nüm edir, yəni ayrı-ayrı məsələlər (bəndlər) üzrə deyil, məhz ümumi şəkildə qəbul etməsidir. Bütün tərəflərin bütün maraqları təmin edildikdə K. əldə edilir, əks halda K. mahiyyətini itirir, halbu ki səsverməklə (seçim etməklə) qəbul olunan qərarlar heç də bütün tərəflərin maraqlarını mütləq hesab etmir və bu K.-su səsvermədən fərqləndirir.

**KONSESSİYA** (latın *concessio* – icazə, güzəşt) – dövlətə və yaxud dövlət daxilində Bələdiyyəyə məxsus olan torpaqların, (yer altı) təbii sərvətlərin və digər təsərrüfat obyektlərin istifadə, istismar, quruculuq işləri və s. etməkdən ötrü müəyyən şərtlərlə yerli və ya xarici şəxslərə və ya iqtisadi qurumlara verilməsi haqqında müqavilə. K.-nın ümdə məqsədi sərmayədarları cəlb etməkdən iba-rətdir.

**KONSİSTORİYA** (latın *consistorium* – yığıncaq, məşvərət yeri) – 1)pravoslav kilsədə arxierey yanında eparxiyanı idarə edən təsisat; 2) *katolok kilsədə Roma Papası yanında kardinalların xüsusi məşvərəti;* 3) protestantizmdə kilsəvi – administrativ orqan.

**KONSOLİDASİYA** (latın *consolidatio, consolidare)* - bərkitmək, möhkəmləndirmək sözündən) – 1) vahid ideya və məqsədlər naminə mübarizənin gücləndirilməsindən ötrü müxtləlif şəxslərin, qrupların



təşkilatların, ictimai qüvvələrin birləşməsi. K. tərəflətin birgə fəaliyyətində də ifadə oluna bilər və vahid institusional təşkilatın (blok, alyans, ittifaq) formalaşması ilə də nəticələnə bilər. K. ideya və məqsədlərinə nail olunması və, eyni zamanda birgə fəaliyyətin (mübarizənin) gözlənilən effektə gətirməməsi ilə sonu yetə bilər. K. – şəxsi ambisiyaları kənara qoymaqla, ümumi maraq naminə *fədakarlıq tələb edir; 2) qısa müddətli dövlət borclarının - uzun müddətli və hətta müddətsiz borclar* kateqoriyasına keçirilməsi əməliyyatı.

**KONSTİTUSİYA** – 1 (latın *constitutio* - quruluş, müəyyən etmək) - dövlətin Əsas Qanunu, dövlətin ictimai, siyasi və iqtisadi quruluşunu, idarəetmə formasını, və dövlət quruluşu formasını, şəxsiyyətin hüquqi vəziyyətini. mərkəzdə və yerlərdə hakimiyyət orqanlarının təşkili qaydasını və konsepsiyasını, ədalət məhkəməsinin təşkilini və əsas prinsiplərini, seçki hüququ əsaslarını özündə təsbit edir. Eyni zamanda, K., dövlətin siyasi, sosial-iqtisadi inkişafı istiqamətlərini müəyyənləşdirir, dövlət və vətəndaş münasibətlərinin hüquqi əsaslarını təsbit edir, vətəndaşı sosial-iqtisadi, siyasi və digər hüquqlarla təmin edir. 2. K. – qanunvericiliyin bazisi (əsası, özülü) rolunda çıxış edir və heç bir qanunvericilik aktı K.-ya zidd gedə bilməz, qəbul olunan bütün aktlar K.-ya uyğun olmalıdır, onun icrası və ya ona riayət edilməsi K. hüququ subyektləri tərəfindən məcburidir! 3. K. xalq tərəfindən qəbul edilir və onun dəyişdirilməsinin, düzəliş və əlavə edilməsinin xüsusi mürəkkəb prosedur qaydaları vardır.

**KONSUL** (latın *konsules*, ingilis *consul*) – 1) öz dövlətinin və onun vətəndaşlarının hüquqi və iqtisadi maraqlarını qorumaq üçün başqa dövlətin bu və ya digər şəhər, yaxud bölgəsində fəaliyyət göstərməsi üçün daimi nümayəndə qismində təyin olunan – (diplomatik) vəzifəli şəxs; səfirdən aşağı, lakin adi nümayəndə və ya diplomatik kuryerdən yuxarı diplomatik ranq. K.-un təyin olunması, fəaliyyət göstərməsi, immuniteti, imtiyazları və s. məsələlər, müvafiq beynəlxalq qurumlarda (dövlətlərarası razılaşmalarda), eləcə də dövlətin daxili qanunvericilik bazası ilə tənzimlənir. K. hüququnun əsas mənbəyi Vyana (1963) Konvensiyasıdır.

**KONSUL FAKTURA HESABI** (ingilis analoqu *consular invcice*) - xarici dövlətin konsulu, onun ölkəsinə göndərilmiş malların təsdiq edilməsi faktura hesabı.

**KONSUL LEQALİZASİYASI** - konsulluq dairəsinin hakimiyyət orqanları tərəfindən qət edilmiş və ya onlar tərəfindən ərsə gətirilmiş sənədlərin, eləcə də sənədlərin mövcud olduğu (yerləşdiyi) dövlətin qanunlarına uyğun olunmasını konsulluq tərəfindən sənədlərin həqiqətə uyğun olmasını təsdiq edilməsindən ötrü –konsulun şəxsi imzası ilə və konsulluq idarəsinin (təsisatının) möhürü ilə müəyyən edilməsi (şahidlik edilməsi). Beynəlxalq münasibətlər təcrübəsində, eyni zamanda K.L. əks istiqamətdə də istifadə edilir, yəni konsulun təmsil etdiyi dövlətin sənədlərinin həqiqətə uyğun olmasını, həmin konsulun mövcud olduğu (yerləşdiyi) dövlətə təqdim etməklə təsdiqləməsi.

Əgər başqa şərt beynəlxalq müqavilələrdə və milli qanunvericilikdə nəzərdə tutulmayıbsa, dövlət hakimiyyət orqanları, yalnız K.L.-ndan sonra xarici dövlətin sənədlərini – rəsmi sənəd kimi qəbul edə bilər. Yeri gəlmişkən, dövlətin daxili (milli) qanunvericiliyinə zidd olan, dövlətin maraqlarına və beynəlxalq münasibətlərə xələl gətirən, eləcə də vətəndaşlarının şərəf və ləyaqətini alçaldan xarici dövlətin sənədləri – K.L.-na məruz qala bilməz.

**KONSUL PATENTİ** (son latın *patens, patentis* - şəhadətnamə, fərman) - xarici dövlətin Hökumətinə diplomatik və ya digər kanallarla göndərilən, konkret şəxsi konsulluq idarəsinin (təsisatının) başçısı təyin edilməsini təsdiq edən *sənəd*. K.P. - konsulu göndərən: ya dövlət, ya hökumət və yaxud xarici işlər idarəsinin (nazirliyin) başçısı tərəfindən verilir, harada ki, konsulun adı, soyadı, və atasının adı, vətəndaşlığı, konsul ranqı, eləcə də konsulluq dairəsi (konsulluğun yerləşdiyi yer) göstərilir.

**KONSULLUQ** - (latın *consu(les)* - Qədim Romada (respublika dövründə) ali seçimli vəzifəli şəxs) - dövlətin digər dövlət(lər) ərazisində (ərazi-lərində), dövlətlərin qarşılıqlı razılığı ilə müəyyən funksiyaları (o cümlədən: dövlətin, onun hüquqi və fiziki şəxslərinin hüquq və maraqlarını müdafiə edən) icra edən, konsul tərəfindən idarə edilən, xarici əlaqələr (diplomatik) orqanı.

**KONSULLUQ DAİRƏSİ** - konsulluğun *konsulluq funksiyalarını* icra etməli olduğu mövcud olduğu (gəldiyi, yerləşdiyi) dövlətin müəyyən inzibati ərazi vahidi (adətən konkret şəhər). K.D. hər iki dövlətin (həm göndərən – həm qəbul edən dövlətlərin) qarşılıqlı razılığı ilə müəyyənləşdirilir və *konsul patentində* və ya konsulun təsdiq edilməsi barəsində digər sənəddə qeyd edilir, hərçənd K.D.-nin dəyişdirilməsi, yalnız mövcud olduğu (gəldiyi) dövlətin razılığından sonra baş verə bilər.

K.D. çərçivəsində konsul öz funksiyaları ilə əlaqədar yerli hakimiyyət dairələrinə yazılı və ya şifahi formada müraciət edə bilər, Mərkəzi hakimiyyət orqanlarına isə öz dövlətinin diplomatik nümayəndəliyi vasitəsilə müraciət edə bilər (əgər digər qayda beynəlxalq müqavilə ilə nəzərdə tutulmayıbsa).

**KONSULLUQ FUNKSİYALARI** - Konsulluq idarəsinin əsas işi fəaliyyət göstərdiyi dövlətdə - öz dövlətinin, onun hüquqi və fiziki şəxslərinin hüquq və maraqlarını müdafiə etmək, dövlətlər arasında

xüsusilə də iqtisadi, ticarət, elm və texnika, mədəniyyət və s. sahələrdə dostluq və əməkdaşlıq münasibətlərini qurmaqdan ibarətdir. O cümlədən: a) öz dövlətinin hakimiyyət orqanlarını – fəaliyyət göstərdiyi dövlətin və konsulluq dairəsinin iqtisadi, ticarət, sosial, mədəni, elm və texniki həyatı ilə məlumatlandırmaq; b) konsulluq dairəsinin ərazisində olan vətəndaşlarına fəaliyyət göstərdiyi dövlətin qayda və qanunları haqqında məlumat vermək; c) konsulluq dairəsinin ərazisində olan öz dövlətinin vətəndaşlarının siyahısını tərtib etmək: d) pasport-viza işi; e) konsulluq leqallaşdırılması; ə) konsulluq sahəsi ərazisində olan öz dövlətinin hüquq və maraqlarını qorumaq; j) lazım gəldikdə (müharibə, təbii fəlakət və s.) öz dövlətinin vətəndaşlarının *evakuasiyasını* təşkil etmək və s.

**KONSULLUQ RANQLARI** - konsulların daşıdıqları vəzifəyə uyğun xüsusi xidməti rütbələr. Konsulluq əlaqələri haqqındakı 1963-cü il Vyana Konvensiyasına müvafiq K.R. 4 qrupa bölünür: baş konsul, konsul, vitse-konsul və konsul agenti.

Qaydalara görə, tərəflərin razılığı ilə konsul idarəsinin tipi-konsul idarəsinin başçısının ranqını müəyyən edir. Digər konsulluq vəzifələri daşıyan şəxslərin vahid təsnifatı yoxdur. K.R. dövlət trəfindən verilir və dövlətin daxili işidir.

Konsulluq idarəsinin başçısı fəaliyyət göstərdiyi dövlətin xarici işlər idarəsinin konsul vəzifəsi daşıyan şəxsləri (heyət) və müvafiq olaraq ranqlar haqqında məlumat verir.

**KONTİNENTAL BLOKADA** - (tarix) 1806-1814-cü illərdə bir sıra Avropa dövlətlərinin – Böyük Britaniyaya qarşı tətbiq etdikləri iqtisadi, siyasi münasibətlərin məhdudlaşdırılması sistemi – K.B.-nın təməli Napoleon Bonapart tərəfindən 27.XI.1806-cı il tarixdə qəbul edilmiş "Britaniya adalarının blokadası" haqqında dekreti olmuşdur. Dekretə görə Britaniya ilə bütün əlaqələr qadağan edilirdi; (Fransanın nəzarət etdiyi) qitə ərazisində peyda olmuş hər bir ingilis-hərbi əsir elan olunurdu və onların əmlakı müsadirə edilməli idi. Buna cavab olaraq Böyük Britaniya "kral əmri" ilə (7.I.və 11.XI.1807-ci il tarixli) neytral dövlətlərə düşmən dövlətləri ilə dəniz-ticarət münasibətlərini qadağan etdi və neytral gəmiləri Britaniya limanlarına yoxlanılması, rüsum və vergi ödəməsi üçün təhkim etdi. Buna cavab olaraq Napoleon Bonapartın 23.XI. və 17.XII.1807-ci il tarixli "milan dekreti" ilə Britaniya hakimiyyətinin sərəncamına tabe olan hər bir gəmi-düşmən gəmisinə bərabər tutulur və həbs olunmalıdır; digər (18.X.1810-cu il tarixli) dekretə görə, qitədə tapılmış bütün Britaniya malları – yandırılmalı idi.

K.B.- Avropa dövlətlərinin iqtisadiyyatına ağır zərbə endirdi və Fransanın 1813-cü ildə 6 əlehi-fransız koalisiyasına məğlubiyyətindən sonra öz aktuallığını itirdi və ləğv olundu.

**KONTİNENTAL ŞELF** (latın *continens* – qitə və ingilis *shelf* – sahilyanı rayon) – 1) qitə çöküntüləri ilə çərçivələnən, sahil dövlətə mənsub olan Dünya okeanının dib hissəsi; 2) beynəlxalq dəniz hüqu-quna müvafiq olaraq, K.Ş.-ə daxil olan eni 200 dəniz milinə və ya xarici sərhədlərə qədər uzanan okean və ya dəniz dibinin altındakı təbii sərvətlərə, sahil dövlətin suveren hüququ yayılır. O, (sahil dövlət) özü və ya onun razılığı idə həmin sərvətlər istismar oluna bilər, yeri gəlmişkən həmin suveren hüquq K.Ş. boyunca su səddinin qalınlığına (dəniz sərvətlərinə) və hava ərazisinə yayılmır.

**KONTİNGENT** (latın *contingens* – payına düşən, pay sözündən) – 1) hər hansısa bir məsələdə, münasibətdə müəyyən qrupa, kateqoriyaya mənsub olan (eyni, oxşar) insanlar məcmuəsi. misal: hərbi K., tələbə K.-i, sahibkarlar K.-i; 2) xarici iqtisadi - ticarət münasibətlərində hərhansı malların – hər hansı dövlətlər ilə ixracına, idxalına, tranzitinə hökumət tərəfindən müəyyənləşdirilən, qiymət və ya çəki vahidi ilə ifadə olunan norma, limit.

**KONTRABANDA** (italyan *contrabanda, contra* – əleyhinə, qarşı və *bando* – hökumət fərmanı) – (qaçaqmal) – əmtəələrin, qiymətli şeylərin və digər əşyaların qanunsuz olaraq (yəni gömrük, vergi, inzibati və cinayət qanunvericiliyin tələblərini pozmaqla) dövlət sərhədlərindən keçirilməsi, gömrük nəzarətindən gizlədilməsi, eləcə də belə malların dövlət ərazisində saxlanılması, daşınması, satışı. K. ilə məşğul olunan şəxslər (kontrabandistlər) törədilmiş əməlin dərəcəsinədən asılı olaraq: cərimə, müsadirə və azadıqdan məhrum etmə ilə cəzalandırılır.

**KONTRAGENT** (latın *contrahens* – saziş bağlayan, razılaşan) – saziş, müqavilə (kontrakt) bağlayan tərəfləri, həmin əqdlər bağlayan tərəflər biri-birinə - K.-dirlər.

**KONTRAKT** - (latın *contractus* - müqavilə, saziş) – səlahiyyətli iki və ya daha çox tərəf arasında, müəyyən məqsədlər güdən (iqtisadi, siyasi, hərbi və s xarakter daşıyan), əsasən yazılı, nadir hallarda şifahi formada qanunun tələblərinə cavab verən qaydasında şüurlu, könüllü surətdə bağlanan, onlar tərəfindən icrası məcburi olan (icra olunmamasına görə və ya nalayiq icra olunmasına görə müəyyən hüquqi məsuliyyətə səbəb olan) qarşılıqlı hüquq və vəzifələr yaradan hüquqi fakt.

Tərəf baxımından K.-beynəlxalq təşkilatlar, dövlətlər, hüquqi və fiziki şəxslər arasında bağlanır. K.-ın bağlanması digər tərəfə K. bağlamaq haqqında təklif "oferta" göndərişi ilə başlanır. Ofertaya verilən razılıq "aksept" adlanır və sonra K. bağlanır. Bağlanma qaydasından və tərəflər üçün hüquq və vəzifələr əmələ gətirməsi vaxtından asılı olaraq. K.-ların: konsepsual (yalnız tərəflərin razılığı ilə bağlanan); real



(razılıqla yanaşı, həm də müqavilə predmetinin faktiki olaraq başqasına verilməsi ilə bağlanan) növləri mövcuddur. Kon-kret səmərə baxımından əvəzli (alqı-satqı, xidmət və s.) və əvəzsiz (hədiyyə, mükafat və s.) növlər olur. Əmələ gətirdiyi hüquqi nəticələrdən asılı olaraq: qəti və ilkin ("fyuçers"-gələcəyə tuşlanmış "niyyət") müqavilələr növləri mövcuddur. qeyd-olunan şərtlərin əhəmiyyətinə görə, onları vacib (mütləq qeyd olunan); adi (həmin növ ictimai münasibətlər üçün tipik olan); və əlavə (təsadüfi) şərtlər kateqoriyalarına aid etmək olar.

**KONTRİBUSİYA** (latın *contributio* – bac, xərac. *contribuere* – yığmaq sözündən) 1) müharibədən sonra məğlubiyyətə uğramış dövlətdən (tərəfdən) qalib dövlət(lər)in mənfəətinə alınan, müsadirə edilən pul və ya digər maddi nemətlər; 2) işğal olunmuş ərazilərin əhalisindən işğalçılar və ya işğal olunmuş ərazilərin hakim orqanları tərəfindən qarətcəsinə yığılan, tutulan ağır vergi, töycü. K.-nı *təzminatdan* fərqləndirmək labüddür. Müasir bey-nəlxalq hüquq nəinki K.-nı qadağan edir, hələ üstəlik təcavüzə məruz qalan dövlətə *reparasiya* almaq hüququnu verir.

**KONTROL** (ingilis *control* – kontrol, nəzarət) – mahiyyəti, idarə olunan subyektin fəaliyyəti parametrinin normalara uyğun olub-olmaması, (əgər vardırsa) qüsurların üzə çıxarılması və həll edilməsi, operativ göstərişlərin verilməsindən ibarət olan idarəçiliyin aparıcı funksiyalarından biri. *Qabaqlayıcı* K. – hazırlıqlığı yoxlamaqdan ötrü, bu və ya digər əməliyyatdan öncə həyata keçirilir; *axarı* (*operativ*) K. – artıq aparılan əməliyyatın və ya ümumi fəaliyyətin qiymətləndirilməsi; lazım gəldikdə istiqamətləndiril-məsi məqsədilə, proses şəraitində həyata keçirilir; *yekun* K. isə - əməliyyatın və ya ümumi fəaliyyətin məqsədə çatıb-çatmamasını, bunun dərəcəsini araşdırmaq üçün son mərhələdə həyata keçirilir. Dövlətin işgüzar praktikasında: viza, pasport, gömrük, buxqalteriya, maliyyə, valyuta, kredit, statistik, bunlardan savayı: xalq, milli, Hökumət və s. növ K.-lara rast gəlinir.

**KONTROVERZA** (latın *controversia*) – mübahisəli məsələ, fikir ayrılığı, ziddiyyə, ixtilaf.

**KONVENSİYA** - (latın *conventio* - saziş, şərt, razılaşma) - beynəlxalq razılaşma növlərindən biri;- sadələşdirilmiş formada dövlətlərin hüquq və vəzifələrini müəyyənləşdirən, beynəlxalq hüquqi qüvvəyə malik olan, xüsusi (konkret) məsələlər üzrə beynəlxalq razılaşma. K. predmeti qismində, dövlətlər arası: poçt, rabitə, dəmiryolu, balıqçılıq, konsulluq, əmək, insan hüquqları və s. münasibət-lər çıxış edir. Müharibə qanunları və adətləri haq-qında müqavilələr də K. adlanır. Bəzi K.-lar qəbul edildikləri şəhərlərin adı və ili ilə tanınır, misal: "1982-ci il Cenevrə K.-sı", "1961 (1963, 1969, 1978) –ci il Vyana K.-ları", "1948-ci il Belqrad K.-sı" və s. K. müəyyən müddət üçün və ya müddətsiz, ikitərəfli və ya çoxtərəfli bağlanıla bilər. Çoxtərəfli beynəlxalq K.-lar ümumi xarakterli normalardan ibarətdir.

**KONVERGENSİYA** (latın *convergere* – yaxınlaşmaq, uyğun olmaq) - təkamül prosesində, yaxın qohumluğu olmayan orqanizm qruplarının, oxşar mühitdə yaşamaqlarından irəli gələrək əlamət, quruluş və funksiyalarının bənzərliyin ortaya çıxması. "K." anlayışı həm sosial inkişaf nəzəriyyələrində (modellərində) həm də *hakimiyyət strukturlarının* xarakteristikalarında istifadə edilir. XX əsrin ikinci yarısında C.Qolbreyt, P. Sorokin (ABŞ), Y.Finbergen (Niderland), R.Aron (Fransa), C.Streyçidir (Böyük Britaniya) və s. mütəfəkkirlər tərəfindən "K. nəzəriyyəsi" irəli sürülmüş və inkişaf etdirilmişdir. Həmin nəzəriyyəyə görə, kapitalizm və sosializm sistemləri arasında iqtisadi, siyasi və ideoloji fərqlər tədricən silinməkdədir və bu, nəticə etibarilə onların bir-birinə qarışmasına gətirib çıxardır. Nəzəriyyənin məqsədi – kapitalizm əsasında iki sistemin sintezinə nail olmaqdır.

**KONVERSİYA** (latın *conversio* – çevrilmə, dəyişdirilmə) - 1) hərbi –siyasi vəziyyətdən asılı olaraq iqtisadiyyatı adi (sülh) rejimindən hərbi rejimə keçirilməsi (və ya əksinə, hərbi rejimdən adi (sülh) rejiminə keçirilməsi) prosesi, yəni vətəndaş-ların (dövlətin) əmək, elmi, istehsal potensialının hərbi tələbatları ödəməsindən ötrü, hərbin inkişafına yönəlmiş (və ya güclü hərbi potensiala ehtiyac qalmadıqda onu mülki tələbatları ödəməsindən ötrü mülki inkişafa yönəlmiş) təşkilati, iqtisadi, maliyyə, texniki, sosial və digər tədbirlərin yerinə yetirilməsi. Əvəzli olaraq hərbi və ya mülki xərclərin artırılması, hərbi və ya mülki istehsalın artırılması; 2) dövlət borcunun şərtlərinin dəyişdirilməsi, onun ödəmə vaxtının dəyişdirilməsi (azaldılması) və ya ödəmə faizinin dəyişdirilməsi (azaldılması) ilə tamamlanır; 3) *valyuta K.-sı* fəaliyyətdə olan valyuat məzənnəsi (kursu) ilə bir valyutanın digər valyutaya çevrilməsi (valyuta mübadiləsi); 4) dilçilik (ədəbiyyat) termini; 5) kimyəvi proses.

**KONYUNKTURA** (son latın *conjunctura, conjungo* – bağlayıram, birləşdirirəm) – qarşılıqlı əlaqədə götürülən şərtlər məcmusu; konkret anda, müəyyən fəaliyyət sahəsində (misal: siyasi K., beynəlxalq K., iqtisadi K.) təşəkkül tapan mövcud şərait, müvəqqəti hal, şeylərin vəziyyəti. *İqtisadi K.-nın* əsas göstəriciləri aşağıdakılardır: sənaye məhsulu buraxılışının və əsaslı tikintinin həcmi, daxili və xarici ticarətin hərəkəti, istehsal petan-sialının istifadə dərəcəsi, hazır məmulat, xammal və yarımfabrikatların ehtiyatlarının həcmi, qiymət-lərin, gəlirlərin, faizlərin, qiymətli kağızların mə-zənnəsinin dinamikası, müflisləşmə, məşğuliyyət və işsizliyin miqyası, əmək haqqının (maaşın) hərəkəti, dövlət borcunun

# Q

**QAÇAQMALÇILIQ**-bax *kontrabanda.*

**QAÇQINLAR** - hərbi əməliyyat, etnik təmizləmə və yaxud fövqəladə vəziyyətin ağır nəticəsində, həmin ərazilərdə rahat və sərbəst yaşamaq mümkün olmadığından, yaşadıqları torpaqları (əraziləri) tərk etmək məcburiyyətində qalan, müvafiq olaraq başqa ərazilərə (bəzi hallarda başqa dövlətlərə) pənah aparan insanlar. "Q." anlayışı beynəlxalq hüquqda Birinci Dünya Müharibəsindən sonra meydana gəlmişdir.

BMT çərçivəsində BMT-nin "Qaçqınların İşləri üzrə Ali Komissarlığı" (fəaliyyət göstərir 1951-ci ildə Cenevrədə bir sıra dövlət (AFR, Belçika, Böyük Britaniya, Danimarka, Fransa və s.) tərəfindən Q.-ın statusu haqqında müvafiq Konvensiya imzalamışlar. Həmin Konvensiyaya görə, zorla yaşayış yerləri dəyişdirilən insanlar da – Q. kateqoriyasına daxildirlər. Bundan savayı, Q.-ın statusu, imtiyaz və yardımları milli qanunvericiliklə də tənzimlənir.

**QANDİZM** (Hind xalqının ictimai-siyasi xadimi M.K. Qandinin (1869-1948) soy adından) - M.K. Qandinin və davamçılarının təlimi; qeyri-zorakı cəmiyyət və yeni metodlu siyasi fəaliyyət vətəndaş itaətsizliyi-konsepsiyası (doktrinası). Hindistanda ictimai-siyasi və dinifəlsəfi təlim, milli azadlıq ideologiyası; dinc müqavimət prinsipi. Bax. *qeyri -zorakılıq doktrinası.*

**QANUN** - əksər hallarda dövlətin qanunvericilik orqanı (Parlament) tərəfindən, nadir hallarda referendum vasitəsilə xalq tərəfindən qəbul edilən (və yalnız onlar tərəfindən əlavələr edilə, dəyişdirilə və ləğv edilə bilən), ictimai münasibətlərin müxtəlif sahələrini nizamlayan, ümum məcburi qaydaları müəyyənləşdirən, dövlətin, xalqın iradəsini ifadə edən, Konstitusiyadan sonra ikinci dərəcəli Ali hüquqi qüvvəyə malik olan normativ aktdır. Bu, o deməkdir ki, bütün digər aktlar ona uyğun olmalı (ona zidd getməməli) və hamı tərəfindən birmənalı icra olunmalıdır (riayət edilməlidir). Qanunun icra olunmaması, nalayiq icra edilməsi və yaxud ona qarşı hörmətsizlik, müəyyən hüquqi məsuliyyətə səbəb ola bilər.

**QANUNLARIN KOLLİZİYASI** - (latın *collisio*-toqquşm) - dövlətdaxili və ya beynəlxalq hüquqi aktlarda (iki və ya daha çox normativ, hüquqi aktlarda), eyni məsələnin tənzimlənməsinə müxtəlif yanaşma, mövqe olmasından irəli gələn uyğunsuzluq, ziddiyyət, yəni qanunvericilik aktlarının bir-birinə zidd getməsi. Q.K. problemi-həmin (konkret) hadisəyə bilavasitə aidiyyəti olan normativ aktın təbliğ edilməsi ilə; və ya ən axrıncı qəbul olunmuş normativ aktın tətbiq edilməsi; ümumi və xüsusdi aktların uyğunsuzluq şəraitində-xüsusi aktların tətbiq edilməsi ilə; aşağı orqanların aktları bir-birinə zidd gedirsə - yuxarı orqanın aktı tətbiq edilməklə-həll edilir. Beynəlxalq münasibətlərdə isə Q.K.-kollizisiya normaları (yəni konkret halda hansı dövlətin qanunun tətbiq edilməsini müəyyən edən normalar) əsasında həll edilir.

**"QAPALI CƏMİYYƏT"**- İngilis filosofu Karl Popper tərəfindən işlənilib hazırlanmış anlayış. Qapalılıq ideyası izolyasionizmə müvafiq irəli sürülmüşdür və sosial strukturun yenilikləri (modernizasiyanı) yox dərəcədə çətin qəbul etməsini, inkişafın ilkin mərhələlərində donub qalmasını, cəmiyyətin son dərəcədə konservativ mövqedə olmasını və s. nəzərdə tutur. "Q.C."-lər qeyri-demokratik siyasi-hüquqi rejimli dövlətlər üçün səciyyəvidir, lakin burada qapalılıq yalnız sərt inzibati idarəçilik metodlar ilə tətbiq olunmur, bu qapalılıq cəmiyyətin maraq, mövqe və baxışlarından irəli gəlir. Bununla yanaşı, sivilizasiyanın inkişafı - Popperə görə "Q.C."-lərdən "açıq cəmiyyət" istiqamətində gedir.

**"QARA QUTU"** (rus analoqu *черный ящик*) - daxili quruluşu, daxili prosesləri ya heç bəlli olmayan və ya az bəlli olan siyasi subyektləri bildirmək üçün istifadə edilən termin. Onları ("Q.Q.") araşdırma metodu – onlara ünvanlanmış siqnallara cavab reaksiyası ilə şərtlənir. Amerika politoloqu D.İston "Q.Q."-dan çıxan siqnallar əsasında nəticə çıxartmağı, qərara gəlməyi təklif edir.

**QARADƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIĞI** (ingilis abbreviaturası – *BSEC*) - 11 ölkə tərəfindən İstanbul (Türkiyə) şəhərində keçirilən – Qaradəniz ölkələrinin iqtisadi əməkdaşlığı üzrə 2 iyun 1992-ci ildə qəbul edilən Deklarasiyaya müvafiq olaraq yaradılmışdır. Təşkilatın fəaliyyəti- demokratiya, sosial ədalət, insan hüququ, qanunun aliliyi, əsas azadlıqlar və iqtisadi mülkiyyət kimi ümumi qəbul olunmuş dəyərlər – regionda sülhün, sabitliyin və çiçəklənməsinin saxlanmasına yönəldilmişdir. Q.İ.Ə. üzvləri bunlardır: Azərbaycan, Albaniya, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə, Ukrayna və Yunanıstandır. Avstriya, Misir, İsrail, İtaliya, Polşa, Slovakiya və Tunis dövlətləri - Q.İ.Ə.-də müşahidəçi statusuna malikdirlər.

Q.İ.Ə-n strukturunu dövlət və hökumət başçılarının illik görüşlər, Parlament Assambleyası, Fessalonikada yerləşən Qaradəniz ticarət və inkişaf bankı, həmçinin Ankara (Türkiyə) şəhərində yerləşən



statistik məlumatlar mübadiləsinin əlaqələndirmə mərkəzi təşkil edir. Q.İ.Ə. Şurası – təşkilatın üzv ölkələrinin işçi dairələrinin nümayəndələrindən ibarət və təşəbbüslərin irəli sürülməsi və xüsusi sahədə əməkdaşlığın möhkəmləndirilməsi ilə məşğul olan orqanı təmsil edir. Katibliyi İstanbul (Türkiyə) şəhərində yerləşir.

**QARIŞMAMAZLIQ PRİNSİPİ** (daxili işlərə qarışmamazlıq prinsipi) - müasir müasir beynəlxalq hüququn əsas prinsiplərindən biri Q.P.-dövlətlər və ya beynəlxalq təşkilatlar tərəfindən digər dövlətlərin və xalqların daxili işlərinə və hətta, yürütdüyü xarici siyasətinə (əgər həmin siyasət beynəlxalq normalara cavab verərsə) hər hansı formada (o cümlədən, diplomatik, hərbi və iqtisadi yolla təzyiq və təcavüz, terrorçular, casuslar, təxribatçılar göndərməklə və s.), yəni açıq və ya dolayı yollarla dövlətin zəifləməsinə yönəltmiş dövlətin işlərinə qarışmağın qadağan edilməsi prinsipidir. Eyni zamanda, dövlətin, xalqın daxili işlərinə hörmət bəsləməsi təhdidir. Dövlətin öz siyasətinin, dəyərlərinin, konsepsiyasının və ideologiyasının digər dövlətlərə, xalqlara sıradılmasından çəkindirməsidir. Qeyri-demokratik siyasi-hüquqi rejimli dövlətlər tərəfindən Q.P.-indən sui-istifadəsinə yol verilməməsi üçün, yeni müasir siyasi-hüquqi düşüncə insan hüquqlarını müdafiəsini - Q.P. cərgəsinə daxil etmir. Q.P. beynəlxalq hüququn sabit prinsipi kimi, bir çox ikitərəfli müqavilələrdə, ilk növbədə BMT Nizamnaməsində, BMT -nin dövlətlərin daxili işlərinə qarışmağa yol verilməməsi haqqında Bəyannaməsində (1965) və Beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamədə (1970) təsdiq edilmişdir, habelə Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri barəsindəki yekun məsləhətləşmələri aktında (Helsinki 1975) və həmin məsləhətləşmələrin digər sənədlərində təfsilatı ilə təsbit edilmişdir. Bax həmçinin *daxili işlərə qarışma.*

Beynəlxalq hüququn institutu olmaqdan savayı Q.P. dövlətdaxili siyasi subyektlər arasında da, mühüm əhəmiyyət kəsb edir.

**QARŞILIQLILIQ PRİNSİPİ** - dövlətlərarası münasaibətlərin ümumqəbulolunmuş qarşılıqlı davranış prinsipi. Həmin prinsipə görə, dövlətlərin biri-birilə münasibətlərini qarşılıqlı faydalı, bərabərhüquqlu əsaslarla qurmalıdırlar, belə ki, əks tərəfin qanuni maraqları, xüsusilə də, beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsi məsələlərində maraqları nəzərə alınmalıdır.Q.P.-nə müvafiq dövlət başqa dövlət tərəfindən ona qarşı törədilmiş hər hansı aksiyalara (hərəkətlərə) cavab olaraq tədbir görə bilər (aksiyanın xarakterindən asılı olaraq). Lakin, cavab tədbirləri beynəlxalq hüquq normalarının və yaxud ümumqəbulolunmuş insanlıq normalarının pozulması ilə bağlı olarsa – Q.P.-nın tətbiqi yolverilməzdir.

**QAZİ** (ərəb-cihad edən, alib, fateh) - 1) orta əsrlərdə müsəlmanlarının "kafirlərlə" apardığı müharibənin (qəzavatın) iştirakçısı; 2) bir sıra müsəlman Şərqi ölkələrində xüsusilə fərqlənən hərbi sərkərdələrə verilən fəxri titul, misal: Türkiyə Böyük Milli Məclisi, Sakariya döyüşündə (1921 avqust-sentyabr) qələbəyə görə Mustafa Kamal (Atatürkə) - Qazi titulu verilmişdir.

**QEYD-ŞƏRT** (beynəlxalq müqavilələr hüququnda) - beynəlxalq müqavilənin imzalanması, ratifikasiyası, qəbulolunması və yaxud təsdiqi prosesində müqavilənin hər hansısa bir müddəasının çıxarılması və ya dəyişdirilməsi haqqında müqavilə tərəfinin (dövlətin) birtərəfli rəsmi bəyanatı.

Q.-Ş. müqavilənin obyekti və məqsədlərilə uyğunluq təşkil etməlidir. Q.-Ş. haqqında müqavilə iştirakçılarına məlumat vermək, onun (Q.-Ş.-in) ləğv edilməsi və ya ona etiraz bildirilməsi – müqavilənin depozitariyasının funksiyalarına daxildir. Elə çoxtərəfli müqavilələr məlumdur ki, hər hansı Q.Ş. edilməsi ümumiyyətlə, qadağan edilir (belə müddəa müqavilədə məxsusi qeyd olunur).

Q.-Ş. praktikası beynəlxalq müqavilələr hüququ haqqındakı 1969-cu il Vyana Konvensiyasında öz əksini tapmışdır. Konvensiyaya görə, imzalanmaya təqdim edilmiş müqavilədə edilən Q.-Ş. müqavilənin yekun təsdiqində və ya ratifikasiyasında rəsmi təsdiq edilməlidir. Əks halda Q.-Ş. edilməmiş hesab olunur. Ratifikasiya zamanı edilmiş Q.-Ş. adətən ya təsdiqnamənin özünə, ya təsdiqnamənin saxlanmağa verilməsi və yaxud mübadilə edilməsi haqqında protokola yaxud da hər iki sənədə daxil edilir.

**QEYRİ-MÜTƏNASİB HÜQUQLU MÜQAVİLƏLƏR** - (beynəlxalq) hüquq subyektlərinin öz maraqlarına uyğun olmayan, hətta ona zidd gedən, qarşı tərəfin (kontragentin) siyasi (diplomatik) iqtisadi, hərbi və s. təzyiqi vasitəsilə bağlanılmasına məcbur edilən əqd (razılaşma).

Q.-M.H.M.-də bir sıra beynəlxalq hüquq normaları pozulur, o cümlədən: bərabərhüquqluluq, suverenlik, daxili işlərə qarışmamazlıq və s. Bəzi elmi mənbələrdə *kapitulyasiya* aktı da - Q.-M.H.M. kateqoriyasına aid edilir.

Müasir beynəlxalq hüquqda Q.-M.H.M.-i qanuna - zidd qəbul edilir; onu (Q.-M.H.M-i) bağlayan, imzalayan tərəf (dövlət) – onun şərtlərini yerinə yetirməyə bilər, ondan birtəfəli şəkildə imtina edə bilər – və bu beynəlxalq hüququn pozulması kimi qəbul olunmur.

**QEYRİ-ZORAKİLİQ DOKTRİNASI** (latın *doktrina* - təlim) - qan tökülməməsi şərti ilə, azadlığa, müstəqilliyə nail olmaq, xalqı ayağa qaldırmaq və mövcud vəziyyəti dəyişdirmək məqsədilə qeyri-zorakı

qarşısının alınması ilə tənzimlənmələdir. *Yenimaltuzçuluq* - ekoloji problemləri, təbii xammal və yeyinti ehtiyatlarının tükənməsini dünya əhalisinin (xüsusil "üçüncü dövlətlər" əhalisinin) surətlə artmasında görür və "əhalinin optimumu" nəzəriyyəsini irəli sürür.

**MANDAT** (latın *mandatum*-tapşırıq) – 1. səlahiyyəti təsdiq edən sənəd, seçilmiş şəxs tərəfindən, seçicilərin maraqlarını müdafiə etmək, onları təmsil etmək, onların adından çıxış etmək hüququ; 2. həmin səlahiyyətlərin fəaliyyət müddəti; 3. "M" termini Roma hüququnda tapşırıq müqaviləsini bildirirdi; 4. XX əsrin birinci yarısında beynəlxalq hüquqda hər hansı dövlətə Millətlər Cəmiyyəti (Liqası) adından keçmiş Osmanlı imperiyasının ərazisinin bir hissəsini, yaxud Almaniya müstəmləkələrini idarə etmək üçün verilmiş səlahiyyət də M. adlanırdı.

**MANİFEST** (son latın *manifestum* – çağırış, latın *manifesto* – göstərirəm, açıram, *manifestus* – aşkar) - 1. hər hansısa bir təşkilatın öz siyasi görüşləri, baxışları barəsində rəsmi müraciəti, bəyannaməsi; 2. Dövlət başçısının, yaxud Ali hakimiyyət orqanının hər hansı mühüm siyasi hadisə ilə əlaqədar xalqa müraciət aktı; 3. *Kommunist Partiyasının M.-i* – elmi kommunizmin və beynəlxalq fəhlə hərəkatının ilk proqram sənədi. VI fəsildən ibarət kiçik kitabçada marksizmin və onun fəlsəfi əsasların-dialektik və tarixi materializmin – əsas müddəalarının qısa şərhi verilmişdir (1848). Orada sinfi mübarizənin, dövlət quruluşunun dəyişdirilməsinin və hətta "proletariat diktaturasının" vacibliyi və s. müddəalar irəli sürülür.

**MANİPULYASİYA** (fransız *manipulation*, latın *manipulus* – ovuc, *manus* – əl) – 1. ə. hərəkəti; 2. bir və ya hər iki əlin müəyyən prosesin icrası ilə bağlı hərəkəti. Əl işində dəqiqlik tələb edən mürəkkəb əməliyyat; 3. (məcazi) kələk, hiylə; özünün məkirli məqsədlərinə nail olmasından ötrü faktların qəsdən təhrif edilməsi; saxtakarlığa, yalana, hətta böhtan və şərə əl atması; 4. qeyri-demokratik siyasi-hüquqi rejimli dövlətlərin hakim dairələr tərəfindən, hakimiyyət resurslarını əldə saxlaması naminə, yaxud məkirli şəxslərin tamah, qisas, qərəz mötiv və məqsədlər ilə bir qrup insanların və ya bütün xalqın ümumi maraq və məqsədləri ilə oynayaraq, istifadə və spekulyasiya edərək onlara, müxtəlif üsul və vasitələrlə (kütləvi informasiya vasitələri (KİV), iclaslar, toplanışlar, stendlər, plokatlar və s.) ictimai-psixoloji təsir və təzyiq göstərilməsi.

**MARİONET SİYASİ SUBYEKT** (fransız *marionnette:* ilkin mənası – kuklalarla oynanılan orta əsr misteriyalarında müqəddəs Məryəm təsvir olunan kiçik fiqurların adı) – məcazi mənada: heç bir müstəqilliyi olmayan, özgənin əlində oyuncağa çevrilmiş, itaətkar adam, ictimai-siyasi qurum (partiya), hökumət və hətta dövlət və onun hakim strukturları. M.S.S. xalqa, milli maraqlara satqınçılıqla, xəyanətlə bilavasitə bağlıdır. M.S.S.-ı əmələ gətirən səbəblər cərgəsinə onların qorxaqlığını, zənginliyə olan cılız həvəsini və ya aclıqla üzbəüz qalmaq təhlükəsini, mənəvi, siyasi, hərbi asılılığını və s. aid etmək olar. M.S.S.-in asılılıq dərəcəsi onun yürütdüyü siyasətdə özünü biruzə verir. Bir qayda olaraq, M.S.S. gec və ya tez, bu və ya digər şəkildə cəzalanır. M.S.S. nümunəsi kimi, Fransada (onun 1/3 hissəsində) iyul 1940 – avqust 1944-cü illərdə fəaliyyət göstərən, faşist Almaniyasından asılı olan, rezidensiyası Vişi kurort şəhərində olan ona görə də "Vişi hökuməti" adlandırılan marrionet "hökuməti" göstərmək olar. "Vişi hökumətin" razılığı ilə alman-italyan işğalçı qoşunları Fransa ərazilərinə daxil oldu və yerli patriotik müqavimət hərəkatı üzvləri həmin "hökumət" tərəfindən təqib və təzyiqlərə məruz qaldılar. Fransa azad olunduqda "Vişi hökuməti" ləğv edildi və onun başçıları Məhkəməyə verildi.

**MARŞAL** (fransız *maréchal*; qədim yuxarı alman *marah*–at, *meale*-nökər) – 1. Orta əsrlərdə Fransada saray rütbəsi; kralın atlara baxan xadimçisi; XIII-XV əsrlərdə kral qoşununun bir hissəsinin komandanı idi. İlk dəfə həmin Fransada XVI əsrdə tətbiq edilən, bir sıra ölkələrin ordularında Ali hərbi rütbə. Avropanın bəzi dövlətlərində general-feldmarşal rütbəsinə müvafiq idi. Sovet dövlətində – Sovet İttifaqı Marşalı; qoşun növü M.-ı (Aviasiya Marşalı) və Baş Marşal rütbələri təsis olunmuşdur; 2. Polşada bəzi mülki vəzifəli şəxslərin rütbəsi (Seym Marşalı və s.).

**MEDİASİYA** (ingilis *medium*-vasitə, orta, ara, mühit) - siyasi subyektlər arasında (əsasən dövlətlər arasında) siyasi və hüquqi mübahisələrin, münaqişələrin neytral (vasitəçi dövlət) - *mediator* vasitəsilə həll olunmasının ptaktiki üsulları. M. vasitəçidən xüsusi psixoloji, hüquqi, diplomatik hazırlıq, yüksək mədəniyyət, münasib praktiki vərdişlər, gərgin emosional araşdırma şəraitində öz neytrallığını (bitərəfliyini) qoruyub saxlamaq bacarığı tələb olunur. Mediatorun əsas funksiyası tərəflərə təsir və ya təzyiq göstərməkdən ibarət deyil, məhz tərəflərin bir-biri ilə danışıqlar şəraitinin qurulmasından, mövcud vəziyyətdən çıxış yollarının birgə araşdırıb-tapılmasından, tərəflərə məsləhət və tövsiyyə verilməsindən ibarətdir. Bu zaman, əgər mediatorda neytrallıq şübhəsi yaranarsa, həmin danışıqlar istənilən vaxt dayandırıla bilər. Bnunla yanaşı, M. mübahisə (münaqişə) edən tərəflərin "münasibətlərinin (mövqelərinin) aydınlaşdırılmasına", tərəflərin maraqlarının toxunma nöqtəsinin müəyyənləşdirilməsinə və öyrənilməsinə, real vəziyyəti düzgün qiymətləndirilməsinə, gələcəkdə öz dəlil-sübutlarının daha da təkmilləşdirilməsinə, hətta qeyri-mütənasib, yalnış addımın atılmasından yan keçməsinə və s. imkanları yaradır. Lakin, əgər M. uğurla nəticələnməsə, daha təsirli qurumlara (misal: Beynəlxalq Məhkəmələrə:



hətta beynəlxalq hərbi qurumlara) müraciət etmək hüququ tərəflərin ixtiyarında qalır.

**MEQAHAKİMİYYƏT** (yunan *megas* – böyük) – məcazi mənada: 1) dövlətin və elə həmin hakimiyyətin normal fəaliyyət göstərməsinə yetə biləcək sistemindən, strukturundan, ölçü və miqyasından olduqca artıq institut və orqanlardan işçi personalından, hətta lüzumsuz təsisatlardan ibarət olan hakimiyyətin obrazlı ifadəsi və ya praktiki quruluşu; 2)hakimiyyət orqanlarının əllərində külli miqdarda hakim səlahiyyətlərinin cəmləşməsinin şərti adı; 3)dünya hökmranlığı ideyasının kulbiti.

**MEMORANDUM** (latın *memorandum* – hərfi mənada: yadda saxlanılmalı şey) – 1. beynəlxalq münasibətlərdə. siyasi nəzakət düsturundan kənar şəkildə doldurulan (yəni əvvəlində və axırında imza və möhür qoyulmayan), qarşı tərəfə məsələnin faktiki, hüquqi tərəfini xatırladan, yaxud müəyyən sənəd hissəsini; göndərilmə məqsədini şərh edən diplomatik sənəd. M. ya müstəqil sənəd kimi və ya *nota* ilə birlikdə təqdim olunur; 2. icarətdə müxtəlif məsələlərə dair xatırlatma məktubları; 3. sığorta zamanı (xüsusilə dəniz daşımalarında) sığortaçının zərəri ödəməkdən imtina etməsi hallarının siyahısı.

**METROPOLİYA** (yunan *mētrópolis*, *métēr* – ana və *pólis* – şəhər sözlərindən) – 1. müstəmləkələri olan qədim yunan şəhərləri (polisləri); 2. bəzi dövlətlərdə (misal: Kanada) əyalətin, yaxud vilayətin mərkəzi şəhəri. Bəzi dövlətlərin paytaxtlarına da M. deyilir; 3. müstəmləkə işğalları dövründə "M." terminindən müstəmləkəsi (adətən, xaricdə) olan dövlətləri bildirmək üçün istifadə olunurdu; 4. (məcazi) başqa dövlətlər üzərində hakimlik-tabeçilik, istismar (müstəmləkə) siyasətini yürüdən imperialist dövlətlər öz müstəmləkələrinə nisbətən belə (M.) adlanırlar.

**MƏCBURETMƏ** (rus analoqu *принуждение*, ingilis analoqu *coercion*) – digər siyasi, subyekti – öz iradəsinə tabe etdirmək məqsədilə, müxtəlif siyasi, inzibati, iqtisadi (maliyyə), hətta "güc" vasitələrinin köməyi ilə təzyiq etmənin effektiv təsirinin bir növü. Qarşı tərəfin iradəsini ram etmək məqsədilə, bəzi hallarda, həmin vasitələrin tətbiqetmə təhdidi – kifayət edir. M. fəndi həm dövlətdaxili, həm də beynəlxalq münasibətlərdə təsadüf edilir. Bununla yanaşı, M.-in qanuni və qeyri-qanuni formaları mövcuddur.

**MƏHKƏMƏ TAPŞIRIĞI** - beynəlxalq-hüquq münasibətlərində, ikinci dövlətin ərazisində müəyyən prosesual hərəkətləri (axtarış, sənədlərin təqdimatı, ekpertizasının aparılması, müəyyən məlumatın araşdırılması (dəqiqləşdirilməsi), şahidlərin və ya prosessual tərəflərin və ya digər şəxslərin dindirilməsi (sorğu-suala tutması), hətta həbsetmə və ekstradisiya və s.) yerinə yetirmək xahişi ilə bir dövlətin Məhkəməsinin – digər (ikinci) dövlətin Məhkəməsinə rəsmi müraciəti. M.T. məsələsi hər bir dövlətin milli qanunvericiliyi ilə və tərəfdaş çıxdığı beynəlxalq razılaşmalarla nizamlanır.

M.T. göndərilən (ikinci) dövlətin rəsmi dilinə çevrilmiş sənədlər əsasında aparılır, diplomatik nümayəndəlik və ya konsulluq təsisatı vasitələrilə əlaqə qurulur (saxlanılır). Hərçənd xüsusi hallarda, lazım gəldikdə xüsusi nümayəndə heyəti göndərilir; müraciət edən (birinci) dövlətin qanunları tətbiq edilir (əgər onlar ikinci dövlətin qanunlarına zidd getmirlərsə); və əgər M.T. icra olunmursa, - bunun səbəbləri göstərilməlidir.

**MƏŞVƏRƏTÇİ STATUS** – seçkili orqanların, yaxud beynəlxalq təşkilatların işində (misal: iclaslarında) yalnız məsləhət (tövsiyə) funksiyaları (yəni səsvermədə səs vermək hüququna malik olmadan) ilə iştirak etmək hüququna malik olan şəxsin, həmin orqandakı hüquqi vəziyyəti.

**MİQRASİYA** (latın *migrario*, *migro*-keçirəm, köçürəm) - (mühacirat) – 1. ağır (dözülməz) iqtisadi, siyasi (işsizlik, siyasi təqib və təziq) və ya digər səbəblərdən (o cümlədən, şəxsi səbəblərdən), yaşadığı dövləti tərk edib başqa dövlətə, (qısa) müddətli və ya daimi yaşamaq üçün, məcbur olub (və ya könüllü) gedən (emmiqrant) və ya gələn (immiqrant) şəxslər. Miqrasiya qaydalarını pozan şəxs "qeyri-qanuni mühacir" adlanır. Onlara qarşı (o cümlədən: gəldiyi dövlətə qaytarılmağa qədər) inzibati məsuliyyət tədbirləri tətbiq edilir. 2. canlı (heyvanat) aləmin bəzi nümayəndələrinin mütəmadi yerdəyişməsi. 3. Kapital M.-sı.

**MİLİTARİZM** (fransız *militarisime*, latın *militaris* - hərbi) – dövlətin ictimai-siyasi həyatının hərbiləqdirilməsi, iqtisadi, elmi-texniki, insani və s. resursların hərbi qüvvənin artırılmasına yönəldilməsi (*konversiyası*) bəzi hallarda isə idarəçilikdə inzibati-əmr metodlarının tətbiq edilməsi və dövlət məmurlarının (o cümlədən, Hökumətin) hərbi mundir formasına (hərbi iyerarxik rütbəli geyim formasına) keçirilməsi M.-in motilasiyası rolunda xarici hərbi təcavüz (təhlükəsi və ya artıq baş verməsi) və dövlət daxilində qiyam, ixtişas, üsyan, vətəndaş müharibəsit (təhlükəsi və ya artıq baş verməsi) – çıxış edə bilər, hərçənd bunlar olmadan da, dövlətdə hakimiyyətə böyük dövlətçilik şovinizm ideyalı irtica, ultraradikal, qəsbkar qüvvələrinin gəlməsi də M.-ə rəvac verə bilər. Sosial ehtiyaclar üçün xərclərin azaldılması (bəzi halda vergilərin və rüsumların artırılması), silahları və silahlı qüvvələrin, hərbi xərclərin durmadan artırılması, hərbi təlimlərin gücləndirilməsi, dövlət iqtisadiyyatı və siyasətində hərbi-sənaye kompleksinin təsirinin güclənməsi, hərbi təbliğatın genişləndirilməsi və s. M.-in səciyyəvi cəhətləridir. Xarici siyasətdə M. özünü dövlətlərin hərbi-siyasi blokların yaradılmasında, külli miqdarda hərbi silah-sursatın, texnikanın

**MOBİLİZASİYA** (latın *mobilis* – mütəhərrik, hərəkətli) – 1. dar mənada, dövlətin səlahiyyətli orqanının (dövlət başçısının) qərarı ilə: a) dövlətin silahlı qüvvələrinin adi (sülh) vəziyyətindən – hərdi vəziyyətə keçirilməsi; (ümumi) səfərbərlik elan edilməsi; ehtiyatda olan hərbi vəzifəli vətəndaşların orduya və hərbi-dəniz donanmasına həqiqi hərbi xidmət keçmələri üçün çağırılması; b) dövlətin hərbi qüvvələrinin tələbatlarının daha mükəmməl ödənilməsi üçün iqtisadiyyatın istehsalat, nəqliyyat və s. sahələrinin hərbi vəziyyətə keçirilməsi, bunun üçün müəyyən miqdarda vəsaitin ayrılması, yəni geniş hərbi-siyasi təşkilati fəaliyyət; 2. geniş mənada, hər hansısa vacib (ümumi) məsələnin həll edilməsi üçün bütün daxili ehtiyatların (rezerv, resurs, vəsait, qüvvə və s.) səfərlər, cəlb edilməsi, aktiv vəziyyətə gətirilməst; kütləvi kampaniyanın həyata keçirilməsi.

**MODUS** (latın *modus* – ölçü, norma, üsul) – nəyinsə norması. Misal: hakimiyyət orqanlarına, iclaslara, qurultaylara və s. keçirilən seçkilərdə - təmsilçilik M.-u.

**MODUS PROSEDENDİ** - beynəlxalq müqavilə üzrə hər hansı vəzifənin və ya fəaliyyətin hansı şəkildə və hansı qaydada (proses) yerinə yetirmək olduğunu göstərən termin.

**MODUS VİVENDİ** (latın *modus vivendi* – hərfi mənası: həyat tərzi, yaşam üsulu) – tərəflər arasında daimi, uzunmüddətli, yaxud müfəssəl xarakterli sazişlərə əvəz olunması nəzərdə tutulan, müvəqqəti və ya ilkin sazişləri adlandırmaq üçün işlədilən diplomatik termin; tərəflər arasında daimi sazişin bağlanılmasına (imzalanmasına) qədər – bağlanılan (imzalanan) və qüvvədə olan (ilkin) saziş. Tərəflər (dövlətlər) arası münasibətlərdə, digər (yəni uzunmüddətli və ya daimi) saziş bağlanılması mümkünsüz olduqda (misal: qeyri-legitim hakimiyyət, keçid hökuməti, gərgin münasibətlər və s.) - müvəqqəti olaraq münasibətləri normallaşdırmağa imkan verən şərtlər. M.V. əksər halda nota mübadiləsi formasında müəyyən olunur.

**MONARX** (yunan *monarchos, monos* – tək, vahid və *archos* – hökmdar) – Ali zadəgan titulu; monarxiyalı dövlətlərdə dövlət başçısı. Titul ya irsən (nəsildən-nəsilə) keçir və ya, bəzi hallarda dövlət başçısı seçilən şəxsə verilir (misal: feodal Polşada kralın seym tərəfindən seçilməsi; Çar Rusiyasinda Mixail Romanovun Zemstvo Soboru tərəfindən seçilməsi; Monqolustanda XIII əsrdə Çingiz xanın seçilməsi; (müasir dövrdə) Butanda - kralın seçilməsi; Malaziyada - sultanın seçilməsi) və yaxud tarixdə hakimiyyət (saray) çevrilişi nəticəsində özü-özünü M. elan etməklə əldə edilirdi. Absolyut monarxiyalı dövlətlərdə – M.-in hökmranlığı ömürlükdür (əgər könüllü imtina edilməsə, başqasına ötürülməsə). Tarix azyaşlı uşaqların da, M. (dövlət başçısı) olmasına şahidlik edib. M.-lar qədim adət-ənənələrin daşıyıcıları kimi də, qəbul olunur. Müxtəlif dövlətlərdə M. müxtəlif cür adlanır, o cümlədən: Böyük Britaniyada, Belçikada, Danimarkada, İspaniyada, İsveçdə – *kral (kraliça)*: Bruneydə, Omanda – *sultan;* Küveytdə, Birləşmiş Ərəb Əmirliyində (BƏƏ) – *əmir*; Yaponiyada – *imperator;* Lüksem-burqda – *böyük hersoq*; Lixtenşteyndə – *knyaz*; tarixdə – *çar, xan, şah* və s.

**MONARXİYA** (yunan. *monarchia* - təkhakimiyyətlik, mütləqiyyət) - dövlətin Ali hakimiyətinin bütövlükdə (və ya qismən) bir şəxsin, dövlət başçısının (monarxın) əllərində cəmləşdiyi, dövlət idarəçilik formasıdır. Monarxiya dövlətləri: absolyut (məhdudiyyətsiz) və məhdud (seçkili, Konstitusion monarxiya) və teokratik (ruhanilərin hakimiyyəti) monarxiya dövlətləri kateqoriyalarına bölünür. Seçkili monarxiya istisna olmaqla, digər monarxiyalı dövlətlərdə hakimiyyətin (monarxiya titulunun) irsən (nəsildən-nəsilə) keçməsi ilə səciy-yəvidir. Monarxik dövlətlərin aşağıdakı növləri bəşəriyyətə bəllidir: imperatorluq; krallıq; əmirlik və s. M.-nın dərin tarixi kökləri vardır: son feodalizm dövründə mütləq monarxiya mövcud olmuşdur, burada xalqın tam hüquq-suzluğu və asılılığı, monarxın hakimiyyətinin heç kim və heç nə ilə məhdudlaşdırılmaması hökm sürürdü. Qərb dövlətlərində əsasən despotik, teokratik monarxi-yalı dövlətlər mövcud olmuşdur. Bəşəri inkişaf prosesi nəticəsində monarxiya idarəçilik forması öz mövqelərini demokratik idarəçilik formasına təhvil vermiş, hərçənd müasir dövrdə monarxiyalı sistemlər yenə də mövcuddur. Bax həmçinin *Konstitusion Monarxiya.*

**MONDİALİZM** (fransız *monde* – dünya) – vahid, ümumbəşəri dövlətin yaradılmasının vacibliyini və bunun yollarını əsaslandıran konsepsiya. Mondialislər ictimai axını 1949-cu ildə Parisdə (Fransa) özlərinin ilk institutlarını – "Dünya vətəndaşı" Beynəlxalq reqistraturasını (IRNS) formalaşdırmışdılar. M.-in tərəfdarları hesab edirlər ki, qlobal (bəşəri) problemlərin həll edilməsi üçün, suveren (müstəqil) dövlətlərin hakim səlahiyyətlərinin – dünya ictimaiyyətini idarə edə biləcək qlobal strukturlara "düşünülmüş və tədricən" ötürülməsi labütdür. M. ideyalarının həyata keçirilməsi sahəsində bir neçə istiqamətləri irəli sürülmüşdür, o cümlədən; a) radikal yanaşma – bunun tərəfdarlar hesab edirlər ki, "milli dövlətlərin paralici dövranı" başlayacaq; b) ilkin mərhələdə ümumbəşəri Parlamentin yaradılması, sonra müvafiq olaraq, ümumbəşəri hökumətin və ardıcıl iyerarxik institutların yaradılması və s.; c) qlobal problemlərin həllində, mövcud olan beynəlxalq təşkilatlara daha geniş səlahiyyətlərin verilməsi; beynəlxalq münasibətləri – beynəlxalq hüquq münasibətlərlə uzlaşdırılması -yeri gəlmişkən bu istiqamət ən real və mötədildir. Eyni zamanda, bəzi etnik (milli) azlıqların açıq və ya gizli surətdə istiqlaliyyəti



uğrunda mübarizə aparmaları, xalqlar (etnoslar) arasındakı düşmənçilik, milli qanunvericiliklərlə müstəqilliyin sərt qorunması və s. faktlar – ümumbəşəri dövlətin yaradılması ideyalarını ikinci plana çəkirlər.

**MONİTORİNQ** (latın *monitor* nəzarət edən, xatırladan; ingilis *monitor* – xəbərdaredici, qoruyucu) – siyasi, iqtisadi, hərbi və s. situasiyaların (vəziyyətlərin) və ya proseslərin, eləcə də hüquqi aktların mütəmadi, daimi, izlənilməsi, yoxlanılması və qiymətləndirilməsi. M.-in məqsədi mövcud fenomeni daha effektiv idarəedilməsindən ötrü – onun öyrənilməsidir; M.-in digr məqsədi müəyyən öhdəlik götürmüş subyekt tərəfindən, həmin öhdəliklərin necə yerinə yetirilməsinin yerində yoxlanılmasıdır.

**MONOETNİK DÖVLƏT** (yunan *mónos* – bir, tək və *éthnos* – xalq) – *çoxmillətli dövlətin* alternativi, antonimi; müxtəlif səbəblərdən, o cümlədən, dövlətdə hökm sürən siyasi-hüquqi rejim, siyasi sabitlik dərəcəsi, iqtisadi inkişaf mərhələsi, tolerantlıq (milli dözümlülük) dərəcəsi, coğrafi-iqlimi quruluş və s. qənaətbəxş olmaması nəticəsində dövlətin milli-etnik tərkibinin digər dövlətlərlə müqayisədə kəsad olması. M.D.-lər cərgəsində - Ermənistanı, Monqolustanı, İslandiyanı, bir sıra Afrika qitəsi dövlətlərini, bütün "cırtdan dövlətlərini" və s. aid etmək olar. Bütün M.D. – unitar dövlət quruluşuna malikdirlər.

**MONOKRATİYA** (yunan *monos* – bir, tək və *kratos* – hakimiyyət sözlərindən) – monohakimiyyətlilik, təkhakimiyyətlilik) – demokratiyalı dövlətdən – tiraniyalı dövlətlərə qədər müxtəlif rejimli dövlətlərdə təsadüf edilən konkret bir şəxsin dövləti idarə etməsi. Bu cür hökmdarlar siyahısına: Prezident, Baş Nazir, Baş katib, diktator, tiran, despot, kral, çar, sultan, əmir, şah, xan, bəy, imperator, Papa, fürer, duçe, konsul, hersoq, knyaz, getman, ayətulla və s. aid etmək olar, onların qəti siyahısı hələ bəşəri tarixdə tərtib olunmamışdır, lakin məşhur rusiyalı alim (kratoloq) V.F.Xalipov "Энциклопедия власти» adlı kitabında həmin rəqəmin 150-dən artıq olduğunu iddia edir.

**MONOPOLİYA** (yunan *mónos* – bir və *poléō* – satıram) – bax *inhisar.*

**MORATORİYA** (latın *moratorius*-ləngidici, təxirəsalıcı) – (möhlət) – 1. dövlətin qəbul etdiyi. öz üzərinə götürdüyü (konkret və ya ümumi) qanunun (beynəlxalq qanunvericilik aktın) öhdəliyin, hərəkətin və ya hər hansısa digər tələblərin, yəni daxili və xarici öhdəliklərin icrasının müəyyən və ya qeyri-müəyyən müddətə və yaxud baş verən hər hansısa fövqəl hadisənin (misal: qiyam, ixtişaş, müharibənin, təbii fəlakətin və s.) qurtarmasınadək və ya onların nəticələrinin aradan qaldırılmasınadək-təxirəsalınması, dayandırılması, qüvvədən salınması haqqında bəyanat. M. bəyan edilməklə yanaşı, onun səbəbləri də açıqlanmalıdır, yeri gəlmişkən, səbəbsiz M. - qarşı tərəfə (başqa dövlətlərə) hörmətsizliyin nümunəsidir (hərçənd, bəzi M. -lar humanist məqsədlər güdür misal: "nüvə silahın sınağının M.-sı") və beynəlxalq sanksiyalara səbəb ola bilər. M. birtərəfli, ikitərəfli və ya çoxtərəfli ola bilər; növlərinə görə, M.-lar: "ümumi M." - bütün öhdəlikləri əhatə edən (çox nadir hallarda); "qismən M." - ("xüsusi M." - konkret bir aktı (aktın bir və ya bir neçə bəndi), bir hərəkəti əhatə edə bilər; 2. mülki hüququn institutu.

**MUXTARİYYƏT** - (ərəb *muxtariyyət*; yunan analoqu *autonomia*-özünüidarəetmə, müstəqil) - vahid dövlətin ərazisində müxtəlif zəruri səbəblərdən (milli azlıqların yaşaması; ərazi quruluşu və s. səbəblərdən) yaradılmış siyasi subyekt; ümumdövlət çərçivəsində, dövlətin hər hansı bir hissəsinin dövlət məsələlərinin müstəqil həll etmək (özünün qanunvericilik bazası olmaq ilə), daxili özünüidarə hüququ. M. mürəkkəb quruluş formasına malik olan dövlətlərdə muxtar inzibati-ərazi vahidi sakinlərinə həmin ərazidə ortaya çıxan problemlərin həlli, onun (M.-in) proseslərinin idarəetməsi, daxili həyatın müstəqil şəkildə nizamlaması məqsədlərilə hər hansı dövlət (ərazi) hakimiyyət strukturlarının yaratması və idarəetməsi hüququnu və imkanlarını verir.

Müstəqilliyin dərəcəsindən asılı olaraq, M.-in iki forması mövcuddur: inzibati və siyasi M. İnzibati M. (Muxtar Vilayət və Muxtar Mahal) – yalnız idarəçilik sahəsinə şamil edilir. Siyasi M. (Muxtar Respublika) - daha geniş hüquqlarla səciyyələnir.

Dövlət ilə onun müxtar subyekt(lər) inin arasında, M.-in müstəqillik dərəcəsini müəyyənləşdirən mürəkkəb hüquqi əlaqə mövcuddur. Muxtar Vilayət və Muxtar Mahalda idarəçilik müvafiq Parlament və onun tərəfin-dən seçilmiş icraiyyə komitəsi, Məhkəməsi və digər rəhbər orqanları vasitəsilə həyata keçirildiyi halda, Muxtar Respublikada isə idarəçilik müvafiq Parlament və onun tərəfindən (bəzi halda Ali dövlət hakimiyyəti orqanın razılığı ilə) Hökuməti (Nazirlər kabineti), Ali Məhkəməsi tərəfindən həyata keçirilir və hətta öz vətəndaşlığı və Konstitusiyası olur.

**MUTATİS MUTANDİS** (latın *mutandis* - detallara (xırdalıqlara) aid olan dəyişikliklər, düzəlişlər zərurəti ilə) - termin beynəlxalq-hüquqi aktlarda aşağıdakıları bildirmək üçün istifadə edilir: dəyişməli olanı dəyişmək ilə; müvafiq fərqləri nəzərə almaqla; mövcud şəraitdən irəli gələn dəyişmələr ilə; zəruri dəyişikliklərlə.

**MUZDLULAR** – 1) muzdlu əsgərlər, (eyni zamanda – legionerlər, kondotyerlər, landsknextlər) – dövlətlər (tarixdə şəhərlər və feodallar) tərəfindən öz ordularını möhkəmləndirmək üçün, hərbi xidmət keçməkdən ötrü cəlb edilən, əsasən əcnəbilərdən ibarət olan, maddi mənfəət güdən və ya ideoloji

oxşar məsələlərin həllinin müqayisə edilməsinə əsaslanan elmi tədqiqatlar. Elmi cəhətdən böyük əhəmiyyət kəsb etdiyi kimi, M.M. mühüm praktiki – tətbiqi əhəmiyyətə də malikdir: ictimai-siyasi proseslərin problemlərinin zaman baxımından: tarixi və müasir, coğrafi baxımdan: məhəlli və beynəlxalq miqyasda unifikasiyası zamanı M.M.-in məlumatlarından istifadə edilir. Tarix elmindən, sosilogiyada, hüquqşunaslıqda, iqtisadiyyatda, etnoqrafiyada və s. M.M. geniş tətbiş olunur.

**MÜQAYİSƏLİ KRATOLOGİYA** – hakimiyyət barəsində vacib elm sahələrindən biri hansı ki: a)tarixdə və bu gün; b)müasir dövlətlərdə; c)hakimiyyət barəsindəki nəzəriyyə və təlimlərdə və s. – müxtəlif hakimiyyət sistemlərini müqayisəvi şəkildə araşdırıb – öyrənmək məqsədlərini güdür, bu və ya digər hakimiyyət sistemlərinin "müsbət" və "mənfi" (üstünlük və zəiflik) cəhətlərini, hakimiyyət məfhumunun inkişafı və proqnozlaşdırılması imkanlarını yaradır.

**MÜQƏDDƏS SÜLH** – bax *olimp* (4).

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ (MDB)** (rus analoqu *Содружество Независимых Государств – СНГ*) - SSRİ adlı dövlətin süqutundan sonra əmələ gəlmiş, elə ona üzv olan 15 keçmiş müttəfiq respublikalardan 12-sini (3 pribaltika respublikası istisna olmaqla) özündə cəmləşdirən – amorf regional ittifaq (birlik). Mürəkkəb siyasi proseslər nəticəsində onun üzvlərinin sayı tərəddüd edib. Hal-hazırda: Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxstan, Qırğızstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan və Ukrayna – MDB üzvləri hesab olunurlar.

MDB-nin Ali orqanı-dövlət başçılarının Şurasıdır. Şuraya MDB-nin ümumi maraqları sferasında fəaliyyəti ilə bağlı prinsipial məsələlərin müzakirə və həll edilməsi səlahiyyəti verilmişdir. Hökumət başçılarının şurası MDB-nin üzv dövlətlərinin icra hakimiyyəti orqanlarının iqtisadiyyat, sosial və başqa sahələrdəki fəaliyyətini nizamlayır. Hər iki şuranın qərarları – *konsensus* yolu ilə qəbul olunur; Xarici İşlər Nazirləri Şurası – yuxarıdakı şuraların qərarı ilə fəaliyyət göstərir, beynəlxalq təşkilatlardakı fəaliyyət də daxil olmaqla üzv dövlətlərin xarici siyasi fəaliyyətinin koordinasiyasını həyata keçirir, dünya siyasətinin qarşılıqlı maraq doğuran müxtəlif məsələləri haqqında məsləhətləşmələr aparır. Bunlardan savayı, müxtəlif sahəli (misal: ekologiya, iqtisadi, müdafiə) qurumları vardır. MDB orqanları içərisində Parlamentlərarası Assambleya xüsusi yer tutur. Onun (MDB-nin) bayrağı, Nizamnaməsini və s. aktları vardır.

MDB-nin məqsədləri aşağıdakıladır: siyasi, iqtisadi, ekoloji, humanitar, mədəni və başqa sahələrdə əməkdaşlığı həyata keçirmək, ümumi iqtisadi məkan yaratmaq, beynəlxalq hüququn ümumqəbulolunmuş prinsiplərinə və ATƏT-in sənədlərinə uyğun olaraq insanların hüquq və azadlıqlarını təmin etmək, beynəlxalq sülhün və təhlükəsizliyin təsis edilməsində üzv dövlətlər arasında əməkdaşlığı artırmaq, üzv dövlətlərin vətəndaşlarına birlik daxilində əlaqələr qurumlarına və sərbəst gediş-gəlişlərinə kömək etmək, qarşılıqlı hüquqi yardım və hüquqi münasibətlərin digər sahələrində əməkdaşlıq etmək, birlik dövlətləri arasındakı mübahisələri və münaqişələri sülh yolu ilə həll etmək (MDB Nizamnaməsinin 2-ci maddəsi).

**MÜŞAHİDƏÇİ(LƏR)** (rus analoqu *наблюдатели*) - dövlətdaxili və ya beynəlxalq əhəmiyyətli aksiyaları (seçkilər, referendum (beynəlxalq) konfranslar, forumlar) yerində izləmək, kənardan nəzarət etmək, qeydlər aparmaq və sonradan göndərən subyektə (siyasi partiya, kollektiv, dövlət (orqanları) və s.) məruzə etmək üçün, yəni həmin prosesdə məhdud iştirak etmək üçün təhkim edilmiş (göndərilmiş) nümayəndə (heyəti). Tamhüquqlu iştirakçılardan və məşvərətçilərdən fərqli olaraq, M.- qərarların qəbulunda, işçi qruplarının təşkil edilməsi və fəaliyyətində və s. iştirak etmirlər, məsləhət, tövsiyyə və göstəriş vermirlər, lakin rəy hazırlamağa, lazım gəldikdə, yerində (aksiya prosesində) çıxış etmək imkanları vardır. M. müvafiq olaraq aksiyanın gedişinə müdaxilə edə bilməzlər, işin normal axarını poza bilməzlər – əgər belə hal baş versə, mürəkkəb prosedur qaydalarına riayət etməklə M.- aksiyanın gedişindən məcburi kənarlaşdırılır(lar).

Hər bir siyasi aksiyalara M. göndərilmir, yalnız aksiyanın gedişində, nəticəsində marağı olan subyektlər M. göndərirlər. Yeri gəlmişkən, M. statusunu qazanmaq üçün də müəyyən prosedur qaydalarına riayət etmək labüddür.

**MÜŞAVİR** (rus analoqu *советник*) – 1)məsləhət, tövsiyyə verən şəxs; 2) hətta, dövlətin yüksək vəzifəli şəxslərin yanında, müvafiq xidmət göstərən vəzifə adı, o cümlədən: Prezident M.-i; Nazir M.-i və s. Bu cür vəzifələrə bir qayda olaraq yüksək ixtisaslı, bacarıq və savadlı, peşəkar və təcrübəli şəxslər təyin olunurlar; 3) diplomatik orqanlarda müvafiq vəzifə adı, hətta M.-lərin müvafiq təsnifatları, ranqları mövcuddur.

**MÜVƏQQƏTİ İŞLƏR VƏKİLİ** - diplomatik nümayəndəliyə, onun başçısı olmadıqda rəhbərlik edən şəxs. Adətən, diplomatik nümayəndə- nümayəndəliyi tərk edəcək ərəfədə fəaliyyət göstərdiyi dövlətin Xarici İşlər Nazirliyinə məktub vasitəsilə M.İ.V-nin təyin edilməsi haqqında məlumat verir. Əgər təyin olunmuş M.İ.V.-də fəaliyyət göstərdiyi ölkəni tərk edərsə, belə halda nümayəndəliyin fəaliyyət göstərdiyi



ölkənin Xarici İşlər Nazirliyinə (Nazirə) M.İ.V. göndərən ölkənin Xarici İşlər Naziri məktub (teleqram) vasitəsilə, yəni M.İ.V.-nin təyin edilməsi barədə xəbər verir. M.İ.V. bəzi protokol vəzifələrini çıxmaq şərtilə diplomatik nümayəndənin istifadə etdiyi bütün hüquq və imtiyazlardan istifadə etmək hüququna malikdir.

# N

---

**NASİONALİZM** (latın *natio* – millət, xalq sözündən) – bax *millətçilik*.

**NATO** (*North Atlantic Treati Organization* – ingilis dilindən: Şimali Atlantika Müqaviləsi Təşkilatı) – 1949-cu ildə ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, Belçika, Niderland, Lüksemburq, Portuqaliya, Norveç, Danimarka və İslandiya arasında bağlanmış "Şimali Atlantika Paktı" əsasında yaradılmış hərbi-siyasi blok. Sonralar ona Türkiyə, Yunanıstan (1952), Almaniya FR (1955), İspaniya (1982) və digər dövlətlər, o cümlədən keçmiş Sovet (Baltikyanı) Respublikaları qoşulmuşdular və ya digər formada ("sülh naminə əməkdaşlıq" formasında) əməkdaşlıq edirlər. Lakin Fransa 1966-cı ildən NATO hərbi təşkilatında iştirak etmir. NATO-nun yaradılmasının ilkin məqsədləri (keçmiş) SSRİ və Sosialist Respublikalarına qarşı yönəldilmişdirsə, sosialist sistemi Avropada dağılandan sonra NATO nəyinki, dağılmamış və hətta, fəaliyyətinin əhatə dairəsini genişləndirmişdir, Avropadan uzaq olan İraq və Əfqanıstanda hərbi əməliyyatlar keçirmişdir.

NATO-nun Ali rəhbər orqanları – NATO Şurasının sessiyası, Hərbi Komitə və Hərbi Planlaşdırma Komitəsidir. Sessiyalar arası dövrdə Daimi Şura və Baş Katibin başçılıq etdiyi Katiblik fəaliyyət göstərirlər. Hərbi Komitədə üzv dövlətlərin başqərargahlarının rəisləri təmsil olunurlar. Mühüm orqanı Nüvə Müdafiəsi Komitəsidir (əməli orqanı Nüvə Planlaşdırma qrupudur). NATO-nun daimi iqamətgahı Brüsseldədir (Belçika), 1967-ci ilə qədər isə Parisdə (Fransa) idi.

**NATURALİZASİYA** (fransız *naturalisation*, latın *naturalis*-təbii, doğma) – 1. vətəndaşlığı qəbul etmə; insanı (əcnəbi vətəndaşı və ya vətəndaşlığı olmayan şəxsi) hər hansı bir dövlətin vətəndaşlığına, yaxud təbəəliyinə qəbul edilməsi. N. insan qarşısında müxtəlif dövlətlərdə müxtəlif (bəzən çox sərt) tələblər qoya bilər, o cümlədən: vətəndaşlığı, təbəəliyini qəbul edən dövlətin rəsmi (dövlət) dilinin bilməsi; orada uzun müddət yaşaması; cinayət törətməsi və s. İnsanı vətəndaşlığa, təbəəliyə qəbul etmə səlahiyyəti – dövlət başçısına (monarxiyalı dövlətdə - monarxa, Parlamentarizmli dövlətdə - Parlament sədrinə və ya Parlament (Ali) rəyasət heyətinə) mənsubdur. Bir dövlətin vətəndaşlığını, təbəəliyini qəbul etməsi üçün əvvəl vətəndaşı olduğu dövlətin vətəndaşlığından çıxmaq, - mütləq şərt deyil; 2. bioloji proseslərin nəticələrindən biri.

**NAZİRLƏR KABİNETİ** – bax *Hökumət*.

**NAZİRLƏR ŞURASI** – bax *Hökumət*.

**NAZİRLİK** (ərəb-baxmaq, görmək, nəzarət etmək) – dövlətin mərkəzi idarəetmə orqanı; bütövlükdə ölkə miqyasında (yaxud Muxtar Respublika miqyasında) ona tapşırılmış iqtisadi, sosial-mədəni, yaxud inzibati-siyasi fəaliyyətin müxtəlif sahələrinə rəhbərlik edir; dövlət aparatının mühüm hissəsi N.-in təyinatı, məqsədi, vəzifələri və fəaliyyət prinsipləri müvafiq qanunda təsbit edilir. Hüquqi vəziyyəti ayrı-ayrı N.-lər haqqında əsasnamələrlə, habelə digər normativ aktlarla dəqiqliklə nizamlanır. N., ona həvalə olunmuş idarəetmə sahəsinə bilavasitə, yaxud yaratdığı orqanlar vasitəsilə dövlətin bütün ərazisində rəhbərlik edir. N.-ə təkbaşına *Nazir* başçılıq edir – o, Ali dövlət hakimiyyəti (Prezident və ya Parlament) tərəfindən təyin olunur (müvafiq orqan tərəfindən N. yaradılır və ya ləğv edilir) və onun qarşısında məsuldur və eyni, zamanda Hökumətə (Nazirlər Kabinetinə, Nazirlər Şurasına) tabedir. Səlahiyyəti daxilində tabeliyində olan müəssisə, idarə və təşkilatlar tərəfindən hökmən icra olunmalı - *əmrlər, təlimatlar* dərc edir və *göstərişlər* verir, onların icra olunmasını təşkil edir və yoxlayır. N. öz sahəsinin inkişafının əsas istiqamətlərini müəyyən edir, onun inkişafının prespektiv və cari planlaşdırmasının, N.-ə tabe olan müəssisələrin, idarələrin və təşkilatların maddi-texniki cəhətdən təchis olunmasını və maliyyələşdirməsini həyata keçirir, onların işini yoxlayır, kadrları seçir, təyin edir və azad edir. Müvafiq olaraq hesabatlarını və məruzələrini dinləyir və s.

**NE VARİETUR** (latın *ne varietur*- dəyişməməlidir) - diplomatik praktikada istifadə olunan termin. Mənası odur ki, müqavilənin mətni oxunmur və dəyişikliklər edilmir.

**NEO...** (yunan *néos*-yeni) – "yeni" mənasını bildirən mürəkkəb sözlərin tərkib hissəsi.

**NEOKOLONİALİZM** (yunan *néos*-yeni, latın *colonia*-məskən) – bax *yeni müstəmləkəçilik*.

**"NEOQLOBALİZM" DOKTRİNASI** ("Yeni qlobalizm") (yunan *néos*-yeni, fransız *qlobal*-ümumi; latın *qlobus*-kürə sözündən və latın *doctrina*-təlim) – suveren dövlət və xalqlara qarşı aqressiv fəaliyyətli siyasət. Mahiyyəti ABŞ-a beynəlxalq münasibətlərin ümumi qəbul olunmuş normalar ilə hesablaşmama, qlobal miqyasda, dünyanın müxtəlif bölgələrində yerləşən müstəqil dövlətlərin daxili işlərinə qarışma, onların müxalif, reaksion, irtica qüvvələrini dəstəkləmə, özünə (ABŞ-a) xoş gələn siyasi qüvvələri dəstəkləmə və xoş gəlməyən siyasi qüvvələri yatıtma (əzmə), müstəqil dövlətlərə qarşı açıq və gizli təzyiq göstərmə, sarsıdıcı əməliyyatlar aparma və hətta, onlara qarşı müharibə aparma və s. "səlahiyyətlərini" "əsaslandırmasını" verməsindən ibarət olan, - XX əsrin 80-ci illərində ABŞ hakimiyyəti tərəfindən formalaşdırılmış siyasi konsepsiya. Təcrübədə isə "N."D. dünyanın bir sıra bölgələrində ABŞ-ın "strateji maraq zonaları" elan etməsində; müəyyən siyasi qüvvələrə silah-sursat ötürülməsində, hərbi dəstək göstərilməsində; siyasi-iqtisadi sanksiyalarla, blokadalarla xarici iqtisadi əlaqələrini kəsmək cəhdi ilə iqtisadi təzyiq göstərilməsində və nəhayət, açıq hərbi müdaxilədə özünü büruzə verir.

**NEYTRAL...** (fransız *neutral,* latın *neuter*-nə o, nə bu) – bitərəf, 1. *neytraliteт* – başqalarının mübahisələrinə, tərəflərin arasındakı mübarizəyə üçüncü tərəfin qoşulmamazlığı; başqa, müstəqil dövlətlərin, xalqların daxili işlərinə qarışmamazlıq; 2. dövlətin xüsusi (neytral) hüquqi statusu; hərbi münaqişələrdə (müharibələrdə) və hərbi-siyasi ittifaqlarda iştiraka dair neytrallıq: *eventual neytrallıq* – hərbi münaqişədə (müharibədə) iştirak etməmə, belə (neytral) dövlətə hərbi əməliyyatlarda iştirak, münaqişə (müharibə) tərəflərinin hər hansı birinə köməklik etmir; *daimi neytrallıq* – nə müharibə və nə də sülh dövründə aqressiv siyasət yürütməyən, siyasi-hərbi ittifaqlarda iştirak etməyən, müharibə başlamayan (neytral) dövlət; *silahlı neytrallıq* – öz neytrallığını, hətta silah yolu ilə qoruyan (neytral) dövlət; *ənənəvi neytrallıq* – uzun müddət öz neytrallığını qoruyan (neytral) dövlət; *pozitiv neytrallıq* - bax *bloklara qoşulmayan dövlətlər.* 3. *neytralizm* - özünün xarici siyasətinin əsas prinsipi kimi, qəbul və bəyan etmiş (neytral) dövlət (bariz nümunə: İsveçrə); 4. *hüquqi neytrallıq* – hüquq münasibətlərinin iştirakçılarının (Məhkəmə, Arbitraj, seçki komissiyaları və s.) – müstəqillik və bitərəflik prinsipləri üzərində formalaşması və fəaliyyət göstərməsi; 5. *neytral zona* – heç bir dövlətin yurisdiksiyasında olmayan və ya müharibə aparılmayan (və ya nüvə sınağı keçirilməyən) ümumi istifadədə olan zonalar: quru, dəniz və hava (səma) əraziləri; dövlətlərarası sərhəd boyunca zona; hərbi münaqişə tərəfləri arasında təmas ərazi zonaları; bax *açıq şəhər*; *açıq dəniz; 6. neytral yük* – neytral və ya düşmən (hava, su, quru) nəqliyyat vasitəsində - neytral dövlətə və ya onun vətəndaşlarına məxsus olan (hərbi kontrabanda istisna olmaqla) yük. O, həbsə məruz qalmamalıdı, hətta əgər düşmən nəqliyyat vasitəsində daşınırsa; 7. elektrofiziki kateqoriya.

**NİZAMİ ORDU** (rus analoqu *регулярная армия*) – 1. qanunilәşdirilmiş qaydada ştat təşkilatına, silah tipinə, kompleksləşdirmə sisteminə, hərbi xidmət qaydasına, şəxsi heyətin təlim və tərbiyə üsuluna, geyim formasına, həmçinin mərkəzləşdirilmiş idarə və təchizat sisteminə malik olan daimi ordu.

N.O. Qərbi Avropa dövlətlərinin əksəriyyətində həmçinin Yaponiyada XVII-XVIII əsrlərdə, Rusiyada isə XVIII əsrin 70-ci illərində yaradılmışdır; 2. nizami quru qoşunlarının adı. N.O.-dan fərqli olaraq *muzdlu ordunun* sıravi əsgərləri sırf peşəkar hərbiçilərdən ibarətdir və onlar müqavilə əsasında (yüksək məvaciblə) xidmət edirlər; *kadr ordusu* isə, əsgərləri (o cümlədən, zabitləri) dinc (müharibəsiz) dövrdə dövlət tərəfindən ixtisar edilmiş heyətdə saxlanılır.

**NİZAMNAMƏ** (ərəb-qayda, sistem və fars-*namə*-məktub) – dövlət və ya ictimai (o cümlədən, beynəlxalq) təşkilat tərəfindən qəbul edilən, müəyyən qaydalar məcmusu. Müəyyən müəssisənin, idarənin və ya təşkilatın məqsəd və təyinatını, quruluşunu və idarə orqanlarını, onların səlahiyyətlərini və formalaşma qaydasını, üzvlərinin hüquqi statusunu, fəaliyyətinin ümumi prinsiplərini, onların digər orqanlarla, təşkilatlarla və vətəndaşlarla münasibətlərini qurulma istiqamətini, təsərrüfat fəaliyyəti sahəsindəki hüquq və vəzifələrini və ola bilsin, yerli təşkilatlarının hüquqi statusunu dəqiqləşdirən və qeyd edən akt.

**NOBEL MÜKAFATLARI** (İsveç mühəndis, kimyaçısı, ixtiraçı və sənayeçi Alfred Bernhard Nobelin soy adından) – fizika, kimya, fiziologiya, yaxud tibb, ədəbiyyat sahələrində dünyada ən uğurlu nailiyyətlərə görə, həmçinin sülhü möhkəmləndirmək sahəsindəki fəaliyyətdə xüsusi fərqlənmiş şəxslərə hər il (ildə bir dəfə olmaqla) dekabr ayının 10-da, Stokholm (İsveç) və Oslo (Norveç) şəhərlərində təntənəli surətdə təltif edilən beynəlxalq mükafatlar; üzərində A.Nobelin təsviri və müvafiq yazı olan qızıl medal, diplom və müəyyən məbləğdə pul çekindən ibarət olan mükafatlar. A.Nobel qazandığı külli miqdarda (31mln İsveç kronası) pul vəsaitini, yeri gəlmişkən həmin vəsaitin xeyli hissəsi Nobel qardaşarının eyni adlı şirkəti ("Nobel qardaşları" neft şirkəti) Bakıda birinci neft "bumu" dövründə qazanılmışdır, özünün vəsiyyəti ilə "Nobel fondunun" yaradılmasnı ərz etmişdir və N.M. 1901-ci ildən



başlayaraq təltif edilir. N.M.-na namizədlərın irəli sürülməsi, onların fəaliyyətlərinin nəticələrinin yoxlanılması, seçilməsi və təltif edilməsinin mürəkkəb prosedur qaydaları vardır.

**NOTA** (latın *nota*-hərfi mənada: yazılı işarə, məzəmmət, məktub) - diplomatik akt növü; diplomatik praktikada bir dövlətin – digər dövlətə müraciəti. N. vasitəsilə bir Hökumətin tərəfindən digər Hökumətin düzgün olmayan (səhv) hərəkələrinə (aktlarına) etiraz (protest), öz hüquqlarının tələbi və ya hər hansı iddia bildirilir. Eyni zamanda N. digər rəsmi diplomatim sənədlər (memorandum, bildiriş, yaddaş xatiratı və s.) kimi, yalnız informasiya (məlumat) xarakteri daşıya da bilər, lakin hətta, belə halda da o (N.), hüquqi əhəmiyyətə malikdir, çünki Hökumətin rəsmi nöqteyi-nəzərini bildirir . N.-lar mübadiləsi yolu ilə saziş (müqavilə) də bağlanılır. N. üç formada olur: imzalı N. (yaxud şəxsi N.); verbal N. (rəsmi bəyanat şəklində verilir) və; ümumi N. Bir qayda olaraq, N. fərdi diplomatik aktdır, lakin müasir təcrübədə kollektiv N.-lara da təsadüf edilir. Təcrübədə bir neçə subyektin müəyyən bir dövlətin Hökumətinə tamamilə eyni məzmunda N. (identik və ya paralel N.) göndərilməsi hallarına da rast gəlinir.

**NOTA MÜBADİLƏSİ** - beynəlxalq müqavilələrin bağlanması formalarından biri. Adətən, diplomatik münasibətlərin qurulması, diplomatik missiyanın- səfirliyə çevrilməsi, hər hansısa müqavilədə ayrı-ayrı müddəaların dəqiqləşdrilməsi, müqavilələrin fəaliyyətinin dayandırılması və başqa bu kimi məsələlər üzrə dövlətlər arasında müqavilələrin bağlanmasında istifadə olunur.

Müqaviləni təşkil edən identik mətn (nota) tərəflərlə şifahi və ya diplomatik yazışma yolu ilə razılaşdırılır. Əgər notalarda başqa qayda nəzərdə tutulmayıbsa, oxşar notalarda notanın qüvvəyə mindiyi tarixin qoyulması qəbul olunmuşdur. Əgər notalar müxtəlif tarixlə yazılmamışlarsa və müqavilənin qüvvəyə minəcəyi tarix göstərilməmişdirsə, belə halda əsas nota axırıncı alınan notaya qədər fəaliyyətdə olan nota hesab olunur. Belə notalarda, qaydaya görə göstərilir ki, onlar tərəflər arasında razılıq kimi qəbul olunur.

**NOTİFİKASİYA** (latın *notificare*- xəbərdar edilmək, bildirmək) - diplomatik və müqavilə praktikalarında yazılı şəkildə rəsmi bildiriş. Xarici İşlər İdarəsinə, diplomatik nümayəndəliyə və yaxud konsulluğa dövlətlərin hər hansısa beynəlxalq məsələ ilə bağlı mövqeyini ifadə edən, hər hansısa hadisə və faktla bağlı baxışları əks etdirən beynəlxalq müqavilənin imzalanması, ratifikasiyası, müqavilələrə qoşulma və yaxud denonsasiya haqqında məlumatı bildirən diplomatik nota və yaxud başqa sənədlərin təqdim edilməsi ilə həyata keçirilir.

**NUNSİ** (latın *nuntius*-müjdəçi) – diplomatik münasibətlər saxladığı başqa dövlətlərdə (hökumətərin yanında) Roma Papasını təmsil edən rəsmi daimi ali diplomatik nümayəndə. Fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsinə bərabər tutulur, uyğun gəlir.

**NÜFUZ** – 1. (1) insanın və ya (2) ictimai birliyin (siyasi partiyanın) müəyyən keyfiyyətlərinə, xidmətlərinə, tutduğu mövqeyinə görə və yaxud (3) dövlətin əhalisinin say tərkibinə, ictimai və iqtisadi inkişaf səviyyəsinə görə, hamı tərəfindən etiraf edilən sayqısı, hörməti. Yanlış fikir olardı, yuxarıda sadalanan subyektlərin fiziki, hərbi gücünü N.-la əlaqələndirmək. Təsir sahəsindən və üsulundan asılı olaraq siyasi, iqtisadi, mənəvi, elmi və s. N.-lar fərqləndirilir. Dövlətin idarəçiliyində hakimiyyətin nüfuzu xüsusi rol oynayır, onun (N.-un) olmaması idarəçilikdə müəyyən problemlər yaradır. N.-un süni, ifrat formasında şişirdilməsi, son nəticədə şəxsiyyətə pərəstişkarlığa gətirib çıxarda bilər. II. bəzi mənbələrdə N. anlayışı siyasi partiyanın, həm də say tərkibinin göstəricisi kimi işlədilir.

**NÜFUZ DAİRƏSİ** (təsir sahəsi) – bir siyasi subyektin (dövlətin, dövlətlər qrupunun, beynəlxalq təşkilatın, xalqın, hətta fərdi şəxsin) hörmətinin, sayqısının digər siyasi subyektlər (konkret dairəsi, sahəsi) tərəfindən könüllü surətdə tanınması, qəbul edilməsi. Bəzi elmi siyasi ədəbiyyatlarda yanlışlığa yol verərək bir dövlətin (və ya onun ərazilərinin bir hissəsinin), xalqın və ya bir neçə dövlətin-başqa bir (hegamon, adioz) dövlətdən siyasi, iqtisadi (maliyyə) asılılığını, nəzarəti (kontrolu) altında olmasına da - N.D. adlandırılır. Zira "asılılıq", "nəzarət (kontrol)" anlayışları özün-də "məcburiyyət" elementlərini ehtiva edir, "nüfüz" anlayışı isə - "könüllü rəğbət" anlayışının sinonimidir. Odur ki, monopolist, ekspansiv və, hətta işğalçı dövlətlər özlərinin çirkin siyasətlərini (o cümlədən: neokolonialist, monopolist, aqressiv və s. siyasətlərini) pərdələmək üçün - "N.D." kimi humanist anlayışdan sui-istifadə edirlər. Maliyyə kapitalının, şərti olaraq, özlərini "N.D."-nın genişləndirilməsi, maksimum dərəcədə gəlir əldə etməsi dalınca qaçması, bir sıra hallarda silahlı münaqişələrə gətirib çıxardır.

**NÜMAYƏNDƏ** (ərəb; latın analoqu *delegatus* ) – dövlət xalq seçicilər, ictimai-siyasi qurum (partiya), müəssisə, kollektiv tərəfindən seçlən və ya təyin olunan maraqlarını qurultaylarda, məclislərdə, iclaslarda, konfranslarda, konqresslərdə və s. təmsil edən müvafiq səlahiyyətli şəxs.

**"NÜVƏ KLUBU"** – nüvə silahına malik olan qüdrətli dövlətlər qrupuna, bəzi kütləvi informasiya vasitələri (KİV) və siyasi ədəbiyyatda verilmiş şərti ad. Müasir dövrdə, şərti olan "N.K."-na ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Çin, Hindistan və Pakistan daxildirlər. Nüvə silahına malik olmayan, lakin onu (nüvə silahını) yaratmaq üçün bütün elmi-texniki potensiala malik olan ölkələrə şərti olaraq "nüvəyə

yaxın" ölkələr deyilir. Müasir dövrün ən aktual problemlərindən biri-nüvə silahı istehsalının yayılmasının və tətbiqinin qarşısının alınmasıdır, yəni "N.K."-nun genişləndirilməsinə imkan verilməməsi və üstəlik nüvə silahının ləğv edilməsi problemidir, digər problem artıq nüvə silahına malik olan dövlətlərə, həmin silahın yayılması və tətbiqinə yol verməməkdən ötrü – beynəlxalq nəzarətin gücləndirilməsidir, "N.K."-na daxil olan dövlətlərin öz aralarındakı heç də, həmişə hamar olmayan münasibətləri, - xüsusi problemdir.

# O

---

**OBSKURANTİZM** (latın *obscurans (obscurantis)* – tündləşdirən, qaraldan) – cəhalətpərəstlik, *mövhumatçılıq; yeniliyə, tərəqqiyə qarşı son dərəcə mürtəce, düşmənçilik münasibəti; inkişafa, tərəqqiyə* xidmət edən elmə və təhsilə ifrat münasibət; və nəinki mənfur münasibət bəsləmək, üstəlik ona qarşı, hətta mübarizə aparmaq deməkdir. əgər *konservatizm* köhnə dəyərlərə adət və ənənələrə sadiq qalmaq deməkdirsə - O. irəliləyişə, yeniləşməyə aqressiv münasibət deməkdir.

**OF(F)ERTA** (latın *offero, offertus*-təklif edirəm) – zəruri olan bütün mühüm şərtləri göstərməklə digər tərəfə müqavilə bağlamaq haqqına təklif verilməsi. Ümumi (qeyri-müəyyən şəxslərə edilən təklif) və xüsusi (konkret ünvanlı) O. növləri mövcuddur. O. Şifahi və yazılı formada irəli sürülür. O.-ya qarşı tərəfin razılıq cavabı *aksept* şəklində verilir. Təklif olunmuş müqaviləni digər şərtlərlə bağlamaq üçün verilən razılıq – O.-nın rədd edilməsi və eyni zamanda, yeni O. hesab edilir.

**OLİMP** (yunan *Olympos* – Yunanıstanda ən yüksək (2917 m) dağ massivi, hal-hazırda milli park) – 1)yunan əsatirində - Zevs başda olmaqla, allahların mövcud olduğu yer, eləcə də olimp allahların yığıncaq, toplanış yeri; 2) (məcazi mənada) *hakimiyyət olimpi* – hakimiyyətin zirvəsi. Ali orqanları, elə bundan irəli gələrək hakimiyyətin, hökmdarların əzəmətliliyi, möhtəşəmliyi, dayanıqlı sakitçilik; 3) (məcazi mənada) *olimpiya sakitçiliyi* – olimpiyada yarışların keçirildiyi yaşayış məntəqəsində (şəhərlərində) tətbiq olunan xüsusi, geniş miqyaslı, çoxşaxəli, hətta bəzi hallarda, vətəndaşların müəyyən hüquqlarını məhdudlaşdırmaqla həyata keçirilən təhlükəsizlik tədbirləri nəticəsində əldə edilən – nümunə kimi göstərilən siyasi, kriminoloji sabitlik. Misal üçün: 1980-ci ildə keçirilmiş Moskva olimpiadası dövründə: Moskva şəhərinə böyük heyyətdə hüquq-mühafiə orqanlarının əməkdaşları yerləşdirilmişdir; olimpiyadadan savayı digər kütləvi-ictimai tədbirlər qadağan edilmişdir; şəhər sakinləri olmayan bütün digər vətəndaşalr, o cümlədən, şəhər sakini olan sərxoş və avaralar – Moskva şəhərindən məcburi surətdə uzaqlaşdırılmışdırlar; Moskva şəhərinə gəliş-gediş, eləcə də şəhər həyatı ciddi nəzarət altında alınmışlar; hətta, cinayət törətməmiş, lakin təhlükəli canilər olimpiyadanın sona çatan müddətinə qədər həbs edilmişlər, bundan savayı; Moskva şəhərinin ərzaq və digər təminatları gücləndirilmişdir və s. – nəticədə isə olimpiya dövründə cinayətlərin sayı azalmış, absolyut sabitliyə nail olunmuşdur. 4) *olimpiya oyunları*- a) Qədim Yunanıstanda Olimpiya şəhərində e.ə. 776-cı ldən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən ümumyunan bayramı və yarışları; b) Müasir dövrdə, hər 4 ildən bir keçirilən ümumdünya əhəmiyyətli kütləvi-mədəni, idman tədbirləri, ən böyük beynəlxalq idman yarışları. O, Pyer de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir və hər keçirildiyi, hətta keçirilmədiyi hallarda da ona nömrələr verilir və keçirilən şəhərlərin adına uyğun ad verilir. Olimpiya oyunlarının – yay və qış xarakterli formaları olur. Olimpiya oyunlarının digər əhəmiyyəti ondan ibarətdir ki, həmin oyunlar keçirilən dövrdə "Müqəddəs sülh" prinsipi mövcuddur, yəni bütün müharibələr, hətta motiv və məqsədlərindən asılı olamayaraq dərhal dayandırılmalıdır. Qədim yunanlar üçün, həmin prinsip məcburi xarakter daşıyırdı.

**ONLAR QRUPU** - bax "Paris klubu".

**OPEK** (ingilis *Organization of Petroleum Exporting Countries* – neft ixrac edən ölkələr təşkilatı) - dünya miqyasında əsas neft hasilatı ilə məşğul olan dövlətlərin (Birləşmiş Ərəb Əmirliyi (BƏƏ), Səudiyyə Ərəbistanı, Qətər, Küveyt, ƏXDR, İraq, İran, Livan, Nigeriya, Qabon, Venesuela və İndoneziya), yəni dünya neft ehtiyat-larının təqribən 3/5 sahib dövlətlərin birliyi, bir sıra dövlətlər isə, OPEK-də müşaiyyətçi statusuna malikdirlər. *O, 1960-cı ildə yaradılmışdır və iqamətgahı Vyanada (Avstriya)* yerləşir. OPEK-in Ali orqanı - Nazirlər konfransıdır. OPEK-in əsas məqsədləri – üzv ölkələrinin maraqlarını təmin etmək, neft hasilatından və ixracından gələn gəlirləri artırmaqdır iqtisadi inkişafı sürətləndirmək və hətta beynəlxalq inhisardan müdafiə olunmaq (baxmayaraq ki, OPEK özü bir növ inhisar təşkilatıdır). OPEK-in praktiki fəaliyyəti isə, üzv dövlətlər tərəfindən neftin hasilatını və ixracatını



tənzimləməklə dünya neft bazarında özlərinin müəyyənləşdirdiyi qiyməti diktə etməkdən ibarətdir, hərçənd, bəzi hallarda , bundan təzyiq vasitəsi kimi istifadə edilməsi müşahidə edilir.

**OPSİON** (latın *optio* - seçmə. istək, mülahizə) - 1) beynəlxalq hüquqda - fərdi şəxsin özünə *vətəndaşlıq* seçməsi; beynəlxalq müqavilələrdə müəyyən olunmaqla - ərazi dəyişikliyi edildikdə, yeni dövlət yarandıqda, yaxud *ikili vətəndaşlığı* aradan ləğv etmək üçün edilir. Belə halda – "optasiya" terminindən daha çox istifadə edilir; 2)Müəlliflik hüququnda "O." terminindən bir dövlətin müəllifinin əsərinin - digər dövlətdə nəşr etmək haqqında müqavilə bağlandıqda istifadə edilir. Lisenziya müqaviləsi bağlandıqda da – O. tətbiq edilir.

**OPTASİYA** (latın *optatio* - istək, seçim) - müəyyən ərazilərin dövlət mənsubiyyətliyi müəyyənləşdirildikdə (misal: dövlətlər arasında ərazi mübadiləsi baş verdikdə; bir dövlətin əraziləri başqa bir dövltin ərazilərinə qatıldıqda), həmin ərazilərdə yaşayan sakinlərə vətəndaşlıq seçmək hüququnun verilməsi. Dövlətlər arasında ərazi mübadiləsi edildikdə, həmin ərazilərin sakinlərinə dövlətlərarası müqavilədə göstərilmiş qaydada və müddətdə (bəzi hallarda, əsasən əraziləri qəbul edən dövlət tərəfindən birtərəfli surətdə) vətəndaşlığını müəyyənləşdirmək hüququ verilir. O.-ya fərdi qaydada və ya referendum vasitəsi ilə bütün sakinlərin iştirakı ilə müəyyənləşdirilir.

**OSTRAKİZM** (yunan *ostrakismós, ostrakon*-saxsı qırığı) – qovma, sürgün etmə; Qədim Afinada xalq yığıncağının qərarı ilə dövlət üçün təhlükəli ayrı-ayrı şəxslərin şəhərdən qovulması. E.ə. VI əsrin sonundan Tiraniyanın bərpası əleyhinə tədbirlər kimi, tətbiq edilmişdir. Xalq yığıncağında səs hüququ olan hər kəs (vətəndaş) təhlükəli saydığı adamın adını saxsı qırığına yazaraq təqdim edirdi. Əleyhinə 6 mindən az olmayaraq səs verilən adam (vətəndaşlıq və mülkiyyət hüququndan məhrum edilməklə 10 il müddətinə) 10 gün ərzində Afinanı tərk etməli idi.

# Ö

---

**ÖDƏMƏ BALANSI** (fransız *balance* – hərfi mənası: tərəzi) – müəyyən zaman (ay, kvartal, il) çərçivəsində dövlətin xaricə ödədiyi *vəsaitlə - dövlətə xaricdən ödəmələrin arasındakı nisbət.* Xarici ticarət əməliyyatı və ya ticarət balansı, beynəlxalq xidmətlər (beynəlxalq daşımalar, tranzit və s.), qeyri-ticarət əməliyyatları (təmsilçiliyin saxlanılması, mütəxəssislərin ezamiyyəti, beynəlxalq turizm və s.), eyni zamanda, kapital axını (kapital qoyuluşu, investisiyalar (sərmayələr), kreditlərin verilməsi) nəticəsində əmələ gələn faizlər, dividentlər və s. -Ö.B.-na daxildirlər. Ölkənin Ö.B. – onun xarici iqtisadi vəziyyətinin, mövqeyinin vacib indikatorudur (göstəricisidir): əgər dövlətə xaricdən ödənilən vəsait – dövlətin xaricə ödədiyi vəsaitdən artıq gəlirsə - buna *aktiv Ö.B.* deyilir; əksinə olduğu halda, yəni əgər dövlətin xaricə ödədiyi vəsait – dövlətə xaricdən ödənən vəsaitdən artıq gələrsə - buna *passiv Ö.B.* deyilir. Qızıl-valyuta rezervlərinin (azad konversiya valyutası, Beynəlxal Valyuta Fondunun (BVF) xüsusi kreditləri, qızıl) dəyişilməsi, qiymətlərin dinamikası, inflyasiya və s. – ölkələrin Ö.B.-na müəyyən təsir göstərə bilər.

**ÖHDƏLİK** (rus analoqu *обязательство*, ingilis analoqu *obliqation, commitment*) – vətəndaşın digər vətəndaş, təşkilat, xalq (dövlət) qarşısında öz üzərinə yazılı və ya şifahi formada, könüllü surətdə götürdüyü, lakin icrası, məcburi olan müəyyən hərəkətlər məcmusu, lakin bəzi Ö.-lər vardır ki, hərəkətsizliklərlə (misal: başqasının amanatını istifadə etməmə haqqında Ö.) həyata keçirilir. Müqavilə, beynəlxalq, *hüquqi* və s. Ö.-ləri fərqləndirilir. Ö. mahiyyət etibarilə "hüquqi vəzifəyə" çox uyğundur: əgər hüquqi vəzifələrin qəti syahısı qanunvericilik formasında bərkidilmişdirsə, Ö.-lərin qəti siyahısı yoxdur, üstəlik "Ö." şifahi formada da qəbul edilə bilər; hüquqi vəzifələri qəbuletmə bütün vətəndaşlar üçün məcburidirsə. Ö. könüllü surətdə qəbul edilir. *Andiçmənin* mahiyyəti Ö.-dən ibarətdir.

**ÖVDƏTNAMƏ** – diplomtik nümayəndənin tutduğu vəzifədən geri çağrılması haqqıbda sənəd. Diplomatik nümayəndəni (səfir, elçi, konsul) göndərən dövlət başçısı adından diplomatik nümayəndə müvəkkil olmuş dövlətin başçısının adına göndərilir. Ö., adətən, yeni təyin olunmuş diplomatik nümayəndə öz etimadnaməsini təqdim edərkən verilir.

**ÖZ MÜQƏDDARATINI HƏLLETMƏ PRİNSİPİ** (digər interpretasiyası: *özünütəyinetmə hüququ*) - beynlxalq hüququn ən ziddiyətli, mübahisəli və, hətta faciəvi prinsipi. Elmi ədəbiyyatda Ö.M.H.P. bu cür izah edilir: "sayından, inkişaf səviyyəsindən, mövcud olduğu ərazidən və digər xarasterik göstəricilərdən asılı olmayaraq hər bir xalqın başqa xalqdan ayrılmaq və öz müstəqil dövlətini yaratmaq, öz taleyini müstəqil şəkildə həll etmək, azad iradəsini ifadə etməklə öz dövlətinin taleyini həll etmək (unitar və ya

prinsiplərdən ibarət olan siysət müvəffəqiyyətə məhkumdur. P. olmayan yerdə ikili standartlar, özbaşınalıq, dərəbəylik, anarxiya, xaos və s. baş verir. *Kompromisi* – P.-la qarşı-qarşıya qoymaq yanlış olardı, çünki kompromisin özü P. daxilində nail olunur, P.-a xidmət edir, əks halda kompromisin özü P.-nı, eyni zamanda mahiyyətini itirir.

**PROBLEM(A)** (yunan *próblema* - vəzifə, məsələ, tapşırıq) - geniş mənada: öyrənilməli, həll olunmalı mürəkkəb nəzəri və ya praktiki məsələ. P.-in düzgün araşdırılması - onun müvəffəqiyyətlə həll edilməsinin mühüm şərtidir.

**PROLONQASIYA** (son latın *prolongatio, prolonge*-uzadıram sözündən) – 1. icra müddəti (hüquqi qüvvəsi) sona çatmaqda olan və ya sona çatmış müqavilənin icra müddətinin uzadılması. P. üç yolla: müqavilənin özündə nəzərdə tutmaqla; xüsusi bəyan verməklə və ya; yeni müqavilə bağlamaqla (imzalamaqla) həyata keçirilir. 2. bank tərəfindən müəssisə, təşkilat və vətəndaşlara və s. verdiyi ssudalarının (borclarının) ödəməsi (qaytarılması) müddətinin uzadılması.

**PROSESSİYA** (latın *processus*-keçmə, hərəkət etmə) – 1. Kütləvi təntənəli ictimai-siyasi aksiya; təntənəli nümayiş; bayram nümayişi; bayram əhval-ruhiyyəli kütləvi yürüş; 2. təntənəli siyasi aksiya, diplomatik P., o cümlədən: bir dövlət başçısı tərəfindən – digər dövlət başçısını öz başçısı olduğu dövlətdə təntənəli surətdə qəbul etmə və yola salma (ötürmə) P.-sı; xarici dövlətlərin səfirlərinin dövlət başçısı tərəfindən təntənəli surətdə səfir kimi qəbul etməsi (akkreditasiya). 3. tarixi dövlət idarəçiliyi (monarxiyanı) adət və ənənələrini qoruyub saxlayan dövlətlərdə insanın (adətən şahzadənin, prinsin) rəsmi, təntənəli surətdə monarx titulunun verilməsi və müvafiq kürsüyə keçməsi və səlahiyyətlərinin verilməsi mərasimi (təşrifatı); 4. toy mərasimi; 5. dəfn mərasimi.

**PROTEKSİONİZM** (fransız *protectionisme,* latın *protectio*-müdafiə, hamilik) – milli iqtisadiyata maraq oyandırmasına, canlandırmasına onu ağır xarici rəqabətdən qorunmasına, xarici bazarlara çıxış imkanlarının *genişləndirilməsinə və s. məqsədlər ilə dövlətin yürütdüyü iqtisadi siyasət. P. – daxili və* xarici siyasətin bir-brilə bağlı olan (o cümlədən: vergilərin və gömrük rüsumlarının dərəcəsinin tənzimlənməsi; müəyyən malların idxalatının məhdudlaşdırılması və ya tam qadağan edilməsi; güzəştli kreditləşməsi, borcların bağışlanması və digər stimullaşdırmalar, tədbirlər sistemi vasitəsilə həyata keçirilir. P. ilkin kapital yığımı dövründə manufakturanın yayılması ilə (XVI-XVII əsrlərdə meydana gəlmişdir, onun (P.-in) nəzəri əsasını merkantilistlərin təlimi təşkil edirdi. Yüksək və zəif inkişaf etmiş dövlətlərin P. siyasəti bir-birilə məzmunca fərqlənir: əgər birincilər xarici bazarı ələ keçirmə, öz dövlətinin iqtisadi nöfuzunu beynəlxalq bazara yaymaqdan əsası təşkil olunursa. İkincilərin məqsədi müdafiə olunmaqdan asılı vəziyyətə düşməməkdən əsası təşkil olunur.

Prinsip etibarı ilə *antidemhinq siyasəti* – P.-in bir parçasıdır, lakin P. daha geniş məzmun kəsb edir: əgər birinci sırf vergi və gömrük rüsumlarının qaldırılması ilə məhdudlaşırsa. ikinci siyasi; iqtisadi, hüquqi; islahatları əhatə edir.

**PROTEKTORAT** (latın *protector*-müdafiəçi, hami) – 1. formal olaraq zəif dövləti güclü dövlət tərəfindəbn hamilik (himayəçilik) edilməsi; faktiki olaraq isə, müstəmləkə asılılığın bir forması. P. – dövlətlərarası razılaşmalar ilə bir dövlətin müəyyən funksiyalarının ( misal: müdafiə, sərhəd mühafizə, xarici siyasət, hətta dövlətdaxili funksiyaların) digər dövlət tərəfindən icra edilməsidir. lakin bəzi hallarda (işğalı rəsmiləşdirmək məqsədilə) P. aktı birtərəfli surətdə qəbul edilir, misal: Böyük Britaniya 1914-cü ildə birtərəfli bəyannamə ilə 1882-ci ildən işğal etdiyi Misir üzərində; 1939-cu ildə Hitler Almaniyası Çexiya və Moldaviya üzərində P. müəyyən etmişlər. Yəni P. güclü dövlətin öz siyasətinin və iqtisadiyyatının zəif dövlətlərə yeridilməsidir, o cümlədən, məcburi surətdədə, hətta zorakılıqla, lakin bəzi hallarda, P. müstəqil dövlətin müstəqqilliyini itirməsi və müstəmləkə dövlətin tam tərkibinə qatılması arasında keçid forması rolunu oynayır. Xüsusilə qeyd etmək labüddür ki, P. müasir beynəkxalq hüquqa ziddir; 2. dövlətlər, xalqlar arasında mübahisəli (münaqişəli) əraziləri (onun sakinlərini) təhlükədən qorumaq üçün beynəlxalq təşkilat tərəfindən öz himayəsinə götürməsi və ya; düşmən dövlətlər, xalqlar arasındakı cəbhə xəttində hərbi toqquşmalara yol verilməməsi üçün, həmin cəbhə xəttinin beynəlxalq təşkilat tərəfindən öz himyəsinə götürməsi. Belə halda bir qayda olaraq, həmin ərazilərə və ya cəbhə xəttinə beynəlxalq sülhməramlı hərbi qoşunlar yeridilir; 3. Bax *eqida.*

**PROVOKASİYA** – bax *təxribat.*

**"PSİXOLOJİ MÜHARİBƏ"** (yunan *psyche*-can, ruh, və *logos*-səlim, söz; ərəb) – rəqib (düşmən) tərəfi psixoloji baxımdan zəiflətmək, həyəcanlandırmaq, hərbi-müdafiə qabiliyyətini sarsıtmaq və nəhayət, ona qalib gəlmək məqsədi ilə, müxtəlif xarakterli təzyiq göstərmə siyasətinin şərti adı. Burada "təzyiq göstərmə" deyəndə: "informasiya müharibəsi", ideoloji diversiya, hədə-qorxu gəlmə, nümayişcəsinə "əzələ oynatma" hərbi təlimlər və hərbi paradların keçirilməsi, hərbi əsrlərə işgəncə verilməsi və s. nəzərdə tutulur. "P.M." termini İkinci Dünya Müharibəsinin qurtarmasından sonra "soyuq" müharibəşərti adlanan dövrdə geniş yayılmışdır, həmin dövrdə ABŞ Milli Təhlükəsizlik Şurasının – Mərkəzi Kəşfiyyat



İdarəsinə (MKİ) ünvanladığı xüsusi direktivdə (1947-ci ildə) "P.M." bu cür təsfir olunurdu; "Təbliğatın yürüdülməsi, o cümlədən, anonim, saxta və ya məxfi maliyyələşdirilən nəşrlər vasitəsilə; vətəndaşlığı olmayan şəxsləri, satqınları və siyasi partiyaları dəstəkləməklə; kvazi ("yalançı", "saxta") hərbi metodlorla, o cümlədən, üsyançılara kömək və sabotaj vasitələri ilə siyasi fəaliyyət; maliyyə əməliyyatları ilə əlaqədar – iqtisadi fəaliyyət; yeri gəlmişkən, öz dövlətinin yüksək iqtisadi nailiyyətlərinin rəqib (düşmən) tərəfin nümayiş etməsi də "P.M." vasitələrindən biridir. **PROMUQASİYA** (latın *promugatio*-elan etmə, xalqa bildirmə) – Parlamentin tərəfindən qəbul edi-lən qanunun rəsmi surətdə geniş ictimaiyyətə elan edilməsi; qanun layihəsinin dövlət başçısı tərəfin-dən, Konstitusiyada müəyyən edilmiş müddətdə (adi, yaxud qısaldılmış müddətdə) sanksiyalaşdırıl-ması, habelə qanunun rəsmi nəşrdə dərc edilməsi. Bir qayda olaraq, qanun yalnız P.-dan sonra hüquqi (məcburi) qüvvəyə minir.

# R

---

**RADİKALİZM** (latın *radix*-kök, rişə, mənbə sözündən) - qəti tədbir (hərəkət, baxış tərəfdarlığı, hər hansı məsələnin əsaslı həll edilməsi tərəfdarlığı; 1) bu və ya digər sahədə mövcud olan, vəziyyətin kökündən dəyişdirilməsinə xidmət edən, niyyətlərin qəti və güzəştsiz həyata keçirilməsi; 2) İslahat tələbləri irəli sürən siyasi partiyanın proqram ideyaları; 3)İctimai-siyasi həyatda XIX əsrdə meydana gələn proqramının məğzi, burjua-demokratik islahatları tərənnüm edən burjua-siyasi axın; 4) (mücərrəd mənada) ən qatı, son dərəcədə "ultra" məslək tərəfdarlığı və (lap irqçiliyə, şovinizmə, faşizmə qədər) ekstremizm analoqu.

**RADİOLOJİ SİLAHLAR** - kütləvi qırğın silahlarının növlərindən biri. Bu silahın təsiri ionlaşdırılmış şüalarla bütün canlı varlıqları məhv etmək, ətraf təbii mühiti və müxtəlif obyektləri yoluxlandırmaq məqsədi ilə radioaktiv maddələrdən stifadə olunmasına əsaslanır.

**RANTYE** (fransız-*rentier, rente* - renta (icarə) sözündən) -1) heç bir əmək sərf etməyən, işgüzar aktivlik göstərməyən. lakin, pul kapitalından, bank hesabından, mülkiyyətini icarəyə verməkdən, borc verməkdən, sərmayədən, yaxud, qiymətli kağızlardan (aksiya, istiqraz vərəqəsi və s.) gələn faiz divident hesabına yaşayan, (məcazi mənada "kupon qırxan") şəxslərin, zümrəinin, qrupun şərti adı; 2) Ən iri R.qrupları oliqarxiyasının tərkib hissəsi olmaqla, pul və digər kapitalın çoxunun öz əllərində cəmlədirib, beləliklə də, ölkənin iqtisadiyyatına, sosial-siyasi proseslərinə nəzarət etmək imkanı əldə edirlər; İqtisadi münasibətlərin inkişafı ilə R. təşkilatları, (o cümlədən, beynəlxalq təşkilatları) meydana gəlir. Real kapitalın alqı-satqısına, cəmləşdirməsinə dair müxtəlif əməliyyatlar aparan sərmayədar şirkətlər (trestlər, asossiasiyalar, korporasiyalar), banklar (birliyi), səhmdar cəmiyyətlər və s.-ən tipik R. təşkilatlarıdır; 3) iqtisadi cəhətdən zəif inkişaf etmiş və asılı dövlətlərlə borc (kredit), investisiya (sərmayə) formasında intensiv kapital ixrac etməklə varlanan ölkələr - R. dövlətlərlə seçilirlər. XX əsrin əvvəlində Fransa əsas R. dövlət hesab olunurdu; XX əsrin 70-ci illərində bəzi neft ixrac edən ölkələr (Səudiyə Ərəbistanı və s.) - R. dövlətlərin cərgəsinə daxil oldular.

**RASİZM** – bax irqçilik.

**RATİFİKASİYA** (latın *ratificatio*-israr, iddia etmək, *ratus* - təsdiqlənmiş və *facere*-etmək sözlərindən) – 1) beynəlxalq aktı rəsmi surətdə təsdiq etmə; dövlət adından, onun səlahiyyətli şəxsi tərəfindən öncə qəbul etdiyi (imzaladığı) hər hansı bir beynəlxalq müqavilənin (sazişin) - öhdəliyin tam hüquqi qüvvəyə mindirilməsindən ötrü, həmin akt(lar)ın dövlətin ali hakimiyyəti orqan tərəfindən (bəzi dövlətlərdə-Parlament tərəfindən digər dövlətlərdə-dövlət başçısı tərəfindən) razılığı ifadə edən təsdiq edilməsi; təsdiqetmə siyasi-hüquqi prosesual qaydası. R. məsələsi dövlətin Konstitusiyası tərəfindən müəyyən edilir: tənzimlənir; 2) bir sıra ölkələrdə (misal: ABŞ) – Konstitusion dəyişikliklərinin təsdiq etməsinin xüsusi qaydası.

**RATİFİKASİYA QRAMOTASI** (rus analoqu *ратификационная грамота*) - ratifikasiya prosesi nəticəsində tərtib edilən, rəsmiləşdirilən sənəd.

**RE...** (latın *re...*) - 1) təkrar, bərpa olunan hərəkətlə; 2) sözün kökündə ifadə olunan əksinə və; 3) əks hərəkətə aidlik bildirən önlük.

**REAKSİYA** (latın *re* - əks və *action* – hərəkət) – 1) subyektin bu və ya digər hadisəyə, hərəkətə dair öz münasibətini, mövqeyini göstərməsi; 2)proqressə və proqressiv siyasi qüvvələrə aktiv əks-təsir göstərmə siyasəti; 3) *reaksion (siyasi) qüvvə* - irtica, mürtəce (siyasi) qüvvə anlayışlarının sinonimidir.

**REBUS SİS STANTİBUS** (latın *rebus sic stantibus* – hərfi mənası: şəraitin dəyişilməməziiyi) – klazula (hüquqi düstur); beynəlxalq müqavilələrin imzalanması dövrdəki şəraitlə müqaisədə - kökündən dəyişmiş yeni şəraitin, həmin müqavilənin qüvvəsinin dayandırılmasına və ya müqavilədən çıxmasına səbəb ola biləcəyini ifadə edən beynəlxalq -hüquq adəti. Yalnız beynəlxalq müqavilənin birbaşa əvvəlki şəraitlə bağlı olduğu və ya köklü dəyişikliklər birbaşa öhdəliklərin fəaliyyət dairəsini dəyişdirirsə R.S.S. klazulasına istinad etmək olar.

R.S.S. klazulasına istinan müstəsna hallarda tətbiq olunur və beynəlxalq öhdəliklər stabilliyini pozmamalıdır; dövlət sərhədlərinin dəyişdirilməsi üçün və ya köklü dəyişiklər elə tərəfin özünün fəaliyyəti nəticəsində baş verdikdə - R.S.S. klazulası tətbiq edilməzdir.

**REEKSPORT** (latın *re*-burada təkrar olunmanı, bərpa olunmanı bildirən önlük və ingilis *export,* latın *exportar* -kənara çıxarmaq) - bax *ixracat.*

**REGENT** (1. latın *regens* – idarə edən; 2. *precentor*) – 1)monarxiyalı dövlətlərdə, müəyyən hallarda monarxı əvəz edən müvəqqəti hökmdar. Burada "müəyyən hal" deyəndə, monarxın xəstələnməsi, uzun müddətdə mövcud olmaması, kiçik yaşlı (təcrübəsiz) olması və s. başa düşülür. Belə halda, dövlət ya bir (R.) şəxs və ya bir qrup (regentlik) şəxslər tərəfindən idarə olunur; 2)əsas etibarilə, kilsə xorunun dirijoru.

**REGİONAL HAKİMİYYƏT** – 1)bir dövlətin müəyyən ərazilərini (regionunu) əhatə edən hakimiyyət; hakimiyyət səlahiyyətləri yalnız öz regionuna şamil edilən hakimiyyət; 2)dünyanın bu və ya digər bölgəsində (regionunda) yerləşən və qonşu dövlətlərin könüllü və ümumi razılaşmaları nəticəsində: a)özlərinin idarəçilik, hətta müstəqillik potensiallarının müəyyən hissəsini özlərindən ayıraraq ümumi (regional hakimiyyətə) ötürülməsi və müvafiq R.H. orqanı, strukturu yaradılması və: b)həmin (R.H.) – orqanı, təşkilatı qarşısında bu və ya digər sahələrdə öz üzərində müəyyən öhdəlikər götürülməsi. Müasir dünyada, hər hansı bir regionunda *dövlət hakimiyyətinə* müvafiq olan R.H. yoxdur, hərçənd müəyyən hakimiyyət funksiyalarını icra edən təşkilatlar mövcuddur. Misal: *Avropa Parlamenti (Avroparlament).*

**REGİONAL MÜHARİBƏ** (münaqişə) (latın-ölkə, vilayət) - dünyanın müəyyən coğrafi regionu daxilində, bir neçə dövlətin (xalqın) arasında, siyasi, iqtisadi və ideoloji fikir ayrılığı əsnasında baş verən açıq hərbi (o cümlədən, irimiqyaslı) qanlı toqquşma. Misal üçün: Birinci və İkinci Dünya Müharibələri məhz Avropadan (Avropa R.M.-sindən) başlanmışdır; XX əsrin 90-cı illərin əvvəllərində demək olar ki, Qafqaz regionunda mövcud olan bütün dövlətlərini R.M. əhatə etmişdir.

Öz miqyasına görə R.M. - *lokal müharibədən* genişliyi ilə, - *Dünya Müharibəsindən* isə kiçikliyi ilə fərqlənir; birinci halda (lokal müharibə) hərbi münaqişə bir və ya bir neçə dövlətin ərazisində (bəzi hallarda bir dövlətin vətəndaşları arasında) aparılır; ikinci halda isə (Dünya Müharibəsi) - dünyanın bir neçə (əksər) regionlarını əhatə edir. Bütün bəşəriyyət Müharibələrə (o cümlədən, R.M.-lərə) qarşı çıxış etsələr də, hər bir müharibənin (münaqişənin) - sülh, diplomatik, qarşılıqlı güzəşt yolları ilə həllinə çalışsa da, lakin bəzi qüvvələr də vardır ki, həmin R.M.-lərdə maraqlıdırlar.

**REGİONAL SİYASƏT** - 1) dövlətdaxili əyalətlərin (regionların) siyasi, iqtisadi, sosial-mədəni inkişafın istiqamətləndirilməsinə yönəlmiş, dövlətin hakimiyyət orqanlarının fəaliyyəti. R.S.-in əsas kriteriaları bunlardır: dövlətin bütövlüyünün və suverenliyinin təmin edilməsi; vahid hüquqi, iqtisadi, sosial və idarəçilik sisteminin inkişaf etdirilməsi və bərkidilməsi, bununla yanaşı; yerli özünüidarəetmənin bərqərar edilməsi və təmini; vahid bərabər hüquqlu (əlavə imtiyazsız və ya diskriminasiyasız) iqtisadi mühitin yaradılması, bununla yanaşı; inkişafdan geri qalan regionların inkişafına dəstək verilməsi; regionların sosial- iqtisadi inkişaf şərayitinin tarazlaşdırılması; regionların iqtisadi göstəricilərindən, potensialından, statusundan asılı olmayaraq-vahid minimal sosial standartların və sosial müdafiənin təmin edilməsi, Konstitusiya və digər qanunvericilik aktları ilə verilmiş insan hüquqların təminatı və qorunması; regionların təbii sərvətlərinin, iqlimi xüsusiyyətlərinin ümumdövlət (ümumxalq) mənafelərin xidmətinə yönəldilməsi; regionların problemlərinin həllində, zərurət olduqda, dövlətin resurslarının cəlb edilməsi; regionların ekologiyasının kompleksli müdafiəsi və s.; 2) dünyanın müxtəlif coğrafi məntəqələrində (regionlarında), müəyyən coğrafi mühitdə (dənizyanı, körfəzyanı, bir adada və ya yarmadada və, yaxud bir dağ silsiləsi həndəvərində) yerləşən qonşu dövlətlərin biri-biri ilə münasibətləri.

**REİMPORT** (latın *re*-burada təkrar olunmanı, bərpa olunmanı bildirən önlük və ingilis *import,* latın *importare*-kənardan gətirmə ) - bax *idxalat.*

**REİNTEQRASİYA** (latın *re*-burada təkrar olunmanı, bərpa olunmanı bildirən önlük və *integratio*-bərpa etmə, tamamlama, *inteyer*-tam sözündən) - 1) vahid bütövlüyün yeniləşdirilməsi, yenidən yaradılması; 2) əvvəllər mövcud olmuş vahid subyektin müəyyən səbəblərdən dağılmasından sonra - təkrarən birləşdirilməsi.

**REKVİZİSİYA** (latın *requisitio*-tələb) - bax *həcz.*

**REMİLİTARİZASİYA** (latın *re*-burada təkrar olunmanı, bərpa olunmanı bildirən önlük və *militaris*-hərbi) -*demilitarizasiyaya* əks olan proses, yəni demilitarizasiya öz məqsədlərinə nail olandan sonra (bəzi hallarda bu məqsədlər nail olunmadan) mövcud vəziyyəti demilitarizasiyaya qədərki vəziyyətə qaytarılması. R. vəziyyəti (qonşu) dövlətlərin münasibətlərinin gərginləşməsi nəticəsində baş verir.



**REPARASİYA** (latın *reparatio*-bərpaetmə) - bax *təzminat (2).*

**REPATRİASİYA** (son latın *repatriatio*-vətənə qayıtmaq) - 1) mühacirlərin öz vətəninə, yurduna (ya könüllü surətdə və ya məcburi surətdə) qayıtması və ya çıxarılması, qovulması, qaytarılması. Əgər insan mühacirət edəndə öz əcəli vətənilə, yurdu ilə vətəndaşlıq statusunu itirmişdirsə və ya belə vətəndaşlıq statusu heç olmamışdırsa - belə halda R. insanın vətəndaşlıq statusunun bərpası ilə bərabər həyata keçirilir; 2) hərbi əməliyyatlar, işğal, departasiya nəticəsində öz doğma torpaqlarından didərgin (qaçqın, köçgün) düşən insanların hərbi əməliyyatların başa çatmasından, işğal olunmuş həmin ərazilərin azad olunmasından və departasiyanın ləğv edilməsindən sonra, həmin insanların öz doğma torpaqlarına rahat şəkildə qayıdıb yaşamaları; 3) hərbi əsirlərin öz vətənlərinə qaytarılması. Cinayət işi ilə əlaqədar istintaq olunanlardan, həmçinin Məhkəmənin hökmü ilə məhkum olunub cəza çəkənlərdən savayı, rütbəsindən və sayından asılı olmayaraq: müharibə dövründə bütün ağır xəstə və ağır yaralılar; müharibə, hərbi əməliyyatlar başa çatdıqdan sonra isə, ümumiyyətlə bütün hərbi əsirlər öz vətənlərinə şərtsiz R. olunmalıdırlar; 4) cinayətkarların öz vətənində cəza çəkməkdən ötrü xüsusi prosedur qaydasında vətəndaşı olduğu dövlətə qaytarılması.

**REPRESSALİYA** (son latın *represaliae,* latın *reprehendo*-tuturam, saxlayıram, pisləyirəm sözündən) - beynəlxalq hüquqda hüquqi müdafiə vasitələrindən biri; siyasi, hüquqi, iqtisadi təzyiq tədbirləri; beynəlxalq (dövlətlərarası) münasibətlərdə, bir dövlətin qeyri-qanuni hərəkətlərinə, hüquqpozmalarına cavab olaraq onu (təqsirkar dövləti) qeyri-qanuni (hüquqpozucu) hərəkətlərin dayandırılmasına, gələcəkdə həmin hərəkətlər törətməkdən çəkindirməsinə və, yaxud dəymiş ziyanı ödəməsinə məcbur etmək məksədini güdən həmin (təqsirkar) dövlətə və ya onun vətəndaşlarına qarşı hüququ pozulmuş (milli maraqları tapdalanmış) dövlət tərəfindən tətbiq edilən təzyiq ölçü və ya tədbirləri. R. bir qayda olaraq zərərçəkmiş dövlət tərəfindən təqsirkar dövlətin hüquqazidd hərəkətlərinə qarşı fərdi olaraq oxşar (adekvat) cavab tədbirlərinə əl atmasıdır, hərçənd hüquqazidd hərəkətlərlə-pozulmuş hüquqların bərpası mümkünlüyü məsələsi, olduqca mübahisəli məsələdir.

**RESPUBLİKA** (latın *respublica, res*-iş və *publicus*-ictimai, ümumxalq) - dövlətin Ali haki-miyyət orqanlarının müəyyən müddətə ya bila-vasitə xalq tərəfindən seçilən və ya xalqın təmsilçi orqanları tərəfindən formalaşan (bilavasitə və ya dolayı yollarla xalq tərəfindən formalaşan), dövlət idarəçilik formasıdır, vətəndaşlar isə, R. şəraitində beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmiş ümumbəşəri hüquqlara sahibdirlər. Səlahiyyət bölgüsü prinsipinə müvafiq olaraq: Prezident respublikası və Parlament respublikası dövlət idarə-çilik formaları fərqləndirilir.

Mahiyyət etibarilə R. - *demokratiyanın* sino-nimidir, R. şəraitində: hakimiyyət bütövlükdə - xalqa məxsusdur, xalq qarşısında məhsul və hesabatlıdır; hakimiyyət-xalqın iradəsini yerinə yetirir; xalq-seçkilər (referendum) vasitəsi ilə dövləti idarə edir və, nəhayət xalq (hər bir vətəndaş) - bütün demokratik hüquq və azadlıqlara malikdir. Dövlət idarəçilik formasına görə R.-*monarxiyanın* alternativdir, hərçənd Konstitusion - monarxiyada hər iki dövlət idarəçiliyi forması orqanik surətdə biri-biri ilə birləşir. Tarixən R. antik dövrdə Avropada monarxiyanın antipodu kimi meydana gəlmişdir.

**RESTİTUSİYA** (latın *restitutio*-bərpa) - Beynəlxalq hüquqda, müharibə və ya digər hərbi əməliyyat nəticəsində bir dövlət tərəfindən qeyri-qanuni olaraq götürdüyü, zəbt etdiyi, qarət etdiyi başqa dövlətin əmlakının geri qaytarılması. Qeyri-qanuni aparılan bütün əmlak, müxtəlif səbəblərdən (itmə, xarab olma, məhv edilmə) geri qaytarılması mümkün olmadıqda, onların dəyəri nağd pulla (valyuta ilə) ödənilir; 2) (hüquq) müqavilə və ya digər əqd etibarsız hesab edildikdə - həmin müqavilənin (və ya digər əqdin) icrasının dayandırılması, tərəflərin aldıqlarının geri qaytarılması, (əgər ziyan vurulmuşdursa) ziyanın ödənilməsi; 3) (biologiya) orqanizmin itirdiyi hissəni yenidən bərpa etmə qabiliyyəti.

**RETORSİYA** (son latın *retorsio*-əks hərəkət) - beynəlxalq hüquqda bir dövlətin ədalətsiz, yaxud qeyri-səmimi hərəkətlərinə - digər dövlətin cavab hərəkətləri. R. müxtəlif formada ya birinci dövləti ədalətsiz hərəkətlərinə eyni həcmdə əks hərəkət formasında və ya digər formada həyata keçirilir (misal: həmin dövlətlə iqtisadi-ticarət münasibətlərinin məhdudlaşdırılması və ya kəsilməsi; həmin dövlətin vətəndaşlarının hüquq və azadlıqlarını eyni dərəcədə məhdudlaşdırmaq və ya ümumiyyətlə öz ərazisindən kənar etmək). Bununla yanaşı, birinci dövlət öz ədalətsiz, yaxud qeyri-səmimi hərəkətlərindən əl çəkdiyi təqdirdə - ikinci dövlət də adekvat (və ya qeyri-adekvat, əlavə təzyiq vasitələrindən) hərəkətlərdən əl çəkməlidir.

**REVALVASİYA** (revalorizasiya) (latın *re*-burada "təkrar olunma" işarəsini bildirən önlük və, *valere*-dəyər, *valeo*-dəyərim var sözündən) - dövlətin milli valyuta məzənnəsinin xarici valyutalara nisbətən faktiki artması, yaxud pul vahidinin qızıl tərkibinin rəsmi (qanunvericilik) surətdə artırılması. R. nadir hallarda həyata keçirilir, dövlətin xarici iqtisadi-ticarət tərəfdaşlarının təzyiqi ilə: ya dövlətin intensiv

ixracat ekspansiyasını məhdudlaşdırmaq və; ya da dövlətlərin (vahid iqtisadi məkanda) milli valyutalarının məzənnələrinin tarazlaşdırılması məqsədlərinə xidmət edir. R. ölkənin tədiyə və ticarət balansına, daxili konyunkturanın vəziyyətinə, daxili qiymətlər sisteminə və s. ciddi təsir göstərir. Mahiyyətinə görə R. devalvasiyanın əksidir.

**REVANŞİZM** (fransız *revanchisme, revanche* - intiqam, qisas sözündən) - (qisasçılıq) - müharibədə məğlub olmuş ölkənin itirilmiş mövqelərinin qaytarılması, müharibəyəqədərki sərhədlərin bərpası və ya sadəcə qisas bəhanəsi ilə, yeni müharibəyə hazırlayıb-başlamasına yönəldilmiş irtica siyasi qüvvələrinin siyasəti; və ya qalib dövlətə (xalqa) digər formalı əks-təsir göstərmə siyasəti. R. şovinizm, militarizm və aqressiya (işğalçılıqla) sıx bağlıdır. R. siyasətinin bariz nümunəsini hitlerçi faşistlərinin Almaniyada XX əsrin 30-cu illərində qonşu dövlətlərə (xalqlara) qarşı yürütdüyü siyasətdə tapmaq olar, xatırlatmaq lazımdır ki, Almaniya Birinci Dünya Müharibəsindən məğlub vəziyyətə düşdü.

**REZERVASİYA** (rezervat) (latın *reservare*-qorumaq, saxlamaq, *reservo*-qoruyuram, saxlayıram sözündən) - 1) hər hansısa (əsasən strateji əhəmiyyətli) malın, xammalın, əmtəənin, ərzaqın, maddələrin və s. müxtəlif məqsədlərlə, xüsusi qorunan obyektlərdə (rezervasiyalarda) saxlanması (misal: neft, qaz, su R.-ları); 2) bəzi ölkələrdə (ABŞ, Kanada, Braziliya, Avstraliya, Cənubi Afrika Respublikası (CAR)) yerli aborigen xalqların və ya digər əhali qruplarının zorla yerləşdirilməsi üçün ayrılmış ərazilər. R.-irqi diskriminasiyanın (ayrı-seçkiliyin) bariz nümunəsidir və bu (R.), dövlət tərəfində rəsmi surətdə yürüdülən siyasətdir. Bir qayda olaraq, R. məqsədi ilə ucqar və əlverişsiz təbii şəraitli ərazilər ayrılır; R. sakinlərin hüquqlarını məhdudlaşdırır; R. sakinləri üçün yaradılmış yaşayış şəraiti, ölüm səviyyəsi göstəriciləri-dövlətin digər sakinlərindən mənfi göstəriciləri ilə fərqlənir və; R. sakinləri mütəmadi surətdə öz hüquqları, torpaqları, əllərin-dən alınmış torpaqlar əvəzində kompensasiyaları və, hətta öz müstəqillikləri uğrunda mübarizə aparırlar. Bax həmçinin *aparteid, seqreqasiya.*

**REZİDENSİYA** (latın *residere*-öz yerində qalmaq, olmaq) - bax *iqamətgah.*

**REZİDENT** (fransız *résident*, latın *residens*-öz yerində qalan sözündən) - 1) orta əsrlərdə, göndərildiyi ölkədə daimi qalan xarici diplomatik nümayəndə; 2) metropoliyanın protektoratdakı nümayəndəsi; 3) elçidən bir rütbə aşağı diplomatik nümayəndə; 4) bir ölkənin həmişə xarici bir ölkədə yaşayan vətəndaşı; 5) kəşfiyyatın xarici ölkədə daimi yaşayan nümayəndəsi; xarici dövlətin müəyyən bir hissəsində casusluq işlərinə gizli rəhbərlik edən şəxs.

**REZOLYUSİYA** (latın *resolutio*-qərar, hökm) - qətnamə, xülasə, rəy, əmr, sərəncam, dərkənar: 1) hər hansı məsələnin kollegial orqanın, məclisin və s. iclasında (qurultay, konfrans, sessiya) müzakirəsi nəticəsində qəbul edilən qərar; 2) ikipalatalı Parlamentin plataların biri tərəfindən qəbul edilən aktların adı; 3) vəzifəli şəxsin işgüzar kağız üzərindəki nəticə, xülasə, rəy, sərəncam, qərar.

**REZÜME** (fransız *resume*) - hər nəyinsə son nəticəsi, qısa nəticəsi, yazılmışın, oxunmuşun və söylənmişin mahiyyətinin qısa xülasəsi.

**RƏQABƏT** (ərəb; latın analoqu *concurrentia*) - 1) bazar iqtisadiyyatı şəraitində, yüksək gəlir əldə etməsi məqsədilə və ya müflisləşməməsi naminə əmtəə istehsalının və satışının və ya göstərilən xidmətin ən əlverişli (yüksək) şəraiti uğrunda sahibkarların (iş damlarının) arasındakı qızğın, şiddətli iqtisadi mübarizə. R. əmtəə keyfiyyətinin və ya qiymətinin səviyyəsində göstərilən xidmətin səviyyəsində, özünü qabarıq şəkildə biruzə verir. Ümumiyyətlə, R. inkişafa xidmət edir, o cümlədən əmtəənin və ya göstərilən xidmətin keyfiyyətini yüksəldir, qiymətləri aşağı salmasına, iş şəraitinin və əmək haqqının, eləcə də, istehsalatın yüksəldilməsinə vadar edir, vətəndaşların (əsasən sahibkarların) və dövlətin zənginləşməsinə gətirib çıxarır və s. Lakin, eyni zamanda R.-in mənfi (qaçılmaz) tərəfi də vardır, o cümlədən6 qanuni və qeyri-qanuni üsul və vasitələrlə rəqibləri bazardan çıxarılmasına vadar edir, inhisarçılığa gətirib çıxarır və s; 2) *ədalətsiz R.*- ədalətsiz, qeyri-qanuni və hətta, cinayət üsul və vasitələri ilə R. məqsədlərinə cəhd göstərilməsi, o cümlədən: rəqiblərin bazardan sıxışdırıb-çıxarması naminə dövlət məmurlarına rüşvət təşkili, rəqib tərəfin kommersiya sirrinin öyrənilməsi ("iqtisadi şpionaj"), iqtisadi diversiya, anti-reklam (diskriditasiya, diffomasiya) və hətta, "qəti sifarişi" və s. 3) *Beynəlxalq (imperializm) R.-i* iri dövlətlər və ya iri iqtisadi, trans-milli korperasiya tərəfindən daha yüksək gəlir əldə etmək naminə "üçüncü" (zəif) dövlətlərin təbii sərvətlərinin, kapitalının, bazarlarının ələ keçirilməsi uğrunda qanuni və hətta hərbi müdaxiləyə qədər qeyri-qanuni üsul və vasitələrlə qızğın, şiddətli mübarizə aparılması.

**RƏSMİ DİL** - 1) çoxmillətli beynəlxalq təşkilatlarda, təşkilat üzvləri arasında rahat və sərbəst ünsiyyət qurulması, təşkilatın işinin qurulması naminə qəbul və istifadə etdikləri hər hansı xalqa (millətə) mənsub olan konkret dil (bəzi hallarda bir neçə R.D., misal üçün: Avropa Şurasının R.D.-ləri -fransız və ingilis dillərindədir, bundan savayı digər dillər də (ispan, italyan, rus dilləri) onun işində istifadə oluna bilər. Digər mürəkkəb məsələ-hansı dilin təşkilatın rəsmi dili kimi qəbul edilməsi məsələsidir. Bir qayda olaraq dünyada ən çox yayılmış və istifadə olunan, rahat öyrənilən və qavralınan dil(lər) - təşkilatın rəsmi dil(lər)i kimi qəbul olunur; 2) (dövlət dili) - dövlətin qanunvericiliyində, rəsmi kargüzarlığında, mühakimə icraatında, təhsilində və s.-də istifadə edilən əsas dil. Bir qayda olaraq (əsasən çoxmillətli dövlətlərdə) əhalinin əksər hissəsinin istifadə etdiyi R.D. (bəzi dövlətlərdə bir neçə R.D.) dövlətin Konstitusiyasında (bəzi hallarda xüsusi qanunda) qeyd olunur. Bununla yanaşı ictimai münasibətlərdə, məişətdə və milli azlıqlar yaşayan ərazilərdə R.D.-dən savayı (hətta rəsmi (dövlət) orqanlarlnda) - ayrı-ayrı dillərdən istifadə oluna bilər.



**RİSK** (ingilis *risk*) - 1)təhlükə mümkünatı; 2)əlverişli sonluğa hesablanmış bəxtə-bəxt hərəkət, fəaliyyət. Özü-özlüyündə R. insandan cəsarət, bilik, təcrübə, intuisiya, zehin, fəhm, ehtiyatkarlıq və s. keyfiyyətləri tələb edir. Başqa yolların olmaması və ya yeganə çıxış yolunun onda (R.-də) olmasının subyektiv təsəvvürü şəraitində, insan R. edir. Müxtəlif növ R.-lər fərqləndirilir, o cümlədən: siyasi, hərbi, işgüzar (kommersiya, valyuta, mülki, kredit, sığorta) və s.

# S

**SABOTAJ** (fransız *sabotage, saboter* – başmaqları çırpmaq sözündən) - 1)işdən imtina vasitəsilə və ya qərəzcəsinə işi nalayiq yerinə yetirmək vasitəsilə - məqsədyönlü şəkildə işi pozma; 2) gizli (məxfi) maskalanmış əksfəaliyyət.

Müəyyən şəraitdə S. pozitiv xarakter daşıyır, misal üçün: işğal olunmuş ərazilərdə - işğalçı dövlətə qarşı törədiləndə.

**SALYUT** (beynəlxalq praktikada) (latın salus - salamlama) - (tüfəng və ya artileriya atəşilə, bayraqlarla, musiqi marşı ilə, nümaişlə və s.) təntənəli formada yüksək qonağa ehtiramları bildirən salamlaşma ənənəsi.

Hətta, 21.XI.1818-ci il Aaxens Konqası tərəfindən qəbul olunmuş protokolda və s. beynəlxalq razılaşmalarda və (bəzi hallarda) milli (Böyük Britaniya) qanunvericilik əsasında tətbiq edilir.

*"Millətlər salyutu"* (21 artileriya atəşi) xarici dövlət başçısının rəsmi səfəri münasibətilə və ya digər əhəmiyyətli hadisə ilə əlaqədar hərbi gəmi (və ya gəmilər birləşməsi), liman və ya hərbi dəniz bazası, yaxud artileriya batareyası vasitəsilə tətbiq olunur.

**SANKSİYA** (latın *sanctio*-ciddi qərar) - 1) beynəlxalq hüququn mühüm institutlarından biri; 2) səlahiyyətli orqan (Məhkəmə, Arbitraj, Prokror və s.) tərəfindən qəbul edilən rəsmi akt, nizamlayıcı (cəzalandırıcı) təsir vasitəsi; beynəlxalq münasibətlərdə beynəlxalq hüquq normalarını və ya dövlət tərəfindən öz üzərinə götürdüyü öhdəlikləri pozan, icra etməyən və ya nalayiq icra edən dövlət(lər)ə qarşı-digər dövlət(lər) və ya beynəlxalq ictimaiyyət tərəfindən tədbiq edilən: siyasi, iqtisadi (maliyyə), hərbi xarakterli təsir vasitəsi. Bax həmçinin *blokada, embarqo;* 3) bu, hüquq normasının dispozisiyasının pozulmasına görə, onu pozan tərəfə qarşı tətbiq edilən, hüquqi məsuliyyətin növünü və ölçüsünü müəyyən edən, hüquq normasının struktur elementidir. Bu "hüquq pozuntusuna görə, hüququ pozan tərəfə qarşı, hansı hüquqi cəza tətbiq edilməlidir" sualına cavab verir.

**SATELLİT** (latın *satelles (satellitas)* - mühafizəçi, yol yoldaşı) - 1) Qədim Romada öz sahibini müşayət edən silahlı muzdlu; 2) S. dövlət-formal olaraq müstəqil olan, lakin əslində bütövlükdə başqa bir güclü dövlətə tabe olan dövlət (və ya onun Hökuməti); 3) (məcazi mənada) başqasının, tabe olduğu şəxsin iradəsini yerinə yetirən, ondan qul kimi asılı olan adam, əlaltı, tərəfdar; 4) S. şirkət-başqa (iri) şirkətlə heç bir hüquqi bağlılığı olmayan, lakin ümumi işdə, layihələrdə başqa (iri) şirkətin görmədiyi digər (əsasən xırda və ya köməkçi) işləri yerinə yetirən şirkət; 5) astronomi-yada, platin peykinə, bəzi hallarda S. deyilir; 6) (texnikada)-planetar ötrücünün mütəhərrik oxlu dişli çarx; 7) (petrologiyada) -böyük gərginlik intruzivlərinin zoğları və ya qolları.

**SATYAQRAXA** (sanskrit) - Hindistanda (1918-1947) M.K. Qandi tərəfindən işlənib-hazırlanmış, əməkdaşlıq etməkdən boyun qaçırmaq və vətən-daşlıq itaətsizliyi formasında, yəni qeyri-zorakılıq formalı-müstəqillik uğrunda mübarizə taktikası. Bax həmçinin *Qandizm, Qeyri-zorakılıq doktrinası*

**SEQREQASİYA** (son latın *segregatio*-ayrılma) - 1) (siyasi) insanlar arasında, dövlət tərəfindən rəsmi surətdə irqi (milli) ayrı-seçkiliyin (diskriminasiyanın) mürtəce formalarından biri; insanların irqi (milli) mənsubiyyətinə görə hüquqlarının məhdudlaşdırılması; ölkə əhalisinin irqi qruplara bölgüsünün məcburi saxlanılması; zəncilərin və digər "rəngli" əhalinin "ağlardan" ayrı saxlanması, aralaşdırılması siyasəti. S.-nın iki forması elmə bəllidir: a) *institusional S.*- "ağları" və "rəngliləri" ayırmaq üçün, paralel müəssələrin, yaxud eyni müəssədə xüsusi şöbələrin yaradılması yolu ilə ictimai həyatın bütün sahələrində həyata keçirilir. Misal üçün; ABŞ-da XX əsrin ortalarına qədər zəncilərə "ağların" yaşadığı binada-

yaşamasına, hərbi xidmət keçdiyi hərbi hissələrdə-hərbi xidmət etməsinə və, hətta "ağların" olduğu yerlərə zəncilərin gəlməsinə qadağan edilmişdir və; b) *ərazi S.-sı-* yəni irqi qrupların xüsusi ayrılmış, uzaqlaşdırılmış ərazilərdə yerləşdirilməsi. Misal üçün; ABŞ-da, Avstraliyada, Kanadada rezervasiyalar, bantustanlar. Bax həmçinin *rezervasiya, aparteid, irqçilik;* 2) (metallurgiyada): a) likvasiyanın başqa adı; b) əlvan metalın yaradılması, zənginləşdirilməsi prosesi; 3) (mədən işlərində) material dənələrinin, təbəqələrinin hündürlüyü boyu paylanması.

**SEPARAT SÜLH** (birtərəfli sülh) (latın *separatus*-ayrı, tək) - müharibə gedişi zamanı, müharibə aparan dövlətlərdən birinin (və ya bir neçə-sinin) özünün müharibə aparan (koalision) müttəfiqlərinin razılığı olmadan və ya onlara xəbər vermədən və ya, hətta onlara zidd olaraq düşmən tərəfi ilə bağladığı sülh. "S.S." termini ilk dəfə Birinci Dünya Müharibəsi dövründə alman koalisiyası ölkələrinin birtərəfli sülh bağlamaq cəhdləri zamanı işlədilmişdir; digər misal; 1979-cu ilin mart ayında Misir öz ərəb müttəfiqlərinin razılığı olmadan İsrail dövləti ilə "kemp-devid danışıqı" adı ilə tanınan - sülh sazişi bağlamışdır, -bundan sonra Misir öz müttəfiqləri tərəfindən müxtəlif siyasi təzyiqlərə məruz qalmışdır.

**SEPARATİZM** (fransız *séparatisme*, latın *separatus*-ayri, tək sözündən) - ayrılmağa çalışma. Dövlət əhalisinin (əksər halda) milli azlıqlarının və ya müəyyən ərazidə yaşayan sakinlərinin ümumi dövlətdən ayrılmağa və müstəqil dövlət (və ya hər hansı bir muxtariyyət) qurmağa yönəlmiş fəaliyyəti. S.-in iki praktik növü bəllidir; *vivil S.*-yəni zorakılığa əl atmadan qanunun imkan verdiyi bütün üsul və vasitələrdən istifadə etməklə (misal: Məhkəmələrə müraciət etmə; iclaslar, toplanışlar, piket və mitinqlər keçirmə, imza toplama və s.) öz (S.) məqsədlərini həyata keçirmə və; *aqressiv* S.-yəni zorakılıq vasitələri ilə (o cümlədən; terror, sabotaj, diversiya, hərbi qiyam və, nəhayət (vətəndaş) müharibəsi üsul və vasitələri ilə) öz (S.) məqsədlərini həyata keçirmə. S.-in motivasiyası qismində; ümumi dövlət şəraitində vətəndaşların (milli azlıqların) yaşaması üçün dözülməz şəraitin, o cümlədən diskriminasiyanın (ayrı-seçkiliyin) olması; əvvəllər müstəqil (və ya muxtar) siyasi subyektin sakinlərinin həmin müstəqilliyi (mux-tariyyatı) itirilməsi ilə yanaşı müəyyən hüquqların, imtiyazların, şəraitin itirilməsi; milli-şovinizm ideyalarının və bununla yanaşı başqa millətə münasibətdə nifrət hisslərinin oyanması; müstəqillik (və ya muxtariyyat) qazanmaq ilə paralel surətdə problemlərin həll olunmasına S.-çı sakinlər tərəfindən inanılması və s. çıxış edir. Əksər hallarda S.-ə xarici qüvvələr tərəfindən siyasi, maliyyə və, hətta hərbi yardım göstərilməsi müşayət olunur. Lakin, beynəlxalq hüququn, insanların milli mənsubiyyəti arasında rəsmi surətdə fərq işarəsini qoyan, insanları (xalqları) bir-birinə düşmən edən mürtəce "öz müqəddaratını həlletmə prinsipi "-S. oduna xüsusi "rövnəq" verir.

S.-ə müxtəlif mövqedən-müxtəlif yanaşma tərzi vardır; əgər S. bir tərəf üçün-milli azadlıq hərəkatıdırsa; əks tərəf üçün isə S.-dövlətə (dövlətçiliyə) xəyanətdir.

**SEREMONİYA** (latın *caerumonia*) – 1)müəyyən edilmiş təntənəli qayda, adət) hakimiyyətin (dövlət başçısının, yüksək vəzifəli şəxsin) rəsmi tədbirin aparılması qaydası; 2)diplomatik münasibətlər qaydası; 3)bayram tədbirləri; 4)bəzi hallarda görüntü xarakterli formallıqlar.

**SERVİTUT** (latın *servitus, servitutus*-köləlik, tabeçilik) - 1) əşya hüququnun xüsusi növü: antik feodal cəmiyyətlərində özgənin mal və mülkündən müəyyən dərəcədə istifadə etmək hüququ, yaxud mal və mülkün sahibinin-sahiblik hüququnun müəyyən dərəcədə məhdudlaşdırılması hüququ; 2) beynəlxalq təcrübədə, bir dövlətin hər hansı bir ərazi üzərindəki hakimiyyətinin-başqa dövlətin xeyrinə məhdud edilməsi (misal: özgə dövlətin ərazilərində dəniz və ya hərbi bazaların, *settlmentlərin* yaradılması və s.).

**SESESSİYA** (rus analoqu *сецессия;* latın *secessio*-bölünmə, ayrılma, çıxıb getmə sözündən) - dövlətin hər hansısa bir hissənin-həmin dövlətin tərkibindən çıxması, ayrılması prosesi, *separatizmin* analoqu. Əgər *separatizm* ayrılmağa cəhdirsə, ayrılma fəaliyyətidirsə; S.-artıq ayrılmanın siyasi, iqtisadi, hüquqi, hətta hərbi və s. prosesdir. Əgər separatizm müstəqil dövlət və, yaxud muxtariyyət uğrunda fəaliyyətidirsə; S.-yalnız və yalnız müstəqil dövlətin yaradılması (başqa dövlətin tərkibindən çıxmaqla) fəaliyyətidir. Lakin, hər iki halda eyni üsul və vasitələr (yəni sivil (sülh) və ya aqresiv (hərb) üsul və vasitələri) istifadə edilə bilər. Misal üçün: 1973-cü ildə Müasir Banqladeş dövlətinin əraziləri (sakinləri) Pakistan dövlətinin ərazisi tərkibindən (hərbi yol ilə) çıxaraq müstəqil dövlət yaratmışdırlar. Keçmiş Sovet İttifaqı və Yuqaslaviya Federasiyası parçalanmaları (dağılmaları) ilə paralel olaraq yeni müstəqil dövlətlərin yaranması prosesi baş verdi.

**SETTLMENT** (ingilis *settlement* - köçmə, məskunlaşma) - XIX-XX əsrin birinci yarısına qədər "üçüncü dövlətlərin" adətən iri şəhərləri ətrafında xarici vətəndaşların (təbəələrin) yaşaması və ticarət aparması üçün nəzərdə tutulmuş, yerli dövlətin *yurisdiksiyasından* çıxarılmış - xarici dövlətin yuridiksiyasına qatılmış xüsusi ərazilər: yaşayış kvartalları "dövlət ərazisində dövlət". Mahiyyətinə görə S.- kapitulyasiya rejimini xatırladır: *eksterritoriallıq* statusuna malikdir; özünüidarə hüququ vardır və; xarici dövlətin silahlı qüvvələri tərəfindən qorunur.



S.-in bariz nümunəsini XIX əsrin ortalarında Çinin bəzi sahilyanı, liman şəhərlərində görmək olar, hansılar ki, Böyük Britaniya, Fransa və (faktiki olaraq) ABŞ tərəfindən yaradılmışdırlar. 1949-cu ildə Çin Xalq Respublikası elan edilməklə, S.-lər ləğv edirdilər.

**SƏFİR** (rus analoqu *посол*, ingilis analoqu *ambassador*) - 1. müasir beynəlxalq hüquqda qəbul olunmuş diplomatik münasibətlər haqqındakı 1961-ci il Vyana Konvensiyasında əks olunmuş təsniflərə görə, S. 1-ci dərəcəli diplomatik nümayəndəliyin başçısıdır və dövlət başçısı tərəfindən *akkreditə* olunur; rəsmi olaraq bu cür adlanır: *Fövqəladə və Səlahiyyətli Səfir.*

1815-ci il Vyana reqlamenti başqa dərəcəli diplomatik nümayəndəlikdən fərqli olaraq S.-i əsl nümayəndə kimi tanımışdır. Hesab olunur ki, təkcə S.- onu təyin edən monarxın adından çıxış edə bilər və fəaliyyət göstərdiyi ölkənin monarxından, hətta xüsusi *audiensiya* (rəsmi görüş) tələb edə bilər.

Müasir beynəlxalq hüquq diplomatik nümayəndəliyin başçısı olan S.-lə diplomatik nümayəndəliyin başqa dərəcəli başçıları arasında heç bir hüquqi fərq qəbul etmir. 1961-ci il Vyana Konvensiyası müəyyən etmişdir ki, "nümayəndəliyin başçısının hansı dərəcəsindən asılı olmayaraq, onlar arasında fərq yoxdur".

2. Xarici İşlər İdarəsinin diplomatik heyətinə verilmiş ən yüksək diplomatik qanq.

**SƏFİRLİK** - dövlətlərarası razılaşma əsasında yaradılmış, diplomatik əlaqələri həyata keçirmək məqsədini güdən, (fövqəladə və səlahiyyətli) səfir və ya 1-ci dərəcəli digər diplomatik nümayəndələr tərəfindən başçılıq edilən, bir dövlətin digər dövlət ərazisində daimi, rəsmi, diplomatik nümayəndəliyi. S. müəyyən aparata, hakim iyerarxiyalı struktura və dövlətlərarası əlaqənin əhəmiyyətinin səviyyəsindən asılı olaraq nümayəndəliklər (işçi) personalına, üstəlik rahat və sərbəst işləmək üçün müəyyən infrastruktura malikdir. S. üzərinə qoyulmuş funksiyaların effektiv (səmərəli) həyata keçirilməsini təmin etməkdən ötrü, onun (S.-liyini) əməkdaşları diplomatik imtiyaz və immunitetdən istifadə edirlər. S. ərazisi isə toxunulmazlıq statu-suna (eksterritoriallıq hüququna) malikdir. S. binası təmsil etdiyi dövlətin bayrağı və gerbi ilə bəzədilir. Yeri gəlmişkən S. orqanına onun nümayəndələrinə hər hansısa bir hörmətsizlik, təcavüz, onun təmsil etdiyi dövlətə, xalqa, hakimiyyətə qarşı hörmətsizlik və ya təcavüz kimi qiymətləndirilir.

**"SƏHNƏARXASI"** (rus analoqu *закулисье*) – siyasi səhnədən kənar qalan, geniş ictimai kütlələrdən gizlədilən, ictimaiyyətin fikrini nəzərə almadan siyasi qüvvələrin gizli, məxfi, mənfur niyyətli fəaliyyəti "oyunları" ifadə etmək üçün işlədilən mücərrəd anlayış; siyasi satqınlıq, ikiüzlülük, ədəbsizlik mənasını verir. "S." başverənləri, yalnız onun (mənfi) nəticələrində sezmək olur.

**SƏNƏD** (rus analoqu *документ*) - 1) tam hüquqi statuslu, müəyyən məlumat xarakterli, dövlət və ya qeyri-dövlət orqanları tərəfindən təqdim edilən, bütün hallarda dövlət tərəfindən saxtalaşdırılmadan qorunan – rəsmi akt; 2) müəyyən təyinatı, məqsədi, oriyentasiyanı və s. əks etdirən, hər hansısa hüququ, faktı təsdiq, sübut edən – işgüzar (xidməti) kağız parçası; 3) müəyyən məlumatı (mətni, şəkli, səsi) özündə həkk etdirən, zaman və məkan baxımından qorunub-saxlanılan və ötürən – maddi varlıq (kağız, video plyonka, maqnit lenti, perfokart və s.).

Konstitusiya, Qanunlar, Fərman və Sərəncamlar, Qərarlar, Əmrlər, direktivlər, İnstruksiyalar, Proqramlar, Manifestlər, Deklorasiyalar, Kommunikelər, Paktlar, eləcə də müqavilələr, ksivalar və s. – S. kateqoriyasına aid edilir.

**SƏRBƏST ŞƏHƏR** (digər adı *azad şəhər*) - mürəkkəb hərbi-siyasi proseslər nəticəsində XIX-XX əsrlər təcrübəsində, strateji əhəmiyyətli şəhərlərə, maraqlı tərəflərin qarşılıqlı razılığı ilə verilən, xüsusi beynəlxalq rejimli – tam müstəqil siyasi subyekt (şəhər); S.Ş. statusu-müstəqil dövlətlərdə olduğu kimi, özünün Konstitusiyasına, Hakimiyyət və idarəçilik orqanlarına, hətta öz vətəndaşlığına malik olmasını nəzərdə tutur. Bəzi hallarda, o cümlədən, neytral və demilitarizasiyalı şəhər statusunun anlayışını verir. S.Ş. statuslu subyektlərinin ilk nümunələrini, hələ orta əsrlərdə alman feodal knyazlıqlarından asılı olmayan Qamburq, Bremen, Lyubek, Regensburq, Frankfurt (Mayn üzərindən) şəhərlərinin simasında görmək olar, lakin onlar üzərində beynəlxalq rejim müəyyən olunmurdu; 1825-ci il "Vyana traktatı" (Rusiya, Avstriya və Prusiya arasında) əsasında Krakov şəhəri və onu əhatə edən ərazilər; 1919-cu ul "Versal sülh müqaviləsi" əsasında – Qdansk şəhəri; Dansiq şəhəri; 1947-ci il İtaliya ilə sülh müqaviləsi əsasında- Triest şəhəri; S.Ş. statusuna yaxın olan – Tanjer; Saar şəhərləri; ona oxşar rejim BMT Baş Məclisinin (Assambleyasının)- 29.XI.1947-ci il tarixli qətnaməsinə - İyerusəlim şəhərlərini nümunə göstərmək olar.

"S Ş." ("A.Ş.") anlayışını *"açıq şəhər"* anlayışından fərqləndirmək labüd: əgər birinci – müstəqil siyasi subyekt anlayışını verirsə: ikinci-hərbi münaqişə zamanı hərbləşməmiş, müdafiə olunmayan anlamını verir.

**SƏRHƏD** – bax *dövlət sərhədləri.*

**SİYASİ SIĞINACAQ** - öz vətənində, vətəndaşı olduğu dövlətdə insanın siyasi məsləklərinə, fəaliyyətinə görə əsasən dövlətin hakimiyyət orqanları tərəfindən təqib və təzyiqlərdən xilas olunması üçün xarici dövlət tərəfindən təqdim edilən müdafiə vasitəsi. (Xarici) dövlət öz suverenliyinə əsaslanaraq, beynəlxalq hüquqa və daxili (milli) hüquqa uyğun olaraq maraqlı şəxsə S.S. vermək haqqında xahişini təmin və, yaxud rədd edə bilər, lakin S.S. qeyri-siyasi məqsədlərə görə, cinayət törədildiyinə görə, yaxud BMT məqsədlərinə və prinsiplərinə zidd olan əməllərinə görə təqib və təzyiq olunan şəxslərə şamil edilmir (sülhə qarşı, bəşəriyyətə qarşı cinayətlər, hərbi cinayətlər etmiş şəxslərə S.S. verilmir). S.S. almış şəxslər, həmin sığınacağı vermiş dövlətin beynəlxalq hüququn himayəsi altındadırlar; onları məcburi sürətdə təzyiqə məruz qala biləcəyi dövlətə qaytarmaq, sürgün etmək olmaz. S.S. -ın iki növü olur: *ərazi S.S.-ı* - xarici dövlətin ərazisinə gəlməyə və orada yaşamağa icazə verməkdən ibarətdir; *diplomatik S.S.-ı* - xarici dövlətin diplomatik, yaxud konsulluq tərəfindən sığınacaq verilməsindən ibarətdir. Beynəlxalq siyasi təcrübədə dini məbədlərdə (məsçid, kilsə, monastır və s.) S.S. istəmə faktlarına da rast gəlinir.

**SİYASİ SİTUASİYA** (vəziyyəti) (latın *situatio*-vəziyyət, hal) - zamanı konkret anı üçün izah edilən, cəmiyyətin və ümumən bəşəriyyətin siyasi fəaliyyət və inkişafının mürəkkəb tarixi proseslərindən keçib, həmin ana qədər gələn və həmin andan siyasi fəaliyyət və inkişaf istiqamətini müəyyən edən siyasi vəziyyət, mühüt, şərait. Dövlətdaxili S.S. siyasi qüvvələr arasında siyasi hakimyyəti ələ keçirmək, əldə saxlamaq, hakimiy-yət vasitəsilə öz siyasətini yürütmək naminə onların qarşılıqlı münasibətini, nisbətini ifadə edir; içtimai birlik (partiya) daxili S.S.-nı xüsusi katiqoriya aid etmək olar; beynəlxalq S.S. dövlət-lər, xalqlar arasında strateji partnyorluqdan-hərbi münaqişəyə qədər geniş aspekti əhatə edir. Ümumiyyətlə S.S. daxili və xarici vəziyyət və şərtlərini, siyasi subyektlərin vacib həyatı maraqlarının qənaetlənməsi vəziyyət və mümkünlüyünü, güclər nisbətini və onların qarşılıqlı əlaqə səviyyəsini və s. hal-hazırdakı zaman üçün müəyyən edir. S.S.-nın analizi cəmiyyət və bəşəriyyətin siyasi vəziyyəti, halı, siyasi dayanlıqlığı, sabitliyi inkişaf etdirməsi, qoruması və ya itirməsi barəsində təsəvvürlər oyadır.

**SİYASİ TEXNOLOGİYA** (yunan *téchnē* – sənət, ustalıq, bacarıq və *logos* - söz təlim sözlərindən) – texniki elm sahəsindən – siyasətə israr etmiş anlayış; qarşıya qoyulmuş siyasi məqsədlərə çatmaqdan ötrü: a)zəruri olan siyasi üsul və vasitələr sisteminin məcmusu və; b) məqsədyönlü fəaliyyətlər məcmusu, siyasətin obyektiv qanunlarını – idarəçilik mexanizminə "çevrilməsi" metodu, yəni siyasi elmin abstrakt dilinin – insanların fəaliyyətini istiqamətlərndirən və effektiv fəaliyyətə stimullaşdıran konkret qərar, sənəd, normativlər, göstərişlər dilinə çevrilməsi: sosial psixologiya, sosial-iqtisadi və siyasi mühit, siyasi subyektlərin qüvvələr nisbəti, potensialları və s. S.T.-nın təhlil, istifadə, hətta təsir obyektidir.

**SOSİAL DEMPİNQ** (ingilis analoqu *social dumping*)- azad ticarət, yaxud aşağı tariflər zonasında sənayenin və başqa məşğulluq mənbələrinin (iş yerlərinin) sosial xərclərin səviyyəsinin yüksək olduğu və əmək qanunvericiliyinin mükəmməl işləndiyi ölkələrdən – sosial xərclərin səviyyəsinin aşağı olduğu və əmək qanunvericiliyinə müxtəsər işləndiyi ölkələrə keçirilməsi.

**SOSİOLOGİYA** (fransız *sociologie*, latın *societas*-cəmiyyət və yunan *logos*-təlim, söz sözlərindən; hərfi mənası-cəmiyyət haqqında təlim) - istər qlobal (bütövlükdə cəmiyyət), istərsə də xüsusi sosial sistem və institutların inkişafı və fəaliyyəti haqqında elm. S. müxtəlif sosial hadisələrin qarşılıqlı əlaqəsini və insanların sosial davranışının ümumi qanunauyğunluğunu öyrənir. Qərb S.-sının inkişafı dövlətin, cəmiyyətin idarəçiliyində istifadə etmək üçün daha mükəmməl üsul və vasitələrin, o cümlədən: ictimai rəyin öyrənilməsi, təbliğatın təşkili, mübahisə və münaqişələrin həll edilməsi və s. öyrənilməsi və həyata keçirməsi məqsədlərini öz qarşısına qoyur. Marksist-leninist S.-nın isə nəzəri və metodoloji əsasını-*tarixi materializm* təşkil edir. S. müstəqil bir elm kimi XIX əsrdə meydana gəlmişdir. (termin E. Kant tərəfindən daxil edilmişdir), hərçənd onun kökləri daha qədimdən gəlir.

**SOYQIRIM** (yunan analoqu *genocid*) - bax *genosid*.

**"SOYUQ" MÜHARİBƏ** - ümumbəşəri miqyasda iri dövlətlərin və ya iki qrup iri dövlətlərin, yaxud lokal miqyaslı iki dövlətin, xalqın gərgin münasibətləri olduqda sosial, siyasi, iqtisadi münasibətlərin "heçə" endirilməsi ilə, üstəlik iqtisadi, ticarət embarqoları, sanksiyaların tətbiqi ilə, hərbi gücün artirılması ilə, təbliğatı, psixoloji, idealoji təzyiqin aparılması ilə xarakterizə olunan xarici siyasi kursun şərti adı. "S".M. aradan qaldırılmadıqda, o, açıq hərbi toqquşmalara gətirib çıxarda bilər. İlk dəfə "S". M kursu Böyük Britaniya Baş naziri U. Çerçil tərəfindən 1946-cı ilin mart ayında ABŞ-da bəyan edilmişdir.

**SPİÇ** (ingilis *speech* - nitq) - (rəsmi) ziyafət mərasimində, salamlama, qonaqpərvər, təşəkkür xarakterli nitq, çıxış.

**SPONSOR** (ingilis *sponsor*) - 1)tapşıran, həvalə edən, təminatçı; 2) hər hansısa bir tədbiri, işi maliyyələşdirən şəxs və ya təşkilat; 3)sifarişçi, qurucu, təşkilatçı, reklam verən, podratçı; 4) beynəlxalq təşkilatlarda bəyannamə (rezolyusiya) layihəsini irəli sürən, təklif edən dövlət.

**SPOUKSMEN** (ingilis *spokesmen*) - 1)təmsilçi, kiminsə maraqlarını ifadə edən, nümayəndə (deleqat); 2) orator (natiq).



**STATUS** (latın *status*-vəziyyət) - subyektin dövlətdə, cəmiyyətdə tutduğu yeri, hüquqi mövqeyi (və ya beynəlxalq ictimaiyyətdə tutduğu yeri, əgər beynəlxalq statusdan söz gedirsə).

Vətəndaşın (insanın), hüquqi şəxsin, dövlət orqanının, beynəlxalq təşkilatın hüquqi vəziyyətini xarakterizə edən hüquqlar, vəzifələr və (hüquqi) azadlıqlar məcmuəsi. Hüquqi S.-dövlət və beynəlxalq ictimaiyyət tərəfindən tanınır, hüquqi sistemə salınır və təmin edilir.

**STATUS-KVO** (latın *status quo*-hərfi mənası; mövcud olan vəziyyətdə-siyasətdə, hüquqda (o cümlədən, beynəlxalq hüqüqda) mövcud olan, yaxud müəyyən momentə (hadisəyə) qədər mövcud olmuş faktiki və ya hüquqi vəziyyəti ifadə etmək üçün işlədilən termin S.-K.-nın qorumaq deyəndə mövcud vəziyyəti qorumaq kimi başa düşülür, S.-K.-nın bərqərar etmək deyəndə-baş vermiş dəyişikliklərdən qabaq olmuş vəziyyətə qayıtmaq (əvvəlki vəziyyəti bərpa etmək) kimi başa düşülür.

**STATUT** (son latın *statut*, latın *statuere*-qərara almaq, *statuo*-qərara alıram sözlərindən) (əsas qanun, nizamnamə) - 1) orta əsrlərdə şəhərlərin və şəhər daxili birlikləri (sexlərin tacir gildiyalarının və s.) hüquqi vəziyyətini əks etdirən nizamnamə; 2) hər hansı bir orqan haqqında əsasnamə; 3) dövlətdaxili və ya beynəlxalq təşkilatların təşkili və fəaliyyəti qaydasını müəyyən edən əsasnamə, nizamnamə (misal; BMT Beynəlxalq Məhkəməsi-nin S.-u (1945)); 4) Bəzi dövlətlərin (Böyük Britaniya Parlamentinin, ABŞ Konqresinin) bəzi qanunvericilik aktlarının rəsmi adı (misal: Böyük Britaniya Parlamenti tərəfindən 1931-ci ildə qəbul edilmiş Vestminster S.-u); 5) hər hansı bir əsasnamə, müddəa; hər hansı bir ordenlə təltif etmə qaydasını, onun təsvirini (hətta onun daşıma (istifadə), imtiyazlarını) müəyyən edən Əsasnamə (müddəa).

**STRATEQİYA VƏ TAKTİK** (yunan *stratēgōs, stratōs* - qoşun və *āgō* - aparıram) - siyasi fəaliyyət subyektlərinin siyasi davranış haqqında təlimi. Burada *strategiya* - siyasi subyektin ümumi uzunmüddətli siyasi xətti, əsas və uzunmüddətli vəzifələri, məqsədləri, fəaliyyətin əsas istiqamətini və onların həyata keçirilməsinin növbəçiliyini müəyyənləşdirir; *taktika* isə - strateji planlara nail olmaqdan ötrü, siyasi subyektin, real siyasi şəraitdə, adətən qısa müddətli və konkret addımlı fəaliyyəti müəyyənləşdirir-bu, siyasətdə istifadə edilən müvafiq üsul, fənn, forma və metodlardır. Siyasi subyektin uğurlu fəaliyyətinin və nəticələrinin zəmini, onun (siyasi subyektin) dərin siyasi (hüquqi, iqtisadi və s.) elmi biliyi, bacarığı və təcrübəsidir; mövcud siyasi situasiyanın (vəziyyətin), siyasi proseslərin öyrənib, təhlil etmək, (siyasi) qüvvələr nisbətini, özünün, eləcə də tərəfdarlarının və rəqiblərinin potensialını çəkib-ölçmək, tərəflərin planlarını oxumaq, onların zəif və güclü tərəflərini arid etmək, siyasi ziddiyyətlərinin səbəblərini tədqiq etmək, bundan savayı, gələcək siyasi proseslərin inkişafını əvvəlcədən proqnozlaşdırmaq və s.-siyasi strategiyaya aiddir; siyasi proseslərə təsir və ya onları idarə etmək, siyasi rəqiblərin zəif tərəfindən istifadə etmək, güclü tərəfini zərərsizləşdirmək, siyasi ziddiyətləri öz məqsədlərinə uyğun ya aradan qaldırmaq və ya əksinə artırmaq, siyasi fəaliyyətinin forma və metodlarını, vəziyyətə uyğun olaraq, tez dəyişdirə bilmək, müəyyən kompromislərə getmək, siyasi ittifaqlar (bloklar) yaratmaq və s. -siyasi taktikaya aiddir, yeri gəlmişkən siyasi fəaliyyət (mübarizə vasitələri (o cümlədən; kütləvi informasiya vasitələri (KİV), mitinq, piket, nümayiş, Məhkəmələrə müraciət, hətta aclıq aksiyaları və s.) - siyasi taktikaya aiddirlər.

**SULTAN** (soltan) (ərəb; türk *sultan* – hakim, hökmdar) – müsəlman ölkələrində Ali hökmdar titulu. Tarixən Şimali və Qərbi Afrika və ön Asiya müsəlman dövlətlərinin əksəriyyətində Ali feodallar – S. titulunu daşıyırdılar. XVI-XIX əsrlərdə Azərbaycanda və İranda rütbəcə *xandan* aşağı duran və kiçik hakimliklərə başçılıq edən feodallara da S.- deyilirdi (misal: İlisu, Şəmşədil, Ərəş və s. S.-lıqları). Müasir dövrdə də bəzi (misal üçün: Bruney, Oman) dövlətlərinin başçıları, Cənubi Ərəbistanın bəzi qəbilə başçıları – S. titulu daşıyırlar.

**SUPERDÖVLƏT** (ingilis analoqu *superpower*) – bax *föqəldövlət*.

**SUVERENİTET** (alman *Souveränität*, fransız *souveraineté* - Ali hakimiyyət sözündən) - müstəqilllik və hakimiyyətin aliliyi deməkdir: 1) *Xalq suverenliyi* - bütöv (absolyüt) xalq hakimiyyətidir, yəni xalqın ictimai və dövlət işlərində sosial-iqtisadi və siyasi vasitələrlə bilavasitə və hərtərəfli iştirakıdır, və xalqın tam siyasi azadlığıdır. Xalq suverenliyinin tətbiqi səsvermə və referendum vasitəsi ilə həyata keçirilir; 2) *Dövlət suverenliyi* - dövlət daxilində hakimiyyətin aliliyi və heç bir xarici dövlətdən asılı olmamaq deməkdir. Dövlətin bütün hüquq münasibətlər quruluşunun müəyyənləşdirilməsində (Konstitusiyanın, qanunların və s. qəbul edilməsində), ictimai həyatın bütün sahələrinə nüfuzlu təsir göstərilməsində və əgər lazım gələrsə, məcburedici tədbirlərin tətbiq edilməsində, dövlət hakimiyyətinin aliliyi özünü birüzə verir. Dövlətin daxili və xarici siyasətini öz mənafeinə uyğun həll etmək, onun müstəqil hüququdur.

**SÜLH KORPUSU** - formal olaraq bəzi dövlətlərə, xalqlara texniki yardım göstərməkdən ötürü 1961-ci ildə ABŞ dövləti tərəfindən təsis olunmuş humanist təmayüllü təşkilat. İnzibati baxımdan "S.K". həm dövlət xaricində, həm də dövlət daxilində "könüllü yardım" məsələləri ilə məşğul olan - "Ekşn" ("Fəaliyyət") adlı hökümət agentliyi-nin tərkibinə daxildir. Onun (S.K.-nun) əsas fəaliyyəti əsasən

**TƏBƏƏLİK** (rus analoqu *подданство*) – prinsip etibarilə *vətəndaşlıq* deməkdir, lakin yalnız monarxik (o cümlədən, Konstitusiyalı monarxiya) dövlətə insanın mənsub olmasını bildirir və monarxa nisbətdə hörmət əlaməti olaraq, bu cür ifadə olunur: "zate-aliləri təbəəsi".

**TƏCAVÜZ** - bax *aqressiya*.

**TƏHDİD** - beynəlxalq münasibətlərdə, hər hansı bir problemin "gücün" və ya "gücün" tətbiq etməsi ilə hədələmələri (təhdidi) ilə həll edilməsi cəhdinin yol verilməməzliyi prinsipi. BMT Nizamnaməsi başda olmaqla bir sıra beynəlxalq hüquqi aktlar (Konvensiyalar) istənilən hər bir beynəlxalq problemlərin (o cümlədən: *ərazi və sərhəd xətti problemlərin) həlli vasitəsi kimi* "gücün" tətbiq edilməsi hədələmələri (təhdidləri) vasitə kimi qəti surətdə inkar edir; beynəlxalq münasibətlərdə hədələmələri (təhdidi) yol verilməz hesab edir; bu cür hədələmələrdən (təhdiddən) hər bir dövlət çəkinməlidir.

"Gücün" və ya "gücün" tətbiq edilməsi hədələmələri ilə yanaşı "T." anlayışına – bütün digər zorakılıq aktlarının (o cümlədən: xarici dövlətin ərazilərinə soxulmaqdan ötrü mütəşəkkil hərbi (muzdluların) hərbi dəstələrin yaradılması və ya təzyiqi; terror və diversiya; xarici dövlətdə qəti qarşıdurma və ya vətəndaş müharibəsi şəraitində - tərəflərdən hər hansı birinin hərbi cəhətdən dəstəklənməsi və s.) tətbiqi ilə hədələmələr daxildirlər.

T. vasitəsilə, hətta əldə edilmiş hər hansı bir üstünlük – qanuni sayılmır (əgər əldə edilmiş üstünlüyün özü hüquqauyğun olması istisna olmaqla), üstəlik T. edən tərəf beynəlxalq məsuliyyət daşıyır və ona qarşı beynəlxalq məcburiyyət tədbirləri (sanksiya) tədbiq edilə bilər.

**TƏHLÜKƏSİZLİK ZONASI** - "Təhlükəsizlik zonası" haqqındakı 1958-ci il Cenevrə Konvensiyası və 1982-ci il Konvensiyalarında nəzərdə tutulur ki, sahilyanı dövlətlər – adalar, dəniz qurğuları və başqa tikililəri ətrafında onların təhlükəsizliyini və gəmiçiliyin təhlükəsizliyini təmin etmək məqsədilə - "təhlükəsizlik zonaları" müəyyən edə bilərlər.

**TƏKBAŞÇILIQ** - idarəetmənin təşkili forması; *kollegiallıq* idarəetmənin alternativi; bu zaman müəssisə, idarə və, yaxud təşkilatın idarəetmə orqanına bir şəxs başçılıq edir; ona hüquqi cəhətdən məcburi, yəni başqaları tərəfindən hökmən icra olunmalı qərarlar qəbul etmək səlahiyyəti verilir. T. qərarların daha operativ surətdə qəbul etməsi və həmin orqanda (müəssisə, idarə, təşkilatda) işlərin vəziyyətinə görə rəhbərin məsuliyyətini artırmağa imkan verir. Bir sıra dövlət (Nazirliklər, Komitələr və s.) və qeyri-dövlət (siyasi partiya, kommersiya qurumları və s.) orqanları məhz T. prinsipi üzərində fəaliyyət göstərir.

**TƏSİR AGENTİ** - 1) (xarici dövlətin xüsusi xidmət və s. orqanlarının formal olaraq əməkdaşı olmadan) xarici dövlətin siyasi məqsədlərini həyata keçirmək naminə fəaliyyət göstərən vəzifəli şəxs və ya cəmiyyətdə müəyyən nüfuza (avtoritdə) malik olan və, yaxud ictimai etibardan sui-istifadə edən şəxs; 2) siyasi partiyanın və ya digər ictimai təşkilatın siyasətini həmin strukturlara məxsus olmayan mühitdə həyata keçirən şəxs.

**TƏSİR SAHƏSİ** - bax *nüfuz dairəsi*.

**TƏSVİYƏÇİLİK** (ərəb; rus anoloqu *ликвидаторство*) - geniş insan kütlələri arasında raqib (düşmən) qarşısında kapitulyasiyaya, onlarla razılaşmaya, öz tərəfin iddialarından əl çəkməyə və, nəhayət qarşı tərəfə tabe olmağa təbliğatını yürüdən ideologiya; Birinci Rus İnqilabının (1905-1907) süqutundan sonra, məğlubiyyət demorolizasiyası dalğasından, geniş ictimai kütləri yeni inqilab hazırlamaqdan çəkindirməyə, inqilabi təşkilatları ləğv etməyə, çar hakimiyyətinin leqallığının qəbul edilməsinə və, hətta inqilabi sosial-demokrat partiyasının əvəzinə Qərbi Avropa tipli leqal partiya yaratmağa çağıran RSDFP daxilində opportunist cərəyan. T. ilk növbədə sosial-demokrat partiyasının parçalanmasına, partiya işinin pozulmasına çalışırdı, lakin, RSDFP-nin 6-cı Ümumrusiya (Praqa) konfransı (1912) təsviyəçiləri partiyadan qovdu.

**TƏŞƏBBÜS** (rus analoqu *инициатива*) - hər hansı bir işdə ilk addım.

**TƏŞƏKKÜRNAMƏ (Qramota)** – (rus analoqu *благодарственное письмо*, ingilis analoqu *letter of commendation*) – siyasi subyektin (hakimiyyətin) – digər subyektə bu və ya digər aktına, fəaliyyətinə görə ünvanladığı, rəsmi və ya digər təntənəli surətdə təşəkkürünü bildirən sənəd, akt.

**TƏŞKİLAT** - hər hansı proqramı, yaxud məqsədi birlikdə həyata keçirən, özünün Nizamnaməsini (qanunvericilik çərçivəsindən çıxmamaq şərti ilə) müəyyən etdiyi üsul və qaydalarla fəaliyyət göstərən subyektlər (insanlar, dövlətlər) birliyi; özünü idarə prinsipi əsasında işləyir; müəyyən mülkiyyətə, müstəqil balansa malikdir; *-hüquqi şəxsdir*. T. könüllü birlik olduğuna görə-kollektiv şəkildə idarə olunur, lakin müəyyən idarəedici-əlaqələndirici institutları ola bilər. Bax həmçinin *ictimai təşkilatlar; beynəlxalq təşkilatlar*.

**TƏZMİNAT** (ərəb; latın anoloqu *reparatio* ) - 1) (beynəlxalq hüquqda) dəymiş ziyanın ödənilməsini (adətən nağd pul (valyuta) ilə) nəzərdə tutulan əvəzetmə; 2) işğal nəticəsində dəymiş ziyana görə, işğalçı dövlət tərəfindən-işğala məruz qalmış dövlətə ödəməli olduğu (ödədiyi) maddi əvəzetmə. T. həcmi və ödəmə qaydası-sülh müqaviləsi, yaxud başqa beynəlxalq hüquqi aktlar əsasında həyata keçirilir. İlk dəfə



T. Versal sülh müqaviləsində (1919) əsaslandırılmışdır. Faşist Almaniyası və onun müttəfiqlərinin İkinci Dünya Müharibəsi nəticəsində başqa dövlətlərə vurduqları ziyanı T. Formasında Krım konfrasında (1945) və Potsdam konfransında (1945) müəyyən edilmişdir. T. *-restitusiya* formasında da həyata keçirilə bilər və, hətta ikisi də bir yerdə həyata keçirilə bilər: əgər restitusiya-işğal zamanı qarət olunmuş əmlakın geri qaytarılmasıdırsa; T. -işğaldan vurulmuş ziyanın əvəz edilməsidir, T.-da əlavə xərclərin ödənilməsi də nəzərdə tutula bilər.

**TƏZYİQ QRUPU** - bir siyasi subyekt tərəfindən (dövlət, hakimiyyət, onun məxfi orqanı və ya bir şəxs tərəfindən) özünü aşkar büruzə verməməsi şərtilə, konkret siyasi naliyyət əldə etməsi məqsədi ilə, xarici dövlətə və ya dövlət daxilində hakimiyyət, və ya ictimai-siyasi quruma (partiyaya) və ya müəyyən vəzifəli şəxsə təzyiq imkanlarını yaradan, ya mövcud olan və ya süni sürətdə təşkil edilən ictimai-siyasi təşkilat(lar)ı və yaxud müəyyən vəzifəli şəxsləri bu və ya digər üsul və vasitələrlə (maddi şirniləkdirmə (rüşvət, qrant), şantaj, terror, dini, milli hissələrdən istifadə etmə və s.) öz tərəfinə çəkilmiş siyasi qüvvə. T.Q. qismində müəyyən (o cümlədən: vəzifəli) şəxslər, siayis partiya(lar), Qeyri Hökumət Təşkilat(lar)ı (QHT), Kütləvi informasiya vasitələri (KİV), ekoloji təmayüllü qurumlar, nadir halda adına "beynəlxalq təşkilat" deyiəln qurumlar) və s. çıxış edə bilərlər.

T.Q.-ya açıq-aşkar şəkildə "proteje" (havadar, himayədar) subyektin xeyrinə, mənaefyinə xidmət edən siyasi təziq göstərir və yaxud ilk baxışdan heç bir şübhə doğurmayan və, hətta ola bilsin, humanist təsürat bağışlayan, lakin mahiyyəti, məqsədi son nəticədə (dolayı yollarla) "proteje" subyektin xeyrinə mənafeinə xidmət edən siyasi təzyiq göstərir. "Proteje" subyektin və T.Q.-nun ümumi potensialından (savad, təcrübə, insani (kütləvi), maddi, səlahiyyət resurslarından) asılı olaraq təzyiq siaysəti öz bəhrəsini verir. Praktikada T.Q. əsasən mürəkkəb siaysi situasiyalarda aktivləşillər və onların vasitəsilə rəqabəti udmaq olar, Hökumətə alternativ Hökumət qurmaq olar və, hətta hakimiyyəti ələ keçirmək olar.

**TİCARƏT BALANSI** (fransız *balanse*- tərəzi) - ölkənin import (idxal) malları və eksport (ixrac) malları arasındakı nisbət; cari ödəmələr, xidmət gəlirləri və əsas kapitalın hesab maddələri istisna etmək şərtilə.

**TİCARƏT LİBERALİZASİYASI** (latın *liberalis*-azad) - dövlət daxilində və beynəlxalq iqtisadi münasibətlərdə azad ticarət imkanlarının yaradılmasına, azad ticarətə mane ila bilən amillərin aradan qaldırılmasına yönəlmiş konsepsiya. "T.L." termini ilk dəfə 1974-cü il "Ticarət haqqında beynəlxalq deklorasiyada" öz əksini tapmışdır. - Ona (deklorasiyaya) müvafiq olaraq, tərəflər (imzalanmış dövlətlər): ticarətin sərbəstləş-dirilməsi, idxal-ixrac əməliyyatlarında proteksionist tədbirlərə əl atmaması, idxalat qarşısında əngəl törətməməsi, ixracın süni şəkildə stimullaşdırmaması, hətta xarici ticarət haqqında, geniş şəkildə qarşılıqlı məsləhətləşmələrin aparılması, inkişaf edən dövlətlərin maraqlarının nəzərə alınması və s. barəsində öz üzərində müəyyən öhdəliklər görürürlər. Lakin, T.L.-nın əsas məğzi ədalətsiz rəqabəti, rəqabət təzyiqini, ticarət inhisarını, əlaxsus "ticarət müharibələrini" və digər haqsızlıqları ticarətdən ayrılması, uzaqlaşdırılması inkişaf üçün dayanıqlı zəmin yaradılmasından ibarətdir.

**TİCARƏTDƏ SAPMALAR** (ingilis analoqu *trade delfection*) - azad iqtisadi zonada minimum gömrük haqqı ödəmək məqsədilə, malların aşağı faizlərlə xarici tariflərlə istifadə etmək üçün, yüksək xarici tarifə malik olan başqa üzv ölkəyə idxal edilməsi.

**TİTUL** (latın *titulus* – yazı, fəxri ad) – 1) ayrı-ayrı şəxslərə verilən, yaxud irsən keçən fəxri ad (misal: qraf, baron, hersoq, lord, per və s.); 2) müəyyən fəaliyyət növündə yüksək nailiyyətlər əldə etmiş şəxsə, hörmət mənasında verilən ad (misal: çempion T.-u); 3) hüquqşünaslıqda – hər hansı hüququn əsası; bir sıra qanunvericilik aktlarında, məcəllələrdə xüsusi bölmələr (misal: alqı-satqı T.-u, bağışlama T.-u və s.); 4)poliqrafiyada - kitab barəsində tanışlıq xarakterli məlumat daşıyan birinci və ya ilk iki səhifə; 5) *Titul siyahısı* – tikilməkdə olan (yenidən qurulan) və əsaslı (kapital) vəsait qoyuluşu planı daxil edilən obyektlərin adbaad siyahısı.

**"TOBAR DOKTRİNASI"** (Ekvador Xarici İşlər Naziri K.Tobarın soy adından) – "Estrada doktrinasının" antonimi; hətta dövlət çevrilişi (Konstitusiya çevrilişi) nəticəsində formalaşmış yeni "Hökuməti" – başqa dövlətlər tərəfindən tanımasına (qəbul etməsinə) – "humanist və altruist düşüncələrdən irəli gələrək" dəvət edən – daxili çəkişmələrə son qoyma məqsədilə, dövlətlərin daxili işlərinə dolayı yol ilə qarışmasını məqsədə uyğün bilən siyasi-hüquqi konsepsiya ("doktrina").

Doktrina 1907-ci ildə irəli sürülmüşdür, hətta bir sıra Mərkəzi Amerika dövlətlərinin 1907-ci il dekabr və 1923-cü il noyabr tarixli 2 beynəlxalq sazişlərdə özünü praktiki tətbiqini tapdı, Latın Amerikasının əksər dövlətləri – "T.D."-nı suverenlik və qarışmamazlıq prinsiplərinə təcavüz etdiyinə görə, - rədd etdi. Buna alternativ olaraq "Estrada doktrinası" ərsə gətirildi.

**TOLERANTLIQ** (latın *tolerantia*-dözüm, səbr) - öz baxışlarına, mövqelərinə, inanclarına uyğun olmayan, hətta onlara zidd gedən digərlərin baxışlarına, mövqelərinə, inanclarına dözümlü, səbrli və, hətta sayqılı yanaşma; hüquqi dövlətin, demokratik, sivil cəmiyyətin mütləq prisipi. T.-ın konkret növlərinə gəldikdə: dini, milli, irqi, siyasi baxış və müvqe, tənqidə münasibətdə və s. T. növləri

müvcuddur. T.-ın xüsusi növü-*sosial T.-dır*, yəni mürəkkəb quruluşlu cəmiyyətin müxtəlif səbəbiyyatdan (maddi vəziyyət, təhsil, tərbiyyə səviyyəsi, sosial status və s.) müxtəlif təbəqələrə, zümrələrə bölünmüş insanların biri-birinə münasibətdə olan T. Eyni zamanda, T. cinayətlərə və digər növ hüquqpozuntulara (o cümlədən, beynəlxalq hüquqpozuntulara) münasibətdə şamil edilmir. T. tolerant subyektin (fərdi şəxsin, cəmiyyətin, xalqın) inkişaf səviyyəsinin, dünya görüşünün, humanistliyinin indikatorudur (göstəricisidir). T.-irqçiliyin, millətçiliyin (şovinizimin), qeyri-demoktatikliyin tam əksidir.

**"TOTAL MÜHARİBƏ"** - beynəlxalq hüquq normalarını və müharibə qanun və qaydalarını qəti surətdə rədd edən, rəqib tərəfin nəinki silahlı qüvvələrini, hətta sadə əhalisini məhv etmək məqsədini qarşısına məqsəd kimi qoyan - aqressiv müharibə nəzəriyyəsi "T.M." anlayışını ilk dəfə təfərrüatı ilə 1935-ci ildə alman generalı E.Lüdendorf tərəfindən şərh edilmişdir. Yeri gəlmişkən, alman faşistlərinin apardığı müharibəyə - "T.M." deyilir.

**TOTALİTARİZM** (son latın *totalitas-dolğunluq,* bütövlük, tamlıq, *totus*-tam, bütöv) - demokratik institutların ləğv edilməsi, hakimiyyət resurslarının monopoliyası (inhisarı), informasiya monopoliyası, bir şəxsin sonsuz (diskresion) hakimliyi, cəmiy-yətin və dövlətin bütün həyatına tam (total) nəzarət və özünə tabe etdirilməsi, fərqli (proqressiv) düşünənlərə qarşı (bəzi hallarda isə, bütün xalqa qarşı) repressiv metodlardan istifadə edilməsi, ictimai həyatın militarizasiyası (hərbiləşdirilməsi), dövlət bürokratik aparatı tərəfindən ayrı-ayrı insanların həyatına müdaxilə edilməsi, insan hüquq və azadlıqlarının praktikada ümumiyyətlə tətbiq olunmaması, kimi irtica məqsədləri güdən, qəddar idarəçilik üsullu dövlət-hüquqi rejimdir.

T. rejimin nümunələrini XX əsrdə: Sovet İttifaqında-Stalin rejimini; Almaniyada-Hitlerin və İtaliyada-Mussolininin faşist rejimlərini; Çilidə - Pinoçet rejimini və s. görmək olar.

**TRANSMİLLİ** (ingilis *transnational,* rus *транс-национал:* latın *trans*-arasından, üzərindən, arxasından) - bir xalqın, dövlətin hüdudlarından, sərhədlərində çıxan, xalqlar, dövlətlər arası fəaliyyət göstərən hərəkat, ideologiya, təşkilat (o cümlədən, T. kommersiya-biznes təşkilatı): dövlətlər (xalqlar) - arası, regional və ya ümumən (universal) beynəlxalq təşkilat; *T. monopoliya* (inhisar) - bax *inhisar (beynəlxalq inhisar).*

**TRANŞ** (ingilis *tranche*) - eyni "hissə", yaxud "pay": termin üzv dövlətə təqdim edilən kreditlə bağlı Beynəlxalq Valyuta Fondu (BVF) tərəfindən istifadə olunur. T.- hər bir üzv-ölkənin maliyyə səviyyəsinin yüksəldilməsindən asılı olan (4) hissələrə bölünür.

**TRANZİT** (latın *transitus* – keçid, dəhliz, keçmə) – marşrut yolunun dövlətin xaricində başlayaraq – dövlətin xaricində qurtaran, yalnız yolun bir qisminin dövlətin daxilindən keçməklə - insanların (əcnəbilərin), yüklərin (baqajların), nəqliyyat vasitələrinin və poçt göndərişlərin, həmin dövlətin ərazilərinə girməklə, keçməklə və dövlət ərazilərindən çıxmaqla hərəkət etməsi.

Bir qayda olaraq, T. hüququ ikitərəfli və ya çoxtərəfli (beynəlxalq) müqavilələrlə maraqlı tərəflərin qarşılıqlı razılaşması ilə - qarşılıqlı verilir. T. yükündən import-export rüsumları yığılmır, yalnız T. xərcləri (dövlət ərazilərinə girmə - "ayaq basdı") *rüsumu alınır.*

Hər bir dövlət, hətta heç bir izahat gətirmədən digər dövlətlərə öz ərazisindən T. ərazisi kimi istifadə etməsini qadağan edə bilər (bəzi istisnalar Jeneva Konvensiyasında və 1982-ci il "dəniz hüququ" barəsində BMT Konvensiyasında qeyd olunur. Harada ki, kontinendaxili dövlətlərə dənizə çıxmaq hüququ verilir). Qeyd etmək labüdür ki, bəzi hallarda T. keçən əcnəbilər üçün T. vizası tələb olunmur (misal: təyyarə T.).

**TRAYBALİZM** (ingilis *tribalism, tribal*-tayfa, nəsil sözündən) - tayfalararası qırğın, dava, tayfaların ayrılmaq, münfəridlik cəhdi (*separatizmin* bir forması). T. hələ də, cəmiyyətdə tayfa-nəsil bölgüsü qalıqları mövcud olan yerlərdə (əsasən Afrikada) rast gəlinir. Tarixən kolonializm dövründə xalqları, millətləri, tayfaları (və onların ərazilərini, sərvətlərini) işğal edib, ələ keçirmək məqsədi ilə müstəmləkəçi dövlətlər tərəfindən həmin xalqlar, millətləri, tayfalar arasında T. süni surətdə yaradılırdı və geniş istifdə edilirdi. T. siyasətinin məqsədi, müstəmləkə xalqları, millətləri, tayfaları zəiflətmək, fikirlərini yayındırmaq, fikirlərindən daşındırmaq, müqaviməti sındırmaq, sonradan isə, milli - azadlıq hərəkatlarını boğmaqla öz (müstəmləkəçi) hökmranlığını qorumaqdan ibarətdir.

**TRİBUNAL** (latın *tribunal*-divanxana; Məhkəmə; əsas mənası: Qədim Romada mühüm vəzifəli şəxslərin-konsulların, pretorların xidməti vəzifələrini yerinə yetirməkdən ötrü oturduqları hündür yer, təpə) - 1) *İnqilabi T.-lar* -inqilab dövründə, bəzi dövlətlərdə (Böyük Fransa İnqilabı, Böyük Oktyabr İnqilabı) - əksinqilaba və xüsusilə təhlükəli cinayətlərə qarşı mübarizə aparmaq üçün təsis edilmiş fövqəladə Məhkəmələr; 2) *Hərbi T.-lar* -hərbi cinayətləri: hərbi qüvvələrin təhlükəsizliyi; hərbi nizam, hərbi xidmət qayda pozuntularını araşdıran Məhkəmələr; 3) *Beynəlxalq Hərbi T.-lar* -İkinci Dünya Müharibəsi bitdikdən sonra (1945), SSRİ, ABŞ, İngiltərə və Fransa dövlətlərinin birgə razılığı ilə təsis olunmuş, əsas hərbi canilərini təqib edən və cəzalandıran Məhkəmələr (Nyurnberq və Tokio prosesləri);



4) Fransada, İtaliyada birinci instansiya Məhkəməsi və barışdırıcı Məhkəmənin baxdığı işlər üzrə appelyasiya Məhkəmə instansiyası; bəzi Ali Məhkəmələrin adı.

**TUPİK** (dalan) (ingilis analoqu *impasse*) - cəlb edilmiş tərəflərdən heç birinin gediş edə bilmədiyi hərəkətsizlik, yaxud "ölü nöqtə" vəziyyəti.

# U

---

**ULTİMATUM** (son latın *ultimatum*-hərfi mənası: sona çatdırılma; latın *ulimus*-sonuncu, axırıncı) – geniş mənada: hədə (təhdit) məzmunlu son və qəti tələb; dar mənada: beynəlxalq hüquqda müəyyən şərtləri yerinə yetirmək (icra etmək) kimi qəti tələb irəli sürən (yəni etiraza, mübahisələrə, diskussiyalara yer qoymayan), icrası üçün müəyyən zaman çərçivələrini qətiləşdirən və tələblər icra olunmadığı təqdirdə müəyyən hədələri (siyasi, iqtisadi, hüquqi, hətta hərbi xarakterli tətbiqləri) ehtiva edən bir dövlətin Hökumətin) – digər dövlətə qarşı irəli sürdüyü (yazılı və ya şifahi formalı) – sərt diplomatik xəbərdarlıq (nota). U. üçün olduqca ciddi səbəbiyyat olmalıdır. U.-da göstərilən şərtlərin yerinə yetirilməməsi (icra edilməməsi) və hətta, nalaiq yerinə yetirilməsi (gecikdirilməsi, tam icra edilməməsi və s.) son nəticədə dövlətlərarası siyasi, iqtisadi və s. münasibətlərin kəsilməsinə, hətta hərbi gücün tətbiqinə gətirib çıxarda bilər.

**UNİFİKASİYA** (latın *unus*-bir və *facio*-edirəm) – vahid şəkilə, formaya, yaxud sistemə salma; bir və ya bir neçə dövlətin səlahiyyətli orqanının, birtərəfli və ya qarşılıqlı razılaşma ilə, müəyyən növ ictimai münasibətləri eyni formada nizamlayan hüquq normalarını hazırlamasına yönəlmiş fəaliyyəti.

**UNİON** (yunion) (son latın *unionis*-birlik) – ittifaq, birlik; insanların, təşkilatların, dövlətlərin birliyi, *ittifaqı.*

**UNİTAR DÖVLƏT** (fransız *unitaire*, latın *unitas*-birlik, vahid sözündən) – vahid dövlət. dövlət vahid mərkəzdən idarə olunması ilə səciyyəvi olan, yəni vahid Konstitusiyalı, vahid Qanunverici və İcra hakimiyyətli quruluşlu *formalı dövlətdir, bu, ölkənin bütün ərazisində mərkəzi* hakimiyyətin nüfuzunun yüksək olmasına imkan verir. Dövlətin əraziləri, inzibati-ərazi vahidlərinə (rayon, mahal, departament) bölünməklə, bərabər hüquqlu statusa malik olmaqla, mərkəzi dövlət hakimiyyəti orqanı tərəfindən formalaşır və ona tabedirlər. *Eyni zamanda, unitar dövlətin subyekti (subyektləri) bu və ya digər* səbəbdən (misal: milli tərkibə görə) müəyyən muxtariyyat statusuna malik ola bilərlər. Digər dövlət quruluş formalarından (*federasiya, konfederasiya*) fərqli olaraq U.D. daha çox mərkəzləşdirilmişdir və daha çevik idarə olunandır, elə buna görə də bəzi federativ quruluşlu dövlətlərdə (*misal:* ABŞ, Almaniya, Rusiya) – unitar idarəçilik tendensiyaları özünü göstərir, eyni zamanda, xalqların (milli azlıqların) müstəqilliyə can atması meylləri U.D.-lərin – federasiyaya çevrilməsi, hətta U.D.-in parçalanıb müstəqil dövlətlərin yaranması tendensiyası özünü göstərir. Yeri gəlmişkən, dünya ölkələrinin əksəriyyəti U.D. quruluş formasına malikdirlər.

**UNİYA** (son latın *unio*-birlik) – 1. dövlətlər birliyinin (ittifaqın) bir növü; monarxiyalı dövlətlərin bir monarxın hakimiyyətində birləşməsi. U.-nın iki növü fərqləndirilir: *şəxsi* və *real* U.-lar. Şəxsi (personal) U.-da iki və ya daha çox monarxik dövlətlərin öz hakimiyyət orqanlarını və idarəçiliklərini saxlamaqla bir monarxın hakimiyyətində olur (misal: 1714-1837-ci illərdə İngiltərə və Hanover U.-sı). Şəxsi U.-da birləşşmiş dövlətlər öz suverenliyini (müstəqilliyini) saxlayır, ümumi monarxın hakimiyyəti nominal xarakter daşıyır; real U. – monarxik dövlətlərin daha sıx birləşməsidir; o vahid dövlətə bənzərdir, onun vahid dövlət başçısı, *vahid idarəçilik orqanları, vahid ordusu, vahid pul sistemi* və s. vardır, o beynəlxalq münasibətlərdə vahid suveren dövlət kimi çıxış edir, yəni vahid xarici siyasət yürüdür. Tarixən real U. iki formada yaranırdı: a)müqavilə əsasında (misal: 1814-1805-ci illərdə İsveç və Norveç U.-sı) və b)daha güclü dövlətin bir tərəfli aktı nəticəsində (misal: 1918-1944-cü illərdə Danimarka və İslandiya U.-sı); 2.*beynəlxalq uniya.*-iqtisadi sə sosial sahələrdə daimi fəaliyyət göstərən beynəlxalq təşkilatlar (misal: mərkəzi Afrikanın gömrük və iqtisadi birliyi); 3.(iqtisadiyyatda) *şəxsi uniya.* – bank və istehsal monopoliyalarının (inhisarlarının) birləşməsi (calaşması, qovuşması) və *maliyyə oliqarxiyasının* yaranması; 4. *Kilsə uniyası* - roma - katolik və pravoslav kilsələrinin birləşdirilməsi (birliyi); mahiyyəti: bütün xristian kilsələrini özünə tabe etdirilməsindən ibarət olan – Vatikanın yürütdüyü siyasətlərindən birinin təcəssümü. İlk dəfə Kilsə U.- 1439-cu ildə (roma-katolik ilə - yunan kilsəsi arasında) Florensiya soborunda elan edilmişdir, lakin rus kilsəsi tərəfindən qəbul edilməmişdir, hansı ki, öz mütəqilliyini qoruyub saxlamışdır. 1596-cı ildə Brest soborunda pravoslav və roma – katolik kilsəsləri arasında (Polşa

və Litva arasında) Kilsə U.-sı elan edilmişdir, hansı ki, pravoslav kilsəsinin ayin (adət) tərəfini saxlasa da, lakin katolik doqmalarını və Papanı – kilsə başçısı kimi qəbul edirdi. 1946-cı ildə Lvovdakı sobor, həmin Kilsə U.-dan çıxması və rus pravoslav kilsəsi ilə birləşməsi haqqında qərar qəbul etdi.

**UTİ POSSİDETİS** (latın *uti possidetis* – hərfi mənada: necə sahibsiniz)- müharibə şəraitində, bir tərəfin hərbi hücumu, zəbti, işğalı (akupasiya), ilhaqı və anneksiyası nəticəsində - qarşı (düşmən) tərəfdən əldə etdiyi ərazilərin vəziyyəti. "Güc", "zor" tətbiq etməyin özü (müvafiq səlahiyyət olmadan) - beynəlxalq cinayət sayılır, ona görə də U.P. (yəni zor gücü ilə əldə edilmiş ərazilərdə) baş verən bütün hadisələrə (hərəkətlərə) görə, - həmin əraziləri əldə saxlayan dövlətə bütün məsuliyyəti daşıyır.

"U.P." anlayışı bəzi hallarda "status-kro" anlayışı ilə müvafiq tutulur lakin status-kvo daha geniş anlayışdır və hüquqi məsələlərini də əhatə edir.

**UTİLİTARİZM** (latın *utilitas*-fayda, mənfəət) – 1. bütün hadisələri, onların faydalılığı, hər hansı məqsədə nail olmaq imkanı baxımından qiymətləndirən prinsip; hər şeydən biləvasitə maddi mənfəət götürməyə yönəlmiş – dar praktisizm; (məcazi) mənfəətpərəstlik, işbazlıq, hər şeydən mənfəət və fayda çıxartmağa çalışma; 2. "faydanı", "mənfəəti" - əxlaqın əsası hesab edən və cəmiyyətin ümumi "səadət" və "ahəng" yaratmağa qadir olduğunu sübut etməyə çalışan əxlaq nəzəriyyəsi; etikada faydanı əxlaqın əsası və insan davranışının meyarı hesab edilən cərəyan. U.-in banisi İ.Bentam faydalılığı əxlaqın əsası hesab etmiş, onu həzz ilə eyniləşdirmişdir. XIX əsrdə Böyük Britaniyda yayılmış U. liberal burjua təbəqələrinin əhvali-ruhiyyəsini ifadə edirdi.

**"UYĞUN BAYRAQ"** (ingilis analoqu flaq of comenience) - dövlət bayrağı, başqa dövlətlərlə müqaisədə, gəmi sahibləri üçün kimin gəmiçilik qanunları daha az zəhmətlidir: belə dövlətdə qeydiyyata alınmış gəmi-onun bayrağı altında üzür, ona vergi ödəyir, gəminin heyəti isə, həmin dövlətin qanunlarına tabedir.

**UZURPASİYA** (latın *usurpatio, usuro*-zəbt edi-rəm, ələ keçirirəm) – qeyri-qanuni olaraq nəyisə zəbt etmə, yaxud özgənin hüquqlarını zorakılıqla mənimsəmə; (siyasi) qeyri-qanuni olaraq dövlət hakimiyyətini bütövlükdə ələ keçirilməsini, yaxud dövlət başçısı səlahiyyətini – dövlət (hakimiyyət) çevrilişi yolu ilə mənimsənilməsi, eləcə də, həmin (zorakı, saxta) yollarla əldə saxlanılması. U. bir qayda olaraq sərt siyasi rejimin (diktaturanın, tiraniyanın, despotizmin) bərqərar olunmasına gətirib çıxardır. Dünyanın bütün demokratik dövlətlərində U. – dövlətə qarşı ağır cinayət kimi qəbul edilir.

# Ü

---

**"ÜÇÜNCÜ DÜNYA"** (bəzi mənbələrdə "üçüncü ölkələr") - əvvəllər müstəmləkə (koloniya və yarı koloniya) olmuş, İkinci Dünya Müharibəsindən sonra "dekolonializasiya" siyasəti nəticəsində müstəqillik almış dövlətlərin (xalqların) məcmuəsi. "Ü.D." termini XX əsrin 50-ci illərində fransız alimi A.Sofi tərəfindən elmi tədavülə daxil edilmişdir və həmin zaman öz aralarında konfrontasiya siyasətini yürüdən iki sosial-iqtisadi sistemlərlə (kapitalizm və sosializm) münasibətdə (müqayisədə) həmin dövlətlərin (Ü.D.-in) xüsusi mövqeyini göstərirdi.

**ÜÇÜNCÜ TƏBƏQƏ** (rus analoqu *третье сословие*, ingilis analoqu *Third Estate*) – Fransada, 1789-1794-cü illər inqilabına qədər, zadəganlardan və ruhanilərdən fərqli olan, onlardan sonra gələn qeyri-titullu (ad-sansız), yəni üçüncü dərəcəli əhaliyə verilən ad. Müasir siyasi leksikonda da, sadə xalqı, əhalinin siyasətdən, hakimiyyətdən və müvafiq ambisiyalardan uzaq hissəsini bildirmək üçün "Ü.T." terminindən istifadə edilir.

**ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI (ÜTT)** - Tariflər və Ticarət üzrə Baş Müqaviləni (TTBM-ingilis analoqu *GATT*) əvəz edən təşkilat; çoxtərəfli ticarət sisteminin qanunverici və təşkilati bazası (qurumu). O, dövlətin bazasında öz daxili ticarət qanunvericiliyini formalaşdırdığı və reallaşdırdığı əsas müqavilə qanunlarını hazırlayır, habelə kollektiv mübahisələr şəraitində - danışıqlarda və qarşılıqlı iddialar zamanı – ölkələr arasında ticarət münasibətlərinin qurulması üzrə platformasıdır. Əsas funksiyaları aşağıdakılardır: ÜTT-nin əsasını təşkil edən çoxtərəfli və hərtərəfli (müxtəlif) ticarət müqavilələrinin hazırlanması və reallaşdırılması; ticarət sahəsində çoxtərəfli danışıqlar üçün şəraitin yaradılması; ticarət sahsində mübahisələrin həll edilməsi; dövlət tərəfindən aparılan ticarət siyasi və dünya iqtisadiyyatının problemlərinin həlli ilə məşğul olan digər beynəlxalq institutlarla əməkdaşlıq üzərində nəzarətin həyata keçirilməsi.



Dövlətə "ən əlverişli şərait yaratma" rejimi vermək haqqında qanuna uyğun olaraq, ÜTT-yə daxil olan dövlətlər, ÜTT xətti üzrə müqavilələrlə əlaqəli ölkələrdə, istehsal edilən mallara da hər hansı digər ölkənin mallarına tətbiq edilən standartları tətbiq etməlidirlər. Həmin qanun başqa ölkələrdən bazara gətirilmiş mallara da, həmin ölkədə istehsal olunmuş mallar kimi – münasibət göstərilməsini tələb edir. ÜTT çərçivəsində *adətən normalar* ləğv edilir, lakin gömrük tarifləri və rüsumları saxlanılır.

ÜTT-n üzvü olmaqdan ötrü, dövlətdən əsasən *ticarətin* liberallaşdırılması tələbi qoyulur; inkişaf etməkdə olan ölkələrə müəyyən vaxt verilmişdir ki, ÜTT-n daha ciddi tələblərinə uyğunlaşsınlar, ən az inkişaf etmiş ölkələrə tez uyğunlaşan yaxınlaşma tətbiq olunur və onlar qazanclarını mallarının digər ölkələrin bazarlarına ən asan daxil olması ilə təminatından istifadə etmək imkanına malikdir.

Təşkilat 1 *yanvar 1995-ci il tarixində* yaradılmışdır. Ali orqanı- iki ildən bir çağrılan Nazirlər Konfransıdır, o zaman bir sıra işçi orqanların, əsas etibarilə arbitraj komitə kimi və ticarət qanunvericiliyinin reallaşmasına müşahidə üzrə komitə kimi Ümumi Şuranın *yalnız gündəlik fəaliyyəti həyata keçirilir*; Ümumi Şura səlahiyyətlərini digər üç baş orqana verir: Əmtəə ilə Ticarət üzrə Şura; *Xidmət ilə* Ticarət üzrə Şura və Müəllif Hüquqlarının Müdafiəsi üzrə Şura. Ümumi Şuranın tabeçiliyində Nazirlər Konfransı *tərəfindən yaradılmış* daha dörd orqan vardır: İnkişaf və Ticarət üzrə Komitə; Ödəmə üzrə Komitə; Ekologiya və Ticarət üzrə Komitə; və Büdcə, Maliyyə və İnzibatçılıq üzrə Komitə. Ümumi Şuraya hesabatlı olan digər struktur bölmələri də vardır. Təşkilatın rəhbərliyi – 4 müavindən ibarət olan 5 direktorluqdur. Katibliyə danışıqlarının aparılması və müqavilələrin reallaşması üçün lazım olan hər vasitələrlə - ÜTT orqanlarını təmin etmək tapşırığı verilir. Təşkilatın büdcəsi, onun üzvlərinin potensialına uyğun olaraq *ianələr* hesabına formalaşır. Büdcənin bir hissəsi Beynəlxalq ticarət mərkəzinə köçürülür. Katiblik Cenevrə (İsveçrə) şəhərində yerləşir.

**"ÜMUMİ BAZAR"** (rəsmi adı *"Avropa iqtisadi birliyi"*) – öz aralarında iqtisadi mübadilə sahəsində bütün manеələr ləğv olunmalı və digər dövlətlərlə münasibətlərini vahid iqtisadi siyasət üzərində qurmalı olan – bir *sıra* Qərbi Avropa dövlətlərinin birliyi.

25.III.-1957-*ci il* tarixli "Ü.B." haqqındakı Roma müqaviləsinə uyğun olaraq, həmin dövlətlər: öz aralarında ticarətdə gömrük rüsumlarını ləğv etməli; başqa dövlətlərlə ticarətdə vahid rüsum sistemini tətbiq etməli; həmin dövlətlər arasında kapitalın və əmək qüvvəsinin rahat və sərbəst *axınına maneçilik* törədə bilən bütün sədləri aradan qaldırmalı; nəqliyyat və kənd təsərrüfatı sahələrində ümumi siyasəti, *eləcə də vahid valyuta siyasətini hasil*; "Ü.B."-ın normal fəaliyyət göstərməsini təmin etmək üçün öz milli qanunvericiliyi *yaxınlaşdırmalı*; əmək haqqını və sosial məsrəfləri vahid səviyyəyə çatdırmalı; vahid investisiya (sərmayə) bankını yaratmalıdırlar. Bunlardan savayı, "Ü.B."-ın normal fəaliyyət göstəməsi üçün, müəyyən səlahiyyətli inzibati orqan (Nazirlər Şurası) və nəzarətçi orqan ("Avropa Komissiyası") yaradılır; şikayətləri və mübahisəli məsələləri araşdırmaq üçün – (beynəlxalq) Məhkəmə yaradılır.

**ÜMUMİ DAXİLİ MƏHSUL (ÜDM)** (ingilis analoqu *Qross Domestic Produkt- QDP*) - dövlət daxilində hazırlanmış malların və xidmətlərin ümumi dəyəri.

**ÜMUMİ MİLLİ MƏHSUL (ÜMM)** (ingilis analoqu *Qross National Produkt- QNP*) - ümumi daxili məhsul və üstəgəl xarici aktivlərdən alınmış qazancların və dividentlərin faiz şəklində təmiz gəliri.

# V

---

**VA-BANK** - 1) çox xətərli işə girişmə, riskə getmə; 2) (*qumar oyununda*) banka oynamaq (getmək).

**VAHİD YOL** (dəniz üzgüçülüyünün vahidliyi və ya arasıkəsilməməzliyi) - *sonda düşmən* dövlətə çata biləcək bəhanəsi altında neytral portlara üzən neytral gəmilərin yüklərinin döyüşən dövlət tərəfindən saxlanılıb - həbs etmək mürtəce hüququnu təsdiqləyən doktrina. V.Y. doktrinası XVIII əsrdən - XX əsrin ortalarına (İkinci Dünya Müharibəsinə) qədər tətbiq edilirdi. "V.Y." doktrinası ilk növbədə düşmən dövlətin hərbi potensialını zəiflətmək məqsədi güdürdüsə də, sonradan, həm də kontrabandaya (qaçaqmalçılığa) qarşı mübarizə bəhanəsi də, buna əlavə olundu.

**VALYUTA** (italyan *valuta;* latın *valeo, valere*-dəyərim var, qiyməti olan) -1) dövlətin (və ya Avropa dövlətlərinin-Avro) pul vahidi (manat, dollar, rubl, lira və s.) və onun tipi (qızıl, gümüş, kağız pul və s.) - *milli valyuta;* və 2) *xarici valyuta*-xarici dövlətlərin pul nişanı, həmçinin xarici pul vahidlərilə ifadə olunan (veksel, çek, tratt və s.) və *beynəlxalq hesablaşmalarda* işlədilən tədavül və ödəmənin kredit vasitəsi.

Beynəlxalq iqtisadi münasibətlərdə iştirak edən hər bir dövlətin V. kursu ilə *ifadə* olunan,

müəyyən dəyəri olan pul hesablaşmalarına səbəb olan milli pul vahidləri vardır. Bəzi hallarda, dövlətlərin razılığı ilə digər vəsait və ya vasitələr beynəlxalq hesablaşma vasitəsi kimi (*Beynəlxalq V.* kimi) qəbul edilə bilər.

**VALYUTA BÖHRANI** - pul-kredit siteminin böhranı. Qızıl standartın süqutu, tez inflyasiya uğrayan kağız pul tədavülünə keçilməsi kimi təzahür olunur və istər ayrı-ayrı ölkələrin (xüsusi V.B.) daxili tədavül dairəsini və istərsə də beynəlxalq (ümumi V.B.) hesablaşmaları əhatə edir. Xüsusi V.B. ayrı-ayrı dövlətlərdə iqtisadi böhran, müharibə, inflyasiya, daxili bazarda valyutanın qiymətdən düşməsi və s. amillərlə və müvəqqəti olur (hərçənd, bəzi hallarda uzun müddət də davam edə bilər). Ümumi V.B. permanent xarakterlidir, dünya valyuta sisteminin pozulması nəticəsində baş verir.

**VALYUTA DÜZƏLİŞİ** - xarici ticarət dövriyyəsi sahəsində valyuta risklərinin məhdudlaşdırılması və xəbərdarlıq forması. Beynəlxalq kredit, ödəmə və başqa sazişlərdə, həmçinin uzun müddətə bağlanılmış xarici ticarət müqavilələrində, bəzi ölkələrin valyutasının sabit olmaması və qiymətdən düşməsi ilə əlaqədar olaraq tətbiq edilir.

**VALYUTA EHTİATI (REZERVİ)** - müvəqqəti olaraq dövlətdaxili iqtisadi dövriyyədən çıxarılmış və xarici və ya beynəlxalq maliyyə qurumlarında avuar şəkilində saxlanılan və yalnız xüsusi ehtiac olduqda istifadə edilən dövlət əmlakı. Burada "xüsusi ehtiac" dedikdə, dövlətin defisit ödəmə balansının valyuta bazarında milli valyutanın məzənnəsini müəyyən çərçivədə saxlamasını təmin etmək və ya fövqəladə, hərbi və digər hallar nəzərdə tutulur. Lakin bir dövlətin öz V.E. (R.) -ni başqa dövlətin daxilində və ya beynəlxalq maliyyə qurumlarında avuar şəklində saxlaması müəyyən risklə bağlıdır, bu onu (əmanətçi dövləti) - başqa dövlətlərin və ya beynəlxalq təşkilatların tərəfin-dən mümkün olan təziqlərə həssas edir və yaxud həmin dövlətlərin, beynəlxalq bazarın mümkün ola bilən iqtisadi-valyuta böhranları qarşısında aciz edir.

**VALYUTA SİSTEMİ** - pul münasibətlərinin təşkili forması; daxili pul kredit tədavülünü və beynəlxalq hesablaşmalar sferasını əhatə edir. Dünya kapitalizm bazarının yaranması ilə kapitalist ölkələrinin V.S. dünya V.S.-nə çevrilmiş, XX əsrin əvvəllərində isə özünün ən yüksək inkişaf pilləsinə çatmışdır, V.S.-nin əsasını qızıl təşkil edirdi. Qızıl tədavül vasitəsi və ödəmə (tədiyə) vasitəsi funksiyalarını itirsə də, ancaq dəyər ölçüsü, sərvət yaratmaq vasitəsi və dünya pulu funksiyalarını yerinə yetirməklə dünya kapitalist V.S.-nin əsası olaraq qaldı. İnflyasiya, beynəlxalq ödəmə dövriyyəsi strukturunun dəyişməsi və digər amillər dünya V.S.-nin daha tez-tez sarsılmasına səbəb olur.

**VALYUTA SİYASƏTİ** - pulun alıcılıq qüvvəsinə, valyuta məzənnəsinə və bütövlükdə ölkənin iqtisadiyyatına təsir göstərmək məqsədilə dövlətin, onun mərkəzi bank və maliyyə təsisatlarının pul tədavülü və valyuta münasibətləri sahəsində keçirdikləri iqtisadi, hüquqi, təşkilati tədbirlərin məcmusu. V.S., əsasən iki formada: uçot (diskot) və; deviz formasında həyata keçirilir. Beynəlxalq valyuta münasibətləri sahəsində uçot siyasəti faiz səviyyəsini dəyişdirməklə, deviz siyasəti isə xarici valyutanın alıb-satmaqla valyuta məzənnəsini tənzimləməyə yönəldir. Sosialist orientasiyalı, plan iqtisadiyyatlı, qapalı siyasi-hüquqi rejimli dövlət-lərində isə, V.S. -valyuta inhisarı əsasında keçirilir. Dövlətdən savayı, beynəlxalq maliyyə təşkilatları və özəl maliyyə kredit qurumları (sonuncular yalnız gəlir əldə etmək məqsədilə) V.S. yürüdürlər. Onu da qeyd etmək labütdür ki, V.S. həmişə pozitiv xarakter daşımır, yəni onun (V.S.-nin) vasitəslə hər hansısa bir dövlətin iqtisadiyyatını zəiflətmək, onu ram etmək və digər məqsədlərə nail olmasından ötrü aparılması istisna döyül.

**VASİTƏÇİLİK** - bax *mediasiya* və *"xeyirxah xidmət"*.

**VASSAL** - 1) Orta əsrlərdə Qərbi Avropada daha iri feodallar (senyordan) asılı olan feodal adı. V. Hərbi xidmət daşıyırdı; Məhkəmədə və senyorlar şurasında iştirak edirdi, müəyyən hallarda isə senyora maddi təzminat göstərməli idi. Buna görə senyor – V.-a kəndlilərlə bir yerdə torpaqlar verirdi və ona (V.-a) himayədarlıq edirdi. İri V.-lar isə, kralın V.-ları idi; 2)(məcazi mənada) başqa, daha qüdrətli dövlətdən asılı olan, itaət edən zəif, ikinci dərəcəli dövlətlərə verilən mücərrəd ad.

**VATİKAN** (*Stato della Città del Vaticano*) - Avropada teokratik, monarxik dövlət-şəhər; Kato-lik kilsəsinin başçısı-Roma Papasının rezidensi-yası; Roma-katolik kilsəsinin siyasi; inzibati və ideoloji mərkəzi. V. İtaliya paytaxtı, Roma şəhərinin qərb hissəsində yerləşən bütün dövlət-çilik atributlarına malik olan, o cümlədən: öz ərazisinə (0,44 km$^2$) bayrağına, gerbinə, pul vahidinə, rəsmi dövlət dilinə (İtalyan və latın dillərinə), Ali Qanunverici, İcraedici və Məhkəmə hakimiyyətinə və hətta, hərbi qvardiyasına və, üstəlik güclü informasiya, təbliğat vasitələrinə malikdir. Dövlət idarəçiliyinə gəldikdə isə, bütün hakimiyyət, məhdudiyyətsiz şəkildə katolik kilsəsi-nin başçısı-Roma Papasına məxsusdur. O (Roma Papası), Kardinallar Kollegiyasının gizli səsvermə yolu ilə ömürlük seçilir, eyni zamanda Kardinalları Roma Papası ömürlük təyin edir. Kardinallar Kollegiyası məşvərətçi orqandır. V. Hökuməti - "kuriya" adlanır. Kardinal-dövlət katibi kuriya başçısıdır və, eyni zamanda, xarici işlər naziridir, İtaliya və digər dövlətlərin milli kilsələrinə başçılıq edir.



**VERBAL NOTA** (latın *verbalis* – şifahi, dilcavabı) – diplomatik yazışmanın bir forması; şərti olaraq "şəxsi notadan" fərqli olaraq V.N. – üçüncü şəxs adından tərtib olunur (misal: "Xarici İşlər Nazirliyi Sizə bildirmək şərəfi ilə..."; "Səfirlik – Sizə açıqlamaq şərəfi ilə...") imza atmır, yalnız idarənin (Nazirliyin, Səfirliyin) möhürü ilə bərkidilir. V.N. – nota blankında çap edilir və məxsusi nömrəsi vardır. Yuxarı sağ küncündə göndərənin yeri (şəhəri) və tarix qeyd olunur; aşağı sol küncündə isə (birinci səhifənin) – notanın kimə ünvanlandığı qeyd olunur. V.N. ya şəxsən təqdim edilir və ya kuryer vasitəsilə göndərilir.

**VESTERNİZASİYA** (ingilis *western*-qərb) -"qərbləşdirmə"; "qərb mentalitetindən" uzaq olan dövlətlərin, xalqların və ya ümumbəşəri inkişafdan geri qalan dövlətlərin, xalqların "qərb standart-larına" uyğunlaşdırılması məqsədlərinə xidmət edən, onlarda "qərb" sosial-siyasi, iqtisadi sistemin üstünlükləri barəsində təsuratlar yaradan sosial-psixoloji konsepsiyalardan biri. Lakin, burada əsas məqsədlər qeyri-"qərb" dövlət və xalqları, "qərb" təsiri altına salmaq, beynəlxalq münasibətlərin qurulmasında ümumi "qərb standartları" üzərində qurmaqla asanlaşdırmaq və s. ibarətdir. "Qərb" dəyərlərinin, etik normalarının qeyri -"qərb" dövlət və xalqlara yeridilməsi vasitələri kimi həmin dövlət və xalqlara "qərb" dillərinin, yaşayış tərzinin, davranış qaydalarının və s. öyrədilməsi "qərb" təhsilinin verilməsi, "qərb" siyasi, iqtisadi, hüquqi modelinin yayılması və nəhayət, "qərbçilik" ideologiyasının aşılanması çıxış edir.

**VESTFAL MODELİ** - (*Westfalen* -Reyn və Vizir çayları arasında tarixi ərazilər və latın *modulus* – ölçü, nümunə, norma) - müasir beynəlxalq sistemin təməl quruluşu; Orta əsr Avropasında "otuzillik müharibədən" sonra, 1648-ci ildə Müqəddəs Roma imperiyasının – 355 dövlətə dağılmasının şərtləndirən Vestfal sülh müqaviləsi imzalanmışdır. Bundan sonra "bir millət – bir dövlət" düsturu dünyanın siyasi quruluşunda bərqərar olmuşdur; öz daxili və xarici siyasətini müstəqil surətdə yürüdən dövlət modeli; hakimiyyətin diyanətdən – dünyəvi hakimiyyət orqanlarına keçməsi şərtli dövlət modeli; milli dövlət suverenliyi modeli; dövlətlərin (xalqların) bərabər hüquqlu olması modeli və bir-birinin daxili işlərinə qarışmamaq prinsipli beynəlxalq münasibətlər sistemi.

Bununla yanaşı, müxtəlif səpkili beynəlxalq problemlərin mövcudluğu, müxtəlif dövlətlərin heç də həmişə həmin normalara riayət etməməsi, ikili standartlar siyasəti, sərhədləri görünməz edən müasir inteqrasiya prosesləri və s. - V.M.-ni ciddi sınağa çəkir.

**VETO** (latın *veto*-qadağan edirəm) - geniş mənada, hər hansısa dövlət aktını hüquqi qüvvəyə min-məsini qadağan edən dövlət Ali hakimiyyət orqanı-nın hüququ: 1) Qədim Romada. Roma magistratı-nın digər magistatın qərarına və fəaliyyətinə müdaxilə hüququ; 2) Bəzi dövlətlərdə, dövlət başçısı və ya parlamentinin yuxarı palatası tərəfin-dən aşağı dövlət orqanlarının qəbul etdikləri aktlarına hüquqi qüvvə verməkdən imtina etmək hüququ. Belə olduğu təqdirdə, qanun layihəsinə V. qoyulmuş parlament və ya parlamentin aşağı palatası ya V.-nu qəbul etməlidir və qanun layihəsindən imtina etməlidir, yaxud V.-da göstərilən şərtləri qəbul etməklə qanunu qəbul etməlidir və, yaxud səlahiyyətli səs çoxluğu ilə V.-nu rədd etməlidir; 3) BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çin) arasında yekdillik prinsipinin pozulması, yəni onların hətta birini orada qaldırılan məsələyə səs verməməsi və ya əlehinə səs verməsi, beynəlxalq hüquqda - *V. hüququ* kim qəbul edilir.

Hüquq tarixinə mütləq V., məhdud V., cib V.-su və xalq V.-su institutları bəllidir.

**VƏTƏNDAŞ MÜHARİBƏSİ** - dini, dini təriqəti, milli, sosial təbəqə mənsubiyyəti, siyasi baxışları fərqli olan, lakin vahid dövlət vətəndaşları arasında sosial, siyasi, iqtisadi maraqların mülahizəsinin, ziddiyətinin həddən-ziyadə kəskinləşməsi əsasında yaranan, hərbi qiyam, partizan müharibəsi, aqressiv hərbi separatizm, açıq frontal müharibə formasında aparılan, son məqsədi hakimiyyəti, var-dövləti (sərvəti), milli müstəqilliyi ələ keçirmədən ibarət olan təşkilatlanmış hərbi mübarizə. Bir qayda olaraq, V. M. son nəticədə dövlətin iqtisadi tənəzzülünə, zəifləməsinə və hətta onun əraziləri-nin parçalanmasına gətirib çıxardır.

**VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏR** - bax *apatridlər*.

**VƏTƏNDAŞLIQ** - insanın konkret dövlətə (və ya dövlətlərə) formal qeydiyyata alınmış, aidiyyatının göstəricisidir, insanla dövlət(lər) arasında qarşılıqlı hüquq və vəzifələrlə bağlı olan siyasi-hüquqi əlaqədir. Dövlət vətəndaş qarşısında, vətəndaş da dövlət qarşısında məsuliyyətlidirlər. Dövlət vətən-daşı hüquqlarla təmin edir və onların üzərinə hüquqi vəzifələr qoyur. Öz növbəsində, vətəndaş, dövlətin qanunlarına və digər göstərişlərinə sözsüz əməl edir, dövlət tərəfindən müəyyən edilmiş vəzifələri yerinə yetirir və, eyni zamanda, dövlətin vasitəsi ilə öz hüquqlarını və qanunla qorunan maraqlarını tətbiq edir.

Beynəlxalq hüquq V.-ı onların harada olmasından asılı olmayaraq, öz vətəndaşları üzərində dövlətin suveren hakimiyyətini və vətən-daşların hüquqlarının dövlət tərəfindən müdafiə və himayə edilməsi kimi təsbit edir. Bəzi dövlətlərdə (monarxik dövlətlərdə) "vətəndaşlıq" anlayışı, "təbəlik" anlayışı ilə əvəz olunur. V. statusna alternativ olan siyasi hüquqi statuslar kateqoriya-ları aşağıdakılardır: əcnəbilər, vətəndaşlığı olma-yan şəxslər və xüsusi kateqoriya ikili (üclü və s.) vətəndaşlar.

Qeyd etmək lazımdır ki, ikili (üçlü və s.) vətəndaşlıq statusuna malik olan şəxslərin, vətən-daşı olduğu dövlətlərə müəyyən problemlər yarat-dığına görə, (misal üçün: hərbi xidmət keçməklə bağlı olan problemlər; vergilərin ödənişi ilə bağlı olan problemlər və s.), bu cür vəziyyətlərin meydana gəlməsi dövlətlərin marağında deyil.

**VƏTƏNƏ XƏYANƏT** - xüsusi təhlükəli dövləti cinayətlərdən biri: xalqa qarşı ən ağır cinayət: vətəndaşın öz (vətəndaşlığı ilə bağlı olan) dövlətin suverenliyi, ərazi toxunulmazlığı və, yaxud dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq qəstən törətdiyi ictimai təhlükəli əməl. V.X. aşağıdakı hərəkət və hərəkətsizlikdə ifadə oluna bilər: düşmən tərəfinə keçmə, casusluq, dövlət sirrini və ya (məxsusi) hərbi sirri xarici dövlətə ötürmə, vətənə qarşı düşmənçilik fəaliyyəti apar-maqla xarici dövlətəköməketmə, Konstitusiya qurluşunu zorakılıqla çökdürmə və ya hakimiyyəti zorakılıqla ələ keçirmək məqsədilə sui-qəst törətmə, dövlətin Ali vəzifəli şəxsin həyatına (onların dövlət fəaliyyəti ilə əlaqədar) qəst etmə, diversiya, eləcə də fərarilik və s. V.X. müxtəlif motiv və məqsədlərlə törədilə bilər, o cümlədən: dövlətinə, xalqına qarşı düşmənçilik, qisas, qorxaqlıq, tamah və s. V.X. müharibə dövründə və ya and içmiş şəxs tərəfindən, eləcə də yüksək vəzifəli şəxs tərəfindən törədildikdə, - o (vətən xaini), daha ağır cəzalandırılır.

**VƏTƏNPƏRVƏRLİK** (ərəb; yunan analoqu *patriốtēs*) - əxlaqi və siyasi prinsip; fərdi şəxsin və ya sosial qrupun öz vətəninə (ölkəsinə), torpağına, havasına, suyuna, çörəyinə, onun (vətənin) keç-mişinə, indisinə, gələcəyinə, o cümlədən, xalqına, millətinə (soydaşlarına), dilinə, adət-ənənələrinə və s. uğurlarına və ya, uğursuzluqlarına baxmayaraq, valideyin-ailə tərbiyəsi ilə gələn və ya şəxsi təcrübə ilə formalaşan-məhəbbət, istək, sadiqlik, bağlılıq, borc, iftixar və qürur hissi; vətənin, xalqının taleyinə məsuliyyət hissi; vətənin, xalqının müstəqilliyi, azadlığı, firanvanlığı naminə, onları düşməndən qoruması naminə fədakarlığa hazır olma. V. -böyük qüvvədir və onun düzgün fəaliyyətə istiqamətləndirilməsi böyük nəticələr verir. V. səviyyəsi fərdi şəxsin və ya cəmiyyətin gündəlik həyatından, ünsiyyəti və mövqeindən, fəaliyyət və nailiyyətlərindən sezilir. V. hissinin apogeyası insanın vətəni, xalqı uğurunda həyatını təhlükə altında qoyması və itirməsidir. İnsanların V. hisslərindən bəzi mürtəce siyasi qüvvələr sui-istifadəyə meyillidirlər. *Yalançı V.* -zahiri görünüşdən V. hissini xatırladır, lakin, bir qədər dərindən araşdıranda bu nəinki, V. deyil, üstəlik bu, hətta vətənin, xalqının əlehinə olan bir mövqedir ona bəzi elmi



ədəbiyyatlarda "*ura-patriitizm*" deyilir.

**VƏZİR** (ərəb) - 1)bəzi müsəlman dövlətlərində nazirlərin və Ali əyanların titulu. Sasanilər dövründən məlumdur. Xilafət dövründə - Dövlət Şurasına başçılıq edirdi, Xilafətin süqutundan sonra bütün müsəlman feodal dövlətlərində V. vəzifəsi daimi oldu. Tarixə *Baş Vəzir* titulu bəllidir - hökumət başçısı vəzifəsinə bərabərdir. XIX əsrin əvvəllərinədək Azərbaycanda mövcud olmuş ayrı-ayrı feodal dövlətlərin (xanlıqların) də - V. vəzifəsi var idi; 2) şahmat fiquru - ən funksional fiqur.

**VİP** (ingilis abbreviaturasından *VİP – very important person* – çox vacib persona) - beynəlxalq və dövlətdaxili münasibətlər praktikasında geniş istifadə edilən, insanın yüksək vəzifəsindən (o cümlədən, diplomatik vəzifəsindən) irəli gələn statusuna müvafiq olaraq, ona rəsmi və qeyri-rəsmi surətdə geniş imtiyazların verilməsi, misal üçün: ictimai iaşə obyektlərində (teatr, stadion və s.) yüksək vəzifəli (o cümlədən, diplomatik vəzifəli) şəxslərə ayrılmış, bir qayda olaraq, ən yaxşı, ən rahat və görkəmli şəraitlə təmin olunmuş xüsusi lojalar – "VİP loja"; yüksək (Ali) vəzifəli şəxslər (o cümlədən, diplomatlar) üçün nəzərdə tutulmuş yüksək komfortabelli qonaq evləri – "VİP residens"; yüksək (Ali) vəzifəli şəxslərin (o cümlədən, diplomatların) baqajlarının, əmlakının dövlət sərhədlərini keçərkən, onların yoxlanılma vaxtının uzadılmaması üçün, həmin baqajları əmlakın üzərinə vurulan kartlar – "VİP kart". Bu cür şəxslərlə ("VİP personallarla") ehtiram dolu rəftaretmə praktikası da mövcuddur.

**VİTSE...** (latın *vice*-yerinə, əvəzinə) - "müavin", "köməkçi", "ikinçi" mənasına uyğun gələn mürəkkəb sözlərin başlanğıc hissəsi.

**VİTSE-KONSUL** - *konsul* ranqından sonra gələn, yəni 1 status aşağı olan konsul ranqı. V.K.-ya müstəqil vitse-konsulluq və ya konsulluq agentliyi adlı idarənin başçısıdır və yaxud konsulluq idarəsinə rəhbərlik etmədən – Ali Konsulun ( və ya Konsulun) müavinidir.

**VİZA** (fransız *viza*, latın *visus*-görülmüş, baxılmış sözlərindən) - 1) müvafiq vəzifəli şəxsin hər hansısa sənədin və ya aktın həqiqiliyini təsdiq edən, yaxud ona hüquqi qüvvə verən qeydi: 2) şəxsin bir ölkəyə gəlməsinə, oradan getməsinə, yaxud keçməsinə icazəni bildirməklə pasporta və ya onu əvəz edən sənətə edilən qeyddir. Müvafiq olaraq: gəlmə, getmə və tranzit V.-ları mövcuddur. V. dövlətin xarici münasibətlər quran müvafiq orqanları tərəfindən müəyyən müddətə verilir. Dövlətlərin qarşılıqlı razılığı onların arasında sadələşmiş V. sistemi və ya ümumiyyətlə V.-siz sistem tətbiq edilə bilər. Beynəlxalq hüquqa görə, diplomatik (yaşıl) pasport sahiblərinə həmin beynəlxalq hüququ qəbul etmiş istənilən dövlətə və müddətə V.-sız gedişi-gəlişi mümkündür.

**VİZİT VƏRƏQƏSİ**- diplomatik protokol praktikasında geniş istifadə olunan *sənəd*; orada sahibinin adı və soyadı, aşağıdan isə vəzifəsi qeyd olunur. V.V.-nin şəxsən verilməsi, göndərilməsi və saxlanılmasının xüsusi qaydaları qəbul olunub. Konkret vəziyyətlərdən asılı olaraq V.V.-nin aşağı sol küncündə qələmlə (kursiv) latın əlifbasının aşağıdakı hərifləri yazılır: p.f.- təbrik məqsədilə; p.r.- minnətdarlıq məqsədilə; p.c.- başsağlığı vermək məqsədilə; p.p.- yeni gəlmiş diplomatik əməkdaşın qiyabi təqdim edilməsi məqsədilə, p.p.s.- fəaliyyət göstərdiyi ölkəni sonuncu dəfə tərk edəndə; p.f. N.a.- yeni il (miladi) bayramı ilə əlaqədar təbrik edəndə.

V.V. qadınlara göndəriləndə vəzifə göstərilmir; V.V.-nin ölçüsü və şrifti yerli praktikadan asılıdır.

# Y

**YADDAŞ QEYDLƏRİ** - diplomatik yazışma sənədlərinin növlərindən biri. Dialoq (söhbət) zamanı şifahi bəyanat təsdiq etmək üçün verilir. Y.Q.-nin məqsədi – verilən bəyanatın təsir gücünü artırmaq və yaxud düzgün başa düşülməmək haqqında xəbərdarlıq etməkdir.

Qaydaya görə Y.Q. şəxssiz (ünvansız) formada hazırlanır, müraciət və ya kompliment ifadə olunmur. Gerbsiz kağızda çap olunur, mətni altında təqdimatın yeri və tarixi göstərilir, çıxış nömrəsi və möhür vurulmur. Mətnin altında sadəcə olaraq – "*yaddaş qeydi*" yazılır.

Əgər Y.Q. şifahi bəyanatın xülasəsini və yaxud özünü tamamilə özündə əks etdirirsə, belə halda sonunda təqdimatın yeri və tarixi göstərilmir.

Əgər Y.Q.-nin təqdim edilməsi nəzərdə tutulmursa, lakin həmsöhbət şəxs bunu xahiş edirsə, belə halda Y.Q. ya *şəxsi* və ya *verbal nota* vasitəsilə, yaxud da *vizit vərəqəsi* ilə birlikdə göndərilir.

**"YAŞILLAR" HƏRƏKATI** – ekoloji təmayüllü ictimai-siyasi hərəkat; XX əsrin 70-ci illərinin sonu 80-ci illərin astanasında sənayeləşmiş bəzi Avropa dövlətlərində ekoloji problemlərin artmasına və

hakimiyyət dairələrin həmin problemlərə lazımi diqqət yetirmədiyi bəhanəsi ilə, ictimaiyyətdə artan etiraz dalğası üzərində formalaşan, sonralar digər dövlətlərə də yayılmış humanist, demokrtik hərəkat. "Y." hərəkatının aktiv üzvləri cəmiyyətin orta təbəqələrindən ibarət olmuşdur və ilkin tələbləri: müasir sənayeləşmə şəraitində təbiəti və ətraf mühitin mühafizəsi, elmi-texniki naliyyətlərin təhlükəsiz istifadəsi yollarının araşdırması və s. ekoloji proqramlardan ibarət olsa da sonradan tələblər ekoloji çərçivələrdən çıxaraq daha geniş sosial-iqtisadi, siyasi məsələləri əhatə etmişdir, o cümlədən: ekoloji-təhlükəli müəssisələrin bağlanılması, dövlətin demokratikləşməsi, hakimiyyətin desentarilizasiyası, kütləvi qırğın silahların ləğv edilməsi, beynəlxalq sülhün mühafizəsi tələbləri və hətta, bütün xalqlara müstəqillik verilməsi və s. tələbləri. "Y." Hərəkatı inkişaf etmiş dövlətlərdə konkret siyasi partiya şəklini almışdır, bundan savayı 1984-cü ildə "Avropada "yaşılların" koordinasiya komitəsi" təsis edilmişdir.

Lakin siyasi təcrübədə "Y." H.-nın humanist ideyalarından siyasi subyektlər (əsasən iqtisadi rəqib dövlətlər) bir-birinə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edilməsi halları nəzərə çarpır.

**YEKDİLLİK PRİNSİPİ** – hər hansı bir təşkilatın daxili qanunvericiliyinə uyğun olaraq, müəyyən məsələlər üzrə qərarlar yalnız bütün (və ya tam əksər) səsvermə hüququna malik olan şəxslər tərəfindən razılıq alındıqda, qəbul edilmiş sayılan prinsip: BMT-nin Nizamnaməsində (27-ci maddə) müəyyənləşdirilən ən mühüm prinsiplərdən biri; həmin prinsipə görə BMT Təhlükəsizlik Şurası qərarların qəbul edilməsi üçün (iş üsullarına aid qərarlardan savayı) onun 9 üzvünün səsverməsi, o cümlədən şuranın 5 daimi üzvünün (ABŞ, Böyük Britaniya, Fransa, Rusiya və Çin) hamısının yekdil səsverməsi tələb olunur, əgər 9 rəqəmindən az və şuranın daimi üzvlərindən hətta bir qərarın əleyhinə səs verdikdə, həmin qərar qəbul olunmur. Bəzi hallarda Y.P. - *veto* hüququ adlandırılır.

**YEKUN AKTI** - beynəlxalq (bəzi hallarda, dövlətdaxili) konfransa, konqresə, toplantıya yekun vuran (epiloq) sənədin adı; bəzi beynəlxalq hüquqi aktlarının adı (onun son hissəsi). Y.A.-nın məzmunu, quruluşu və hüquqi dəyəri müxtəlifdir, onlar – konfransın (iclasın) və yaxud ikitərəfli danışıqların xarakteri, məqsədi və işin gedişi ilə müəyyən olunur. Adətən, Y.A.-nın adı - beynəlxalq müqavilənin adı ilə eydi olur.

**YEKUN PROTOKOLU** - müqavilə iştirakçıları tərəfindən imzalandıqdan sonra, müqavilədə qeydlərin, bəzi dəqiqləşdirmələrin aparılması üçün zərurət yarandıqda, bunun üçün xüsusi akt tərtib olunur və bu akt müqavilə iştirakçıları tərəfindən imzalanır. Həmin akt- "*yekun protokolu*" adlanır. Y.P.-nda iştirakçıların bu və ya digər düzəlişləri öz əksini tapa bilər. Müqavilə protokolunda Y.P. həm ikitərəfli, həm də çoxtərəfli müqavilələrin əlavəsi (icması, rezumesi) kimi verilir.

**YENİ MÜSTƏMLƏKƏÇİLİK** (ərəb; digər analoqu *neokolonializm*) imperialist, hegemoniya iddialı dövlətlərin (yeni) müstəqil dövlətlərə qarşı yürütdüyü qeyri-bərabər iqtisadi və siyasi münasibətlər sistemi; mahiyyəti köhnə olan (dövlətləri, xalqları, hakimiyyətləri öz nəzarətləri altında, yedəyində saxlamaq, təbii sərvətlərini, aqrar potensialını, insan əməyini və s. imkanlarını istismar etmək) məqsədlər ilə müasir zamanəyə uyğun, daha çevik metodlarla öz hökmranlığını başqa dövlətlərə qəbul etdirmə. Y.M. – daxili işlərə qarışma, iqtisadi diktat, inhisarçılıq, siyasi terror, şantaj, sabotaj, ideoloji təpmə, korrupsiya, "siyasi sifariş" (siyasi xadimlərin qətli) və hətta, hərbi təzyiq və hərbi müdaxilə üsul və vasitələri ilə yeridilir. Y.M. son nəticədə inkişaf etmiş dövlətlər ilə - inkişaf edən dövlətlərin arasında uçurumun yaranmasına, ikinci dövlətlərin iqtisadiyyatının tənəzzülə uğramasına, əhalisinin ağır maddi vəziyyətə düşməsinə və s. gətirib çıxardır. Lakin nə qədər paradoksal səslənsə də, bəzi hallarda Y.M. həmin "asılı" dövlətin iqtisadi inkişafına gətirib çıxardır, çünki Y.M. özü ilə birlikdə yeni texnologiyanı, yeni idarəçilik üslubiyyətini, kapital və s. gətirir və hətta, qanunçuluğun və demokratiyanın təkamülünə gətirib çıxardır.

**YENİ SİYASİ DÜŞÜNCƏ** – köhnəlmiş siyasi baxışlar, siyasi fəaliyyət stereotiplərini aşmağa qadir olan və müasir zəmanənin müasir tələblər üzərində qurulmuş obyektiv sosial-siyasi reallığı dərk edən, fundamental dəyişikli siyasi düşüncə. Bəşəriyyətin inkişaf prosesi çox zəngin və ziddiyyətli yol keçmişdir və hər dövrə uyğun, özünə məxsus siyasi konsepsiyalarını ərsəyə gətirmişdir. Daha qədimdən orta əsrlərə qədər işğalçı, talançı müharibələr sərt rejimli hökmranlıq siyasi düşüncənin ana xəttini təşkil edirdi; orta əsrlərdən XX əsrin ortalarına qədər kolonializm (müstəmləkəçilik) siyasi düşüncəni formalaşdırırdı. Bu dövr üçün kapital yığımı və merkontelizm anlayışı səciyyəvidir; XX əsrin ortalarından başlayaraq aşkar kolonializm öz mövqelərini neokolonializmlə əvəz edilir və "insan hüquqları" anlayışı özünün ilk cücərtilərini verir. Yeri gəlmişkən, dini təriqətlərin meydana gəlməsi siyasi düşüncəyə tarixi boyunca müstəsna təsir göstərmişdir. Müasir dövrünün siyasi düşüncəsinə gəldikdə isə o (Y.S.D.), humanizm üzərində qurulur və insanın, onun hüquqların prioritet (ümdə) hesab edir, insanı bəşəriyyətin ali dəyəri kimi qəbul edir, siyasi vasitə kimi müharibəni və digər zorakılıqları qəti suratd inkar edir, insanlara, xalqlara öz inkişaf istiqamətini, həyat tərzini, siyasətini, ictimai quruluşunu öz xoşu ilə seçmək imkanını



tərənnüm edir, siyasi fəaliyyətdə nəinki öz maraqlarını qorumaq, üstəlik digər tərəflərin maraqlarına riayət etməyin vacibliyini irəli sürür. Müasir dövrün inteqrasiya prosesləri Y.S.D.-yə mütləq təsir göstərir.

**YERİN TƏKİ REJİMİ** – beynəlxalq hüququn institutu; beynəlxalq və milli yeraltı məkanlarından istifadə etməsini nizamlayan hüquq prinsipləri və normaları sistemi. "Beynəlxalq Yerin təki" dedikdə, heç bir dövlətə mənsub olmayan, neytral yerin təki zonaları başa düşülür. "Mili Yerin təki" dedikdə isə, yer kürəsi mərkəzi nöqtəsi istiqamə-tindən başlayan, dövlətin bütün quru və su ərazilərinin sərhəd xətti boyunca uzanan şaquli düz səth daxilindəki, həmin dövlətin suverenliyi və yurisdiksiyası yayılan yeraltı zonalar başa düşülür, onlardan istifadə qaydalarını ekoloji tələbləri nəzərə almaqla dövlət özü həll edir, beynəlxalq istifadəsi isə məxsusi beynəlxalq razılaşmalar ilə nizamlanır. Y.T.R.-nə yalnız təbii obyektlər – tam süxurlar, maye və qaz şəklində olan süxurlar və süxurlar arasındakı təbii boşluqlar aiddir. Yerin təki haqqında qanunvericiliyin vəzifəsi aşağıdakılardır: cəmiyyətin (dövlətin) mineral xammala olan tələbatını və başqa ehtiyaclarını ödəmək üçün yerin təkindən səmərəli istifadəni və yerin təkinin mühafizəsini təmin etmək, yerin təkindən istifadə zamanı görülən işlərin təhlükəsizliyini təmin emək məqsədi ilə mədən münasibətlərini tənzimləmək, habelə bu sahədə idarə, müəssisə, təşkilatlrın və vətəndaşların hüquqlarını qorumaq və s.

**YERLİ ƏMƏKDAŞLAR** - diplomatik nümayəndəliyin inzibati (işçi) heyətinin və katibliyin bir hissəsi kimi, məxfi səciyyə daşımayan tapşırıqların yerinə yetirilməsinə cəlb olunan (missiyanın yerləşdiyi) yerli ərazi sakinləri (və ya vətəndaşları). Onların işi xidmət müddətlərinin uzunmüddətliliyi və yerli ənənələrə, siyasi həyata, eləcə də siyasi xidmətlərə bələd olmaları və s. səbəblərindən – çox böyük əhəmiyyətə malik ola bilərlər. Y.Ə. (mütəxəssislər) əsasən ticarət, konsul və informasiya şöbəsində, eləcə də tərcüməçi qismində işə cəlb olunurlar.

**YETƏRSAY** – müvafiq hüquqi aktla, tam səlahiyyətli hesab etmək üçün yığıncağın (məclis, konfrans, qurultay) iştirakçılarının sayının müəyyənləşdirilmiş minimum həddi (*kvorum*); müvafiq hüquqi aktla, qəbul olunan aktların tam legitim hesab etmək üçün səsverənlərin sayının müəyyənləşdirilmiş minimum həddi (kvota).

**YEVGENİKA** (yunan eugenẽs-yaxşı (sağlam) cins) – irsiyyət və insan genetikası qanunları haqqında təlim; insan nəslin bioloji yolla yaxşılaşdır-maq haqqında nəzəriyyə. Nəzəriyyə sosial bərabərsizliyin mövcudluğunu insanların psixi və fizioloji cəhətdən qeyri-bərabər qiymətə malikliyi ilə izah edir və adamların "yeni cinsin" alınması vəzifəsini irəli sürür. İnsan orqanizminin irsiyyət və dəyişkənlilik əlamətlərini öyrənən elm müəyyən etdi ki, insanların müxtəlifliyi onların irsiyyəti, yaşama şəraiti (təbii iqlim, ictimai-iqtisadi və s.) o cümlədən mühit amilləri (tərbiyə, təhsil, əmək, kollektiv və s.) ilə əlaqədardır.

"Y" terminini ilk dəfə ingilis bioloqu F.Qalton (1869) irəli sürmüşdür. Əslində insanpərvər mahiyyət daşıyan bu təlimdən sonralar irqçilər mürtəce məqsədlə istifadə etmiş, bəzi xalqların (irqlərin) inkişaf səviyyəsinə görə geri qaldıqlarını əsaslandırmağa çalışmışlar. Nəhayət, faşizm öz siyasi məqsədinə uyğun olaraq Y.-nı irqi gigiyena ilə əvəz edib, onu genosid adlandırırdı.

**YUDOFOBÇULUQ** (*yəhudi* və yunan phóbos-qorxu) – bax *antisemitizm*.

**YUNESKO** (ingilis *UNESCO; United Nations Educational, Scientific and Cultural Organization* – BMT-nin maarif, elm və mədəniyyət məsələləri üzrə təşkilatı) – BMT nəzdində maarif, elm və mədəniyyət məsələləri üzrə ixtisaslaşdırılmış hökumətlərarası təşkilat. 16 noyabr 1945-ci il London (Böyük Britaniya) şəhərində keçirilmiş Təsisat Konfransında yaradılmışdır və Nizamnaməsi qəbul olunmuşdur, hansı ki, onun fəaliyyətinin siyasi və hüquqi əsaslarını təşkil etmişdir və 1946-cı ildə rəsmi fəaliyyətə başlamışdır. Ali orqanı – YUNESKO-nun siyasətini və proqramını tərtib edib-hazırlayan, iki ildən bir çağrılan - Baş Konfransdır. Ali orqanı (Baş Konfransı) – İcrayyə Şurasını və Baş direktoru (6 illik müddətə) seçir. Ali orqanı (Baş Konfransı) sessiyyaları arasında YUNESKO-nun fəaliyyəti üzərində idarəçiliy və nəzarəti icraiyyə şurası həyata keçirir, hansı ki, bir ildə azı iki dəfə iclas keçirir. YUNESKO-nun əsas vəzifəli şəxsi – Baş direktoru bilavasitə YUNESKO-nun Katibliyinə başçılıq edir. Mənzil-qərərgahı – Paris (Fransa) şəhərində yerləşir. YUNESKO-nun onlarla nəşri müxtəlif dillərdə çap edilir.

YUNESKO-nun fəaliyyətinin əsas məqsədi onun nizamnaməsinin 1-ci maddəsində müəyyən-ləşdirlmişdir: "BMT Nizamnaməsi ilə bütün xalqlar üçün irqindən, dilindən və ya dinindən asılı olmayaraq bəyan edilmiş ümumi hörmət, ədalət, qanunçuluq, insan hüquqları və əsas azadlıqlarını təmin edilməsi naminə, maarif, elm və mədəniyyət sahəsində xalqların əməkdaşlığını genişləndiril-məsi vasitəsilə sülhün və təhlükəsizliyin bərkidilməsinə kömək etmək." Bununla yanaşı, YUNESKO-da sürətlə silahlanmanın dayandırılması və tərksilah keçirilməsi, diskriminasiyanı (ayrıseçkiliyin) ləğv edilməsi, kütləvi informasiya vasitələrində (KİV) müharbələrin qızışdırılmasına yol verilməməsi və s. məsələlər üzrə təşkilatın səylərini artırmaq haqqında müvafiq qətnamələr qəbul edilmişdir. Bundan savayı YUNESKO görkəmli ədiblərin beynəlxalq miqyasda yubileylərin qeyd edilməsi ilə (misal: 1973-cü ildə

Nəsiminin anadan olmasının 600 illiyi) nəzərə çarpmışdır.

**YUNİSEF** (ingilis abreviaturası *United Nations Childrens Fond – UNİCEF*) - bütün dünya uşaqlarının sosial təminatına və yardımına imkan yaradan təşkilat (fond). Fond səhiyyə, qidalanma, ailə və uşaq firavanlığı, təhsil və sənət öyrətmə sahələrindəki xüsusi layihələrə dəstək verir; ana və uşaq mərkəzləri üçün zəruri avadanlıqları təqdim edir, təlimlərin haqqını ödəyir və xidməti həyətin ancaq haqqını ödəyir; epidemiyalar əleyhinə kompaniyalar həyata keçirir; keyfiyyətli məhsulların istehsalına və istehlakına yardım göstərir; inkişaf etməkdə olan ölkələrdə təbii fəlakətlərdən (subasmalar (sellər), zəlzələlər, quraqlıqlar və s.) əziyyət çəkən uşaqlar üçün əsas sosial xidmətlərə yardım göstərir. YUNİSEF-in fəaliyyəti hökumətlərin və fərdi şəxslərin ianələri hesabına maliyyələşdirilir.

BMT Baş Katibi – otuz bir üzvdən ibarət olan və hər il çağırılan idarə heyəti ilə məsləhətləşmədən sonra – idarə başçısını təyin edir. Fond – Nyu York (ABŞ) şəhərində, BMT katibliyində yerləşir; bir sıra şəhərlərdə (ölkələrdə) nümayəndəlikləri mövcuddur.

**YURİSDİKSİYA** (latın *jurisdictio*-məhkəmə üsulu mühakimə icraatı, *jus*-hüquq və *dico*-deyirəm sözlərindən) – 1. aidiyyət; tabelik; 2. səlahiyyət (səlahiyyət məcmusu, həddi); 3. mühakimə hüququ. *Dövlətin Y.*-sı - dövlətin bu və ya digər faktlara hüquqi qiymət vermək, hüquqi mübahisələri, hüquqi məsələni həll etmək səlahiyyətidir. *Məhkəmə Y.*-sı – baxılan işin növündən və xarakterindən (mülki, inzibati, cinayət işi və onun ağırlığında), ərazi aidiyyatından; işdə iştirak edən şəxslərin statusundan (Ali hakimiyyət orqanların səlahiyyət mübahisələrinə - Konstitusiya Məhkəməsində baxılması; hərbi qulluqçuların işlərinə - Hərbi Tribunalarda baxılması və s.); baxılan mübhisələrin ixtisasından (ixtisaslaşdırılmış məhkəmələr), cəza təyin etmə slahiyyətindən (Yerli Məhkəmələr və Ağır cinayətlərə dair Məhkəmələr) – asılı olaraq müəyyən edilir.

**YÜKSƏK SƏVİYYƏLİ GÖRÜŞ** – dövlət və ya hökumət başçıları arasında ikitərəfli, çoxtərəfli (bəzi hallarda qitənin və ya dünyanın bütün (əksər) dövlətlərinin başçıları arasında) mühüm əhəmiyyətli beynəlxalq məsələlərin müzakirəsinə (həllinə) yönəlmiş, yüksək səviyyədə təşkil olunan, ümum-bəşəri beynəlxalq münasibətlər praktikasında qəbul olunmuş siyasi kontaktların vacib forması. Y.S.G.-lərdə mühüm əhəmiyyətli, aktual beynəlxalq məsələlərə (problemlərə) dair və yaxud iki və ya çoxtərəfli münasibətlərinin istiqaməti və inkişafına dair tərəflər arasında fikir mübadiləsi aparılır, vahid mövqe hasil olunur (bəzi hallarda bu olmaya da bilər) və mövqelər aydınlaşır. Y.S.G.-lərin predmeti qismində siyasi, iqtisadi, hərbi və s. məsələlər çıxı edə bilər. Y.S.G.-lərin keçirilməsinə qədər tərəflərin nümayəndələri arasında böyük hazırlıq işi aparılır.

# Z

---

**ZADƏGANLIQ** - bax *aristokratiya.*

**ZƏBT** (rus analoqu *завоевание*, ingilis analoqu *conquest*) - 1) hərbi işğal fəaliyyət prosesi və nəticəsi (bax – *işğal*); 2) (məcazi) mürəkkəb yollarla əldəolunmanı, əldəedilməni, nail olunmanı, izah edən obrazlı xarakteristika. Misal: hakimiyyətin, vəzifənin Z.-i – a) mürəkkəb mübarizədə, çətin rəqabətdə hakimiyyətə, vəzifəyə nailolma; b) bütün hakimiyyətin (bütün məsul vəzifələrin) – bir (qrup) şəxsə tabe etdirilməsi; 3) insan hüquqlarının Z.-i – vahid siyasi subyekt (bir qayda olaraq, qeyri-demokratik rejim) tərəfindən insan hüquqlarının (və azadlıqlarının) kobudluqla, kütləvi şəkildə pozulmasını izah edən obrazlı xarakteristika.**ZOR İŞLƏTMƏMƏ PRİNSİPİ** - (hücum etməmə prinsipi) – müasir beynəlxalq hüququn əsas prinsiplərindən biri; dövlətlərarası münasibətlərdə zorkılığın və ya zorakılıqla hədələməyin qadağan edilməsi prinsipi. Milli siyasət vasitəsi kimi müharibəni qadağan edən ilk çoxtərəli müqavilə 1928-ci il 27 avqust tarixli Paris müqaviləsi omuşdur (Kelloq-Brian paktı). Təcavzkar müharibənin qadağan edilməsi ilə yanaşı, beynəlxalq münasibətlərdə zorakılığı və zorakılıqla hədələməyi qadağan edən BMT Nizamnaməsini (maddə 2, bənd 4) qəbul edilməsi, hücum etməmə prinsipinin inkişafında mühüm mərhələ oldu. BMT tərəfindən qəbul edilmiş beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamə (1970) başqa dövlətin beynəlxalq sərhədlərini pozmaq məqsədilə, yaxud beynəlxalq münasibətlərin (o cümlədən, ərazi məsələlərinin və dövlət sərhədlərinə aid məsələlərin) həllində dövlətləri zorakılıqla hədələməkdən, yaxud zorakılıqdan çəkinməsi vəzifəsini də Z.İ.P. anlayışına daxil etmişdir. Bəyannaməyə uyğun olaraq hər bir dövlət beynəlxalq demorkasiya xətlərini (misal üçün: barışıq xətlərini) pozmaq üşün zorakılıqla hədələməkdən və yaxud zorakılıqdan, zorakılıqla əlaqədar repressaliya aktlarından, xalqları öz müqəddəratını həll etmək hüququndan məhrum edən zorakılıq hərəkətlərindən, başqa dövlətin ərazisinə



hücum üçün qeyri-nizami qüvvələrin və ya silahlı bandaların (o cümlədən: muzdlu dəstələrin) təşkilindən, yaxud təşkilinə təhrik etməkdən əl çəkməlidir. Dövlətin ərazisi hərbi işğal obyekti və ya BMT Nizamnaməsinə zidd olaraq zorakılıqla əldə edilən obyekt olmamalıdır. Bəyannamədə "zorakılıq" dedikdə nəinki silahlı zorakılıq, həm də siyasi, iqtisadi və s. məcburiyyət formaları başa düşülür. Z.İ.P. Avropada təhlükəsiz-liyə və əməkdaşlığa dair müşavirənin Yekun aktında (Helsinki 1957) bir daha möhkəmlən-dirilmişdir. Bundan savayı, dövlətlər öz Konstitu-siyalarına Z.İ.P. müddəalarını daxil edirlər.

**ZORAKILIQ** – iqtisadi və sosial-siyasi hökmranlığa nail olmaq və ya onu əldə saxlamaq, müəyyən hüquq, yaxud imtiyazlar qazanmaq məqsədilə hər hansı bir (siyasi) subyektin (fərdin, bir qrup insanın, təşkilatın, sosial təbəqənin, xalqın, dövlətin və ya dövlətlər qrupun) – digər subyektə qarşı mövcud qanunvericiliyi (o cümlədən, beynəlxalq qanunvericiliyi) pozmaqla müxtəlif məcburiyyət formaları tətbiq etməsi. Z.-ın iki növü (fiziki və psixi) mövcuddur. Xəsarət yetirmə, işgəncə vermə, (beynəlxalq miqyasda) işğal, etnik təmizləmə, soyqırım və s. fiziki Z. növünə aiddirlər. Psixi Z. – mürəkkəb anlayışdır, bura: hədə-qorxu gəlmə, rüsvay və təhqir etmə, şantaj və digər şəxsiyyəti alçaldıcı hərəkətlərlə baş verir. Psixi Z. son nəticədə, ruhi xəstəliyə və daha ağır aqibətlərə səbəb ola bilər. Tamah məqsədilə törədilən Z.-da - müəyyən hüquqi məsuliyyətə səbəb olur, bununla yanaşı özünümüdafiə, qeyri-qanuni hərəkətlərə qarşı müqavimət (müəyyən normalar çərçivəsini aşmamaq şərtilə) – Z. hesab edilmir.

**ZORAKILIQ NƏZƏRİYYƏSİ** – fəlsəfi (idealist) nəzəriyyə; bu nəzəriyyəyə görə ictimai bərabərsizliyi müəyyən adamların digər adamlar üzərində zorakılığı doğurmuşdur. Y.Düring siniflərin meydana gəlməsini cəmiyyətin müəyyən hissəsinin digər hissəsi üzərində zorakılığı ilə əlaqələndirmişdir (daxili zorakılıq); Avstriya sosioloqu L.Qumploviçə, həmçinin K.Kautskiyə və başqalarına görə güclü tayfa tərəfindən daha zəif tayfaya zülm edilməsi (xarici zorakılıq) siniflərin, dövlətin meydana gəlməsinin həlledici səbəbi olmuşdur.

## ƏDƏBİYYAT


1. Азәрбајчан Совет Енсиклопедијасы (АСЕ – Х том).
2. Краткий политический словарь. – Москва: Политиздад, 1988.- 478с.
3. Краткий политологический словарь. - Киев: РАПО «Укрвузполитиздат», 1992. - 104с.
4. Политология: Словарь – справочник. - Москва: Гардарики, 2000. -328с.
5. Politologiya. İzahlı lüğət. – Bakı: "Şərq-Qərb", 2007. -352 səh.
6. Краткий Политический словарь. Москва (Коллектив авторов)- Политиздат.- 1983.
7. Халипов В.Ф. Энциклопедия власти – М.: Академический Проект: Культура, 2005.- 1056 с.
8. «Политический словарь» профессор Б.Н.Пономарев. Москва: Политическая литература, 1958.- 700 стр.
9. Məmmədov Adış. "Diplomatik lüğət". Bakı: QAPP-POLİQRAF, 2001.- 366 s.
10. Palf Corc Felthem, tərcümə redaktoru A.Qırxıyev; tərcümə: Ə.Əliyev: V.Rzayev "Diplomatın stolüstü kitabı" Bakı: Çıraq, 2008.- Səh. 284.
11. А.А.Громыко и редакционная коллегия «Дипломатический словарь» III тома. Москва: Издательство политическая литература (Политиздат).
12. Мелник В.А. «Современный словарь по политологии».- Минск: Книжный дом, 2004.- 640 стр.
13. Щцгуг енсиклопедик лцьәти.– Бакы: Азәрбајъан Енсиклопедијасынын Баш редаксијасы, 1991.- 544 səh.
14. Фялсяфя енсиклопедик лцьәти.– Бакы: «Азәрбајъан Енсиклопедијасы» Нәшријјат – Полиграфија Бирлији, 1997.- 520 səh.
15. Маркетинг: Толковый терминологический словарь – справочник. – Москва: «Инфоконт» СП «Медсервис Интернешнл», 1991.-224с.